# NƏFSİN SAFLAŞDIRILMASI

**MÜƏLLİF: AYƏTULLAH İBRAHİM ƏMİNİ**
**TƏRCÜMƏ EDƏN: MƏHƏMMƏD TURAN**

بسم الله الرحمن الرحیم


**نام کتاب:.......................................................خودسازی**
**مولف:...........................................آیت... ابراهیم امینی**
**مترجم:.....................................................محمد توران**
**ناشر:...........................................................شهریار.**
**تاریخ چاپ:...................................................1385**
**نوبت چاپ:........................................................دوم**
**تیراژ:..............................................................2000**

**Kitabın adı:.............“Nəfsin saflaşdırılması”**
**Müəllif:.......................Ayətullah İbrahim Əmini**
**Mütərcim:.......................................Məhəmməd Turan**
**Nəşr edən:....................................................Şəhriyar**
**Çap növbəsi:...................................................İkinci**
**Çap tarixi:.........................................................2006**
**Tiraj:...................................................................2000**

**964-5934-41-9**

## *BIR MÜHÜM MƏSƏLƏNIN XATIRLADILMASI*

Bu elmi bəhsə başlamazdan əvvəl mühüm bir məsələni xatırlatmaq yerinə düşərdi: Nəfsin paklaşdırılması bir tərəfə çəkilib guşənişin həyat tərzi keçirtmək, dünyəvi işləri tərk etmək və ictimai məs'uliyyətlərdən boyun qaçırmaq demək deyildir. Əksinə, kitabın müxtəlif yerlərində də bəyan olunacağı kimi, fərdi və ictimai məs'uliyyətlərdən imtina edib guşənişinlik və fərdi həyat tərzini seçmək nəfsin saflaşdırılması və təkmilləşdirilməsi ilə zidd bir işdir. İslam dini müsəlmanlardan cəmiyyət arasında yaşayıb fərdi və ictimai vəzifələrlə məşğul olmaqla eyni zamanda özlərindən qafil olmamalarını, xüsusilə, nəfslərini və ruhlarını aludəliklərdən, rəzil sifətlərdən təmizləməyə tam diqqət yetirmələrini istəmişdir.

**İbrahim Əmini, 1983-cü il, (Hicri-şəmsi)**

# PEYĞƏMBƏRLƏRİN ƏSAS HƏDƏFİ NƏFSİN SAFLAŞDIRILMASIDIR

Peyğəmbərlərin ən böyük və əsas hədəfi insanların nəfslərini aludəliklərdən, rəzil sifətlərdən saflaşdırıb onların ruhuna pərvəriş verməkdir. Allah-təala Qur’ani-Kərimdə buyurub: **“Allah mö’minlərə minnət qoyaraq onların arasından özlərindən olan bir peyğəmbər seçdi ki, Allahın ayələrini onlara oxusun, onların nəfslərini (aludəliklərdən və rəzil sifətlərdən) saflaşdırsın, onlara kitab və hikmət öyrətsin. Halbuki, əvvəllər onlar azğınlıqda idilər.”**[1]

Tə’lim və tərbiyə məsələsi o qədər mühüm bir işdir ki, bu peyğəmbərlərin göndərilməsinin əsas hədəfi olmuş və mütəal Allah da bu barədə Öz bəndələrinə minnət qoymuşdur. İnsanın fərdi və ictimai şəxsiyyəti, dünyadakı və ya axirətdəki səadəti, yaxud, xoşbəxtliyi öz şəxsiyyətini necə formalaşdırmasına bağlıdır. Məhz buna görə də insan üçün nəfsin, ruhun saflaşdırılması onun müqəddəratını həll edən bir məsələ hesab olunur. Peyğəmbərlər məhz buna görə göndərilmişlər ki, nəfsin təmizlənməsi, pərvəriş edilib təkmilləşdirilməsini insanlara öyrətsinlər, bu həyati işdə insanların köməkçisi olub onlara düzgün yol göstərsinlər. Peyğəmbərlər insanların nəfslərini çirkin xüsusiyyətlərdən, heyvani sifətlərdən paklaşdırmaq, onlarda gözəl əxlaqi fəzilətləri və insani keyfiyyətləri gücləndirmək üçün göndərilmişlər. Peyğəmbərlər insanlara nəfsin saflaşdırılması dərsini vermək, üzdəniraq əxlaqı tanıtmaq, nəfsani istəkləri və meylləri cilovlamaq yolunda kömək etmək, onları ilahi əzabdan qorxutmaqla nəfslərini pis işlərdən, çirkinliklərdən təmizləmək üçün göndərilmişlər. Peyğəmbərlər gəlmişlər ki, insani keyfiyyətləri və əxlaqi səciyyələri onların nəfslərində pərvəriş versinlər, çiçəkləndirsinlər, yaxşı işlərə təşviq etməklə, rəğbətləndirməklə onlara köməkçi olsunlar.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurmuşdur: **“Sizi gözəl əxlaqlara tövsiyə edirəm. Allah məni həmin məqsədlə göndərmişdir.”**[2]

Başqa bir hədisdə buyurur: **“Mən gözəl əxlaqı**

---

[1] “Ali-İmran” surəsi, ayə 164

[2] “Biharul-ənvar”, 69-cu cild, səh.375

**tamamlamaqdan ötrü göndərilmişəm.”**[1]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Mütəal Allah Öz Peyğəmbərini gözəl xüsusiyyətlər üçün seçdi. Deməli hər kəs özündə gözəl əxlaqın olduğunu görsə, gərək bu böyük ne’mət üçün Allaha həmd etsin. Hər kəs öz nəfsinin gözəl əxlaqdan məhrum olduğunu görsə, Allah dərgahında yalvarıb raz-niyaz etsin və Ondan gözəl xüsusiyyətlər istəsin.”**[2]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurub: **“Əgər behiştə ümidvar olmamağımızı və cəhənnəm odundan qorxmamağımızı, savaba və əzaba əqidəli olmadığımızı fərz etsəydik belə, yenə də gözəl əxlaqın axtarışında olmağımız təqdirəlayiq bir iş olardı. Çünki gözəl əxlaq qələbə və səadət yoludur.”**[3]

İmam Məhəmməd Baqir (ə) buyurub: **“Mö”minlərin iman cəhətindən ən kamili o kəsdir ki, onun əxlaqı gözəl olsun.”**[4]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurmuşdur: **“Qiyamətdə əməl dəftərinə gözəl əxlaqdan da fəzilətli bir şey qoyulmaz.”**[5]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) başqa bir hədisdə buyurur: **“Mənim ümmətimin behiştə daxil olmasına ən çox səbəb olacaq şey ilahi təqva və gözəl əxlaqdır.”**[6]

Bir nəfər Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) yanına gəlib dedi: “Ey Allahın Rəsulu, din nədir?” Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurdu: “Gözəl əxlaq.” O kişi gedib Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) sağ tərəfindən qayıtdı və soruşdu: “Din nədir?” Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurdu: “Gözəl əxlaq.” Yenidən gedib onun sol tərəfində durdu və dedi: “Din nədir?” Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurdu: “Gözəl əxlaq.” Sonra onun arxasında dayanıb soruşdu: “Din nədir?” Peyğəmbəri-Əkrəm (s.ə.v.v) ona baxıb buyurdu: “Başa düşmürsənmi? Din bundan ibarətdir ki, qəzəblənməyəsən.”[7]

---

[1] “Müstədrəkul-vəsail”, 2-ci cild, səh.282
[2] “Müstədrəkul-vəsail”, 2-ci cild, səh.283
[3] “Müstədrəkul-vəsail”, 3-cü cild, səh.383
[4] “Kafi”, 2-ci cild, səh.99
[5] “Kafi”, 2-ci cild, səh.99
[6] “Kafi”, 2-ci cild, səh.100
[7] “Məhəccətul-beyza”, 5-ci cild, səh.89

İslam dini gözəl əxlaq məsələlərinə xüsusi diqqət yetirmişdir; buna görə də Qur’anda əxlaqa aid olan ayələr əhkama aid olan ayələrdən qat-qat çoxdur. Hətta Qur’an hekayələrində də əxlaq əsas məqsəd olaraq nəzərdə tutulur. Hədis kitablarında minlərlə əxlaqi hədis gözə dəyir ki, sair mövzulardan çox olmasa da az deyildir. Gözəl əxlaq üçün nəzərdə tutulan müjdə və savablar sair əməllər üçün nəzərdə tutulan savablardan heç də az deyildir. Eləcə də çirkin əxlaq barəsində nəzərdə tutulan cəzalar və təhdidlər sair əməllər barəsində edilən təhdidlərdən az deyildir. Deməli, əxlaq məsələsi islamın əsasını təşkil edir və onu dinin ikinci dərəcəli hökmlərindən, sadəcə olaraq, gözəllik və zinətlənmə vasitəsi hesab etmək olmaz. Dini hökmlərdə olduğu kimi, əxlaqda da əmrlər və qadağalar vardır. Din hökmlərində bir əmələ təşviq etmə, savab, yaxud qorxutma və cəza və’dəsi vardırsa, əxlaq məsələlərində də eynilə bu cürdür. Bunların nə kimi fərqi ola bilər?! Deməli biz kamal və səadət axtarırıqsa, əxlaqi məsələlərə qarşı e’tinasız olmamalıyıq. Əxlaqi vacib əməlləri sadəcə olaraq əxlaqi cəhətdən vacib olduqlarına görə tərk eməməli, əxlaqi cəhətdən qadağan olunanların da sadəcə olaraq əxlaq cəhətindən haram olduğunu bəhanə edərək yerinə yetirməməliyik.

Namazın vacib, onun tərk edilməsinin isə haram olub ağır cəzası olduğu kimi, əhdə vəfa etmək də eynilə vacib, əhdə vəfasız çıxmaq isə haramdır və onun cəzası vardır. Bu kimi işlərin arasında heç bir fərq yoxdur. Həqiqi və xoşbəxt dindar o kəsdir ki, həm dini vəzifə və hökmlər qarşısında vəfadar olsun, həm də əxlaqi məsələlərə diqqət yetirsin. Hətta əxlaqi məsələlərə diqqət yetirilməsi mə’nəvi-nəfsani kamalda və səadətdə daha artıq əhəmiyyət kəsb edir (bu məsələ sonradan qeyd olunacaqdır).

## *ÖZÜNÜTANIMA VƏ NƏFSİ SAFLAŞDIRMA*

İnsanın yalnız bir həqiqəti var. Lakin o müxtəlif cəhətlərə və yönlərə malikdir. İnsanın vücudu idraksız və şüursuz torpaq maddəsindən başlanır, mələkuti mücərrəd bir cövhərlə sona çatır. Allah-təala Qur’ani-Kərimdə buyurur: **“O Allah ki, hər bir şeyi yaxşı yaratdı, Özü də insanın yaradılışını torpaqdan başladı. Sonra onun nəslini dəyərsiz suyun xülasəsindən (nütfədən) qərar verdi. Sonra onu gözəl və mö”tədil bir halda bəzədi, Özünün (mücərrəd və Ona mənsub olan dəyərli) ruhundan ona**

**üfürdü, sizin üçün qulaq, göz və qəlb qərar verdi. Yenə də siz Allahı çox az zikr edirsiniz!”**[1]

İnsanın vücud baxımından müxtəlif dərəcə, cəhət və mərtəbələri vardır. O, bir tərəfdən təbii bir cisimdir və onun xassələrinə (tə’sirlərinə) malikdir. Digər tərəfdən inkişaf etməkdə olan cism olub onun xassələrini daşıyır. Həm də (canlı) olub canlıların xassələrinə malikdir və nəhayət o, bir insandır və onun da heyvanlarda mövcud olmayan müəyyən əlamət və xassələri vardır.

Deməli, insan bir həqiqətdən ibarətdir. Lakin onun vücud baxımından müxtəlif dərəcə və mərtəbələri vardır. Belə ki, insan “mənim çəkim və formam”, “mənim yeməyim, inkişafım” dedikdə cismin inkişafda olan mərtəbəsindən xəbər verir. “Mənim hərəkət, şəhvət və qəzəbim” dedikdə öz heyvani mərtəbəsindən xəbər verir. “Mənim əqlim, düşüncəm və təfəkkürüm” dedikdə isə özünün ali-insani mərtəbəsini bəyan edir. Beləliklə, insanın müxtəlif “mən” və “öz” ləri vardır: cismani “öz”, nəbati “öz”, heyvani və insani “öz”. Dəyər və əsalət insani “öz” ə məxsusdur. İnsanı insan edən, onu sair canlılardan üstün edən də məhz onun mələkuti, mücərrəd və Allah tərəfindən verilən ruhudur.

Hikmətli Allah Qur’ani-Kərimdə insanın yaradılışını belə vəsf edir: **“Biz insanı palçığın xülasəsindən yaratdıq, sonra onu nütfə halına salaraq möhkəm bir yerdə (atanın sülbündə və ananın bətnində) qərar verdik. Sonra nütfəni laxtalanmış qan, laxtalanmış qanı çeynənmiş ət halına saldıq. O əti sümüyə döndərdik, sonra həmin sümükləri ətlə örtdük. Daha sonra təzədən (mələkuti, mücərrəd ruh verməklə) digər bir xilqət inşa etdik. Yaradanların ən üstünü olan Allahın kamil qüdrətinə afərin!”**[2]

Məhz insanın yaradılışı barəsində Allah-təala buyurur: “Təbarəkəllahu əhsənul-xaliqin.” Məhz bu mələkuti ruh səbəbi ilə insan elə bir yüksək məqama çatır ki, Allah mələklərə ona səcdə etmək əmrini verib buyurur: **“Adəmi yaradıb (Özümə mənsub olan) ruhdan ona üfürdükdə, siz ona tərəf səcdə edin!”**[3]

---

[1] “Mu”minun” surəsi, 12-14-cü ayələr

[2] “Mö”minun” surəsi, ayə 12-14

[3] “Hicr” surəsi, ayə:29

İnsan Allah tərəfindən ehtirama layiq görülür və onun barəsində **“Biz Adəm övladlarını əzizlədik, onları quruluqların və dəryaların miniyinə mindirdik, hər bir ləzzətli və pakizə yeməklərdən onlara ruzi verdik və onu məxluqatın çoxundan üstün etdik.”**[1] Bu yüksək məqam da məhz onun mələkuti ruhuna görədir.

Deməli, insan öz nəfsini saflaşdırmaq və həqiqi insan olmaq istəyirsə, onda heyvani və cismani “öz” ünü yox, insani “öz” ünü pərvəriş etməlidir. Peyğəmbərlərin hədəfi də bu olmuşdur ki, insana onun insani yönünün qurulmasında və inkişaf etdirilməsində kömək etsin. Peyğəmbərlər insanlara buyurmuşlar ki, özünüzün insani “özünü” unutmayın, əgər insani özlüyünüzü heyvani istəklərinizə qurban versəniz, sizə çox böyük bir ziyan üz verəcəkdir.

Qur’anda buyurulur: **“Ey Peyğəmbər, onlara de: “Ziyankar o kəslərdir ki, nəfslərini (insani nəfslərini) və öz əhli-əyalını qiyamətdə əldən vermiş olsunlar və aşkar ziyankarlıq da məhz budur.””**[2]

Heyvani həyatdan başqa bir şey düşünməyənlər həqiqətdə öz insani şəxsiyyətlərini itirmişlər və onu axtarmaq fikrində deyillər.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurub: **“O kəsə təəccüb edirəm ki, itirdiyi şeyi axtarmaq üçün çalışır, halbuki özünün (insani) nəfsini itirmişdir və onu axtarmaq fikrində deyildir.”**[3]

Bundan da pis və dərdli ziyan ola bilməz ki, insan dünyada özünün həqiqi və insani şəxsiyyətini uduzub əldən versin. Belə şəxslər üçün heyvanlıqdan başqa bir şey qalmayacaqdır.

## *İNSANİ RUH VƏ HEYVANİ NƏFS*

İnsan nəfsi barəsində nazil olan ayələr və nəql olunan rəvayətlər iki qismə bölünür. Bunlardan bir qismi nəfsi çox dəyərli, mələkuti, şərafətli və mücərrəd aləmdən gələn, bütün insani dəyər və səciyyələrdən də fəzilətli olan bir gövhər kimi vəsf edir. Bu növ ayə və rəvayətlərdə insana onun qorunub saxlanmasında, qüvvətləndirilib pərvəriş verilməsində ciddi cəhdlə çalışması, belə

[1] “İsra” surəsi ayə:70

[2] “Zumər” surəsi, ayə:15

[3] “Ğürərul-hikəm”, səh.495

bir dəyərli gövhərin əldən verilməsi nəticəsində ziyan görülməməsi üçün sə'y göstərməsi tövsiyə olunur. Misal üçün Qur'anda buyurulur: **"Ey Məhəmməd! Səndən ruhun həqiqəti barəsində soruşurlar. Cavabında de: "Ruh mənim Pərvərdigarımın əmrindəndir (Onun əmri ilə yaradılmışdır) və sizə (bu barədə) yalnız cüz'i (az) bir bilik verilmişdir."**[1]

Bu aləmdə ruh əmr (təcərrüd) aləmindən – maddi aləmin fövqündə dayanan bir aləmdən gələn varlıq ünvanı ilə vəsf edilir.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) nəfs barəsində buyurur: **"Nəfs çox bir qiymətli gövhərdir, hər kəs onu qoruyub saxlasa onu çox yüksək məqama çatdırar, hər kəs onu saxlamaqda səhlənkarlıq etsə, onu alçaqlığa çəkəcəkdir."**[2]

Başqa bir hədisdə buyurur: **"Hər kəs öz nəfsinin qədir-qiymətini dərk etsə, onu fani və ötəri işlər görməklə alçaqlığa çəkməz."**[3]

Başqa bir hədisdə isə belə buyurur: **"Hər kəs öz nəfsinin şərafətini anlasa, onu şəhvətlərin və batil arzuların alçaqlığından qoruyar."**[4]

Yenə buyurur: **"Hər kəsin nəfsi şərafətli olsa onun atifələri və insani duyğuları çox olacaqdır."**[5]

Yenə buyurur: **"Hər kəsin nəfsi şərafətli olsa, onu (başqalarından bir şey) istəmək zillətindən uzaq saxlayar."**[6]

Bu kimi bir çox ayə və rəvayətlərdən mə'lum olur ki, insanın nəfsi çox dəyərli və qiymətli bir gövhərdir. Hər bir kəs onun qorunub saxlanmasında və pərvəriş verilməsində çalışmalıdır.

İkinci qismdən olan ayə və rəvayətlərdə nəfs çox şər, insanın düşməni və bütün pisliklərin mənşəyi kimi təqdim edilir və onunla mübarizə aparıb onu məğlub etmək tövsiyə olunur. Əks halda bu insanın bədbəxtliyinə səbəb olacaqdır. Misal üçün, Qur'anda buyurulur: **"Amma hər kəs öz Rəbbinin məqamından qorxsa və**

---

[1] "İsra" surəsi, ayə:85
[2] "Ğürərül-hikəm", səh.226
[3] "Ğürərül-hikəm",səh.669
[4] "Ğürərül-hikəm",səh.710
[5] "Ğürərül-hikəm", səh.638
[6] "Ğürərül-hikəm", səh.669

**nəfsini onun istəklərindən saxlasa behişt onun yeri olacaqdır.**[1]

Qur'anda Həzrət Yusifin (ə) dilindən belə deyilir: **"Mən öz nəfsimə bəraət qazandırmıram. Çünki nəfs həmişə insanı pisliklərə əmr edir. Yalnız Allahın rəhm etdiyi kəslərdən başqa."**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurub: **"Sənin ən böyük düşmənin iki böyrün arasında yerləşən nəfsindir."**[3]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Nəfs həmişə insanı pisliklərə doğru əmr (sövq) edir. Hər kəs ona arxayın olsa nəfs ona xəyanət edər, hər kəs ona e'timad etsə nəfs onu həlak edər, hər kəs ondan razı olsa nəfs onu daxil olunan yerlərin ən pisinə daxil edər."**[4]

Həzrəti Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) başqa bir hədisdə buyurur: **"Öz nəfsinə xatircəm olmaq şeytan üçün ən möhkəm fürsətlərindəndir."**[5]

İmam Səccad (ə) belə deyir: **"Pərvərdigara! Sənə şikayət edirəm həmişə pisliklərə göstəriş verən, günah və xətalara üz gətirən, günahı sevən, özünü Sənin qəzəbin qarşısında qərar verən və məni günahlara və fəlakət yollarına çəkən nəfsin əlindən!"**[6]

Bu kimi ayə və rəvayətlərdən mə'lum olur ki, nəfs çox pis və şər varlıq və bütün pisliklərin mənşəyidir, onunla mübarizə aparıb məğlub etmək lazımdır.

Bə'ziləri belə təsəvvür edə bilər ki, yuxarıda qeyd olunan iki dəstə rəvayətlərin arasında ziddiyyət vardır. Yaxud belə fikirləşə bilər ki, insanın iki nəfsi vardır; biri bütün yaxşılıqların mənşəyi olan insani nəfs, digəri isə bütün pisliklərin mənşəyi olan heyvani nəfs. Halbuki, bu iki təsəvvürün hər ikisi səhvdir. Çünki **əvvəla,** ayə və rəvayətlərin arasında heç bir ziddiyyət yoxdur. **İkincisi,** isbat olunmuşdur ki, insanın birdən artıq həqiqəti yoxdur. Onun

---

[1] "Naziat" surəsi ayə:41

[2] "Yusif" surəsi, ayə:53

[3] "Biharul-ənvar", 70-ci cild, səh.64

[4] "Ğürərül-hikəm", səh.226

[5] "Ğürərul-hikəm" səh.54

[6] "Biharul-ənvar", 94-cü cild, səh.143

yalnız bir nəfsi vardır. Onun insani və heyvani yönlərinin bir-birindən ayrı olması da düzgün deyildir. Lakin insanın nəfsi iki vücudi yönə və mərtəbəyə malikdir. Aşağı mərtəbədə bütün heyvani sifətlərə malik olan bir heyvandır, yüksək mərtəbədə isə ona ilahi ruh üfürüldüyü və mələkut aləmindən gəlmiş olan bir insandır. Nəfsin şərafətli və dəyərli olmasını göstərən, bütün yaxşılıqların mənşəyi hesab edən və onun pərvəriş edilməsinə tövsiyə edən hədislərdə onun yüksək mərtəbəsinə işarə edilir. Amma "nəfs sənin düşmənindir, ona e'timad edərsənsə o səni həlak edər, onunla cihad və mübarizə aparmaq lazımdır" - deyə buyurulan hədislər isə onun alçaq mərtəbəsinə, yə'ni heyvani mərtəbəsinə işarədir. Əgər "öz nəfsini gücləndir və ona pərvəriş ver" deyə buyurulursa məqsəd insani mərtəbəsidir. Amma əgər "onunla mübarizə aparıb məğlub et" deyilirsə, onun heyvani və alçaq mərtəbəsi nəzərdə tutulur.

Bu iki "öz", yaxud iki vücudi mərtəbə arasında daim çəkişmə mövcuddur. Heyvani "öz" insanı həmişə öz meyl və istəklərini tə'min etməyə sövq edir, Allah dərgahına yüksəlib təkamül və tərəqqiyə nail olmaq yollarını insani nəfsin üzünə bağlayır və onu öz ixtiyarına keçirir. Bunun əksinə olaraq insani "öz", yaxud insan vücudunun ali mərtəbəsi həmişə ali-insani kamal mərhələlərini qət etməyə və ilahi dərgaha yaxınlaşmağa çalışır. Bu məqama nail olmaq üçün insan özünün heyvani qərizələri və meyllərini nəzarət altına alıb cilovlamalı, onları öz ixtiyarına keçirtməlidir ki, bu mübarizə səhnəsində bu ikisindən hansı birinin digərinə qələbə çalacağını görsün. Əgər insani və mələkuti "öz" qələbə çalsa insani dəyərlər çiçəklənir, insanı yüksək dəyərli ilahi dərgaha doğru seyr etdirir. Amma əgər heyvani "öz" qələbə çalarsa insan əqlinin çırağı sönür və onu azğınlıq vadisinə sürükləyir. Peyğəmbərlər də gəlmişlər ki, belə bir müqəddəs və müqəddəratı həll edən mübarizədə insanlara kömək etsinlər.

## *İNSANİ DƏYƏRLƏR*

İnsan da iki "öz" vardır: Heyvani və insani "öz". İnsanın dəyəri heyvani "öz" ilə yox, onun insani "öz"ü ilə ölçülür. Heyvani "öz" həqiqətdə özününkü və müstəqil deyildir. İnsanın heyvan olmasına, özünün heyvani həyatının tələblərinə diqqət yetirməli olmasına baxmayaraq, bu dünyada heyvan kimi yaşamaq üçün gəlməmişdir.

O, insani həyatının təkmilləşdirmək üçün öz heyvani həyatından istifadə etməlidir.

İnsanın hər iki – heyvani və insani həyatında müxtəlif ehtiyacları vardır və onların mənbəyi də vücudunda qoyulmuşdur. Heyvan olub inkişaf etməli olduğuna görə suya, qidaya, yaşayış məskəninə, paltara və s. ehtiyacı vardır. O, diri qalmaq üçün suya, qidaya ehtiyac duyur, həmin ehtiyacın tə'min olunması üçün ciddi cəhdlə sə'y göstərir. Onun varlığında aclıq, susuzluq, yeməyə, suya olan meyl və ləzzət hissləri qoyulmuşdur. İnsan növünün qalıb davam etməsi üçün onun varlığında cinsi qərizə və həyat yoldaşına olan meyl hissi qoyulmuşdur.

İnsan öz nəslinin qalıb davam etməsini sevir. Öz həyatını davam etdirmək üçün heyvani həyatının tələblərini də ödəməlidir. Yeməyi gördükdə, aclıq hiss edib yemək istədikdə öz-özünə deyir: "Yemək hazırlayıb yeməliyəm. Əgər bu məqsədin həyata keçməsi yolunda müəyyən maneələr olsa onunla mübarizə aparmalıyam." Bu hiss pis bir şey deyildir. Çünki insan öz həyatını davam etdirmək üçün işləməli, yeməli və içməlidir. İslamda nəinki onun qarşısı alınmamış, əksinə bu işə tövsiyə edilmişdir. Lakin bunu da bilmək lazımdır ki, heyvani həyat hədəf deyil, sadəcə bir müqəddimədir. Əsil deyil, ikinci dərəcəlidir. Deməli, əgər bir kəs heyvani həyata üstünlük versə və özünün heyvani meyl və istəklərini tə'min etmək üçün gecə-gündüz ciddiyyətlə çalışsa, öz həyatının hədəfini yemək, içmək, istirahət etmək, geyinmək, şəhvətbazlıq etmək, heyvani qərizələri tə'min etmək qərar versə, belə bir şəxs tam mə'nada azğınlığa düçar olmuşdur. Çünki özünün mələkuti ruhunu və insani əqlini kənara qoymuş və onu "unutqanlıq evində" həbs etmiş olur. Belə bir şəxsi insan hesab etmək olmaz. Belə bir insan, əslində, insan surətində olan bir heyvandır. Onun əqli vardır, lakin öz əqlinə o qədər əhəmiyyət vermir ki, insani səciyyələri, əxlaqi fəzilətləri tanıyıb onun ardınca gedə bilsin. Gözü və qulağı vardır, lakin həqiqətləri görüb eşitmir.

Qur'ani-Kərim belə şəxsləri heyvan, hətta ondan da azğın adlandırır. Çünki heyvanın ağlı yoxdur və dərk eləmir. Lakin belə insanın əql qüvvəsi ola-ola heç bir şeyi başa düşmür.

Qur'anda buyurulur: **"Əgər sənin də'vətini qəbul etməsələr bil ki, onlar öz həvayi-nəfslərinə tabe olurlar. Allahın hidayətini boşlayıb öz həvayi-nəfslərinə tabe olanlardan da azğın bir şəxs**

**ola bilərmi?! Allah zalımları heç vaxt hidayət etməz.”**[1]

Başqa bir ayədə buyurulur: **“Həqiqətən cin və insanlardan çoxunu cəhənnəm üçün yaratmışıq (yə’ni onlar düzgün olmayan seçim əsasında cəhənnəmə gedərlər). Çünki onların qəlbi var, lakin onunla başa düşmürlər, gözləri vardır, lakin onunla görmürlər, qulaqları vardır, amma onunla eşitmirlər. Bunlar heyvanlar kimi, hətta onlardan da azğındılar. Onlar qafil olanlardır.”**[2]

Başqa bir yerdə buyurulur: **“O şəxsi gördünmü ki, elm üzündən (bilə-bilə) öz həvayi-nəfsini öz mə’budu qərar verdi? Allah da onu zəlalətə saldı, qulaqlarına və qəlbinə möhür vurdu, gözlərinə pərdə saldı! Allahdan başqa kim onu hidayət edə bilər?! Nə üçün öyüd-nəsihət (ibrət) almırsınız?”**[3]

Mələkuti nəfsini, insani kamal və səadətini nəfsani istəklərə və heyvani həyata qurban verənlər nə qədər ziyankar və bədbəxtdirlər! Onlar öz insani nəfslərini heyvani ləzzətlərə dəyişmişlər.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“(Əsl) xəsarət görən o kəsdir ki, dünyaya qarışmaqla axirət həyatında olan bəhrəsini əldən versin.”**[4]

Yenə buyurur: **“Öz nəfsini çirkin, yaramaz işlərdən saxla, baxmayaraq ki, o, səni rəğbətli olduğun işlərə çəkir. Çünki öz nəfsindən verdiyin şeylər müqabilində əvəz almırsan. Özünü başqasına qul etmə, halbuki Allah səni azad yaratmışdır. Bir xeyir ki, şərdən başqa bir şey ilə əldə olunmaz, xeyir deyildir. Çətinlikdən başqa şey ilə əldə olunmayan xeyir asan olmaz.”**[5]

Başqa bir yerdə buyurur: **“Necə də pis ticarətdir dünyanı öz nəfsinin dəyəri kimi bilib və onu Allah yolunda olanların əvəzində satmaq.”**[6]

Amma insan “heyvani öz” də xülasələnmir. Onun insani bir “öz” ü də vardır və onun səbəbi ilə müqəddəs aləmdən gələn mücərrəd

---

[1] “Qəsəs” surəsi, ayə:50
[2] “Ə”raf” surəsi, ayə:179
[3] “Casiyə” surəsi, ayə:23
[4] “Ğürərul-hikəm”, 1-ci cild, səh.88
[5] “Nəhcül-bəlağə”, (Sübhi Saleh) səh.9
[6] “Nəhcül bəlağə”, 32 və 75-ci xütbələr

və mələkuti bir gövhər sayılır və heyvani istəklərdən tamamilə başqa olan dəyərləri tələb edir. Əgər insan öz zatına, mələkuti ruhuna baxsa, özünü yaxşı-yaxşı tanısa biləcəkdir ki, qüdrət, kəramət, elm, rəhmət, bəxşiş, nur, ehsan, xeyir və ədalət aləmindən, bir sözlə kamal aləmindən gəlmişdir və həmin aləmlə mütənasibdir.

Burada insanın başqa bir bəsirəti olmalı və digər bir aləmə baxmalıdır. O, Mütləq kamala baxaraq onun dəyərlərinə meyl edir, həmin dəyərlərdən istifadə edərək öz nəfsini heyvaniyyətin aşağı mərhələsindən hərəkət etdirərək kamalın yüksək mərhələlərinə çatdırır və ilahi dərgaha yaxınlaşır.

Məhz burada əxlaqi dəyərlərin yüksək məqamı aydın olur. İnsanın elm, ehsan, xeyirxahlıq, fədakarlıq, ədalət, bəxşiş, məhrumları, zəifləri müdafiə etmək, doğruçuluq, düzgünlük, əmanətdarlıq kimi dəyərləri istəməsinin səbəbi də məhz budur ki, özünün kamal aləmindən gəldiyini bilir. Belə dəyərlərin özünün yüksək insani məqamına mütənasib olduğunu görür. Məhz buna görə də bunları sevir, hətta öz heyvani "özünü" və onun istəklərini bu dəyərlərə çatmaq yolunda qurban verməyə razı olur.

Əxlaqi dəyərlər və insani keyfiyyətlər bir sıra ruhani-mə'nəvi kamallardan ibarətdir ki, insanın mələkuti ruhu onların özünün kamal istəyən ehtiyacları ilə tənasübünü dərk edir və bilir ki, bu işləri görmək lazımdır. Əxlaqi cəhətdən "yerinə yetirilməli"lərin mənşəyi nəfsin şərafət və kəramətindən qaynaqlanır və ruhani kamala, zatın yüksəkliyinə çatmaq üçün istifadə olunur. "Haqq yolunda fədakarlıq etməliyik" deməsinin mə'nası budur ki, fədakarlıq mənim zatımın təkamülə çatması, tərəqqi etməsi üçün faydalıdır və bu yüksəkliyə çatmalıyam. İnsanların mə'nəvi kamallara çatmasının yeganə bir vasitəsi vardır və bütün insanlar dəyərləri və dəyərlərə zidd olan şeyləri tanınmaqda bir-birinə oxşar yaradılmışdır.

İnsan özünün pak və kamal sevən fitrətinə müraciət etdikdə, həvayi-nəfsi kənara qoyub düşünsə həm əxlaqi fəzilətləri və dəyərləri, həm də əxlaqa zidd olan fəzilətləri anlaya bilər. Bu, bütün insanlarda və bütün dövrlərdə belə olmuşdur. Amma insanlardan bə'zilərinin belə müqəddəs bir idrakdan məhrum olmalarının səbəbinə gəldikdə isə, demək lazımdır ki, onların güclü heyvani meylləri və şiddətli həva-həvəsləri ağıllarının nurunu söndürmüşdür və özləri də nəfsin tə'siri altına düşmüşdür. Qur'an

da fəzilətlərin və rəzilətlərin dərk olunmasını insanların fitri bir xüsusiyyəti hesab edərək buyurur: **"And olsun nəfsə və o kəsə ki, nəfsi gözəl yaratdı, azğınlıq və təqva yolunu ona öyrədib ilham etdi. Belə isə hər kəs öz nəfsini saflaşdırıb pərvəriş versə qurtuluşa nail olacaqdır, hər kəs onu günah və çirkin əxlaqla aludə etsə ziyan görəcəkdir."**[1]

Peyğəmbərlər bu məqsədlə gəlmişlər ki, insanların yatmış fitrətlərini oyatsınlar, onların agah olmayan əxlaqi şüurlarını agah şüura çevirsinlər, insanları fəzilətlərə, əxlaqi səciyyələrə diqqət yetirməkdə, onları tanımaqda, kamal mərhələlərini qət etməkdə və Pərvərdigarın qürb məqamına çatmaqda kömək etsinlər. Onlar gəlmişlər ki, insanları, insaniyyətin yüksək dərəcəsinə çatmaq, yüksək insani dəyərlərin dirçəldilməsi və qorunmasının zərurətindən agah etsinlər, insanlara bu mühüm məsələni xatırladıb desinlər ki, siz heyvan deyil, insansınız və mələkdən yüksək bir varlıqsınız. Dünyəvi işlər və heyvani təzahürlər sizin mələkuti məqamınıza layiq deyildir, özünüzü onlara satmayın.

İmam Səccaddan (ə) "İnsanların ən yüksəyi, ən şərafətlisi kimdir?" deyə soruşulduqda, buyurdu: **"O kəsdir ki, dünyanı öz nəfsinin şərəf və dəyəri müqabilində görməsin."**[2]

Əgər insan özünün insani şəxsiyyətini tanıyıb insani "öz" ünü gücləndirsə onda batinində əxlaqi fəzilətlər dirçələcək və rəzil xislətlərə qalib gələcəkdir. Məhz bu zaman insanın şəxsiyyəti ona icazə vermir ki, insani dəyərləri qoyub əxlaqa zidd olan şeylərin ardınca getsin. Məsələn doğruluqdan, düzgünlükdən əl çəkib yalanın ardınca getsin, əmanətdarlıqdan əl çəkərək xəyanətin ardınca getsin, izzəti-nəfsi (nəfsi əziz saxlamağı) buraxaraq zəlilliyə tərəf getsin, ehsanı buraxıb camaata əzab-əziyyət vermək və işlərin ardınca getsin.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Hər kəs öz nəfsini əzizləsə nəfsani istəklər onun nəzərində alçalacaqdır."**[3]

Peyğəmbərlər daim çalışmışlar ki, insanların fitrətlərini oyatsınlar, nəticədə öz varlıqlarının cövhərinin nədən ibarət

---

[1] "Şəms" surəsi, 7-10-cu ayələr

[2] "Tuhəful-üqul", səh.285

[3] "Nəhcül-bəlağə", qisar kəlmələri, 449

olduğunu anlasınlar, Allahla olan əlaqə və bağlılıqlarını dərk etsinlər, hər bir şeylərini Allah dərgahına yaxınlaşmaq və razılıq məqamını əldə etmək üçün sərf etsinlər; belə ki, hətta yemək, içmək, yatmaq, baxmaq, danışmaq, işləmək, yaşamaq, ölmək və s. kimi işlər hamılıqla əxlaqi və müqəddəslik yönünə malik olsun. İnsan Allahın bəndəsi olub Onun razılığından başqa bir şeyi nəzərə almasa onun bütün işləri ibadət, əxlaq və dəyər olacaqdır.

**“De: Mənim namazım da, həcc əməllərim də, ölməyim də, diriliyim də hamısı aləmlərin Rəbbi olan Allah üçündür, Onun heç bir şəriki yoxdur, mən də bu işə əmr olunmuşam, mən birinci müsəlmanam.”**[1]

Məhz buna görə də islam dinində insanın özünün tanımasının xüsusi dəyəri vardır. Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurub: **“Nəfsi tanımaq mənfəətlərin ən faydalısıdır.”**[2]

Yenə buyurur: **“Hər kəs öz nəfsini tanısa onun işləri əzəmətli olar.”**[3]

Özünü və nəfsini tanımaq dedikdə məqsəd pasportda qeyd olunanlar deyil. Əksinə, bu mə’nadadır ki, insan özünün yaradılış aləmindəki həqiqi məqamını tanısın və başa düşsün ki, yer üzündə yaşayan sadə bir canlı deyil. O, rübub aləmindən gəlmiş bir nur, Allahın yer üzündəki xəlifəsi və Onun əmanətdarıdır. O, agah, muxtar və azad yaradılan bir mələkuti varlıqdır ki, sonsuz kamal mərhələlərinə doğru seyr etməli, özünü paklaşdırmalı və nəfsinə pərvəriş verilməsi məs’uliyyətini öhdəsinə almalıdır. İnsan belə bir mə’rifət əsasında kəramət və şərafət hiss edir, öz varlıq dəyərini və müqəddəsliyini anlayır, həmçinin əxlaqi səciyyələr və insani fəzilətlər onun üçün həqiqi mə’na və dəyər kəsb edir.

Məhz belə olan surətdə ümidsizlikdən, mə’yusluqdan, puç fikirlərdən, bihudəlikdən və gündəlik təkrarlardan xilas olur, həyat onun üçün dəyərli, müqəddəs və gözəl hədəfli olur.

## *BATİNİ HƏYAT*

İnsan bu dünyada bir zahiri həyata malikdir ki, onun cismi və bədəni ilə əlaqədardır. O yeyir, içir, yatır, hərəkət edir, iş görür,

---

[1] “Ən”am” surəsi, ayə:162
[2] “Qurərul-hikəm”, səh.768
[3] “Qurərul-hikəm”, səh.628

lakin eyni halda onun zatının batinində nəfsani bir həyatı da vardır. O, bu dünyada yaşaması ilə eyni zamanda zatının batinində ya səadətə, kamala və nuraniyyətə doğru seyr edir, ya da bədbəxtliyə, qaranlıqlara doğru yuvarlanır. Ya insaniyyətin həqiqi yolunda Allaha doğru hərəkət edir, ya da insaniyyət yolundan azaraq heyvanlığın qaranlıq, zülmətli və alçaq vadilərinə yuvarlanır, ya kamalın yüksək dərəcələrindən nura, sevincə, camala gedən yoldadır, ya da zülmətlərə, əzab və süquta aparan yoldadır. Camaatın əksəriyyətinin bu batini həyatdan qafil olmasına baxmayaraq bu bir həqiqətdir.

Allah Qur’anda buyurur: **“Dünya həyatının zahirindən agahdırlar, lakin axirət həyatından (batini həyatdan) qafildirlər.”**[1]

Amma bilməyin, yaxud bilməməyin real gerçəkliyə heç bir tə’siri yoxdur. Qiyamətdə maddiyyat pərdələri insanın gözləri önündən çəkildikdə özünün fe’liyyətə çatmış gerçəkliyindən agah olacaqdır. Mütəal Allah Qur’anda buyurub: **“(Qiyamətdə insana deyilər:) Sən dünyada bu məsələdən qafil idin, lakin bu gün sənin gözlərin daha itidir.”**[2]

Bu ayədən mə’lum olur ki, axirətlə əlaqədar olan işlər elə bu dünyada və insan vucudunun batinində mövcuddur, lakin insan ondan qafildir. O, qəflət pərdələrinin götürüldüyü axirət aləmində hər bir şeyi əyani olaraq müşahidə edəcəkdir. Qur’ani-Kərim ayələrindən və hədislərdən mə’lum olur ki, insanın nəfsi bu dünyada müəyyən şeylər kəsb edir. Onun kəsb etdiyi şeylər həmişə onunla yanaşı olacaq, onun axirətdəki müqəddəratını həll edən rol ifa edəcəkdir. Nümunə olaraq aşağıdakı ayələri qeyd edirik:

**“Hər bir kəs nəfs gördüyü əməllərin girovundadır. (Hərə öz əməlinin əvəzini alacaqdır.)”**[3]

**“Hər bir nəfs kəsb etdiyi şeyləri qiyamətdə tamam-kamal olaraq alacaqdır.”**[4]

**“Allah sizi bihudə andlarınız vasitəsi ilə deyil, qəlblərinizin**

---

[1] “Rum” surəsi, ayə:7

[2] “Qaf” surəsi, ayə:22

[3] “Muddəssir” surəsi, ayə:38

[4] “Ali-İmran” surəsi, ayə:161

**kəsb etdiyi şeylərin vasitəsi ilə cəzalandırıb mükafatlandırar. Allah bağışlayan və həlimdir.”**[1]

Digər bir ayədə buyurulur: **“Allah heç kəsdən qüdrəti çatmadığı şeyi tələb etməz. (Nəfsin) kəsb etdiyi bütün yaxşılıqlar onun özününküdür və onun bütün pis işləri də öz ziyanına tamam olacaqdır.”**[2]

Yenə buyurulur: **“O gündə ki, hər bir nəfs yerinə yetirdiyi yaxşı işi öz qarşısında hazır görəcəkdir. Yerinə yetirdiyi pis işləri görəcək və arzu edəcəkdir ki, kaş onunla pis işləri arasında uzun-uzadı fasilə olaydı!”**[3]

**“Hər kəs saleh bir əməl yerinə yetirsə öz nəfsi üçün yerinə yetirmişdir, hər kəs çirkin bir işə mürtəkib olsa öz nəfsinin ziyanına olacaqdır. Sonra sizin hamınız Pərvərdigarınıza doğru qaytarılacaqsınız.”** [4]

**“Qiyamət günü hər kəs zərrə qədər yaxşı iş görmüş olsa onu görəcəkdir, hər kəs də zərrə qədər pis iş görmüş olsa onu görəcəkdir.”**[5]

Başqa ayədə buyurulur: **“İnsan üçün özünün sə’ylərinin hasilindən başqa bir şey qalmaz və o qiyamətdə öz sə’ylərini görəcəkdir.”**[6]

Yenə buyurulur: **“Əvvəlcədən (bu dünyada) öz nəfsləriniz üçün göndərdiyiniz şeylərin hamısını Allah yanında tapacaqsınız.”**[7]

**“O gündə (qiyamətdə) insanın mal-dövləti və övladları ona heç bir fayda yetirməz. Yalnız Allahın görüşünə sağlam qəlblə gələnlərdən başqa.”**[8]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) səhabələrdən birinə buyurdu: “**Ey Qeys! Sən hökmən özün üçün bir munis hazırlayacaqsan və o,**

---

[1] “Bəqərə” surəsi, ayə:225
[2] “Bəqərə” surəsi, ayə:286
[3] “Ali-İmran” surəsi, ayə:30
[4] Casiyə 15
[5] “Zilzal”, surəsi, ayə:7
[6] “Nəcm” 39
[7] “Bəqərə” 110
[8] “Şüəra” surəsi, ayə:85

**qəbirdə səninlə olacaq. O diridir və sən onunla birlikdə dəfn olunacaqsan. Əgər o yaxşı və əziz olsa səni də əziz edəcək, əgər alçaq olsa səni də alçaldacaqdır. Sonra sən qiyamətdə onunla birlikdə diriləcəksən. Səndən hesab-kitab çəkiləcəkdir. Çalış, özün üçün əməli saleh bir munis seç. Əgər saleh olsa onunla ünsiyyətdə olacaqsan, əgər azğın və fasiq olsa sənin vəhşətin və əzabın onun tərəfindən başqa bir şey olmayacaqdır. Həmin munis sənin əməllərindir.”**[1]

İnsan elə bu dünya da özünün axirət həyatının tə’min olunmasına və nəfsinin pərvəriş edilməsinə məşğuldur. Əqidə və fikirlər, səciyyə və xasiyyətlər, məhəbbət, bağlılıq və ünsiyyətlər, eləcə də nəfsdə tə’sir qoyan sair işlər tədricən qurulur və inkişaf edir. Onun necə olması bu kimi işlərlə bağlıdır. Haqq mə’rifət və əqidələr, gözəl əxlaq və insani səciyyələr, Allaha məhəbbət və bağlılıq, Allahla ünsiyyət və Ona diqqət yetirmək, Allaha itaət edib Onun razılığını qazanmaq, Allahın əmr etdiyi saleh əməlləri yerinə yetirmək insanın mələkuti ruhunu kamal dərəcələrinə doğru yüksəldir və Allahın qürb məqamına çatdırır. İnsan iman və saleh əməl vasitəsi ilə elə bu dünyada yeni və pak-pakizə bir həyata malik olur və bu da axirət aləmində aşkar olur.

Qur’ani-kərimdə buyurulur: **“Hər kəs – istər qadın, istərsə də kişi imanı olduğu halda saleh bir əməl görsə Biz onu pak və gözəl bir həyatla dirildərik.”**[2]

İnsan bu dünyada bədən və cismi ilə ləzzət alıb bəhrələndiyi ne’mətlərdən əlavə mə’nəvi ne’mətlərdən də bəhrələnir, onların vasitəsi ilə öz ruhuna pərvəriş verir, özünün mə’nəvi və axirət həyatını qurur. Bunun da nəticəsi axirət aləmində zahir olur.

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Allah Öz bəndələrinə buyurur: “Ey mənim siddiq (sadiq) bəndələrim! Dünyada Mənə ibadət ne’mətindən istifadə edin ki, axirət aləmində elə bunlardan da bəhrələnəsiz.””**[3]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurub: **“Allahı zikr**

---

[1] “Camius-səadat”, 1-ci cild, səh.17

[2] “Nəhl” surəsi, ayə:97

[3] “Biharul-ənvar”, 70-ci cild, səh.253

**etməkdə davamlı olmaq ruhların qidasıdır.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) yenə buyurub: **“Allahı zikr (yad) etməyi heç vaxt unutmayın, çünki o, qəlblərin nurudur.”**[2]

Behişt və onun ne’mətləri, eləcə də cəhənnəm və onun əzabları elə bu dünyada, insanın əqidə, əxlaq və əməllərinin vasitəsi ilə əmələ gəlir. Biz ondan qafil olsaq da, axirət aləmində, sirlərin aşkar olduğu bir gündə həqiqətlər aşkar olacaqdır.

İmam Səccad (ə) buyurub: **“Agah olun! Hər kəs Allah övliyası ilə düşmənçilik etsə, Allah dinindən başqa bir din seçsə, Allah vəlisinə e’tina etməsə və öz rə’yinə əməl etsə bədənləri atəş şö’lələri arasına daxil olar. Bunlar elə bədənlərdir ki, ruhlarını əldən vermiş və bədbəxtlik onlara qələbə çalmışdır. Bunlar elə ölülərdir ki, atəşin hərarətini dərk etmirlər. Əgər diri olsaydılar atəşin əzabını və hərarətini dərk edərdilər. Ey bəsirət sahibləri! İbrət alın və Allaha sizi hidayət etdiyinə görə həmd edin.”**[3]

Qur’anda buyurulur: **“Yetimlərin mal-dövlətini nahaq yerə yeyənlər öz qarınlarına od daxil edirlər və bu odlar tezliklə şö’lələnəcəkdir.”**[4]

İnsan bu dünyada axirət üçün ya nur və bəsirət hazırlayır, ya da zülmət və qaranlıq. Əgər bu dünyada kor və nursuz olsa axirət aləmində də kor və nursuz olaraq məhşərə gətirilər.

Qur’anda buyurulur: **“Hər kəs (qəlbinin gözü) bu dünyada kor olsa axirətdə də kor və azğın şəkildə məhşur olunar.”**[5]

Mərhum Əllamə Təbatəbai (rizvanullahi əleyh) buyurub: Nəcəfi Əşrəf şəhərində çox abid və zahid bir şeyx yaşayırdı. Ona “Şeyx Əbud” deyirdilər. O, Allah övliyalarından, seyri-süluk əhlindən idi. Daim zikr deyər, ibadətlə məşğul olardı. Bə’zi vaxtlar “Vadiyussəlam” qəbristanlığına gedər, saatlarla orada oturub fikirləşər, bə’zən də gəzişərdi. Köhnə və təzə qəbirlərə diqqətlə

---

[1] “Ğürərul-hikəm”, səh.764
[2] “Ğürərul-hikəm”, səh.479
[3] “Qürrətul-üyun”, (Mərhum Feyz Kaşani), səh.466
[4] “Nisa” surəsi, ayə:100
[5] “İsra” surəsi, ayə:72

nəzər salardı. Bir gün qəbristanlıqdan qayıtdığı zaman alimlərdən bir neçəsi onunla qarşılaşıb halını soruşur və deyirlər: “Şeyx Əbud, “Vadiyussəlam” da nə xəbər var?” O deyir: “Təzə bir xəbər yoxdur.” İsrar etdikləri zaman deyir: Çox qəribə bir məsələ ilə qarşılaşdım. Köhnə və yeni qəbirlər barəsində nə qədər diqqət etdimsə onlarda ilan, əqrəb və əzab vasitələrini görmədim. Qəbirlərin birindən soruşdum: “Rəvayətlərdə qeyd olunur ki, qəbirdə meyyitə ilan, əqrəb və sair əzab verən həşəratların vasitəsi ilə işgəncə verilir. Amma mən sizin yanınızda ilan-əqrəb görmürəm.” Qəbirdən belə cavab gəldi: “Bəli, bizim yanımızda ilan əqrəb yoxdur, siz özünüz dünyadan özünüzlə birlikdə ilan-əqrəb gətirirsiniz və burada sizə onlarla işgəncə verilir.”

İnsanın nəfsani və batini həyatı həqiqi və real bir həyatdır. İnsan öz zatının batinində real bir yolu ötüb keçir; bu yol ya onu səadətə və kamala çatdırır, ya da bədbəxtçiliyə və fəlakətə düçar edir. Onun həqiqi və real həyatı vardır ki, insanın əqidə, əxlaq və əməlləri nəticəsində formalaşır.

Allah-təala Qur’anda buyurur: **“Hər kəs izzət istəyirsə (bilməlidir ki, ) bütün izzətlər Allaha məxsusdur. Pak kəlmələr (pak nəfslər) Allaha doğru qaldırılır və saleh əməl də onu yuxarı aparır.”**[1]

Bizim nəfsimizin fe’liyyəti bizim fəaliyyət, iş və əməllərimizin məhsulu olub bizim əqidə, əxlaq, səciyyə, xislət və əməllərimizin vasitəsi ilə formalaşır. Onun yaxşı və ya pis nəticəsi də axirət aləmində aşkar olacaqdır.

## *ÖZÜMÜZDƏN NƏ DÜZƏLDİRİK?*

Yüksək (ali) elmlərdə isbat olunmuşdur ki, insan ruhunun yaranması cisimdən başlayır, lakin onun davam edib qalması ruha bağlıdır. Yə’ni insanın mələkuti ruhu onun əvvəlki cismani surətindədir ki, tədrici olaraq hərəkət və təkamül vasitəsilə insani ruhun ilkin (ən aşağı) mərhələsinə yə’ni, insan mərhələsinə çatır. Hərəkət və təkamül həmin mərhələdə də dayanmır və ömrünün axırına qədər davam edir. İşin əvvəlində mücərrəd, mələkuti və maddi aləmin fövqündə olan bir varlıqdır, lakin tam və kamil mücərrədliyə malik deyildir, öz vücudunun aşağı mərhələsi

---

[1] “Fatir” surəsi, ayə:10

baxımından cismə və bədənə meyllidir və iki dərəcəyə malikdir. Onun bir dərəcəsi maddi olub bədənlə əlaqəlidir. O, maddi işləri görür, buna görə də onun barəsində hərəkət və kamala doğru yönəlmə təsəvvür olunur. Digər dərəcəsi isə mücərrəd olub maddənin fövqündədir və buna görə də qeyri-maddi işləri görür. Onun bir yönü heyvani və cismani, digər yönü isə insani və mələkutidir. Həqiqətin yalnız bir olmamasına baxmayaraq, həm heyvani sifət və qərizələrə malik olub heyvani işləri görür, həm də insani sifətlərə və qərizələrə malik olaraq insani işlər görür.

Bu qəribə və barəsində Allah-təalanın "təbarəkəllahu əhsənul-xaliqin"- deyə buyurduğu bir varlıq hərəkətin başlanğıcında əvvəlcədən qurulmuş və kamil bir varlıq deyildir. O, tədricən özünü qurub inkişaf etdirir. Əməl və hərəkətlərdən qaynaqlanan əqidə, fikir, səciyyə və xislətlər insanın vücudunun həqiqətini yaradır. Onu tədricən kamala çatdırır. Səciyyələr də insan vücuduna sonradan əlavə olunan şeylər deyil, sadəcə onun vücudunun mahiyətinin qurucusudur.

Maraqlıdır ki, insanın fikir, əqidə və səciyyələri insanın təkcə vücudunda yox, onun "nə olmasında" da tə'sir qoyur. Yə'ni, düzgün əqidə və fikirlər, gözəl əxlaq, xislət və saleh əməl nəticəsində yaranan səciyyələr tədrici olaraq insanı kamal mərhələlərinə yönəltdiyi, onu insaniyyətin kamil mərtəbəsinə və ilahi qürb məqamına çatdırdığı kimi, cəhalət, batil əqidələr, rəzil əxlaq, səciyyə və çirkin işlər nəticəsində yaranan qəsavətlər insanın ruhunu zəiflədir, onu tədricən heyvaniyyət mərhələsinə endirir. Nəhayət o, heyvaniyyətin qaranlıq və zülmətli vadisinə süqut edir. Heyvani xislət və səciyyələrin ona nüfuz edib möhkəmlənməsi, cəhalət və qəsavətin onun batini zatında yerləşməsi nəticəsində bir heyvan surətinə düşür.

Onun zatı doğrudan da heyvan olur və heyvan şəxsiyyətinə yiyələnir. Artıq o insan deyil, bir heyvandır, hətta heyvandan da aşağı səviyyədədir; insaniyyət yolu ilə heyvana dönmüş bir varlıqdır. Zahirdə bir insan kimi yaşamasına baxmayaraq batində heyvan olmuşdur, lakin bunu dərk etmir. Heyvanın heyvan olması onun zahiri görkəmləri və quruluşları ilə deyil, onlarda olan heyvani nəfslərin varlığı, heyvani meyllər və qərizələrə qeydsiz-şərtsiz tabe olmaqladır. Canavar xüsusi formada olduğuna görə canavar deyil, əksinə, onun yırtıcılıq xüsusiyyətinə, bu kimi

qərizələrə qeydsiz-şərtsiz tabe olmasına, əql qüvvəsindən məhrum olduğuna görə canavar sayılır. Əgər bir kəsdə yırtıcılıq xüsusiyyəti qələbə çalaraq onun əql gözünü, bəsirətini kor etsə, həmin şəxs batində doğrudan da çöldə yaşayan canavarlardan qat-qat yırtıcı olan bir varlığa çevrilmiş olur. Çünki öz əql qüvvəsini və dərrakəsini yırtıcılıq xüsusiyyətinin xidmətinə vermiş olur. Bə'zi şəxslər elə cinayətlərə mürtəkib olurlar ki, hətta çöldə yaşayan canavarlar belə heç vaxt bu kimi cinayət işləri görməz. Belə bir şəxs canavar deyildirmi?! Əlbəttə ki, canavardır! Lakin özü bunu dərk etmir, başqaları da onu insan kimi təsəvvür edirlər. Qiyamətdə insanların batini aşkar olduğu bir gündə, gözlərin önündən pərdələr qaldırıldığı zaman onların batinləri aşkar olacaq və mə'lum olacaqdır ki, behişt canavarların yeri deyildir. Canavar Allah övliyaları və Allahın saleh bəndələri ilə bir yerdə ola bilməz. İnsaniyyət yolu ilə canavara çevrilən belə bir şəxs cəhənnəmin qaranlıq və zülmətli mühitlərində əzaba layiq görülməlidir.

Deməli, insan özünün gələcək şəxsiyyətini elə bu dünyada qurmalıdır. Ya insan olaraq Allah dərgahına müqərrəb olan mələklərdən də yüksək bir məqama çatır, ya da batində müxtəlif heyvanlar surətinə düşür. Bu məsələ həm ali elmlərdə isbat olunmuş, həm Allah övliyaları kəşf və şühudla bunu gördüklərini demişlər və həm də Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və mə'sum imamlar (ə) – yə'ni həqiqi insanlar bu barədə xəbər vermişlər.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurub: **"İnsanlar qiyamətdə elə surətdə məhşur olub gələcəklər ki, meymun və donuz surətləri onlardan qat-qat yaxşıdır."**[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) fasiq və əxlaqsız alim barəsində buyurur: **"Onun surəti insan surətidir, lakin qəlbi heyvan qəlbidir. Hidayət yolunu tanımır ki, ona tabe olsun, azğınlıq yolunu bilmir ki, ondan çəkinsin. Belə bir şəxs dirilər arasında olan ölüdür."**[2]

İmam Cə'fər Sadiq (ə) buyurub: **"Təkəbbürlü şəxslər qarışqa surətinə düşər və camaatın hesabı sona çatana qədər məhşər**

[1] "Qurrətul-üyun", səh.279
[2] "Nəhcül-bəlağə", 87-ci xütbə

**əhlinin ayağı altında tapdalanarlar.”**[1]

Allah-təala Qur’anda buyurur: **“Və izəl-vuhuşu huşirət” yə’ni o zaman (qiyamət günündə) vəhşi heyvanlar məhşur (həşr olar, cəm olar) olar.”**[2]

Müfəssirlərdən bə’ziləri bu ayənin təfsirində demişlər ki, “vəhşilər” dedikdə qiyamətdə heyvan surətində dirilən vəhşi insanlar nəzərdə tutulur, çünki heyvanlar üçün vəzifə və təklif yoxdur və onlar qiyamətdə dirildilməzlər.

Qur’anda buyurulur: **“Həqiqətən bu gün sizin ayrılıq gününüzdür; elə bir gündür ki, sur çalınanda siz dəstə-dəstə gələrsiniz.”**[3]

Bə’zi müfəssirlər bu ayənin mə’nasında demişlər ki, qiyamətdə insanlar bir-birindən ayrılar, hər kəs özünün batini surəti ilə eyni surətdə olanlarla birlikdə məhşur olar.

Həmin ayənin təfsirində Peyğəmbəri-Əkrəmdən (s.ə.v.v) qəribə bir əhvalat nəql olunmuşdur. Məaz ibni Cəbəl deyir: “Peyğəmbəri-Əkrəm (s.ə.v.v) **“Yovmə yunfəxu fissuri fətə’tunə əfvacən”** ayəsinin təfsirində buyurdu: “Ey Məaz! Çox böyük bir məsələ barəsində soruşdun!” Bu halda Peyğəmbərin göz yaşları axmağa başladı, sonra buyurdu: **“Mənim ümmətimdən on dəstə bir-birindən fərqlənən müxtəlif surətlərdə məhşur olacaqdır; bə’ziləri meymun surətində, bə’ziləri donuz surətində, bə’ziləri başları yerdə, ayaqları isə göydə hərəkət edən halda, bə’ziləri kor və sərgərdan, bə’ziləri kar və lal halda olub heç nəyi dərk etməz, bə’ziləri dillərini çeynəyir, ağızlarından çirk və qan axır və (bütün) məhşər əhli onlara nifrət edir, bə’zilərinin əlləri və ayaqları kəsilmişdir, bə’ziləri oddan olan budaqlarda divara çəkilmiş haldadır, bə’ziləri üfunətli heyvan ölüsündən də pis iy verir, bə’ziləri bədənlərinə qızmar misdən olan paltarlar geymiş və bu da bədənlərinə yapışmış olar.”**

Sonra buyurdu: **Meymun şəklində gələnlər söz gəzdirənlərdir. Donuz surətində məhşur olanlar rüşvət alanlar və haram mal yeyənlərdir. Kəlləsi üstə hərəkət edənlər riba (faiz) yeyənlərdir.**

---

[1] “Biharul-ənvar”, 7-ci cild, səh.201

[2] “Təkvir” surəsi, ayə:5

[3] “Nəbə” surəsi, ayə:18

**Kor gələnlər qəzavət və mühakimədə zülm edənlərdir. Kar və kor olanlar rəftarlarında xudpəsənd olub özünü bəyənənlərdir. Dillərini dişləyənlər əməlləri sözləri ilə uyğun olmayan alim və qazilərdir. Əlləri və ayaqları kəsilmiş halda gələnlər qonşularına əziyyət vermiş olanlardır. Oddan olan budaqlardan asılan kəslər sultan və hökmdarlara camaatdan söz çatdırarlar. Üfunətli iyləri olan şəxslər dünyada həvayi-nəfsə uyan, ləzzətlərin ardınca gedib öz mal-dövlətlərindən Allah haqqını verməyənlərdir. Bədənlərində qızmar misdən paltar olanlar təkəbbürlülər və lovğalardır."**[1]

Deməli, əxlaqi işləri əhəmiyyətsiz və kiçik hesab etmək olmaz. Onlar çox mühüm və insan müqəddəratını həll edən məsələlər olub, insanın batini şəxsiyyətini və nəfsani həyatını qurur və hətta onun nə olmasında tə'sir qoyur. Əxlaq elmi təkcə "necə yaşamağı" deyil, "necə olmağı" da öyrədir.

## *QUR'ANDA QƏLB*

"Qəlb" kəlməsi Qur'anda və hədislərdə çox işlənmişdir və yüksək əhəmiyyətə malikdir. Lakin qəlb dedikdə, məqsədin insanın döş qəfəsinin sol tərəfində yerləşən ət olub özünün müntəzəm döyüntüləri ilə qanı bədənin hər bir yerinə göndərib heyvani həyatı davam etdirən üzv olması təsəvvür olunmamalıdır. Çünki Qur'ani-Kərimdə qəlbə aid edilən şeylərin zahiri qəlblə əlaqəsi yoxdur. Məsələn, aşağıdakı ayələrə nəzər salaq:

1.Dərk etmək və əql qüvvəsini işlətmək. **"Nə üçün yer üzündə seyr etmirlər ki, bununla təəqqül edəcəkləri (düşünüb dərk edəcəkləri) qəlbə malik olsunlar?!"**[2]

2.Düşünməmək, dərk etməmək əqli işə salmamaq. **"Onların qəlbləri vardır, lakin onunla düşünmürlər, gözləri vardır, lakin onunla görmürlər."**[3]

**"Onların qəlblərinə möhür vurulmuşdur və başa düşməzlər."**[4]

---

[1] "Məcməul-bəyan", 10-cu cild, səh.423, "Ruhul-bəyan", 10-cu cild, səh.299, "Nurus-səqəleyn", 5-ci cild, səh.493

[2] "Həcc" surəsi, ayə:46

[3] "Ə"raf" surəsi, ayə:179

[4] "Tövbə" surəsi, ayə:78

3.İman. **“Allah bu insanların qəlbində imanı möhkəmləndirmiş və Öz tərəfindən olan ruhla onları qüvvətləndirmişdir.”**[1]

4.Küfr etmək və iman gətirməmək. **“Axirətə iman gətirməyənlər qəlbləri ilə (haqqı) inkar edir və təkəbbürlük göstərirlər.”**[2]

**“Onlar (kafirlər) elə kəslərdir ki, onların qəlblərinə, qulaqlarına və gözlərinə möhür vurulmuşdur və onlar qafillərdir.”**[3]

5.Nifaq (münafiqlik). **“Münafiqlər bundan qorxurlar ki, Allah tərəfindən bir surə nazil olsun və onların qəlblərində olanlardan xəbər versin.”**[4]

6.Hidayət. **“Hər kəs Allaha iman gətirsə qəlbini hidayət edər. Allah hər bir şeydən agahdır.”**[5]

Başqa bir ayədə buyurulur: **“Həqiqətən bunda (keçmiş ümmətlərin həlak olmasında) qəlbləri olan, yaxud, həqiqətlərə qulaq asıb şahid olanlar üçün böyük nəsihət və ibrətlər vardır.”**[6]

7.Qəflət. **“...Həvayi-nəfsə tabe olub, ona itaət etmə.”**[7]

8.Aramlıq və xatircəmlik. **Qur’anda buyurulur: “Agah olun (və bilin) ki, qəlblər yalnız Allahı yad etməklə aramlıq tapar.”**[8]

Yenə buyurulur: “**Məhz O (Allah) mö’minlərin qəlblərinə aramlıq nazil etdi ki, imanları artsın.”**[9]

9.İztirab və tərəddüd. **“Səndən yalnız Allaha və qiyamət gününə iman gətirməyən və qəlblərində şəkk-şübhə olanlar (cihaddan qaçmaq üçün) icazə istəyirlər. Onlar həmişə şəkk və**

---

[1] “Mucadilə” surəsi, ayə:22
[2] “Nəhl” surəsi, ayə:22
[3] “Nəhl” surəsi, ayə:28
[4] “Tövbə” surəsi, ayə:64
[5] “Təğabun” surəsi, 11
[6] “Qaf” surəsi, ayə:38
[7] “Kəhf” surəsi, 28
[8] “Rə”d” surəsi, ayə:28
[9] “Taha” surəsi, 4

**tərəddüddədirlər.”**[1]

10.Mehribanlıq və rəhmət. **“İsaya tabe olanların qəlblərində mehribanlıq və rəhmət qərar verdik.”**[2]

Yenə buyurulur: **“Özünün köməyi və mö’minlərin vasitəsi ilə səni gücləndirən və onların qəlblərinə ülfət salan Allahdır.”**[3]

11.Kobud rəftar və daşürəklilik. **“Əgər daşürəkli və kobud qəlbli olsaydın, camaat sənin ətrafından dağılışardı.”**[4]

Bir sözlə, Qur’anda qəlb son dərəcə böyük məziyyətlərdən bəhrələnir və nəfsani işlərin əksəriyyəti ona aid edilir. O cümlədən iman, küfr, nifaq, təəqqül (əql işlətmə), dərk etmə, haqqın qəbul edilməsi, yaxud edilməməsi, hidayət və ya zəlalət, xəta və ya qəsd, paklıq və ya aludəlik, mehribanlıq və daşürəklilik, ülfət, zikr, qəflət, qorxu, qeyz, şəkk, tərəddüd, rəhm, qəsavət, həsrət, aramlıq, təkəbbür, həsəd, üsyankarlıq, sapmaq və bu qəbildən olan çoxlu işlər qəlbə aid edilir. Halbuki, zahiri ürək bu kimi işlərin mənşəyi ola bilməz. Bu kimi xasiyyətlər insani ruhdan və nəfsdən qaynaqlanır.

Deməli, qəlb dedikdə insanın insaniyyətini müəyyən edən mələkuti və mücərrəd gövhər nəzərdə tutulur.

Qur’anda qəlbin məqamı o qədər yüksəkdir ki, vəhydən, yə’ni insanla Allah arasında rabitə vasitəsindən söhbət açıldıqda qəlbin adı çəkilir. Allah-təala Qur’anda Peyğəmbəri-Əkrəmə (s.ə.v.v) xitab edərək belə buyurur: **“Ruhul-Əmin (Cəbrəil) Qur’anı sənin qəlbinə nazil etdi ki, insanları (itaətsizlik edəcəkləri təqdirdə ilahi əzabdan) qorxudanlardan olasan.”**[5]

Başqa ayədə buyurulur: **“Hər kəs Cəbrəillə düşmənçilik etsə (Allahla düşmən olmuşdur, çünki) Cəbrəil yalnız Allahın izni ilə Qur’anı sənin qəlbinə nazil etmişdir.”**[6]

Qəlbin məqamı o qədər yüksəkdir ki, insan onun vasitəsilə vəhy mələyini görüb, onun sözlərini eşidə bilər: **“Allah Öz bəndəsinə**

---

[1] “Tövbə surəsi, ayə:45

[2] “Hədid” surəsi, 27

[3] “Ən”am” surəsi, ayə:63

[4] “Ali-İmran” surəsi, 159

[5] “Şüəra” surəsi, ayə:194

[6] “Bəqərə” surəsi, ayə:94

**(Həzrəti Muhəmmədə) vəhy etdi və Peyğəmbərin qəlbi gördüyünü yalan saymadı."**[1]

## *QƏLBIN SAĞLAMLIĞI VƏ XƏSTƏLIYI*

Bizim həyatımız qəlbimiz və ruhumuzla bağlıdır. Bədəni idarə edən də odur. Bütün bədən üzvləri ona tabedir; əməl və hərəkətlər qəlbdən qaynaqlanır. Deməli, insanın bədbəxt və ya xoşbəxt olması da onun qəlbinin necə olmasına bağlıdır. Qur'an ayələri və hədislərdən mə'lum olur ki, insanın bədəni bə'zən sağlam, bə'zən isə xəstə olduğu kimi, onun qəlbi də bə'zən sağlam, bə'zən isə xəstə olur. Qur'anda buyurulur: **"O gündə (qiyamətdə) insan üçün mal-dövlət və övlad heç bir fayda verməz, yalnız o kəslərdən başqa ki, (yalnız o kəslər nicat tapar ki,) Allaha doğru sağlam qəlblə qayıtmış olsun."**[2]

Yenə buyurulur: **"Həqiqətən bunda (bəd əməl sahiblərinin həlak olmasında) qəlbi olan insanlar üçün ibrətlər vardır."**[3]

Yenə buyurulur: **"Behişti müttəqilər üçün yaxına gətirərlər ki, azacıq belə, uzaq olmasın. Bu, həmin behiştdir ki, Allaha doğru qayıdaraq öz nəfslərini günahdan saxlayan insanlara və'də verilmişdi. Onlar həmin kəslərdir ki, mehriban Allahdan qorxaraq (Onun hüzurunda) xüşu halında olan qəlblə gələrlər."**[4]

Gördüyünüz kimi bu ayələrdə "sağlamlıq" qəlbə aid edilir və insanın axirət səadəti Allah dərgahına sağlam və xüşu halında olan qəlblə qayıtması ilə şərtləndirilir. Digər tərəfdən Qur'ani-Kərim bə'zi qəlbləri xəstə adlandırır. O cümlədən:

**"Onların (münafiqlərin) qəlblərində xəstəlik vardır. Allah da onların xəstəliklərini artırar."**[5]

**"Allah qəlblərində xəstəlik olanların xəstəliklərini artırdı."**[6]

**"O zaman ki, münafiqlər və qəlblərində xəstəlik olanlar**

---

[1] "Nəcm" surəsi, ayə:11
[2] "Şüəra" surəsi, ayə:89
[3] "Qaf" surəsi, ayə:37
[4] "Qaf" surəsi, 31-32-ci ayələr
[5] "Bəqərə" surəsi, 10-cu ayə
[6] "Tövbə" surəsi, 125-ci ayə

**“Allahın və Rəsulun və’dələri qürur və aldadıcı şeydən başqa heç nə deyildir” - deyərlər.”**[1]

**“Sən qəlblərində xəstəlik olanları (yəhudi və məsihilərlə dostluq üçün) tələsən halda görərsən. Onlar deyərlər: “Qorxuruq ki, bizim üçün bir giriftarçılıq yaransın.””**[2]

Bu ayələrdə küfr, nifaq və kafirlərlə dostluq qəlbin xəstəliyi kimi qeyd olunur. Bu kimi ayələr, eləcə də Peyğəmbərdən (s.ə.v.v.) və Əhli-beyt imamlarından (ə) nəql olunan yüzlərlə rəvayətlərdən mə’lum olur ki, insanın qəlbi və ruhu da bədəni kimi sağlam və ya xəstə ola bilər. Deməli, qəlbin xəstəlik və sağlamlığını məcazi mə’nada götürməyin heç bir zərurəti yoxdur. Allah qəlbin və nəfsin xaliqi olduğu, Peyğəmbər (s.ə.v.v.) və pak imamlar (ə) insanı və qəlbi tanıyıb qəlbin bə’zi xəstəliklərindən xəbər verdikləri halda nə üçün qəlbin xəstəliyi özünün həqiqi mə’nasında yozulmamalıdır?! Həqiqi insanşünaslar küfr, münafiqlik, haqqı qəbul etməmək, təkəbbür, kin-küdurət, qəzəb, xəbərçilik, söz gəzdirmək, xəyanət, xudbinlik, qorxu, bədxahlıq, töhmət, nalayiq danışmaq, qeybət etmək, kobud rəftar, zalımlıq, paxıllıq, hərislik, eyb axtarmaq, yalan danışmaq, şan-şöhrət istəmək, riyakarlıq, hiyləgərlik, sui-zən etmək, qəlbin daşlaşması, nəfsin zəifliyi və sair kimi çirkin sifətləri qəlbin və ruhun xəstəliyi kimi təqdim etmişlər. Deməli, belə dərdlərlə dünyadan gedənlər Allah hüzurunda sağlam qəlbə malik olmayacaqlar ki, aşağıdakı ayənin nümunəsi olsunlar: **“O gündə Allahın dərgahına sağlam qəlblə gələnlərdən başqa, mal dövlət və övlad heç kəsə fayda verməz (heç kəs mal-dövlət hesabına canını qurtara bilməz).”**

Qəlbin və nəfsin xəstəliklərini əhəmiyyətsiz hesab etmək olmaz. Bunlar fiziki xəstəliklərdən qat-qat təhlükəli, müalicəsi də olduqca çətindir. Fiziki və cismi xəstəliklərdə bədənin normallığı, müvazinəti pozulur, müəyyən ağrılar, narahatçılıqlar baş verir. Bə’zi hallarda üzvdə nöqsanlı hal irəli gəlir. Lakin hər bir halda o məhduddur və ömrünün axırına qədər davam etmir. Amma qəlbin və nəfsin xəstəlikləri öz ardınca axirət bədbəxtçiliyini, işgəncəsini və əzabını, qəlbin dərinliklərinə işləyən və ruhu yandıran bir dərd gətirir. Bu dünyada Allahdan qafil olan, ilahi nişanələri müşahidə

---

[1] “Əhzab” surəsi, 13-cü ayə

[2] “Maidə” surəsi, 52-ci ayə

etməyən, bir ömür zəlalət, küfr və günah içində olan qəlb həqiqətdə kor, qaranlıq və zülmətlidir. Qiyamətdə də elə həmin korluq və zülmətlə dirildilər, dərdli, əzablı, işgəncəli və ağır həyatdan başqa bir taleyə malik olmayacaqdır.

Allah Qur'anda buyurur: **"Hər kəs Bizim zikrimizdən üz döndərsə ağır həyata malik olacaqdır və Qiyamətdə onu kor məhşur edəcəyik. O deyər: "Nə üçün məni kor diriltdin? Halbuki mən dünyada görürdüm!" Allah onun cavabında buyurar: "Bizim ayələrimiz sənin üçün gəldi, lakin sən isə onları unutdun. Buna görə də sən də unudulacaqsan.""**[1]

**"Nə üçün yer üzündə seyr eləmirlər ki, onunla düşünə biləcəkləri qəlbləri, eşidən qulaqları olsun?! Həqiqətən (kafirlərin) zahirdəki gözləri kor deyil. Əksinə onların qəlblərinin gözü kordur."**[2]

**"Hər kəsin bu dünyada (batini gözü) kor olsa axirətdə də kor və yolunu azmış olacaqdır."**[3]

**"Hər kəsi Allah hidayət etsə o, hidayət olunmuşlardan olar. Hər kəsi (öz əməli nəticəsində) azdırsa, onun üçün heç bir dost və köməkçi tapmazsan və qiyamətdə onları üzü üstə kor, lal və kar halda dirildərik."**[4]

Bu sözdən təəccüblənərək "Qiyamətdə insanın batin gözü necə kor ola bilər? Məgər bizim zahirdəki qulaq-gözümüzdən başqa bir qulaq və gözümüz də varmı?" - deyə soruşa bilərsiniz. Cavab bundan ibarətdir ki, Xaliqin və ilahi insanşünasların verdiyi xəbərə görə insanın qəlb və ruhunun da gözü, qulağı və dili vardır. Amma onun gözü, qulağı və dili öz növündəndir. İnsanın nəfsi çox sirli bir varlıqdır. O, zatının batinində xüsusi bir həyata malikdir. Nəfsin özünəməxsus bir aləmi vardır. Bu aləmdə həm nur vardır, həm də zülmət, həm səfa və paklıq var, həm də küdurət və aludəlik, həm görmək və eşitmək vardır, həm də korluq və karlıq. Bu aləmin nuru və zülməti dünya aləminin nur və zülməti növündən deyildir. Allaha, məada, nübüvvətə və Qur'ana iman gətirmək nəfs aləminin

---

[1] "Taha" surəsi, 125-ci ayə

[2] "Həcc" surəsi, 46-cı ayə

[3] "İsra" surəsi, 72-ci ayə

[4] "İsra" surəsi, 97-ci ayə

nurudur.

Allah Qur'anda buyurur: **"Ona (Muhəmmədə) iman gətirib onu əziz tutub kömək edənlər, həmçinin onunla olan nura (Qur'ana) tabe olanlar qurtuluşa, səadətə nail olacaqlar."**[1]

**"Həqiqətən Allah tərəfindən sizin üçün nur və bəyan edən kitab nazil olmuşdur."**[2]

**"Allah, islamı qəbul etmək üçün sinəsini (qəlbini) genişləndirdiyi və Pərvərdigarının tərəfindən ruh alan bir şəxs (başqaları ilə birdirmi?!) Vay olsun o kəslərin halına ki, qəlbləri Allahın zikrindən (yayınmaqla) qəsavət bağlamışdır (daşlaşmışdır). Belə şəxslər aşkar azğınlıqda olacaqlar."**[3]

Allah bizə xəbər verərək buyurmuşdur ki, islam, Qur'an, iman, islamın hökmləri və qanunları bütünlükdə nurdur və onlara tabe olmaq qəlbi nurani edir. Doğrudan da bunlar qəlbə elə bu dünyada nuranilik verir, lakin onun nəticəsi axirət aləmində aşkar olur.

Allah bizə yenə də xəbər verərək buyurmuşdur ki, küfr, nifaq, günah, haqdan imtina etmək zülmət və qaranlıqdır. Bununla qəlbi qaraldıb aludə edir. Əlbəttə, bunun da nəticəsi axirət aləmində aşkar olacaqdır. Peyğəmbərlər də buna görə gəlmişlər ki, insanları küfr zülmətindən çıxardaraq iman və nur mühitinə daxil etsinlər.

Qur'anda buyurulur: **"(Ey Peyğəmbər!) Biz Qur'anı sənə nazil etdik ki, insanları qaranlıqlardan, zülmətlərdən nura doğru çıxarasan."**[4]

Mö'minlər elə bu dünyada iman, nəfsin saflığı, gözəl əxlaq, zikr, Allahı yad etmək və saleh əməl kimi nurun vasitəsilə öz qəlb və nəfslərini nurani edir, batini göz və qulaqları ilə həqiqətləri eşidib-görür və kamal dərəcələrində ilahi qürb məqamına doğru hərəkət edirlər. Belə nəfslər bu dünyadan getdikdən sonra tam mə'nada nur, sevinc, şadlıq və gözəllikdə olacaq, axirət aləmində dünyada əldə etdikləri həmin nurdan bəhrələnəcəklər.

Allah Qur'anda buyurur: **"Yada sal o zamanı ki, mö'min kişilər və qadınların nuru onların qabaqlarını və sağ tərəflərini**

---

[1] "Maidə" surəsi, 15-ci ayə
[2] "Maidə" surəsi, 15-ci ayə
[3] "Zümər" surəsi, 22-ci ayə
[4] "İbrahim" surəsi, 1-ci ayə

**işıqlandırar. (Onlara deyilər:) Bu gün sizin müjdəniz ağacları altından çaylar axan behiştdir, bu behiştdə həmişəlik qalacaqsınız. Bu böyük qurtuluş və səadətdir.”**[1]

Bəli, axirət aləminin nuru elə bu dünyada kəsb edilməlidir. Buna görə də axirət aləmində kafirlərin və münafiqlərin nuru olmayacaqdır.

Qur’anda buyurulur: **“Yada sal o zamanı ki, münafiq kişilər və qadınlar mö’minlərə deyər: “İcazə verin, sizin nurunuzdan istifadə edək.” Onlara deyilər: “(Əgər bacarırsınızsa) dünyaya qayıdaraq özünüz üçün nur hazırlayın.”**[2]

## *HƏDİSLƏRDƏ QƏLB*

Din rəhbərləri və həqiqi insanşünaslar insanların qəlbləri barəsində çox maraqlı mətləblər bəyan etmişlər ki, onlardan bə’zilərini burada qeyd edirik. Hədislərin bə’zilərində qəlblər üç qismə bölünür.

İmam Məhəmməd Baqir (ə) buyurur: **“Üç növ qəlb vardır: Birincisi, heç bir xeyir işi dərk eləməyən haqdan üz döndərmiş qəlbdir. Bu kafirin qəlbidir. İkinci növ qəlbdə qara nöqtələr əmələ gəlmişdir. Belə bir qəlbdə xeyr və şər daim bir-biri ilə çarpışmadadır. Onlardan hər biri güclü olsa qəlbə qələbə çalar. Üçüncü növ isə açıq-aydın qəlbdir. Bu qəlbdə heç vaxt sönməyən bir çıraq vardır. O da mö’minin qəlbidir.”**[3]

İmam Cə’fər Sadiq (ə) öz atasının belə buyurduğunu nəql edir: **“Qəlb üçün günahdan da pis bir şey yoxdur. Qəlb günahla qarşılaşır və onunla mübarizə edir. Nəhayət günah qəlbə qələbə çalaraq onu tərsinə çevirir.”**[4]

İmam Səccad (ə) buyurur: **“İnsanın dörd gözü vardır, onun ikisi (zahiri gözlər) din və dünya ilə əlaqədar işləri, digər ikisi (batini gözlər) isə axirətlə əlaqədar işləri görür. Allah bir bəndəsinə xeyir vermək istədiyi zaman onun qəlb gözlərini açar. Bəndə onların vasitəsilə qeyb aləmini və axirət işlərini**

---

[1] “Hədid” surəsi, 12-ci ayə
[2] “Hədid” surəsi, 13-cü ayə
[3] “Biharul-ənvar”, 70-ci cild, səh.51
[4] “Biharul-ənvar”, 70-ci cild səh.54.

**müşahidə edər. Lakin ona xeyir əta etmək istəməsə onun qəlbini elə həmin vəziyyətdə buraxar.”**[1]

İmam Cə’fər Sadiq (ə) buyurub: **“Qəlbin iki qulağı vardır: iman ruhu onu ahəstə olaraq xeyir işlərə, şeytan isə ahəstə olaraq pis işlərə də’vət edir. Onlardan hər hansı biri digərinə qələbə çalsa qəlbi öz ixtiyarına keçirmiş olur.”**[2]

İmam Cə’fər Sadiq (ə) Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) belə buyurduğunu nəql edir: **“Korluğun ən pis növü qəlbin korluğudur.”**[3]

İmam Məhəmməd Baqir (ə) buyurur: **“Bəndənin qəlbi ağ və parlaq nur şəklindədir. Əgər günaha batarsa onda qara bir nöqtə də əmələ gəlir. Tövbə etdiyi təqdirdə qara nöqtə aradan gedər. Amma əgər günah iş görməkdə davam edərsə qaralıq tədricən artaraq ağlığın hər bir yerini örtür. Belə olan halda həmin qəlbin sahibi artıq yaxşılığa, xeyrə qayıtmaz və Allah-təalanın Qur’anda buyurduğu aşağıdakı ayənin nümunəsi olar: “Onların əməlləri qəlblərinə qələbə çalaraq onu puç etmişdir.”**[4]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Hər kəsin təqvası və vərə’si (təqvanın yüksək dərəcəsi) az olsa qəlbi öləcəkdir. Hər kəsin də qəlbi ölsə cəhənnəmə daxil olacaqdır.”**[5]

Həzrət Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) öz övladına vəsiyyət edərək buyurdu: **“Oğlum! Yoxsulluq böyük bəladır. Ondan da böyük bəla bədənin xəstəliyidir. Bədənin xəstəliyindən də böyük bəla qəlbin xəstəliyidir. Var-dövlətin bol olması böyük ne’mətdir. Ondan böyük ne’mət bədənin sağlamlığıdır. Bədənin sağlamlağından da böyük ne’mət qəlbin sağlamlığıdır.”**[6]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Davud peyğəmbər Allaha belə ərz etdi: “Pərvərdigara, bütün padşahların xəzinəsi vardır, bəs Sənin xəzinən hardadır?” Allah-təala cavabında**

---

[1] “Biharul-ənvar”, 70-ci cild, səh.53
[2] “Biharul-ənvar”, 70-ci cild, səh.53
[3] “Biharul-ənvar”, 70-ci cild, səh.51
[4] “Kafi”, 2-ci cild, səh.273
[5] “Nəhcül-bəlağə”
[6] “Biharul-ənvar”, 70-ci cild, səh.51

**buyurdu: "Mənim xəzinəm ərşdən böyük, kürsüdən geniş, behiştdən daha ətirli, mələkutdan daha gözəldir. Bu xəzinənin yeri mə'rifət, asimanı iman, günəşi şövq, ayı məhəbbət, ulduzları zikr (Allaha diqqət və ilhamlar), buludları əql, yağışı rəhmət, meyvələri itaət, səmərəsi hikmətdir. Mənim xəzinəmin dörd qapısı vardır: 1.Elm, 2.Əql, 3.Səbr, 4.Razılıq. Bil ki, Mənim xəzinəm qəlbdir (mö'min bəndələrimin qəlbidir).""**[1]

İlahi qəlbşünaslar bir hədisdə çox maraqlı mətləblər buyurmuşlar ki, onların bə'zilərini qeyd edəcəyik. O cümlədən qəlbləri üç qismə bölmüşlər:

**1.Kafir qəlbi.** Kafir qəlbi barəsində buyurmuşlar ki, o, tərsinə çevrilmişdir və onda heç bir xeyir yoxdur. Belə qəlb özünün əsl fitrətindən azmışdır və yuxarı aləmə baxa bilmir. O, yalnız dünya işlərinə baxır. Buna görə də Allahı və axirət aləmini müşahidə edə bilmir. Belə bir qəlbin sahibi barəsində xeyirxahlıq, yaxşılıq və məsləhət təsəvvür oluna bilmir. Çünki xeyir işlər o zaman kamal dərəcələrində və Allah dərgahında olur ki, Allaha doğru və Onun razılığını cəlb etmək məqsədilə olsun. Amma kafir qəlbi tərsinə çevrilmişdir ki, Allahı görməsin. Onun, bütün işlərində dünyadan başqa bir hədəfi yoxdur. O, Allaha yaxın olmağı yox, yalnız dünyaya nail olmağı istəmişdir. Belə bir qəlbin əsl fitrətində gözü olmuşdur, lakin öz gözünü kor etmişdir. O, ən aydın həqiqəti, yə'ni Allahı dərk etmədiyindən kordur. Axirət aləmində də kor halda dirildiləcəkdir. Bu dünyada yalnız dünya işlərinə ürək bağladığından axirət aləmində də ona dünya işlərinə bağlılıq qalacaqdır. Onlardan ayrılaraq hər addımda yanacaqdır. Belə qəlbə iman nuru saçmaz və büsbütün qaranlıq və zülmətdən ibarətdir.

2.Kafirin qəlbi müqabilində kamil və saleh **mö'minin qəlbi** dayanır. Mö'minin qəlbinin qapısı yüksək aləmlərə və qeybə doğru açılır. Onda heç vaxt sönməyən iman nuru parlayır. Onun qəlbinin hər iki gözü görür. Qeyb aləmini və axirət işlərini onunla müşahidə edir. Belə bir qəlb həmişə kamala, camala və mütləq xeyrə, yə'ni Mütəal Allaha doğru yönəlir və Ona yaxın olmaq istəyir. O, Allahı istəyir, gözəl əxlaq və yaxşı əməllərlə Onun dərgahına doğru hərəkət edir. Belə bir qəlb ərş və kürsüdən geniş, behiştdən daha ətirlidir və ilahi xəzinələrin, ilahi nurun saçdığı mərkəz ola bilər.

---

[1] "Biharul-ənvar", 70-ci cild, səh.59

Belə bir qəlbin yeri Allaha mə'rifət, asimanı iman, günəşi Allahla görüşə şövq, ayı Allaha məhəbbət bəsləməkdir. Əql mö'minin bədəninə hakim kəsilmişdir. İlahi rəhmət yağışını öz qəlbinə doğru cəzb edir ki, onun meyvələri ibadət və itaətdən ibarətdir. Belə bir qəlbdə Allah və Onun dərgahına yaxın olan mələklərdən başqa heç bir şeyə yer yoxdur. Başdan-ayağa nur, sevinc, şövq, səfadan ibarətdir. Axirət aləmində də belə məhşur olacaqdır.

**3. Bə'zən günaha batan mö'min qəlbi.** Belə şəxslərin qəlbi tam qaranlıq və bağlı deyildir. O, iman nurunun vasitəsilə işıqlanır, kamalı əldə etmək və ilahi rəhmətə nail olmaq üçün açıqdır. Lakin günah nəticəsində onda qara bulud əmələ gəlir. Bununla da şeytan oraya yol tapa bilir. Onun batini gözü kor olmur, lakin günah nəticəsində xəstələnir və kor olmağa yaxınlaşır. Belə qəlbdə həm mələklər, həm də şeytanlar üçün yol vardır. Mələklər iman qapısından daxil olaraq bəndəni xeyir işlərə çağırır. Şeytanlar isə qara nöqtədən nüfuz edərək onu pis işlərə sövq edirlər. Belə bir qəlbdə mələklə şeytan həmişə bir-biri ilə çarpışmadadır. Mələk saleh əməl ilə bütün qəlbi öz ixtiyarına keçirmək və şeytanı oradan çıxarmaq istəyir. Şeytan da günaha mürtəkib olmaqla qəlbi daha da qaranlıqlaşdırıb, mələyi oradan çıxarmaq və bütün qəlbi öz ixtiyarına almaq, iman qapısını tamamilə bağlamaq istəyir. Bunların hər biri qələbə çalana qədər bir-biri ilə çarpışır. İnsanın axirət taleyi və batini həyatı bu məsələyə bağlıdır. Burada nəfslə cihadın zərurəti irəli gəlir ki, gələcəkdə onun barəsində söhbət edəcəyik.

## *QƏLBİN QƏSAVƏTİ (BƏRKIMƏSI)*

İnsanın qəlbi ilk əvvəldə səfa, nuranilik, mehribanlıq və xüsusi rəhmətə malik olur. Başqa insanların, hətta heyvanların belə, əzab-əziyyətdə olmasından, narahatlığından ruhən əzab çəkir. Başqalarının da xoşluqda, rahatlıqda və firavan yaşamasını istəyir, başqalarına yaxşılıq etməkdən sevinir, mə'nəvi ləzzət alır. Özünün pak niyyəti ilə Allaha diqqət yetirir, ibadətdən, duadan, raz-niyazdan, yaxşı işlər görməkdən sevinc duyur, günah işə mürtəkib olduqda dərhal tə'sirlənərək peşmanlıq hissi keçirir.

Əgər fitrətin çağırışına cavab versə və ona uyğun əməl etsə günbəgün daha artıq səfalı, nurani, mehriban və ürəyi yanan olur. Dua və ibadət nəticəsində günbəgün Allahla ünsiyyətə, dua və

ibadətə rəğbət tapır. Amma əgər öz daxili hisslərini və atifələrini nəzərə almayaraq, onun əksinə əməl edərsə nuraniyyəti tədricən azalmağa üz qoyur, axırda elə bir həddə çatır ki, hətta onun tamamilə məhv olub sönməsi də mümkündür. Belə olan halda başqalarının başına gələn acı hadisələri və xoşagəlməz şeyləri gördükdə azacıq belə tə'sirlənmir, hətta mümkündür ki, başqalarının yoxsulluq, aclıq və zəifliyindən, hətta zindana düşüb işgəncəyə mə'ruz qalmasından, qətlə yetirilməsindən belə sevinib ləzzət alsın.

İnsan günaha mürtəkib olduğu ilk vaxtlarda narahat və peşman olur, lakin əgər bir dəfə günaha mürtəkib olarsa ikinci dəfə daha hazırlıqlı olur, üçüncü dəfə günah iş onun üçün daha asan olur. Günahın davam etdirilməsi nəticəsində elə bir həddə çata bilər ki, günahdan nəinki peşmançılıq hissi keçirməz, üstəlik onu nailiyyət hesab edərək şad olar.

Belə şəxslərin qəlbi qaralıb tamamilə dəyişilir və Qur'an və hədislərin dili ilə "qəsavət bağlamış" (bərkimiş, daşlaşmış) hesab olunur. Şeytan onların qəlblərini özünün tam ixtiyarına keçirir; Allahın müqərrəb mələklərini oradan çıxarır. Nicat yolları bağlanır, artıq onun tövbə edib Allah dərgahına qayıdacağına bir ümid yoxdur.

Allah Qur'anda buyurur: **"Nə üçün Bizim bəlamız onlara çatdığı zaman tövbə edib yalvarmırlar? Onların qəlbləri qəsavət bağlamış, şeytan onların çirkin işlərini onların nəzərində gözəl cilvələndirmişdir."**[1]

Başqa bir ayədə buyurulur: **"Vay olsun o kəslərin halına ki, qəlbləri Allahı yad etməkdən (qafil olaraq) qəsavət bağlamışdır. Belə şəxslər aşkar azğınlıqdadırlar."**[2]

İmam Məhəmməd Baqir (ə) buyurub: **"Hər mö'min bəndənin qəlbində ağ bir nuraniyyət vardır. Əgər günaha mürtəkib olaraq onu yenidən təkrar edərsə, onda qara bir nöqtə əmələ gələcəkdir. Əgər özünün günah işlərini davam etdirərsə qara nöqtə tədricən genişlənir, qəlbin ağlığını bütünlüklə örtür. Belə olduqda həmin qəlbin sahibi heç vaxt xeyrə doğru qayıtmır. Allah-təalanın Qur'anda buyurduğu "əksinə, əməlləri onların**

---

[1] "Ən"am" surəsi, 43-cü ayə
[2] "Zumər" surəsi, 22-ci ayə

**bütün qəlblərini örtmüşdür" deyə buyurduğu şəxslərdən olur."**[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"İnsanın gözünün yaşı yalnız qəlbin qəsavəti nəticəsində quruyar. Qəlb də yalnız günahın çoxluğu nəticəsində qəsavət bağlayır."**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Dörd şey insanın bədbəxtçilik əlamətlərindəndir: Gözün quruması, qəlbin bərkiməsi, ruzi axtarmaq üçün həddən artıq hərislik və günahlarda davamlı olmaq."**[3]

Məhz buna görə də mə'sum imamlar (ə) dualarda qəlbin bərkiməsindən və qəsavətindən Allaha pənah aparmışlar. Nümunə olaraq aşağıdakıları qeyd edirik:

İmam Səccad (ə) dua edərək deyir: **"Pərvərdigara! Vəsvəsələr sayəsində daim dəyişilməkdə olan, aludəlik və möhürlənməklə yanaşı olan qəlbin bərkliyindən Sənə şikayət edirəm. Sənin qorxundan ağlamayan, onu sevindirən şeylərə göz dikən bir gözdən Sənə şikayət edirəm!."**[4]

Deməli, öz qəlbinin sağlamlığını, səadətini düşünən bir şəxs hətta kiçik olsa belə, günah işlərdən ciddi şəkildə çəkinməli, öz nəfsini həmişə yaxşı işlərlə - ibadət, dua, raz-niyaz, nəvaziş, ürəyi yananlıq, mehribanlıq, başqalarına ehsan və kömək etmək, məhrumları, məzlumları müdafiə etmək, xeyirxahlıq, xeyir işlərdə həmkarlıq, ədaləti istəmək, ədalətli olmaq və s. zinətləndirməlildir. Belə ki, tədricən yaxşı işlərə adət etsin, batini nur və səfası davam edərək təkamülə çatsın ki, onun qəlbi Allahın müqərrəb mələklərinin xüsusi yerinə çevrilə bilsin.

## *QƏLB TƏBİBLƏRİ*

Yuxarıda qeyd olundu ki, qəlblər də bədənlər kimi sağlam və ya xəstə ola bilər. İnsanın axirət səadəti də bu məsələyə, yə'ni qəlbin sağlam halda dünyadan getməsinə bağlıdır.

İndi qəlbin sağlam və ya xəstəliyinin əlamətlərini öyrənməliyik

---

[1] "Biharul-ənvar", 73-cü cild, səh.361
[2] "Biharul-ənvar", 73-cü cild, səh.354
[3] "Biharul-ənvar", 73-cü cild, səh379
[4] "Biharul-ənvar", 94-cü cild, səh.143

ki, onun müxtəlif növ xəstəliklərə yoluxduğunu dərk edə bilək. Xəstəliyin səbəb və amillərini tanımalıyıq ki, onların qarşısını ala bilək, nəfsimizin sağlamlığına riayət etmək üçün çalışaq.

Görəsən bu barədə ehtiyacsızıqmı, yoxsa peyğəmbərlərə ehtiyacımız vardır? Şübhəsiz, bizim nəfs kimi mələkuti varlığın xüsusi yaradılışı və sirləri barəsində kifayət qədər mə'lumatımız yoxdur. Ümumiyyətlə özümüzün batini və nəfsani həyatımızdan xəbərsizik, buna görə də nəfsin xəstəlik amillərini tanıyıb ayırd edə bilmərik. Biz nəfs və ruhun müxtəlif növ xəstəliyi, onların müalicə edilməsi və qarşısının alınması yollarından kifayət qədər agah deyilik. Buna görə də bizi bu yolla hidayət etsinlər deyə, peyğəmbərlərin varlığına ehtiyac duyuruq. Peyğəmbərlər bəşər ruhlarının həqiqi mə'nada təbibləri və mütəxəssisidir. Onlar Allah tərəfindən olan köməklə nəfslərin dərdlərini və onun müalicə yollarını daha yaxşı şəkildə bilirlər. Onlar vəhy məktəbində insanşünas və ruhşünas olmuş, bu mələkuti varlığın sirlərindən tamamilə agahdırlar. Onlar həm təkamülün düzgün yolunu və insanı Allah dərgahına yaxınlaşdıran yolları, həm də onu azğınlığa salan səbəbləri yaxşı-yaxşı bilirlər. Buna görə də bu çətin yolu ötüb keçməkdə insanlara kömək edərək, onların azğınlığa düşməsinin qarşısını ala bilərlər.

Bəli, peyğəmbərlər tarix boyu insanlara layiqli köməklər edən ilahi təbiblərdir. Bu xidmətlər bədən təbiblərinin göstərdiyi xidmətlərdən qat-qat dəyərlidir. Peyğəmbərlər ruhun mələkuti cövhərini kəşf edərək insana təqdim etmiş, onların insani şəxsiyyətlərini dirçəltmişlər. İnsanları gözəl əxlaq, mə'nəviyyat və maariflə məhz onlar tanış etmiş, Allah dərgahına yaxınlaşma yollarını onlara öyrətmişlər. Onlar insanları Allahla və qeyb aləmi ilə tanış etmiş, ruhlarının saflaşdırılmasına, nəfslərinin pərvəriş olunmasına çalışmışlar. İnsanların arasında mövcud olan mə'nəviyyat, atifə, məhəbbət, gözəl əxlaq və sifətlər də məhz ilahi təbiblərin göstərdiyi ardıcıl sə'ylərin bərəkəti ilədir. Peyğəmbərlər olmasaydı şübhəsiz insanların vəziyyəti indiki kimi olmazdı.

Doğrusu, peyğəmbərlər həqiqi təbiblər və bəşəriyyətin ən üstün həkimləridir. Buna görə də hədislərdə **"təbib"** ünvanı ilə qeyd olunmuşdur.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) İslam Peyğəmbəri (s.ə.v.v) barəsində buyurur: **"Məhəmməd (səlləllahu ələyhi və**

**alihi və sələm) səyyar bir təbib idi. Nəfslərin müalicə olunması üçün daim çalışırdı, o, (nəfsdə olan yaraları müalicə etmək, xəstəliklərin kökünü kəsmək üçün) məlhəmləri və cərrahiyyə əməliyyatı vasitələrini hazırlamışdı və münasib vaxtlarda onlardan istifadə edirdi. Kor qəlblərə, kar qulaqlara, lal dillərə şəfa verirdi. Öz dərmanlarını insanların qəflət və heyrət yerlərində hikmət nurundan istifadə etməyən, həqiqət və maarifləri istixrac etməyən və buna görə də ot yeyən heyvanlar və bərk daşlar kimi yaşayan insanlara sərf edirdi.”**[1]

Qur’ani-Kərim peyğəmbərləri qəlblərə şəfa verən şəxs kimi tanıtdıraraq buyurur: **“Pərvərdigarınız tərəfindən sizə moizə və sinələrdə (qəlblərdə) olan dərdlərə şəfa (Qur’an) gəldi.”**[2]

Yenə buyurulur: **“Qur’andan, mö’minlər üçün şəfa və rəhmət olan şeyləri nazil etdik.”**[3]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) Qur’ani-Kərim barəsində buyurur: **“Qur’anı öyrənin, çünki o, kəlamların ən yaxşısıdır. Onun ayələrində yaxşı-yaxşı fikirləşin, çünki o, qəlblərin baharıdır (bahar yağışı kimi qəlbləri dirildir) və Qur’anın nurundan şəfa alın, çünki o qəlblərə şəfa verir.”**[4]

Başqa bir yerdə buyurur: **“Bilin! Hər kəs Qur’ana malik olsa heç bir şeyə ehtiyacı olmaz. Hər kəs Qur’andan məhrum olsa heç vaxt zəngin olmaz. Qur’ani-Kərim vasitəsilə öz qəlblərinizin xəstəliklərini müalicə edin və çətinliklərlə mübarizə aparmaq üçün ondan kömək diləyin. Çünki ən böyük xəstəliklərin, yə’ni küfr, mə’nəvi korluq və zəlalətin şəfası Qur’andadır.”**[5]

Bəli, İslam Peyğəmbəri (s.ə.v.v) nəfsləri müalicə edən ən yaxşı təbibdir. O, bizim dərdlərimizi və dərmanlarımızı yaxşı-yaxşı bilirdi. Bizim daxili və ruhi xəstəliklərimizə şəfa verən ən yaxşı proqramları, yə’ni Qur’anı bizim ixtiyarımıza vermişdir. Bundan əlavə, müxtəlif nəfsani xəstəliklərin tanınması, qarşısının alınması

---

[1] “Nəhcül-bəlağə”

[2] “Yunüs” surəsi, 57-ci ayə

[3] “İsra” surəsi, 82-ci ayə

[4] “Nəhcül-bəlağə”, 110-cu xütbə

[5] “Nəhcül-bəlağə”, 176-cı xütbə

və müalicə yollarını Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və bütün imamlar şərh etmişlər və bunlar da bizə hədis şəklində gəlib çatmışdır. Deməli, əgər öz nəfsimizin xoşbəxtlik və sağlamlığını istəyiriksə Qur'an və hədislərdən istifadə etməli və bununla da öz nəfsimizin sağlamlığına, ruhumuzun təmizliyinə çalışmalıyıq. Qur'an ayələrindən, Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və imamların (ə) yol göstərmələrindən istifadə edərək öz nəfsimizin xəstəliklərini tanıyıb onların müalicəsinə ciddi əhəmiyyət verməliyik. Bu həyati və müqəddəratı həll edən işdə səhlənkarlıq etsək böyük ziyana, ağır xəsarətə düçar olacağıq ki, onun da nəticəsi axirətdə aşkar olacaqdır.

## *NƏFSİN SAFLAŞDIRILMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ*

Əvvəldə qeyd olundu ki, nəfsin saflaşdırılması və pərvəriş verilməsi bizim üçün ən zəruri məsələlərdəndir. Çünki dünya və axirətdəki səadətimiz bu məsələyə bağlıdır. İlahi peyğəmbərlər də həmin hədəfi həyata keçirmək üçün məb'us olunmuşlar.

Ruhi quruculuq və nəfsin saflaşdırılması iki mərhələdə yerinə yetirilir:

**Birinci mərhələ** nəfsin pis işlərdən, yaramaz əməllərdən saflaşdırılması, yə'ni, qəlbin çirkin əxlaqdan təmizlənməsi və günahdan uzaq olmasıdır. Bu əmələ **təzkiyə** və **təxliyə** də deyilir.

**İkinci mərhələ** nəfsə pərvəriş verilməsi və onun təkmilləşdirilməsindən ibarətdir. Bu da haqq maarifin, elmlərin əldə olunmasıdır ki, gözəl əxlaqi fəzilətlərə sahib olmaq və saleh əməl görməklə müyəssər olur. Bu əmələ **təhliyə** də deyilir. Yə'ni nəfsə pərvəriş verilməsi, onun zinətləndirilməsi və təkmilləşdirilməsi.

İnsan özünü qurmaq üçün hər iki mərhələni ötməlidir, çünki əgər nəfs pisliklərdən paklanmasa haqq maarifin və elmlərin nəfsin pərvəriş olunması, onun gözəl əxlaqlara və saleh əmələ yiyələndirməkdən ötrü qabiliyyəti olmayacaqdır. Çirkin və pis işlərə aludə olub, şeytanın yuva saldığı bir qəlb ilahi nuru necə qəbul edə bilər? Allahın müqərrəb mələkləri belə bir qəlbə necə yol tapa bilər? Digər tərəfdən əgər iman, mə'rifət, əxlaqi səciyyələr və gözəl əməllər olmazsa insanın nəfsi hansı vasitələrlə pərvəriş tapıb təkamülə çatar? Deməli insan, öz nəfsini saflaşdırmaq üçün hər iki mərhələni ötməlidir. Bir tərəfdən qəlbini paklaşdırmalı, digər

tərəfdən isə saleh əməl görməlidir. Şeytanı qəlbdən çıxarıb mələyi ora daxil etməlidir. Allahdan başqasını qəlbdən çıxarıb ilahi feyz və nuraniyyəti cəlb etməlidir. Bu iki mərhələ bir-birini qarşılıqlı şəkildə tamamlayır. Əvvəlcə qəlbi saflaşdırıb saleh əməli sonraya saxlamaq, eləcə də batini çirkinliklərə göz yumaraq saleh əməlin ardınca getmək olmaz. Bu iki mərhələ eyni zamanda və bir-birinə uyğun şəkildə yerinə yetirilməlidir. Pisliklərin və çirkin əxlaqların tərk edilməsi insanı yaxşı işlərə doğru sövq edir, saleh əməlin yerinə yetirilməsi də günahın və çirkin əxlaqın tərk edilməsinə səbəb olur. Biz bu bəhsdə bu iki mərhələni bir-birindən ayrı şəkildə araşdırır və nəfsin saflaşdırılması məsələsini irəli salırıq.

## BİRİNCİ BÖLMƏ

## *NƏFSIN BOŞALDILMASI YAXUD SAFLAŞDIRILMASI*

### *NƏFSİN SAFLAŞDIRILMASI*

Bu mərhələdə üç əməli yerinə yetirmək lazımdır:

a) Nəfsin batil əqidələrdən, yanlış fikirlərdən və xurafatlardan təmizlənməsi;

b) Nəfsin çirkin əxlaq və rəzil sifətlərdən təmizlənməsi;

v) Günah işlərin tərk edilməsi.

Batil əqidələr və xurafatlar cəhalət, zəlalət və nadanlıqdan ibarətdir. Onlar qəlbi, nəfsi qaraldır, insanı təkamülün düz yolundan və Allah dərgahına yaxınlaşmaqdan saxlayır. Batil əqidə sahibləri təkamül yolunu tanımadıqlarından və azğınlıq vadisində qaldıqlarından şübhəsiz məqsədə çatmayacaqlar. Qaranlıq olan bir qəlb Allahın müqəddəs nurunun saçmasına necə mərkəz ola bilər? Eləcə də çirkin əxlaqlar heyvani xislətləri və səciyyələri gücləndirir, insani ruhu tədrici olaraq sönüklüyə doğru çəkir. Belə bir şəxs kamala və ilahi qürb məqamına çatmaqdan ibarət olan insaniyyətin əsl hədəfinə çatmayacaqdır. Günaha mürtəkib olmaq da nəfsi aludə edərək insanı təkamül yolundan saxlayır, Allaha yaxınlaşmaqdan azdırır və onu daha da uzaqlaşdırır. Belə bir şəxs yekun hədəfə nail olmayacaqdır. Deməli, nəfsin saflaşdırılması bizim üçün müqəddəratı həll edən, həyati və çox zəruri işlərdən hesab olunur. Buna görə də əvvəlcə çirkin əxlaq və günahlarla tanış olmalı, daha sonra əmələ başlayıb nəfsimizi paklamalıyıq.

Xoşbəxtlikdən birinci qismdə heç bir çətinliyimiz yoxdur, çünki nəfslərin həqiqi təbibləri və ilahi insanşünaslar, yə'ni peyğəmbərlər və imamlarımız rəzil əxlaqi xüsusiyyətləri bizə tamamilə aydınlaşdırıb vəsf etmiş, hətta onların müalicə yollarını da bəyan etmişlər; onlar günahları sadalamış, tərk edilmə yollarını da bizə öyrətmişlər. Bizim hamımız rəzil sifətləri tanıyır və onların çirkinliyini bilirik. Biz nifaq (münafiqlik), təkəbbür, həsəd, kin-küdurət, qəzəb, sözgəzdirmək, xəyanət, xudbinlik, bədxahlıq, xəbərçilik, töhmət, nalayiq söz danışmaq, kobudluq, zülm etmək, e'timadsızlıq, qorxaqlıq, paxıllıq, hərislik, eyb axtarmaq, yalan danışmaq, dünya malına məftun olmaq, məqam və vəzifə aşiqi olmaq, riyakarlıq, aldatmaq, hiyləgərlik, sui-zənn (bəd güman),

qəlbin qəsavəti, nəfsin zəifliyi və bu qəbildən olan digər xüsusiyyətlərin pis və yaramaz olduğunu bilirik.

Bizim hamımız fitri olaraq bunların çirkinliyini dərk edirik. Bundan əlavə yüzlərlə ayə və minlərlə hədis də bu xüsusiyyətlərin çirkin və qəbahətli olmasına şəhadət verir. Bu barədə hədis baxımından azacıq belə çatışmazlıq hiss olunmur. Eləcə də bütün haramlar və günah əməllər Qur'ani-kərimdə və şərif hədislərdə şərh olunmuş, onların cəzaları bəyan edilmişdir. Biz əksər hallarda onların hamısını bilirik. Buna görə də rəzil xüsusiyyətlərin, kəbirə və səğirə günahların tanınmasında heç bir çətinliyimiz yoxdur. Eyni halda əksər hallarda şeytanın və nəfsi-əmmarənin əlində əsir, nəfsimizi günahlardan, çirkin əxlaqlardan təmizləməyə müvəffəq olmuruq. Bizim əsas çətinliyimiz bundan ibarətdir və bunun üçün çarə yolu fikirləşməliyik.

Mənim bu məsələnin hadisənin ən mühüm amili iki şeydən ibarətdir: **1.Ö**z əxlaqi və mə'nəvi xəstəliklərimizi tanımır, ruhən xəstə olduğumuzu e'tiraf etmirik. **2.Ə**xlaqi və ruhi xəstəlikləri kiçik sayırıq və onların pis nəticələrindən və acınacaqlı aqibətindən qafilik. Buna görə də onları müalicə etmək üçün ciddi-cəhdlə sə'y göstərmirik. Məhz bu iki amil səbəbilə biz nəfsin islah edilməsi və saflaşdırılmasından qafil oluruq. İndi isə bu barədə müəyyən qədər bəhs edib müalicə yollarını araşdırırıq.

## *XƏSTƏLİKDƏN QAFİLLİK*

Biz əxlaqi xəstəlikləri adətən tanıyır, onların çirkinliyini dərk edirik. Lakin özümüzdə yox başqalarında. Əgər başqalarında müəyyən bir pis əxlaq, yaxud pis rəftarı görsək onun çirkinliyini yaxşı-yaxşı dərk edirik. Halbuki həmin çirkin sifət, bəlkə də ondan artığı bizdə olduğu halda, ümumiyyətlə ona diqqət yetirmirik. Məsələn, başqalarının hüququnu tapdalamağın pis iş olduğunu bilirik, təcavüzkara nifrət edirik. Halbuki özümüzün də təcavüzkar olmağımız mümkündür. Lakin ümumiyyətlə təcavüzkar olduğumuzu dərk etməyə bilərik. Bir çox hallarda işimizi təcavüz hesab etmirik, bə'zən də onu dəyərli və əxlaqi bir əməl kimi özümüzə təlqin edir, bununla da öz nəfsimizi, vicdanımızı qane edirik. Sair çirkin sifətlər də eynilədir. Buna görə də heç vaxt özümüzün islah edilməsi fikrinə düşmürük. Çünki bir kəs özünü xəstə hesab etməzsə, müalicə fikrinə də düşməz. Biz özümüzü

xəstə hesab etmədiyimiz üçün müalicə fikrinə də düşmürük. Bizim ən böyük çətinliyimiz də elə budur. Deməli, öz xoşbəxtlik və səadətimizin fikrində olsaq, gərək mümkün olan hər bir vasitə ilə bu çətinliyin həll edilməsi və nəfsani xəstəliklərimizin tanınmasına çalışaq.

## *NƏFSİN XƏSTƏLİKLƏRİNİN AYIRD EDİLMƏSİ YOLLARI*

Özümüzün müxtəlif nəfsani xəstəliklərimizin tanınmasında istifadə olunası müəyyən vasitə və yolların qeyd edilməsi yerinə düşərdi:

**1.Əql qüvvəsinin gücləndirilməsi.** İnsanın mələkuti və ali mərtəbəsi onun sair məxluqlardan seçilməsinə, onun imtiyaz və üstünlüyünə səbəb olan amil Qur’an və hədislərdə müxtəlif adlarla qeyd olunmuşdur; ruh, qəlb, nəfs və əql. Bunların hamısı vahid bir həqiqəti ifadə edir. Lakin, müxtəlif səbəblərə görə müxtəlif cür adlandırılmışdır. Həqiqi təfəkkür və düşüncənin mənşəyi olduğuna görə **əql** adlandırılır.

Hədis kitablarında əqlə çox böyük imtiyaz verilir. Hətta xüsusi bir fəsil də bu məsələyə məxsus edilmişdir. Hədislərdə əql varlıqların ən şərafətlisi, təklif, savab və cəzanın mənşəyi kimi təqdim edilmişdir. Məsələn:

İmam Məhəmməd Baqir (ə) buyurub: **“Allah əqli yaratdıqdan sonra ona belə buyurdu: “Gəl”. Əql itaət edib gəldi. Sonra buyurdu: “Qayıt”. Əql yenə də itaət etdi. Sonra buyurdu: “Öz izzət və cəlalıma and olsun! Səndən yaxşı və sevimli varlıq yaratmamışam. Səni yalnız sevdiyim kəslərdə kamil edərəm. Agah ol! Mənim əmr və nəhyim, savab verib, cəzalandırmağım da məhz sənə aiddir.”**[1]

İnsan məhz əqlin vasitəsilə düşünüb həqiqətləri dərk edir, yaxşı ilə pisi, faydalı şeylə zərərli şeyləri bir-birindən ayırır. Məhz əql vasitəsilə Allahı və özünü tanıyır, vəzifəsinin nə olduğunu ayırd edir. Əgər insanın əqli olmasaydı onunla sair heyvanlar arasında heç bir fərq olmazdı. Məhz buna görə də Mütəal Allah Qur’ani-Kərimdə təəqqül (əql işlətmə), təfəkkür (fikirləşmə) və təfəqqüh (dərrakə işə salma) barəsində tə’kid edir. İnsandan öz varlığı barəsində əqlini fəallaşdırmasını istəyir:

---

[1] “Kafi”, 1-ci cild, səh.10

**“Allah Öz ayələrini sizin üçün belə bəyan edir ki, bəlkə əqlinizi işə salasınız.”**[1]

**“Nə üçün yer üzündə seyr etmirlər ki, onların təəqqül edə biləcək qəlbləri olsun?!”**[2]

**“Allahın yanında canlıların ən pisi o kəslərdir ki, lal-kardırlar və əql qüvvəsini işlətmirlər.”**[3]

Mütəal Allah əqlə, qulağa, dilə malik olub real gerçəkliklərin, həqəqətlərin tanınmasında onlardan istifadə etməyən şəxsləri heyvanlarla bir cərgədə, hətta onlardan da alçaq səviyyədə təqdim edir. Çünki onlar öz əql qüvvələrindən istifadə etmirlər.

**“Allah çirkinliyi o kəslərə aid edər ki, əql qüvvəsini işlətmirlər.”**[4]

İnsanın malik olduğu bütün yaxşılıqlar onun əqli tərəfindəndir. Əql vasitəsilə Allahı tanıyır, Ona ibadət edir, məadı qəbul edir və onun üçün hazırlaşır, peyğəmbərlərin haqq olduğunu qəbul edir və onlara itaət edir, gözəl əxlaqi səciyyələri tanıyıb, özünü onlar əsasında tərbiyələndirir, çirkin xüsusiyyətləri, rəzillikləri tanıyır və onlardan uzuq olur. Buna görə də Qur’an və hədislərdə əql böyük məqama layiq görülür. Nümunə üçün:

İmam Cə’fər Sadiq (ə) əql barəsində soruşan bir nəfərin cavabında buyurdu: **“Əql o şeydir ki, onun vasitəsilə Allaha ibadət edilir və behişt kəsb olunur.”**[5]

İmam Cə’fər Sadiq (ə) yenə buyurur: **“Hər kəsin ağlı olsa dini vardır. Hər kəsin dini olsa behiştə daxil olar.”**[6]

İmam Musa ibni Cə’fər (ə) Hişama buyurdu: **“Allahın insanlar üzərində iki höccəti vardır. Onlardan biri zahiri, digəri isə batinidir. Zahiri höccətlər peyğəmbərlər və imamlar, batini höccət isə əqldir.”**[7]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Əql baxımından insanların**

---

[1] “Bəqərə” surəsi, 242-ci ayə

[2] “Həcc” surəsi, 46-cı ayə

[3] “Ənfal” surəsi, 22-ci ayə

[4] “Yunüs” surəsi, 100-cü ayə

[5] “Kafi”, 1-ci cild, səh.11

[6] “Kafi”, 1-ci cild, səh11

[7] “Kafi”, 1-ci cild, səh.16

**kamili o kəsdir ki, əxlaqı hamıdan yaxşı olsun.”**[1]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Əql mö’minin yol göstərənidir.”**[2]

İmam Riza (ə) buyurur: **“Hər kəsin dostu onun əqli, düşməni isə onun cəhalətidir.”**[3]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“İnsanın xudbinliyi onun əqlinin zəifliyini göstərir.”**[4]

İmam Musa ibni Cə’fər (ə) Hişama buyurdu: **“Hər kəs mal-dövləti olmadan ehtiyacsız, qəlbinin həsəd baxımından aram və dində sağlam olmasını istəyirsə, Allahdan onun əqlini kamilləşdirməsini istəyib yalvarsın. Hər kəs ağıllı olsa güzəranını tə’min edəcək miqdarla qənaətlənər. Hər kəs güzəranını tə’min edəcək miqdarla qənaətlənsə ehtiyacsız olacaqdır. Hər kəs güzəranını tə’min edəcək miqdarla qənaətlənməsə heç vaxt ehtiyacsız olmayacaqdır.”**[5]

İmam Musa ibni Cə’fər (ə) buyurur: **“Əql sahibləri nəinki günahları, hətta dünyanın artıq işlərini belə tərk edirlər. Halbuki dünyanı tərk etmək fəzilət, günahı tərk etmək isə vacibdir.”**[6]

Başqa bir hədisdə buyurur: **“Əql sahibi nəfsi meyl etməsinə baxmayaraq, heç vaxt yalan danışmaz.”**[7]

Başqa bir hədisdə buyurur: **“Hər kəsin mürüvvəti olmasa nuru yoxdur. Hər kəsin əqli olmasa mürüvvəti yoxdur. İnsanların ən dəyərlisi o kəsdir ki, dünyanı öz nəfsinin dəyəri bilməsin. Bilin ki, sizin bədənlərinizin qiyməti cənnətdən başqa bir şey olmaz. Onu cənnətdən başqa bir şey müqabilində satmayın.”**[8]

Bu hədislərdən əqlin dəyəri, onun maarif və elm kəsb etməkdə, iman qazanıb Allaha pərəstiş etməkdə, əxlaqi səciyyələrdən istifadə

---

[1] “Kafi”, 1-ci cild, səh.20
[2] “Kafi”, 1-ci cild, səh.25
[3] “Kafi”, 1-ci cild, səh.11
[4] “Kafi”, 1-ci cild, səh.27
[5] “Kafi”, 1-ci cild, səh.18
[6] “Kafi”, 1-ci cild səh.17
[7] “Kafi”, 1-ci cild, səh.19
[8] “Kafi”, 1-ci cild, səh.19

etməkdə və onları tanımaqda, günahlardan və çirkin xasiyyətlərdən çəkinməkdəki mühüm rolu mə’lum olur. İndi isə bir zəruri məsələni qeyd etmək lazımdır. Bu mühüm hədəflərin tə’min olunmasında sadəcə əql kifayət deyildir, əsas əqli işlətmək və ondan istifadə etmək lazımdır. Bədəndə əqlin varlığı işbilən və ədalətli bir qazinin məsəli kimidir. Lakin o vaxt yaxşı mühakimə yürüdüb hökm çıxara bilər ki, aram bir mühit yaranmış olsun və onun mühakiməsi qəbul edilsin. O bilikli, bacarıqlı, tədbirli, xeyirxah bir hakim kimidir. Lakin bu şərtlə ki, onun hökmü təsbit edilsin. O bilikli, e’timadlı, xeyirxah bir müşavirdir, lakin bu şərtlə ki, ondan məşvərət istənilsin və sözlərinə düzgün qulaq asılsın.

Əgər əql insana hakim olaraq nəfsani istəkləri və qərizələri normal (mö’tədil) hala salsa insanın **“bədən aləmini”** ən yaxşı şəkildə idarə edəcək, qərizələr və qüvvələr arasında müvazinəti qoruyub saxlayacaq və hər bir şeyi təkamül, Allaha doğru irəliləmək yolunda qərar verəcəkdir. Lakin görəsən heyvani qərizələr və meyllər əqlin hakimiyyətini elə bu sadəliklə qəbul edərək, onun göstərişləri müqabilində təslim olurmu? Əsla! Heyvani qərizələr və meyllər o qədər təxribatçılıq, fitnə-fəsad törədirlər ki, nəhayət onu meydandan çıxarırlar. Çarəsi də yalnız əqli gücləndirməkdir, çünki o, nə qədər güclü və nüfuzlu olarsa batini düşmənlərini daha yaxşı tanıyar, onların qarşısını alıb məhv etməkdə daha bacarıqlı olar. Əqlin gücləndirilməsi və möhkəmləndirilməsi yolunda çalışmaq hamımızın vəzifəsidir.

**2.Əməldən qabaq təfəkkür etmək.** Əqlin gücləndirilməsi üçün ciddi qərara gəlməliyik; hər bir əməli yerinə yetirməzdən öncə yaxşı-yaxşı fikirləşək, onun dünyadakı və axirətdəki nəticələrini, təsir və aqibətini araşdıraq və qərara alaq ki, heç vaxt bir işin aqibətini fikirləşmədən onu görməyəcəyik ki, nəticə e’tibarilə təfəkkürə və axır-aqibəti fikirləşməyə adət edək. Buna görə də İslam bizi təfəkkürə, axır-aqibəti düşünməyə də’vət edir.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Təfəkkür vasitəsilə öz qəlbini agah et.”**[1]

Yenə buyurur: **“Təfəkkür insanı yaxşı işlərə və onlara əməl etməyə də’vət edir.”**[2]

---

[1] “Kafi”, 2-ci cild, səh.54

[2] “Kafi”, 2-ci cild, səh.54

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **"Bir işi görməzdən qabaq onun axır-aqibətini fikirləşmək səni peşmançılıqdan amanda saxlayar."**[1]

Bir nəfər Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) hüzuruna gəlib dedi: «Ey Allahın Rəsulu! Mənə bir şey tövsiyə et.» Buyurdu: «Mənim tövsiyələrimə əməl edərsənmi?» Ərz etdi: «Bəli, ey Allahın Rəsulu. (Bu sual-cavab üç dəfə təkrar olundu). Sonra Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurdu: "**Sənə tövsiyə edirəm ki, hər vaxt bir iş barəsində qərara gəlmək istəsən əvvəlcə onun axır-aqibəti barəsində yaxşı fikirləş. Əgər yaxşı olarsa gör. Əgər səhv olarsa onu yerinə yetirməkdən çəkin."**[2]

Rəsuli-Əkrəm (s.ə.v.v) buyurur: **"Tələsmək insanları həlakətə salır. Əgər insanlar işlərində dərindən fikirləşsəydilər heç kəs həlak olmazdı."**[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"İşi tə'xirə salıb onun axırını fikirləşmək Allah tərəfindən, tələsmək isə şeytan tərəfindəndir."**[4]

Başqa bir hədisdə buyurulur: **"Təfəkkür yaxşılıqları və pislikləri sənə göstərən bir güzgü kimidir."**[5]

Heyvanlar öz işlərində nəfsani istəklərinə və qərizələrinə tabe olurlar. Onların təfəkkürü və tədbirləri yoxdur. Lakin insanın əqli olduğundan öz işləri barəsində fikirləşməli, onun axır-aqibətini düşünməlidir. İnsanda da həmin heyvani qərizələr və meyllər olduğundan heyvani bir istəklə qarşılaşan zaman dərhal ona tərəf təhrik olunur və qərizələr ona təfəkkür etmək icazəsi vermir. Əql meydana daxil olan kimi onun qarşısını alır. Deməli, əgər biz hər bir iş görməzdən qabaq onun barəsində yaxşı fikirləşməyə adət edə bilsək əql üçün yol açmış və ona meydan vermiş oluruq. Əql meydana daxil olduğu zaman bizim həqiqi mənafe və zərərimizi dərk edir, heyvani qərizə və meylləri normal (müvazinətli) hala salır və bizi bu yolda insani təkamülə doğru hidayət edir. Əql

---

[1] "Biharul-ənvar", 71-ci cild, səh.338
[2] "Biharul-ənvar", 71-ci cild, səh.339
[3] "Biharul-ənvar", 71-ci cild, səh.340
[4] "Biharul-ənvar", 71-ci cild, səh.340
[5] "Biharul-ənvar", 71-ci cild, səh.324

güclənən zaman bədən ölkəsində hakimiyyətə çatır və insaniyyətin daxili düşmənlərini və nəfsani xəstəlikləri bizim öz daxilimizdə araşdırıb onları dəf edir, yaxud müdafiə etməyə başlayır. Buna görə də Qur'anda və hədislərdə təfəkkür barəsində çoxlu tə'kidlər və tövsiyələr gözə dəyir.

**3-Nəfs barəsində bədbinlik**

İnsan əgər öz nəfsinə dərindən, diqqətlə nəzər salıb nəfsani sifətlərini insafla araşdırsa, əksər hallarda özünün nəfsani xəstəliklərini və eyblərini dərk edər. Çünki insan özünə hər kəsdən artıq agahdır. Allah-təala Qur'anda buyurur: **"Xeyr, insan öz nəfsinə (nəfsinin yaxşı və pis işlərinə) daha agahdır, baxmayaraq ki, öz bəsirət gözlərinə üzr (pərdəsi) atır."**[1]

Lakin bizim çətinliyimiz budur ki, mühakimə yürüdən zaman bitərəf mövqe seçə bilmirik. Əksər hallarda öz nəfsimizə nikbin oluruq. Özümüzü, xasiyyətimizi, iş və rəftarımızı, danışıqlarımızı yaxşı və eybsiz hesab edirik. Nəfsi-əmmarə heyvani işləri bizim üçün o qədər zinətləndirir ki, hətta pis işləri belə yaxşı görürük. Qur'ani-Kərim buyurur: **"O kəs ki, onun çirkin əməllərinə zinət verildi və ona yaxşı göstərildi (onu gördünmü?!) Allah da hər kəsi istəsə yoldan azdırar, hər kəsi istəsə hidayət edər."**[2]

Buna görə də öz eyblərimizi tapa bilmirik ki, onların müalicəsi fikrinə də düşək. Bunun çıxış yolu budur ki, həmişə öz nəfsimizə qarşı bədbin, bədgüman olaq, çoxlu pisliklərimiz, mə'nəvi xəstəliklərimiz olmasına ehtimal verək, hətta yəqin edək. Məhz bu halda nəfsimizi araşdırarıq.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Mö'min həmişə öz nəfsinə bədgüman olmalıdır. Həmişə onun eybini axtarar və ondan yaxşı işləri tələb edər."**[3]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) müttəqilərin (təqvalıların) xüsusiyyətlərini bəyan edərkən buyurub: **"Onların nəfsləri öz yanlarında töhmət və bədgümanlığa mə'ruz qalır və öz əməllərindən qorxurlar. Onlardan biri başqası tərəfindən tə'riflənən zaman (tə'rifdən) qorxur və deyir ki, mən öz nəfsimə**

---

[1] "Qiyamət" surəsi, 14, 15-ci ayələr

[2] "Fatir" surəsi, 8-ci ayə

[3] "Nəhcül-bəlağə", 176-cı xütbə

**hamıdan artıq agaham, Allah da mənə özümdən daha artıq agahdır.”**[1]

İnsanın öz nəfsani eyblərini, xəstəliklərini tapıb islah etməyə mane olan ən böyük amillərdən biri nəfs barəsində nikbinlik və hüsnü-zənn (xoş güman) etməkdir. Əgər bu maneələri aradan qaldırıb insafla və eyb ehtimalı verməklə nəfsimizi araşdırsaq, onun xəstəliklərini tanıyaraq islah edə bilərik.

**4.Ruhani təbibə müraciət etmək.**

İnsan öz eyblərini tanımaq üçün öz nəfsini paklaşdıran, özünü bəyənilən xüsusiyyətlərlə zinətləndirən əxlaq aliminə müraciət edərək, daxili xasiyyətlərini və vəziyyətlərini onun üçün tamamilə şərh edə və onun nəfsindəki eyblərin və çirkin sifətlərin xatırlatmasını istəyə bilər. Ruhani təbib, islami əxlaqşünas və psixoloq, əməl əhli və gözəl əxlaqlarla zinətlənmiş olan bir şəxs insanın nəfsinin aludəliklərdən təmizlənməsində, saflaşmasında və Allah dərgahına doğru seyr etməsində çox tə’sirlidir. Əgər insan belə bir şəxsi tapa bilsə bu böyük ne’mətə görə Allaha şükr etməlidir. Çox təəssüflə, belə şəxslər çox az tapılır.

Qeyd olunmalıdır ki, nəfs xəstəliklərinin ayırd edilməsi çox çətindir. Deməli, ruhu xəstə olan bir şəxs öz daxili xasiyyətlərini və işlərini ört-basdır etmədən təbib üçün ətraflı şəkildə bəyan etməlidir ki, təbib onun xəstəliyini ayırd edə bilsin. Əgər xəstə şəxs bu barədə həmkarlıq etməzsə və həqiqətləri açıb deməzsə istənilən nəticə əldə olunmayacaqdır.

**5.Xeyirxah və bilikli dosta müraciət etmək.**

Yaxşı, bilikli və xeyirxah dost Allahın böyük ne’mətlərindən biridir ki, insan nəfsinin təmizlənməsində, çirkin sifətlərin tanınmasında insana layiqli kömək edə bilər. Bu şərtlə ki, bilikli olsun və yaxşı-pis xasiyyətləri tanıya bilsin. Bundan əlavə o, insan üçün xeyirxah və e’timadlı bir şəxs olmalıdır. Çünki əgər yaxşı və pis sifətləri ayırd edə bilməzsə insana bu barədə heç bir kömək edə bilməz. Hətta çox hallarda yaxşını pis, pisi də yaxşı cilvələndirə bilər. Əgər e’timadlı və xeyirxah olmazsa dostluğun qorunub-saxlanması, inciməməsinə görə öz dostunun eyblərini gizlətməsi, hətta onun xoşu gəlsin deyə pis işlərini yaxşı cilvələndirib tə’rifləməsi də mümkündür.

---

[1] “Nəhcül-bəlağə”, 193-cü xütbə

Əgər insan belə bir dostu tapsa ona deməlidir ki, gördüyü hər eyb və nöqsanlı vəziyyəti ona xatırlatsın, o da xatırlatdığı təqdirdə ona təşəkkür etsin. Öz nəfsinin islah olunması üçün onlardan istifadə etsin. Bu kimi xatırlatmalardan istifadə etmək və təşəkkür etməklə əməldə ona başa salsın ki, eyblərinin xatırladılmasından nəinki narahat deyil, hətta sevinib xoşhal da olur.

Belə bir dost gərək əməldə tam sədaqət və ixlasını isbat etsin. Məsələyə insafla yanaşıb, məhəbbət və ədavəti kənara qoymaqla dostunun sifətlərini, xasiyyətlərini araşdırsın, onun nəzərinə çarpanları dostcasına və xeyirxahlıq dili ilə onun ixtiyarına qoysun. Bu işləri mümkün qədər məxfi şəkildə görsün və onun eybini başqalarının hüzurunda aşkar etməkdən ciddi şəkildə çəkinsin. Onun yeganə hədəfi həqiqətin izhar edilməsi olmalıdır. O, mübaliğə və şişirtmədən uzaq olmalıdır, çünki mö'min öz din qardaşı ilə müqayisədə, onun eyblərini, yaxud çirkinliklərini artırıb azaltmadan göstərən güzgüsü sayılır.

Əlbəttə, nəvazişlə, mehribanlıqla və islah etmək məqsədilə insanın eyblərini xatırladan dostlar çox azdır. Lakin əgər bir şəxs belə adamı taparsa böyük xoşbəxtliyə nail olar. Həmin şəxs onun qədrini bilməli, xatırlatmalarına sevinməli, təşəkkür etməli və insanın eyblərinin islah məqsədilə xatırladan bir kimsənin dostların ən yaxşısı və ən faydalısı olduğunu dərk etməli, heç vaxt onun xəbərdarlıqlarından inciməməli, intiqam almaq və özünü müdafiə etmək məqamına gəlməməlidir. Əgər bir şəxs "paltarınızda bir neçə zəhərli əqrəb vardır" - deyə sizə xəbərdarlıq etsə, onun verdiyi bu xəbərdən inciyərək intiqam almaq fikrinə gələrsinizmi? Yoxsa sevinib ona təşəkkür edərsiniz? Çirkin sifətlər də əqrəb kimi, hətta ondan da pisdir. Onlar insanın ruhunu sancıb zəhərləyir və həmişə insanın batinində yerləşir. Onların dəf edilməsində kömək edən şəxs bizə ən böyük xidmət etmiş olur.

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Qardaşlarımın ən yaxşısı o kəsdir ki, eybimi mənə hədiyyə etsin."**[1]

**6.Başqalarının eybindən ibrət götürmək.**

İnsan əksər hallarda öz eyblərindən qafildir, amma başqalarının eybini görərək onların çirkinliyini yaxşı şəkildə dərk edir. Atalar demişkən "başqasının gözündə tükü görür, öz gözündə isə tiri

[1] "Tuhəful-üqul", səh.385

görmür”. Deməli nəfsani eyblərin tanınma yollarından biri də başqalarının eybləri ilə qarşılaşmaqdır. İnsan başqasında bir eyib gördükdə onun üzərində dayanmadan, onu tənqid etmək fikrinə düşmədən gərək öz eybini axtarmaq fikrinə düşsün və həmin məqsədlə öz nəfsini araşdırsın, öz nəfsinə müraciət etsin və həmin eybi, onda olduğu surətdə islah edib aradan qaldırmaq fikrində olsun. Bu kimi hallarda başqalarının eybini görməklə ibrət alır və öz nəfsinin təmizlənməsinə çalışır.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Xoşbəxt o kəsdir ki, başqalarından ibrət alsın.”**[1]

**7.Tənqiddən nəticə çıxarmaq.**

Dostlar əksər hallarda insanın eybini deməkdən çəkinirlər. Düşmənlər isə bunun əksinə olaraq əksər hallarda insanı tənqid edirlər. Əlbəttə, onların insanı tənqid etməkdə məqsədi sədaqətli olmaq deyil. Onları bu işə həsəd, kin-küdurət, intiqamçılıq kimi hisslər vadar edir. Hər bir halda insan onların tənqidlərindən öz xeyrinə istifadə edə bilər.

İnsan düşmənlərin tənqidləri müqabilində iki cür reaksiya göstərə bilər:

1.Özünü müdafiə etmək fikrində olsun. Bu sözlərin düşmən tərəfindən deyilməsini və xeyirxahlıq məqsədinin olmasını bəhanə edərək mümkün olan hər bir vasitə ilə özünü müdafiə etsin və onların səsini boğsun. Belə şəxs nəinki öz eybini islah etməmiş, əksinə xəta və sair səhvlərə də aludə olmuşdur.

2.Düşmənlərin tənqidlərinə yaxşı-yaxşı qulaq assın, sonra həqiqəti axtarıb tapmaq məqsədilə öz nəfsinə müraciət etsin, onu insafla araşdırsın. Əgər düşmənin tənqidinin düzgün və öz nəfsinin eybli olduğunu görsə, dərhal onu islah etmək fikrinə düşsün, hətta əgər məsləhət olarsa onun eybini deməklə nəfsinin saflaşdırılmasına səbəb olduğu üçün düşmənə də təşəkkür etsin. Belə düşmənçilik şübhəsiz insanın eyblərini gizlədərək onu tə’rifləyən, bununla da insanı nadanlıq və cəhalətdə saxlayan mühafizəkar və yaltaq dostlardan çox yaxşı və faydalıdırlar. Amma əgər öz nəfsinə müraciət etdikdən sonra qeyd olunan eyblərin onda olmadığını görərsə Allaha şükr etsin və sonralar belə çirkin sifətlərə aludə olmaması üçün öz nəfsini gözləsin. Belə olan halda insan

[1] “Biharul-ənvar”, 71-ci cild, səh.324

düşmənlərin tənqidlərindən bəhrələnir. Əlbəttə, bu cür rəftarlar insanın xain düşmənlərin hiyləgərlik planlarını əqli və şər'i yollarla zərərsizləşdirməsinə mane olmamalıdır.

**8.Qəlbin xəstəliyinin əlamətləri.**

Xəstəliyi tanımağın ən yaxşı yollarından biri onun əlamətlərinin görünməsidir. Bədəndə mövcud olan əzaların xəstəliyi iki yolla tanınır: ya ağrı hiss edilməklə, yaxud da hər hansı bir üzvün orqanizmdə öhdəsinə aldığı işi yerinə yetirməməsi ilə. Bədən üzvlərindən hər biri sağlam halda bədənin idarə olunmasında xüsusi funksiyanı, öz vəzifəsini lazımınca yerinə yetirir. Deməli, əgər hər hansı bir üzv öz vəzifəsini yerinə yetirməkdə aciz olarsa xəstələnməsi mə'lum olur. Məsələn, göz sağlam halda və xüsusi şəraitdə xarici əşyaları müşahidə edir. Əgər bu şəraitin mövcud olması ilə ya ümumiyyətlə görməzsə, ya da görməsi zəifləyərsə xəstələnməsi mə'lum olur. Bədənin sair üzvləri, o cümlədən qulaq, dil, əl, ayaq, qəlb, böyrək, qara ciyər və s. hamısının özünəməxsus vəzifələri vardır ki, sağlam halda onu yerinə yetirir. Əgər vəzifəsini yerinə yetirməzsə xəstələnməsi mə'lum olur.

İnsanın qəlbi və nəfsi də belədir. O, müəyyən işləri öhdəsinə almışdır və yaradılış qanunlarına uyğun olaraq onları yerinə yetirməlidir. O, mələkut aləmindən gəlmişdir, elm, rəhmət, qüdrət, ehsan, ədalət, məhəbbət, mə'rifət, nuranilik və s. fəzilətli sifətlər, gözəl əxlaqla uyğunluğu vardır. O, fitri olaraq hər şeyin səbəbini axtarır, Allahı istəyir. İnsanın Allaha iman gətirib diqqət yetirməsi, Onunla ünsiyyətdə olması, Ona məhəbbət bəsləməsi, Allaha ibadət və pərəstişi, Onunla dua və raz-niyaz etməsi, dərgahında yalvarması, həmçinin elm və biliyə, ehsan və xidmətə meyl, Allah xatirinə Onun məxluqatına xidmət etmək, fədakarlıq edib canından keçmək, ədalət istəmək və s. gözəl əxlaqi səciyyələr nəfsin sağlamlıq əlamətləri hesab olunur. Əgər insan bu qəbildən olan sifətləri özündə görürsə nəfsinin sağlam olduğu mə'lum olur. Amma əgər Allaha diqqət yetirməsə, ibadət, dua və münacatdan ləzzət almasa, bu kimi işlərdən qaçsa, Allahı sevməsə, dünya mal-dövlətinə, məqam və sərvətə, arvad-uşağa, şəhvətə və heyvani ləzzətlərə meyl etməyi Allahın razılığından üstün hesab etsə, həyatda şəxsi mənafeyini tə'min etməkdən başqa bir hədəfi olmazsa, fədakarlıq, ehsan, Allahın məxluqlarına xidmət etməkdən ləzzət almazsa, insanların əzab-əziyyət və narahatlığından

narahatlıq hissi və vicdan əzabı keçirməzsə belə bir şəxs nəfsinin doğrudan da xəstə olduğunu bilməlidir. Əgər öz səadət və xoşbəxtliyini istəyirsə mümkün qədər tez bir zamanda onu islah və müalicə etmək qərarına gəlməlidir.

## *MÜALİCƏ ETMƏYƏ DAİR QƏRAR*

Nəfs xəstəliklərini tanıdıqdan, xəstə olduğumuza yəqin etdikdən sonra müalicəni dərhal başlamalıyıq. Bu mərhələnin ən mühüm mövzusu qərar və iradədir. Əgər doğrudan da özümüzü pisliklərdən, çirkin əxlaqdan paklamaq istəsək bunu hökmən edə bilərik. Lakin məsələni kiçik və əhəmiyyətsiz hesab etsək və bu barədə müəyyən qərara gəlməsək onun sağalması qeyri-mümkün olacaqdır. Məhz bu mərhələdə şeytan və nəfsi-əmmarə meydana daxil olur və müxtəlif hiylələrə əl ataraq bizi həmin qərardan çəkindirmək istəyir. Bu halda tam ayıq olmalı və onların hiyləgərliklərinə aldanmamalıyıq. Bizim çirkin sifətimizə bəraət qazandırıb belə deyə bilərlər: «Sən cəmiyyətlə yaşamaq istəyirsən. Başqalarında da bu sifət vardır. Filankəslərə bax. Onlar da bu sifətə, hətta bundan pisinə də düçar olurlar. Sən təklikdə yaxşı olmaq istəyirsən? “Palaza bürün ellə sürün!”»

Lakin bu hiylə qarşısında qətiyyətlə dayanaraq deməliyik ki, başqalarında belə bir xəstəlik varsa onun mənə nə dəxli var? Başqalarının nəfsani eyblərə mübtəla olması məni qane etmir. Hər bir halda məndə eyb və xəstəlik vardır, mən bu eyblərlə ölməli və əbədi bədbəxtçiliyə düçar olmalıyammı? Deməli nəfsin müalicə olunmasında və onun aludəliklərdən təmizlənməsində sə’y etməliyəm.

Bə’zən də şeytan “vaxtı keçirtmək”, “tə’xirə salmaq” kimi hiylələrlə meydana daxil olur və bizi öz iradə və qərarımızdan döndərmək istəyir. Deyir ki, düzdür bu eyb səndə vardır və onu islah etməlisən, lakin hələ çox vaxt vardır, nə üçün bu qədər tələsirsən? Qoy filan iş tamam olsun, vaxt tapanda nəfsini saflaşdırarsan. İndi cavansan və sənin kef çəkmək vaxtındır, qocalıq vaxtı çatanda tövbə edib paklanmağa başlayarsan.

Diqqət yetirməliyik ki, bu da bir növ şeytanın hiyləsidir. Həmin vaxta qədər sağ qalacağın haradan mə”lumdur? Bəlkə ondan əvvəl əcəlin çatdı və həmin nəfsani xəstəliklərlə dünyadan getdin?! Belə olan halda bizim müqəddəratımız necə olacaqdır? Tutaq ki, o dövrə

qədər sağ qaldıq, lakin görəsən nəfsi-əmmarə və şeytan o dövrdə bizdən əl çəkib hiylələrini bizim başımızda icra etməyəcəkmi və bizi nəfsimizin işləri ilə məşğul olmağa azad qoyacaqmı? O zamanda da başqa hiylələrlə gəlib bizim qərarımızı döndərmək istəyəcəkdir. Deməli, yaxşı olar ki, elə indidən əmələ başlayaraq, əmmarə və inadkar nəfsi cilovlayaq.

Bə'zən nəfsi-əmmarə bizə belə deyə bilər: "Axı sən filan günaha və sifətə adət etmisən, onun tərk olunması qeyri-mümkündür. Sən həvayi-nəfsin əsirisən, özünü bu əsarətdən necə xilas etmək istəyirsən? Sənin nəfsin günah vasitəsi ilə qaralmışdır və sənin qayıdışına bir yol yoxdur."

Bilməliyik ki, bu da bir növ hiylədir. Əmmarə nəfsinə demək lazımdır ki, adətin tərk edilməsi qeyri-mümkün deyildir, tamamilə mümkün olan bir işdir. Əlbəttə çətindir, lakin hər bir halda əmələ başlayıb öz nəfsimi təmizləməliyəm.

Əgər günahın, çirkin sifətlərin tərk edilməsi və onlardan uzaqlaşmaq mümkün olmasaydı Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və imamlar bu qədər göstərişlər verməzdi, əxlaqi tövsiyələr etməzdi. Tövbə qapısı həmişə açıqdır və heç vaxt bağlanmır. Deməli, qəti qərara gələrək öz nəfsimizi təmizləməliyik.

Mümkündür, şeytan və ya nəfsi-əmmarə çirkin sifətləri və nəfsani xəstəlikləri kiçik, çox da mühüm olmayan bir şey kimi cilvələndirərək desin: «Sən ki, vacibatı yerinə yetirirsən, filan-filan müstəhəb əməlləri görürsən, bil ki, Allah səni bağışlayacaq, yerin behişt olacaqdır. Səndəki çirkin xasiyyətlər çox da mühüm deyildir, müstəhəbləri yerinə yetirməklə onlar bağışlanacaqdır.»

Burada da diqqət yetirmək lazımdır ki, bu cür bəraət qazandırmaq nəfsi-əmmarənin və şeytanın hiylələrindəndir. Nəfsi-əmmarəyə deməliyik ki, saleh əməl yalnız müttəqilərdən qəbul olunur. Təqvanın hasil olması da nəfsin təmizlənməsi olmadan mümkün deyildir. Əgər bizim nəfsimiz pisliklərdən təmizlənməzsə yaxşı xislətlərin pərvəriş tapmasına onda yer olmayacaqdır. Şeytan qəlbdən çıxmayınca mələk ora gəlməz. Əgər nəfs və qəlb günah işlər və rəzilətli sifətlərə aludə olubsa onun axirət aləmində də heç bir nuru olmayacaqdır.

Həmişə nəfsani xəstəliklərin təhlükəli və ağır aqibətinə tam diqqət yetirməliyik. Bundan əlavə əxlaq kitablarına və hədis mənbələrinə müraciət etməklə nəfsani xəstəliklərin hər birinin pis

tə’sirlərini, onların axirətdəki cəzalarını diqqət mərkəzində saxlamalı, bununla da nəfsi-əmmarə, şeytanın hiylələri və əməllərin yaxşı cilvələndirilməsi müqabilində müqavimət göstərməli, nəfsin islah edilib təmizlənməsində qəti qərara gəlməliyik. Əgər iradə mərhələsindən keçsək əməl mərhələsinə daha yaxın olarıq.

## *NƏFSİN NƏZARƏT ALTINDA SAXLANMASI VƏ QƏLƏBƏ*

İnsanın bütün pis və yaxşı hərəkət, danışıq və əməllərinin mənşəyi onun nəfsidir. Əgər nəfs islah olunarsa insanın dünya və axirəti tə’min və abad olunar. Əgər fəsada, əxlaqsızlığa adət edərsə bütün pisliklərin mənşəyi olacaq, dünya və axirətdə insanı fəlakətə sürükləyəcəkdir. Əgər insaniyyət yolunda qədəm götürərsə Allah dərgahına yaxın olan mələklərdən də daha artıq yüksələ bilər. Yox əgər şərif insaniyyət gövhərini görməməzliyə vuraraq heyvaniyyət yolunda qədəm götürərsə heyvanlardan da alçaq olar, hətta şeytanlıq məqamına qədər süqut edər. Bu iki yoldan hər birini ötməkdə lazım olan səbəb və vasitələr insanın daxilində mövcuddur. Onun həm əqli vardır və fitri olaraq əxlaqi fəzilətləri, insani keyfiyyətləri istəyir, həm də bir heyvan kimi heyvani qüvvələrə və qərizələrə də malikdir. Amma heyvani qərizələr, qüvvələr və meyllərin də tamamilə batil və ziyanlı olması, insanı süquta çəkməsi düşünülməməlidir. Əksinə, onların varlığı insan həyatı üçün zəruridir. Əgər onlardan düzgün istifadə olunarsa insanın təkamülü və Allah dərgahına yaxınlaşması yolunda kömək olur.

Amma əsas çətinlik bundan ibarətdir ki, heyvani istəklər və təmayüllər heç bir müəyyən həddə dayanmır və başqalarını nəzərə almır. Nə insani istəklərə diqqət yetirir, nə də sair qərizələri nəzərə alır. Əksinə, hədəfi yalnız onları tam mə’nada tə’min etməkdən ibarətdir. Bundan başqa heç bir hədəfi yoxdur. Yemək-içməyə, cah-cəlala, məqama, şan-şöhrətə, vəzifəyə, rəisliyə və mal-dövlətə məhəbbət, güzəranda eyş-işrətdən və firavanlıq kimi şeylərdən ləzzət almaq, qəzəb və intiqamçılıq kimi xüsusiyyətlər heç bir həddə dayanmır, onlardan hər biri tamam-kamal surətdə tə’min olunmağı tələb edir. Buna görə də insanın nəfsi həmişə müxtəlif qərizələrin çarpışmasına meydan yaradır. Onda heç vaxt aramlıq və sükunət yoxdur. Onlardan hansı biri qələbə çalsa nəfsi özünün kamil əsarəti altına alacaqdır.

Lakin bu çarpışma əsnasında əql çox mühüm mövqeyə və qüdrətə malik olur. O, şəriətin göstərişlərindən istifadə edərək nəfsani qərizələri, meylləri və istəkləri nəzarət altına ala bilər, onları mö”tədil hala salaraq baş verəcək təfrit və ifratın qarşısını ala bilər, hakimiyyət məqamını ələ keçirərək qərizə və istəklərin arasında müvazinət yarada bilər. Bununla da “nəfs ölkəsini” hərc-mərclikdən, tüğyançılıqdan qurtararaq insaniyyətin düzgün yoluna və Allah dərgahına doğru seyr-süluka hidayət edə bilər.

Amma əqlin hakimiyyət tapması o qədər də asan deyildir. Çünki o, çox güclü, hiyləgər və aldadıcı düşmənlə qarşı-qarşıya durur. “Nəfsi-əmmarə” adlanan bu düşmən həddindən artıq bəhanə gətirir. Onu himayə edən çoxlu köməkçiləri də vardır.

Allah-təala Qur’anda buyurur: **“Nəfs insanı daim pis yollara (ketməyə) əmr edir, yalnız Pərvərdigarımın rəhm etdiyi şəxslərdən başqa.”**[1]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Sənin ən böyük düşmənin iki böyrün arasında yerləşən nəfsindir.”**[2]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Əql və şəhvət biri-birinə ziddir. Elm əqli, həvayi-nəfs isə şəhvəti himayə edir. Nəfs bu iki qüvvənin çəkişdiyi, mübarizə apardığı meydandır; onlardan hər biri digərinə qələbə çalsa nəfsi öz ixtiyarına keçirir.”**[3]

Həzrət Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **“Şər və pislik hər bir nəfsin daxilində gizlənmişdir. Əgər sahibi ona qələbə çalsa gizlənər, qələbə çalmazsa aşkar olar.”**[4]

Deməli, əql çox gözəl hakimdir. Amma onun müəyyən qədər köməyə, həmkarlığa ehtiyacı vardır. Əgər bu batini çarpışmada əqlin tərəfini saxlasaq, nəfsani istəklərə, şəhvətlərə və həvayi-nəfsə həmlə etsək “bədən ölkəsinin” idarə olunmasını əqlin ixtiyarına vermiş oluruq. Bunun ardınca da böyük nailiyyətlərə, qələbələrə çatırıq. Bunu da şəriət, təriqət və həqiqət rəhbərləri – Peyğəmbəri-Əkrəm (s.ə.v.v), onun pak və ismətli Əhli-beyti (ə) bizdən istəmiş,

---

[1] “Yusif” surəsi, 53-cü ayə
[2] “Biharul-ənvar”, 70-ci cild, səh.64
[3] “Ğurərul-hikəm”,, 1-ci cild, səh.96
[4] “Ğürərul-hikəm”, 1-ci cild, səh.105

bu barədə çoxlu tə’kidli göstərişlər vermişlər.

Həzrət Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Ehtiyatlı olun, şəhvətlər (həvayi-nəfs) sizin qəlblərinizə qələbə çalmasın. Çünki o, əvvəlcə sizi öz mülkiyyətinə keçirir, axırda isə sizi həlakətə salır.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Hər kəs özünün nəfsani istəklərini öz mülkiyyətinə (ixtiyarına) keçirməsə, öz əqlinin də maliki olmayacaqdır.”**[2]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Nəfsani istəklərin qələbə çalması ən böük həlakət (bədbəxtçilik), (insanın) ona qələbə çalması isə malikiyyətlərin ən yaxşısıdır.”**[3]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Hər kəs rəğbət, qorxu, şəhvət, qəzəb və razılıq anlarında öz nəfsinə hakim olsa Allah cəhənnəm odunu onun bədəninə haram edər.”**[4]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: «**Öz nəfslərinizə hakim olun və onu günahlardan çəkindirin ki, itaətə doğru çəkmək asan olsun.”**[5]

Deməli, nəfsə hakim kəsilib onun istəklərini nəzarət altına almaq nəfsin saflaşdırılması üçün zəruri və həyati bir məsələdir. İnsanın nəfsi hələ minilməyən və ipə-sapa yatmayan inadkar bir ata bənzəyir: əgər riyazət vasitəsilə ram olub cilovlanarsa ona minib istifadə etmək olar. Amma əgər ram olmazsa və istədiyi hər tərəfə hərəkət edərsə insanı uçuruma salar. İnadkar və ipə-sapa yatmayan nəfsin ram edilməsi də çox çətindir. O, əvvəlcə sənin qarşında ciddi müqavimət göstərəcəkdir. Lakin sən də müqavimət göstərsən axırda təslim olacaqdır. Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Əgər nəfsin sənin qarşında inadkarlıq göstərsə (tərslik edərsə) və təslim olmazsa sən də onun qarşısında ciddiyyət göstər ki, sənin üçün zəlil və ram olsun. Onunla hiyləgərliklə rəftar et ki, özünə itaət etdirə biləsən.”**[6]

---

[1] “Ğurərul-hikəm”, səh.16
[2] “Ğurərul-hikəm”, 2-ci cild, səh.702
[3] “Ğurərul-hikəm”, 2-ci cild, səh.507
[4] “Vəsailuş-şiə”, 6-cı cild, səh.123
[5] “Ğurərul-hikəm”, 2-ci cild, səh.908
[6] “Ğurərul-hikəm”, səh.319

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **"Nəfsani istəklər və şəhvətlər öldürücü xəstəliklərdir. Onların ən yaxşı müalicəsi də onların qarşısında səbr edib müqavimət göstərməkdir."**[1]

## *NƏFS İLƏ CİHAD*

Nəfs bizim ən böyük düşmənimizdir. Daim əql ilə mübarizə aparır. O, şeytanın vəsvəsələrindən ilham alıb öz ordusu ilə əqlə hücum edir ki, onun nurunu söndürsün və ona qalib gəlsin. Əsas məqsədi də bundan ibarətdir ki, mələkləri nəfs ölkəsindən çıxarıb onu işğal etsin və kamil şəkildə şeytanların ixtiyarına versin. Çoxlu üzr gətirən və bəhanə axtaran bu düşməni məğlub etmək o qədər də asan iş deyildir. Bu iş üçün tam qətiyyətli olmaq, güclü müqavimət göstərmək, hətta cihad aparmaq belə lazım gəlir. Özü də bir-iki dəfə, bir-iki gün, yaxud bir-iki il deyil, insan ömrünün axırına kimi davam etdirilməli bir cihaddan, ciddi mübarizədən ibarətdir. Nəfsin və onun istəklərinin cilovlanması, qərizələrin nəzarət altına alınması üçün çox ciddi mübarizə aparmalıyıq. Biz Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) və mə'sum imamların (ə) fərmanlarından ilham almalı, əqlə və onun qoşununa gömək etməli, nəfs təcavüzlərinin və yersiz əməllərinin qarşısını almalı, müqavimət göstərib onun ordusunun kökünü kəsməliyik ki, əql bədən ölkəsinə hakim olsun, şəriət göstərişlərindən ilham almaqla bizi insaniyyətin kamal yolunda qərar versin və Allah dərgahına yaxınlaşdırsın.

Nəfslə heç vaxt sülh və saziş etmək olmaz: onu məğlub edincəyə və öz yerində oturduncaya qədər həmişə onunla mübarizə aparmalıyıq ki, özünün hiyləgərlik işlərindən əl çəksin. Səadətə çatmaq üçün bundan başqa bir yol yoxdur. Buna görə də "nəfslə mübarizə" barəsində olan hədislərdə "nəfs ilə cihad" ifadəsi gözə dəyir. Nümunə olaraq Əmirəl-mö'minin Əliyyibni Əbitalibin (ə) kəlamlarından bə'zilərini nəql edirik.

Həzrət Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Cihadı davam etdirməklə öz nəfsinizə hakim kəsilin."**[2]

Yenə buyurur: **"Nəfsin istəklərinə, həvayi-nəfsə qələbə çalın və onunla mübarizə edin. Çünki əgər o, sizi zəncirə çəkə bilsə**

---

[1] "Ğurərul-hikəm", 1-ci cild, səh.72
[2] "Ğurərul-hikəm", 1-ci cild, səh.131

**həlakətin ən alçaq dərəcələrinə sürükləyəcəkdir.”**[1]

Yenə buyurur: **“Agah olun (və bilin ki, nəfs ilə) cihad elə bir ne’mətdir ki, onun vasitəsilə behişt qazanılır. Belə isə hər kəs öz nəfsi ilə cihad etsə və ona qalib gəlsə behişt (yaxud, nəfsin özü) onun qüdrətini tanıyan kəs üçün ən yaxşı mükafatdır.”**[2]

Yenə buyurur: **“Düşmən öz düşməni ilə cihad apardığı kimi siz də nəfs ilə cihad edərək onu Allaha itaət etməyə vadar edin. Zidd öz ziddinə qələbə çaldığı kimi, siz də ona qələbə çalın. Çünki camaatın ən güclüsü o kəsdir ki, öz nəfsinə qələbə çalmış olsun.”**[3]

Yenə buyurur: **“Aqil o kəsdir ki, öz nəfsi ilə mübarizəyə – cihada məşğul olsun, onu islah etsin, həvəslərdən və ləzzətpərəstlikdən saxlasın, bunun vasitəsilə onu cilovlasın və öz nəzarəti altına salsın. Həqiqətən ağıllı və aqil insan öz nəfsinin islahına o qədər məşğuldur ki, dünyaya, onda olanlara və dünya əhlinə diqqət yetirməz (əhəmiyyət verməz).”**[4]

Nəfs ilə cihad müqəddəratı həll edən mühüm bir mübarizədir. Belə ki, bizim necə yaşamağımız, dünya və axirətdə necə olmağımız, hətta bizim nə olmağımız belə, ona bağlıdır. Əgər biz cihad ilə nəfsimizi məğlub etməsək, onu cilovlamasaq o bizi məğlub edərək istədiyi tərəfə sürükləyəcəkdir. Əgər biz onu əsarət altına almasaq o bizi əsir və özünə qul edəcəkdir. Əgər biz onu gözəl əxlaqlara və insani davranışlara vadar etməsək o bizi çirkin işlərə və yaramaz hərəkətlərə vadar edəcəkdir.

Deməli, nəfs ilə cihad Allah dərgahına seyr edənlərin öhdəsinə qoyulan ən mühüm və ən çətin vəzifədir. İnsan bu yolda nə qədər qüvvə sərf eləsə, yenə də dəyərlidir.

## *ƏN BÖYÜK CİHAD*

Nəfs ilə cihad etmək o qədər mühümdür ki, Peyğəmbəri-Əkrəm (s.ə.v.v) onu “ən böyük cihad” (“cihadi-əkbər”) adlandırmışdır və hətta silahlı cihadlardan da böyük və əhəmiyyətli bir məsələ kimi

[1] “Ğurərul-hikəm”, 1-ci cild, səh.138
[2] “Ğurərul-hikəm”, 1-ci cild, səh.164
[3] “Ğurərul-hikəm”, 1-ci cild, səh.371
[4] “Ğurərul-hikəm”, 1-ci cild, səh.237

təqdim etmişdir.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) nəql edir ki, Peyğəmbəri-Əkrəm (s.ə.v.v) böyük bir ordunu düşmənlə müharibəyə göndərdi. Onlar (qələbə çalıb) müharibədən qayıtdıqda buyurdu: "Əhsən o kəslərə ki, kiçik cihadı yerinə yetirdilər, lakin onların qarşısında daha böyük bir cihad da durur." Soruşdular: «Ya Rəsuləllah! Ən böyük cihad hansıdır?» Buyurdu: "Nəfs ilə olan cihad."[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Cihadların ən yaxşısı o kəsin cihadıdır ki, iki böyrü arasında yerləşən nəfsi ilə etmiş olsun."**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Həzrət Əliyə (ə) vəsiyyət edərkən buyurdu: **"Ya Əli! cihadların ən yaxşısı o kəsin cihadıdır ki, gecəni bir kəsə zülm etmək qəsdi olmadan sübh etmiş olsun."**[3]

Bu hədislərdə nəfs ilə cihad ən böyük və ən fəzilətli cihad kimi təqdim olunur. Bu, hətta Allah yolunda aparılan cihadlardan belə fəzilətli və üstündür. Allah yolunda aparılan cihadın ən yaxşı ibadət və son dərəcə böyük fəzilətə malik olmasına diqqət yetirməklə nəfs ilə aparılan cihadın əhəmiyyət və dəyəri aydın olur. Nəfs ilə cihadın ən üstün cihad olmasını üç yöndən araşdırırıq:

**Birinci.** Hər bir ibadətdə, hətta Allah yolunda aparılan silahlı mübarizədə belə, nəfs ilə cihada iki yöndən ehtiyac vardır. **Əvvəla,** ibadətin özünün kamil şəkildə və bütün şərtləri ilə yerinə yetirilməsində nəfs ilə cihada ehtiyac vardır. Görəsən, namazı «mö'minin me'racı» olacaq və «insanı çirkin işlərdən çəkindirəcək» dərəcədə hüzuri-qəlb ilə, bütün şəraitlərinə riayət etməklə qılmaq cihad və sə'y olmadan mümkün ola bilərmi?

Görəsən, «orucun cəhənnəm odundan bir sipər olacağı» dərəcədə kamil bir şəkildə tutulması nəfs ilə cihad olmadan mümkündürmü? Görəsən, nəfs ilə cihad olmadan mücahid bir insan müharibə meydanında öz canından keçərək islam düşmənlərilə yaxşı mübarizə apara bilərmi? Sair ibadətlərdə də məsələ eynilə belədir.

---

[1] "Vəsailuş-şiə", 11-ci cild, səh.124

[2] "Vəsailuş-şiə", 11-ci cild, səh.124

[3] "Vəsailuş-şiə", 11-ci cild, səh.123

**İkincisi,** hər bir ibadət Allah tərəfindən yalnız o zaman qəbul olunur və bəndənin Allah dərgahına yaxınlaşmasına səbəb olur ki, yalnız Allahın razılığı üçün yerinə yetirilsin, hər növ şirkdən, riyadan, xudbinlikdən və s. kimi nəfsani məqsədlərdən pak və xalis olsun. Belə bir iş də nəfslə cihad olmadan əsla mümkün deyildir. Hətta silahlı mübarizə və şəhadət də o zaman dəyərə malik olur və insanın Allah dərgahına yaxınlaşıb təkamülə çatmasına səbəb olur ki, tam mə’nada Allahın razılığı və tövhid kəlməsinin yüksəldilməsi məqsədilə olsun. Lakin əgər bu böyük ibadət şan-şöhrət qazanmaq, düşməndən intiqam almaq, yaxud insanın adının tarixdə əbədi qalması, özünü göstərmək, riyakarlıq, məqam kəsb etmək, həyat çətinliklərindən xilas olmaq, yaxud sair nəfsani qərəz və məqsədlər xatirinə olsa heç bir mə’nəvi dəyərə malik olmayacaq, insanın Allah dərgahına yaxınlaşması amili sayılmayacaqdır. Deməli, nəfs ilə aparılan cihad bütün ibadət və xeyir əməllərdən, hətta Allah yolunda aparılan cihaddan belə üstündür, çünki onların hamısının düzgünlüyü və kamilliyi nəfs ilə aparılan cihada bağlıdır. Məhz buna görə də nəfs ilə aparılan cihad **“ən böyük cihad”** adlandırılmışdır.

**İkinci.** Silahlı cihad xüsusi zaman və şəraitlərlə vacib olur. Bundan əlavə o vacibi-eyni deyil, kifaidir. Yə’ni, bə’zilərinin bu cihada getməsi ilə başqalarının öhdəsindən götürülür. Bə’zi dövrlərdə bu kimi cihad, ümumiyyətlə vacib deyildir. Vacib olduğu təqdirdə də vacibi-kifaidir. Yə’ni əgər lazımi qədər əsgər iştirak edərsə və başqalarına ehtiyac olmazsa onların üzərində olan öhdəçilik götürülür. Bundan əlavə qadınlara, qocalara, acizlərə və xəstələrə də vacib deyildir. Amma nəfs ilə aparılan cihadda məsələ belə deyildir. Bütün dövrlərdə, bütün şərait və zamanlarda hər bir şəxsə vacibi-eynidir və həyatın axır anlarına qədər davam etdirilməlidir. Mə’sumlardan başqa heç kəs heç vaxt ondan ehtiyacsız deyildir.

**Üçüncü.** Nəfs ilə aparılan cihad bütün ibadətlərdən, hətta mücahidlərin öz canlarını təhlükəyə qoyub şəhadət məqamına çatmaq istədikləri silahlı mübarizədən belə üstündür. Çünki haqqın qarşısında qeydsiz-şərtsiz təslim olmaq və bir ömür nəfsani istəklərlə mübarizə apararaq təkamülün düzgün yolunda irəliləmək insanın bir neçə gün cihad meydanında islam düşmənləri ilə döyüşərək axırda şəhadət məqamına çatmasından qat-qat çətindir.

Nəfs ilə mübarizə o qədər çətindir ki, nəfs ilə ağır, davamlı döyüş aparmadan, ağır çətinliklərə sinə gərmədən və Allah tərəfindən inayət və kömək olmadan mümkün deyildir. Buna görə də namazlarda təkrar deyirik: **"İhdinəssiratəl-mustəqim" («Pərvərdigara, bizi düzgün yola hidayət et.»)** Düzgün təkamül yolunu ötmək o qədər çətin və zərifdir ki, Peyğəmbəri-Əkrəm (s.ə.v.v) də daim belə dua edərdi: **"İlahi bir göz qırpımı belə, məni öz nəfsimə həvalə etmə!"**

## *CİHAD VƏ ALLAHIN KÖMƏYİ*

Nəfslə cihadın çox çətin olmasına, müqavimət, səbr, ardıcıl nəzarət və ayıqlığı tələb etməsinə baxmayaraq hər bir halda mümkün və insanın səadəti üçün tam zəruri bir işdir. Əgər insan bu məqsədlə qəti qərara gəlib işə başlasa Allah tərəfindən də köməklər gələcəkdir. Allah Qur'anda buyurur: **"O kəslər ki, Bizim yolumuzda cihad edərlər, Biz onları Öz yolumuza hidayət edib onlara yol göstərərik."**[1]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Xoş olsun o bəndənin halına ki, Allahın razılığı üçün öz nəfsi və onun (nəfsin) istəkləri ilə cihad etsin. Hər kəs öz nəfsinin istəklərinin ordusuna qələbə çalsa Allahın razılığını qazanar. Hər kəs Allah qarşısında cihad, bəndəçilik və xüzu ilə əqlini nəfsi-əmmarəyə qonşu qərar verərsə böyük səadətə nail olacaqdır. Bəndə ilə Pərvərdigar arasında əmmarə nəfsi və onun istəklərindən də qaranlıq və dəhşətli bir hicab (pərdə) yoxdur. Onların kökünün kəsilməsində isə Allaha ehtiyac (hissi), xüşu, gündüzdə aclıq və susuzluqdan (oruc tutmaqdan), gecə isə ibadət etməkdən yaxşı bir silah yoxdur. Belə şəxs ölərsə dünyadan şəhid kimi köçmüş olar. Əgər diri qalarsa Allahın ən böyük rizvan (razılıq) məqamına çatar. Allah Qur'anda buyurur: "O kəslər ki, Bizim yolumuzda cihad edərlər Biz onları Öz yolumuza hidayət edərik, Allah yaxşı əməl sahibləri ilədir." Əgər nəfsi ilə cihad edən bir şəxsin öz nəfsinin islah olunmasında səndən artıq sə'y göstərdiyini görsən öz nəfsini danlayıb tənbih et və onu daha artıq nəzarət altına alınmağa rəğbətləndir. Allahın əmr və nəhylərinin vasitəsilə nəfs üçün bir cilov düzəlt. Eynilə dəcəl**

---

[1] "Ənkəbut" surəsi, 69-cu ayə

**uşağı tərbiyə etmək istəyən şəxs kimi öz nəfsini yaxşı işlərə doğru sövq et. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) o qədər namaz qılırdı ki, mübarək ayaqları şişirdi. O Həzrət (s.ə.v.v.) bu işə e'tiraz edənlərin cavabında buyururdu: "Allahın şükr edən bəndəsi olmamalıyammı?!" Peyğəmbəri-Əkrəm (s.ə.v.v) ibadətdə ciddiyyət göstərib sə'y etmək üçün öz ümmətinə dərs verirdi. Deməli riyazət, ibadət və cihad yolunda heç vaxt qafil olmamalı və bilməlisən ki, ibadətin şirinliyini və onun bərəkətlərini müşahidə etsən, qəlbini onun nuru ilə nuranilədirsən elə (yüksək mə'nəvi) vəziyyətdə olacaqsan ki, hətta səni tikə-tikə doğrasalar da bir anlıq belə o namazdan əl çəkməyəcəksən. Deməli, ibadətdən yalnız o kəslər üz döndərər ki, günahdan çəkinmək və yaxşı işlərdə müvəffəqiyyət qazanmaq müsabiqəsinin faydalarından məhrum olsun."**[1]

Cihad ilə nəfs eynilə silahlı cihad kimidir; düşmənə nə qədər zərbə vurulsa və ordu vasitəsilə səngərlər nə qədər fəth edilsə düşmən də həmin miqdar da zəifləyəcək, cihad edənin ordusu bir o qədər güclənəcək və sonrakı zərbələr və fəthlər üçün daha hazırlıqlı olacaqdır. Bu da Allahın qoyduğu ümumi bir qanundur: **"Əgər siz Allaha kömək etsəniz O da sizə kömək edəcək və qədəmlərinizi sabit edəcəkdir."**

Nəfs ilə cihadda da məsələ eynilə belədir: Nəfsi-əmmarəyə nə qədər zərbə vurulsa, onun qanunsuz və yersiz istəkləri ilə nə qədər çox müxalifət olunsa bir o qədər zəifləyəcək, eyni zamanda siz də sonrakı fəthlər üçün bir o qədər hazırlıqlı olacaqsınız. Bunun müqabilində nə qədər süstlük göstərsəniz və nəfsin istəklərinə nə qədər təslim olsanız siz bir o qədər zəifləyəcəksiniz, nəfs isə bir o qədər güclənəcək və özünün sonrakı fəthləri üçün daha hazırlıqlı olacaqdır. Əgər biz nəfsimizin aludəliklərdən təmizlənməsi yolunda bir qədəm götürsək Allah tərəfindən kömək nazil olacaqdır və hər gün öz nəfsi-əmmarəmizə daha artıq hakim olacağıq. Amma əgər nəfsin istəkləri və orduları qarşısında geri çəkilsək onlar güclənəcək və bizə daha artıq hakim kəsiləcəkdir.

## *İNSAN ÖZÜNÜN TƏBİBİDİR*

Düzdür ki, peyğəmbərlər və imamlar insanların tərbiyəçiləri və

---

[1] "Biharul-ənvar", 70-ci cild, səh.69

nəfslərinin təbibləridir, lakin nəfsin islah olunması, təbabəti və aludəliklərdən təmizlənməsinin məs'uliyyəti bizim öz öhdəmizə qoyulmuşdur. Peyğəmbərlər və mə'sum imamlar insanlara təbabət dərsi verirlər, nəfsani xəstəlikləri, onların əlamətlərini və pis tə'sirlərini, eləcə də müalicə yollarını camaat üçün şərh edirlər ki, insanlar özlərinin nəfsani xəstəlikləri və onların müalicə yolları ilə tanış olaraq nəfslərinin islah olunmasını öz öhdələrinə götürsünlər. Çünki heç kəs insanın özünü ondan yaxşı tanıyaraq xəstəlikləri ayırd edə bilməz və nəticədə müalicə məqamına gələ bilməz. İnsan nəfsani xəstəlikləri və onların müalicə yollarını vaizlərin dilindən eşidir, yaxud kitablarda oxuyur, lakin nəticə e'tibarilə öz xəstəliyini dərk edərək xüsusi dərmanlardan istifadə etməli olan şəxs insanın özüdür. İnsan özünün nə cür olduğunu hər bir başqa adamdan daha yaxşı hiss edir. O, özünün daxilindəki məxfi yerlərdən daha agahdır. Əgər öz nəfsini nəzarət altına almazsa başqalarının öyüd-nəsihəti onda necə tə'sir qoya bilər?

İslam nəzərincə islahat işlərini insan vücudunun daxilindən başlamaq, nəfslərin özlərini aludəliklərdən təmizlənməyə, səhiyyə və psixoloji işlərə riayət etməyə hazırlamaq və onlara özlərini nəzarət altında saxlamaqlarına əmr etmək lazımdır. Bu da islamda ən mühüm tərbiyə metodlarından biri hesab olunur. Allah-təala Qur'anda buyurur: **"Xeyr, insanın özü bəhanə gətirməsinə baxmayaraq öz yaxşılıq və pisliklərinə daha agahdır."**[1]

İmam Cə'fər Sadiq (ə) bir kişiyə buyurdu: **"Sən öz nəfsinin təbibi qərar verilmisən. Xəstəliklər də, sağlamlıq əlamətləri da sənin üçün bəyan olunubdur. Onun dava-dərmanı da sənə deyilibdir. Belə isə bax gör nəfsini müalicə etmək üçün necə tədbir görürsən."**[2]

İmam Cə'fər Sadiq (ə) yenə buyurur: **"Hər kəs öz nəfsinə öyüd-nəsihət etməsə başqalarının öyüd-nəsihətinin onun üçün heç bir faydası olmayacaqdır."**[3]

İmam Səccad (ə) buyurur: **"Ey Adəm övladı! Sən öz nəfsinin**

---

[1] "Qiyamət" surəsi, 15-ci ayə

[2] "Kafi", 2-ci cild, səh.454

[3] "Biharul-ənvar", 70-ci cild, səh.70

**öyüd-nəsihət verəni olduğun müddətdə doğru yoldasan.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“İnsanların ən acizi o kəsdir ki, öz nəfsini islah etməkdən aciz olsun.”**[2]

O Həzrət (ə) yenə buyurur: **“Yaxşı olar ki, insan nəfsinin hakimiyyətini öz öhdəsinə alsın, həmişə qəlbinin nəzarətçisi və dilinin mühafizəçisi olsun.”**[3]

## *NƏFSİN SAFLAŞDIRILMASININ MƏRHƏLƏLƏRİ*

**1.Qarşısını almaq.** Ruhun sağlamlığına riayət etmək, günah və çirkin əxlaqın qarşısını almaq nəfsin saflaşdırılması mərhələlərində ən yaxşı və ən asan yoldan ibarətdir. Nəfs hələ günaha aludə olmadığı bir zamanda fitri nuraniyyətə, səfaya malikdir, onda yaxşı işləri görməyə, gözəl əxlaqla zinətlənməyə daha artıq hazırlıq vardır. Hələ qaralmamışdır, şeytan ora yol açmamış və o da pis işlərə adət etməmişdir. Buna görə də günahın tərk edilməsi üçün daha artıq hazırlığa malikdir. Yeniyetmələr və cavanlar əgər öz nəfslərini saflaşdırıb günaha, rəzil xüsusiyyətlərə mürtəkib olmaqdan çəkinmək istəsələr onlar üçün bu müəyyən qədər asandır. Çünki bu iş qarşısı alınma yönünə malikdir və bir şeyin qarşısını almaq ona adətin tərk edilməsindən qat-qat asandır. Deməli, cavanlıq, yeniyetməlik hətta uşaqlıq dövrü belə nəfsin saflaşdırılmasının ən yaxşı dövrüdür. Eləcə də insan məxsus bir günaha batmayınca həmin günahın tərk edilməsi onun üçün daha asandır. Deməli cavanlar, yeniyetmələr, eləcə də bə’zi günahlara mürtəkib olmayan şəxslər fürsəti çox mühüm və qənimətli hesab etməli, ümumiyyətlə, günah etməməyə çalışmalı, nəfslərini elə olduğu vəziyyətdə saxlamalıdırlar. Çünki bir şeyin qarşısının alınması onu etdikdən sonra tərk etməkdən daha asandır. Bu məsələyə diqqət yetirilməlidir ki, əgər bir kəs bir günaha mürtəkib olarsa, yaxud, çirkin əxlaqa sahib olarsa və bununla da şeytanı öz nəfsinə buraxmış olarsa o günahı tərk etmək hökmən daha çətin olacaqdır. Şeytan və nəfsi-əmmarə daim çalışır ki, günaha bir iki dəfə mürtəkib olmağı kiçik və əhəmiyyətsiz cilvələndirsin ki, bunun vasitəsilə qəlbə nüfuz edərək nəfsi günah işlərə adət etdirsin.

---

[1] “Biharul-ənvar”, 70-ci cild, səh.64
[2] “Ğurərul-hikəm”, 1-ci cild, səh.196
[3] “Ğurərul-hikəm”, 2-ci cild, səh.862

Deməli, öz xoşbəxtliyini fikirləşən bir insan nəfsin istəkləri müqabilində ciddi şəkildə müqavimət göstərməli, günah işə bir dəfə olsa belə mürtəkib olmaqdan ciddi şəkildə çəkinməlidir. Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Öz nəfsinə pis bir işə, yaxud əmələ mürtəkib olmağa belə icazə vermə."**[1]

O Həzrət (ə) başqa yerdə belə buyurur: **"Həvayi-nəfs sənə qələbə çalıb güclənməmişdən öncə sən ona qələbə çal. Əgər güclənərsə səni öz ixtiyarına keçirəcək və istədiyi tərəfə çəkəcəkdir. Belə olan halda sən onun müqabilində müqavimət göstərə bilməyəcəksən."**[2]

Yenə buyurur: **"Adət insanı öz ixtiyarına keçirən bir düşməndir."**[3] **"Adət insan üçün ikinci növ təbiət olur."**[4] **Düşmən düşmənə qələbə çaldığı kimi sən də öz həvayi-nəfsinə qələbə çal, düşmən düşmənlə mübarizə apardığı kimi sən də onunla mübarizə apar. Bəlkə bu yolla öz nəfsini cilovlaya biləsən."**[5]

Yenə buyurur: **"Günahı tərk etmək tövbə etməkdən daha asandır. Çox hallarda bir saatlıq şəhvət uzun-uzadı qəm-qüssəyə səbəb olur. Ölüm dünyanın iç üzünü aşkar və rüsvay olmasına səbəb olur və əql sahibi üçün heç bir sevinc və şadlıq qoymur."**[6]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Ruhun bədənindən ayrılmamış (ölməmiş) nəfsini, özün üçün zərərli olan şeylərdən hesab et. Güzəranını və həyat vəsaitlərini tə'min etmək üçün çalışdığın kimi, nəfsinin (nəfsani istəklərdən) azadlığı yolunda da çalış. Həqiqətən sənin nəfsin əməllərinin girovundadır."**[7]

Allah-təala Qur'ani-Kərimdə buyurur: **"Amma hər kəs öz Pərvərdigarının məqamından qorxaraq nəfsini ehtiraslardan, nəfsani istəklərdən saxlasa həqiqətən behişt onun yeri**

---

[1] "Ğurərul-hikəm", 2-ci cild, səh.801

[2] "Ğurərul-hikəm", səh.411

[3] "Ğurərul-hikəm, səh.33

[4] "Ğurərul-hikəm", səh.26

[5] "Ğurərul-hikəm", səh.409

[6] "Kafi", 2-ci cild, səh.451

[7] "Kafi", 2-ci cild,,səh.455

**olacaqdır.”**[1]

Hər bir halda nəfsin bu işlərə qurşanmasının qarşısını almaq ən yaxşı və ən asan yoldur. İnsan bu yolda bacardığı qədər çalışıb ciddiyyət göstərməlidir. Xoş olsun o cavanların halına ki, həyatın əvvəllərində öz əmmarə nəfslərini cilovlayaraq onlara günaha mürtəkib olmaq icazəsini vermir və ömürlərinin axırına qədər pak-pakizə olub Allah dərgahına yaxınlaşmaq yolunda qədəm götürür və Allah dərgahında yüksək mərtəbələrə nail olurlar.

**2.Birdən-birə tərk etmək.** Əgər qarşısını almaq mərhələsindən keçsə və nəfs günahlara aludə olsa onda onun paklanması növbəsi çatıb. Paklamağı bir neçə cür başlamaq olar. Onların ən yaxşısı mə’nən və daxilən dəyişiklik etmək, günahı külli şəkildə tərk etməkdir. Günaha, çirkin və rəzil xislətlərə aludə olan bir şəxs birdəfəlik tövbə edib Allah dərgahına qayıdaraq qəlbini günahlardan və aludəliklərdən yuyub, pak-pakizə ola bilər. O, qəti bir qərarla şeytanı öz qəlbindən çıxarıb qəlbin qapılarını əbədi olaraq onun üzünə bağlaya bilər, qəlb evini Allah dərgahına yaxın olan mələklərin nazil olma yerinə, ilahi nurların saçma mərkəzinə çevirə bilər, ciddi bir çevrilişlə şeytanı və əmmarə nəfsini məğlub edib, nəfsin cilovunu möhkəm-möhkəm və həmişəlik olaraq öz əlinə ala bilər. Çoxlarını görmək olar ki, öz nəfslərinə məhz bu yolla qələbə çalmış, onu tam şəkildə təmizləməyə və saflaşdırmağa nail olmuş və həyatlarının axırına qədər öz sözlərinə vəfalı qalmışlar. Bu batini dəyişiklik bə’zən bir tərbiyəçidən, yaxud özünün nəfsi saf olan əxlaq ustadından qısa bir cümlə eşitmək, yaxud, ilahi şəxsiyyətin bir işarəsi, yaxud qeyri-adi bir hadisənin baş verməsi, dua və zikr məclisində iştirak etməklə, ayə, rəvayət dinləməklə, bir neçə anlığa qısa təfəkkür etməklə hasil olur. Bə’zən kiçik bir hadisə bir qığılcım kimi qəlbi büsbütün dəyişərək ona nuranilik gətirir. Bə’zi şəxslər bu yolla öz nəfslərini saflaşdırmağa müvəffəq olmuş və Allah dərgahına seyr edənlər qrupunda qərar tutmuşlar. Nümunə olaraq aşağıdakı hadisələrə diqqət yetirin:

Bişr Hafi Allahın layiqli bəndələrindən, dövrünün abid və zahidlərindən idi. Onun həyatı barəsində qeyd olunur ki, əvvəllər ə”yan-əşraflardan idi. Gecə-gündüz əyyaşlıqla, pis və günah işlərlə məşğul olurdu. Onun evi fəsad, eyş-işrət, rəqs, ğina mərkəzi idi. Bu

---

[1] “Naziat” surəsi, 40-cı ayə

səslər həmişə onun evindən eşidilirdi. Lakin sonralar tövbə edərək zahidlər və abidlər cərgəsinə keçmişdi. Onun necə tövbə etməsilə əlaqədar yazırlar: Bir gün Bişrin kənizi zibil qabını boşaltmaq üçün evin qapısına gəlir. Bu zaman Həzrət Musa ibni Cə’fər (ə) evin qapısından keçəndə avaz və rəqs səsini eşidir. Kənizdən soruşur: «Bu evin sahibi azad adamdır, yoxsa qul?» Kəniz deyir: «Əlbəttə, azaddır və ağadır.» Həzrət (ə) buyurur: «Düz deyirsən, çünki əgər bəndə olsaydı və öz mövlasından qorxsaydı günah və mə”siyətə bu qədər cür’ətli olmazdı.»

Kəniz evə gedir. Şərab süfrəsinin kənarında əyləşən Bişr ondan soruşur: «Nə üçün gec gəldin?» Kəniz hadisəni danışır. Bişr soruşur: «O kişi axırda nə dedi?» Kəniz dedi: O kişinin axırıncı sözü bu oldu: «Düz dedin, əgər evin sahibi azad olmasaydı (yə’ni özünü Allahın bəndəsi hesab etsəydi) öz mövlasından qorxar və günah işlərdə bu qədər cür’ətli olmazdı.»

İmam Musa ibni Cə’fərin (ə) qısa sözü ox kimi Bişrin qəlbinə sancılır və bir qığılcım kimi qəlbini nuraniləşdirib tamamilə dəyişir. Şərab süfrəsini yığışdırıb, ayaqyalın qaçaraq özünü həmin şəxsə – Musa ibni Cə’fərə (ə) çatdıraraq deyir: «Ey mənim ağam! Allahdan və sizdən üzr istəyirəm! Bəli, mən Allahın bəndəsiyəm. Lakin öz bəndəliyimi unutmuşdum. Buna görə də belə günah işlər görürdüm. Amma indi öz bəndəliyimi dərk elədim və keçmiş əməllərimdən tövbə etdim. Mənim tövbəm qəbul olunurmu?» İmam (ə) buyurur: «Bəli, Allah sənin tövbəni qəbul edər. Öz günah işlərindən xaric ol və həmişəlik olaraq günahları tərk et.»

Bişr tövbə edərək Allah övliyaları, abid və zahidlərin cərgəsinə keçir, bu ne’mətin şükrün yerinə yetirmək məqsədilə ömrünün axırına qədər ayaqyalın gəzir.[1]

Əbu Bəsir deyir: «Mənim qonşuluğumda zalım padşahların mə’murlarından biri yaşayırdı. Haram yolla çoxlu mal-dövlət yığmışdı. Onun evi fəsad, eyş-işrət və ğina mərkəzi idi. Mən onun qonşuluğunda, daim əzab-əziyyətdə yaşayırdım, lakin heç bir çıxış yolum yox idi. Dəfələrlə ona nəsihət etmişdim, amma faydası olmamışdı. Nəhayət bir gün bu işləri tərk etməsinə dair çox israr etdim. Mənə dedi: Filankəs! Mən şeytanın əlində əsirəm, eyş-işrətə, günaha adət etmişəm, onu tərk edə bilmirəm. Xəstəyəm, lakin

---

[1] “Müntəhəl-amal”, 2-ci cild, səh.126

özümü müalicə edə bilmirəm. Sən mənim üçün yaxşı bir qonşusan, lakin mən sənin üçün pis qonşu olmuşam. Nə edə bilərəm? Axı mən həvayi-nəfsimin əsiriyəm! Nicat üçün bir yol da görmürəm. İmam Cə’fər Sadiqin (ə) hüzuruna gedəndə mənim vəziyyətimi ona de. Bəlkə mənim üçün bir çıxış yolu göstərsin.»

Əbu Bəsir deyir: O kişinin sözündən çox tə’sirləndim. Bir müddətdən sonra İmam Cə’fər Sadiqi (ə) ziyarət etmək məqsədilə Kufədən Mədinəyə yola düşdüm. İmamın (ə) hüzuruna çatdıqda qonşumun sözlərini ona çatdırdım. Buyurdu: «Kufəyə qayıdandan sonra o kişi sənin görüşünə gələcək. Ona deyərsən: “Cə’fər ibni Muhəmməd dedi: Sən günahlardan əl çək ki, mən də sənin üçün behiştə zamin olum.”»

İşlərimi qurtardıqdan sonra Kufəyə qayıtdım. Camaat mənim görüşümə gəlirdi. Qonşum da gəldi. Hal-əhval soruşduqdan sonra getmək istədi. Mən işarə ilə ona oturmasını, onunla işim olduğunu başa saldım. Hamı getdikdən sonra ona dedim: «Mən sənin vəziyyətini İmam Cə’fər Sadiqə (ə) dedim. Buyurdu: Kufəyə qayıtdıqdan sonra mənim salamımı ona çatdır və de: Sən günahlardan əl çək, mən də sənə cənnəti zamin olum.»

O Həzrətin (ə) qısa cümlələri bu kişinin qəlbinə elə tə’sir etdi ki, hönkür-hönkür ağlamağa başladı. Sonra mənə dedi: «Filankəs! Səni and verirəm Allaha, de görüm, doğrudanmı Cə’fər ibni Muhəmməd belə dedi?» Mən and içib dediyim sözün eynilə imamın sözü olduğunu bildirdim. Dedi: Elə bu söz mənə kifayətdir.»

Bunu deyib evimdən çıxdı. Bir neçə gün ondan xəbərim olmadı. Bir gün mənə xəbər göndərdib onun yanına getməyimi və mənimlə işi olduğunu bildirdi. Xahişini qəbul edib onun evinə getdim, qapının arxasından məni səsləyib dedi: «Ey Əbu Bəsir! Yığdığım bütün haram mal-dövlətləri sahiblərinə qaytardım. Hətta paltarlarımı da çıxardıb vermişəm. İndi çılpaq halda qapının dalındayam. Ey Əbu Bəsir, mən imamın göstərişlərinə əməl etdim və bütün günahlardan əl çəkdim.»

Əbu Bəsir deyir. Qonşumun tövbə edib Allah dərgahına qayıtmasından sevindim və imamın sözünün tə’sirindən heyrətləndim. Evə qayıdıb bir qədər paltar, yemək hazırladım və onun üçün apardım. Bir müddətdən sonra yenidən məni çağırdı. Evinə getdikdə xəstə olduğunu gördüm. Bir müddət xəstə yatdı. Mən də daim onun vəziyyətini soruşmağa gedir, lazım olan

köməkləri edirdim. Lakin müalicənin heç bir faydası olmurdu. Nəhayət bir gün vəziyyəti çox ağırlaşdı. Ehtizar (can verən insan) halına düşdü. Başı üstündə oturmuşdum. O da can üstündə idi. Birdən huşa gəlib dedi: "Ey Əbu Bəsir! İmam Cə'fər Sadiq öz və'dəsinə əməl etdi!" Bunu deyib həmişəlik gözlərini yumdu.

Bir müddətdən sonra həcc səfərində İmam Cə'fər Sadiqin (ə) hüzuruna getdim. Bir ayağım dalanda, digər ayağım isə həyətdə ikən İmam (ə) buyurdu: "Ey Əbu Bəsir! Biz sənin qonşuna verdiyimiz əhdə vəfa etdik: onun üçün zamin olduğumuz behişti ona verdik."[1]

Belə insanlar həmişə olmuş və hal-hazırda da vardır ki, qəti bir qərar, şücaətli bir tədbirlə əmmarə nəfsi məğlub edərək onun cilovunu əlinə alır və batini bir inqilabla nəfsini hər növ çirkinliklərdən təmizləyirlər. Deməli, bu yolu ötmək bizim hamımız üçün mümkündür.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Adəti tərk etmək üçün öz nəfslərinizə qələbə çalın və onun istəkləri ilə mübarizə aparın. Bəlkə bu yolla nəfsinizi öz ixtiyarınıza keçirə biləsiniz."**[2]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **"İbadətlərin ən yaxşısı adətlərə qələbə çalmaqdır."**[3]

İmam Məhəmməd Baqir (ə) buyurur: **"Qiyamətdə üç gözdən başqa bütün gözlər ağlayar:**

**1.Gecələr Allah yolunda ayıq qalan gözlər.**

**2.Allah qorxusundan ağlayan gözlər.**

**3.Allahın haram buyurduğu şeylərdən yumulan gözlər."**[4]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Allah-təala Musaya (ə) belə vəhy etdi: «Heç kəs Mənim dərgahıma haramlardan çəkinməklə yaxınlaşdığı qədər başqa bir yolla yaxınlaşa bilməz. Həqiqətən Ədn behiştini onlar üçün mübah edərəm və onlardan başqa şəxsləri oraya daxil etmərəm."**[5]

---

[1] "Müntəhəl-amal", 2-ci cild, səh.86

[2] "Ğurərul-hikəm", səh.508

[3] "Ğurərul-hikəm", səh.176

[4] "Kafi", 2-ci cild, səh.80

[5] "Kafi", 2-ci cild, səh.80

Əlbəttə, əmmarə nəfsini cilovlamaq və günahları tərk etmək ümumi halda asan iş deyildir. Lakin əgər bu barədə agahlıq, təfəkkür, aqibəti düşünmək, himmət və iradə olsa çox da çətin olmaz. Çünki bu barədə Allah tərəfindən də kömək olunur.[1]

**3.Tədricən tərk etmək.** Əgər günahları bir dəfəyə tərk etmək üçün himmət və bacarığımız yoxdursa bu əməli tədricən tərk etmək barədə qərara gələ bilərik. Əvvəlcə nümunə olaraq bir, yaxud bir neçə günahı tərk etməyə başlayır və bu işi o qədər davam etdiririk ki, onları tərk etmək barədə nəfsimizə qələbə çalaraq onların kökünü kəsə bilək. Bundan sonra həmin əməliyyatı digər bir və ya bir neçə günahla əlaqədar başlayır və ona qələbə çalana qədər davam etdiririk. Eyni halda tam ehtiyatlı olmaq lazımdır ki, tərk olunan günahlar yenidən təkrar olunmasın. Mə'lum olduğu kimi günahların tərk olunması ilə bərabər nəfsi-əmmarə və şeytan da zəifləyir. Qəlbdən hər bir şeytan çıxdıqca onun yerinə mələk keçir. Qəlbin səhifəsindən hər günah qaraltısı aradan getdikcə həmin qədər də onun ağlığı və nuraniliyi artır.

Bu minvalla günahların tərk edilməsini davam etdirir, nəfsi kamil saflaşdırır, nəfsani istəkləri kamil şəkildə cilovlayıb tam qələbəyə nail oluruq. Bu məsələ ilə əlaqədar elə bir həddə çatmaq olar ki, özümüzdə bütün günahların bir dəfəlik olaraq tərk edilməsinə qüdrət də görə bilərik. Bu halda biz fürsətlərdən istifadə etməli və bütün günahları bir dəfəlik tərk etməliyik. Şeytanı qəlbimizdən çıxarıb nəfsi-əmmarəni cilovlamaqla qəlbi Allah və Onun dərgahına məxsus olan müqərrəb mələklərə aid edərik. Əgər bu barədə çox çalışıb cihad etsək şübhəsiz qələbə çalacağıq. Nəfs ilə aparılan cihad eynilə düşmənlə aparılan mübarizəyə bənzəyir. Mücahid insan həmişə düşməni nəzarət altına alıb öz qüvvələrini düşmənin imkanları ilə müqayisə etməli, öz qüvvələrini gücləndirməli, fürsətlərdən istifadə edərək mümkün olan hər bir yolla düşmənə hücum etməli və onun ordusunu dağıtmalı, yaxud nəfs ölkəsindən çölə çıxarmalıdır.

## *NƏFSİN PAKLANMASINA KÖMƏK EDƏN İŞLƏR*

**1.Təfəkkür.** Nəfsin paklaşdırılması yolunda ən mühüm maneələrdən biri qəflətdir. Biz gecə-gündüz dünya həyatına

---

[1] "Ənkəbut" surəsi, 69-cu ayə

məşğuluqsa, ölümü yad etməkdən qafiliksə, bir saat belə onun barəsində fikirləşməyə vaxtımız yoxdursa, bə'zən də beynimizdən bu fikir keçən zaman dərhal onu başımızdan çıxardırıqsa, rəzil xasiyyətlərin təhlükəli tə'sirlərindən qafiliksə, günahların cəzaları və axirət əzabları barəsində fikirləşmiriksə, nəhayət məada iman canımıza nüfuz etməyib və zehni məfhumdan başqa bir yüksək mərhələyə çatmayıbsa belə qəflət ilə yanaşı nəfsimizin paklanması üçün necə qərara gələ bilərik. Onun istəklərini necə nəzarət altına alıb cilovlaya bilərik? Məgər nəfsi-əmmarə ilə belə bir sadəliklə mübarizə aparmaq olarmı? Qəflətin özü böyük nəfsani xəstəliklərdəndir və bu sair mə'nəvi xəstəliklərin mənşəyidir. Bu xəstəliyin dərmanı təfəkkür etmək, axır-aqibəti düşünmək və iman qüvvəsini gücləndirməkdir. Hər bir insan daim özünü nəzarət altına almalı, ölümü heç vaxt unutmamalı, nəfsani xəstəliklərin acınacaqlı aqibəti, günahların cəzaları və cəhənnəmin ağır əzabları barəsində daim düşünməli, qiyamətin hesab-kitabını həmişə nəzərində canlandırmalıdır. Məhz belə olan halda insan nəfsini paklamaq üçün hazır olub qəti şəkildə qərara gələ bilir, öz nəfsini çirkin əxlaqlardan və rəzil sifətlərdən təmizləməyə müvəffəq olur.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Hər kəs öz qəlbini fikirləşməkdə davamlı olmaqla abad edərsə onun batindəki və zahirdəki işləri yaxşı olar."**[1]

**2.Həvəsləndirmə və cəzalandırma.** Nəfsin paklaşdırılmasında və günahın tərk edilməsində müvəffəq olmaq üçün tənbeh etmə, həvəsləndirmə və cəzalandırma vasitələrindən istifadə etmək olar. Əvvəldə öz nəfsimizə xitab edərək onu təhdid edir və deyirik: «Ey nəfs! Mən günahları tərk etməyi qərara almışam. Əgər bu yolda mənimlə həmkarlıq etməsən və günahlara mürtəkib olsan səni filan cür cəzalara düçar edəcəyəm. Məsələn, əgər qeybət etsən bir gün oruc tutacağam, yaxud, bir həftə yalnız zərurət miqdarında danışacağam, yaxud filan məbləğdə pulu sədəqə verəcəyəm, yaxud bir gün su içməyəcəyəm, yaxud bir dəfə yeməkdən səni məhrum edəcəyəm, yaxud bir neçə saat yandırıcı günəşin altında qalacağam ki, cəhənnəm atəşinin hərarətini unutmayasan. Bu qəbildən olan sair cərimələrlə onu təhdid etmək lazımdır.

Ondan sonra nəfsimizi tam nəzarət altına almalıyıq ki, qeybət

---

[1] "Ğurərul-hikəm", səh.690

etməsin. Əgər bir dəfə qeybət edərsə heç bir güzəştə gedilmədən, səhlənkarlığa yol verilmədən, qətiyyətlə onun qarşısında dayanaraq və'də verdiyimiz cəzanı onun barəsində icra edirik. Nəfsi-əmmarə bizim günahı tərk etməkdə qəti qərara gəldiyimizi, heç bir güzəştə getmədən onu cəzalandırmaqda qətiyyətli olduğumuzu görsə bizim qanuni istəklərimiz müqabilində təslim olacaqdır.

Əgər bir müddət bu proqram heç bir güzəşt olmadan davam etdirilərsə şeytanın nüfuz etmə yollarının qarşısını alıb kəsə, nəfsi-əmmarəni tamamilə cilovlaya bilərik. Bu şərtlə ki, qəti şəkildə qərara gələk və azacıq güzəşt olmadan günahkar nəfsimizi cəzalandıraq. Çox təəccüblü məsələdir ki, dünyəvi işlərdən kiçik biri barəsində xətaya yol verən insanları tənbih edib cəzalandırırıq, lakin nəfsin paklanması üçün bu cəza tədbirlərindən istifadə etmirik. Halbuki, bizim axirət səadətimiz və xoşbəxtliyimiz yalnız bu işə bağlıdır! Allahın layiqli və saleh bəndələrindən çoxu da məhz həmin vasitə ilə nəfsini paklaşdırmış və onu cilovlamağa müvəffəq olmuşdur.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Nəfsi əsarət altına almaq və onun adətlərini sındırmaq üçün aclıq çox yaxşı bir köməkdir."**[1]

Yenə buyurur: **"Hər kəs öz nəfsinə riyazət verməyi davam etdirərsə faydalanar."**[2]

Səhabələrdən biri deyir: «Qızmar bir yay günündə Peyğəmbəri-Əkrəm (s.ə.v.v) ağacın kölgəsində oturmuşdu. Elə bu zaman bir kişi gəlib paltarlarını soyundu və yandırıcı qumların üzərində uzandı. Qumun üstündə o tərəfə fırlanmağa başladı. Qızmar qumların vasitəsilə gah kürəyini, gah qarnını, gah da üzünü yandırır və deyirdi: «Ey nəfsi-əmmarə! Bu qumların hərarətini dad və bil ki, cəhənnəm odunun hərarəti bu qumların hərarətindən çox-çox şiddətlidir.»

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) kənardan bu mənzərəni müşahidə edirdi. Həmin şəxs paltarlarını geyinib getmək istədikdə onu yanına çağırdı. Kişi gəldi, Həzrət (s.ə.v.v) ona buyurdu: «Səni başqalarının görmədiyi bir iş gördüyünü müşahidə etdim. Bu işdə məqsədin nədir?» Cavabında dedi: «Ey Allahın Rəsulu! Allah xovfu məni bu

---

[1] "Ğurərul-hikəm", səh.773
[2] "Ğurərul-hikəm", səh.647

işə vadar etmişdir. Bu işi görməklə öz nəfsimə deyirəm ki, bu yandırıcı hərarəti dad və bil ki, cəhənnəm atəşinin hərarəti çox şiddətli və dərdlidir.» Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurdu: «Doğrudan da Allahdan qorxmusan. Mütəal Allah sənin əməlinlə asimandakı mələklərə öyünür.» Sonra öz səhabələrinə buyurdu: «Bu kişiyə yaxınlaşın və sizin barənizdə dua etməsini istəyin. Səhabələr yaxınlaşıb ondan dua etməsini xahiş etdilər. O kişi əllərini Allah dərgahına qaldırıb dedi: "Pərvərdigara! Bizim işlərimizi hidayət əsasında bir yerə yığ. Təqvanı bizim yol ehtiyatımız, cənnəti sığınacağımız qərar ver."»[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Öz nəfsinizi ədəbləndirməyə başlayın və onu adətlərin şiddətindən saxlayın."**[2]

İmam Cə'fər Sadiq (ə) bir hədisdə buyurur: **"Bəndə ilə Allah arasında nəfs və onun istəklərindən də qaranlıq və vəhşətli bir hicab yoxdur. Onların aradan qaldırılması üçün Allaha ehtiyac hissi, Onun müqabilində xüzu, gündüzdə aclıq və susuzluq, gecədə oyaqlıqdan da tə'sirli və yaxşı bir silah yoxdur. Əgər insan bu halda ölsə şəhid olaraq dünyadan gedər. Əgər diri qalsa axırda böyük rizvan (razılıq) məqamına nail olar. Allah Qur'anda buyurur: "O kəslər ki, Bizim yolumuzda cihad edərlər, Biz onları Öz yolumuza hidayət edərik və Allah yaxşı işlər görənlərlədir. "**[3]

**3.İnsan zatının kəramətinə diqqət yetirmək və insani dəyərlərin gücləndirilməsi.** Yuxarıda qeyd olunduğu kimi insan nəfsi çox dəyərli bir gövhərdir. O, həyat, elm, kamal, camal, rəhmət, ehsan, nur aləmindən vücuda gəlmişdir və təbiidir ki, onun həmin işlərlə uyğunluğu vardır. Deməli əgər öz vücudunun dəyərli məqamına diqqət yetirsə çirkin, yaramaz və rəzil əxlaqları, günahları öz şə"ninə yaramaz hesab edər və təbii olaraq onlardan uzaqlaşar. İnsan olduğunu və insanın da yüksək aləmlərdən gələn ilahi bir ruh olduğunu bilsə şəhvətlər və heyvani istəklər onun nəzərində dəyərsiz olacaq, gözəl əxlaqa meyl onun vücudunda

---

[1] "Məhəccətul-beyza", 7-ci cild, səh.308
[2] "Ğurərul-hikəm", səh.350
[3] "Məhəccətul-beyza", 8-ci cild, səh.170

canlanacaqdır.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Hər kəs öz nəfsinin qədrini bilsə şəhvətlər onun üçün kiçik və dəyərsiz olacaqdır."**[1]

İmam Səccaddan (ə) soruşdular: «Camaatın ən dəyərlisi kimdir?» Buyurdu: **"Dünyanı öz vücudunun dəyəri hesab etməyən kəs."**[2]

Deməli, insan ruhunun kəramətinə diqqət yetirmək, onun dəyərli məqamını və vücudunun dəyərini anlamaq nəfsin çirkin xüsusiyyətlərdən, rəzil xislətlərdən və günahlardan təmizlənməsində bizə kömək edə bilər. Biz nəfsimizə xitab edərək deməliyik: «Sən qüds, elm, həyat, kamal, hüsn, rəhmət aləmindən gəlmisən. Sən Allahın yer üzərindəki xəlifəsisən. Sən insansan və əbədi axirət həyatı üçün, Allah dərgahına yaxınlaşmaq üçün yaradılmısan. Sən heyvandan çox-çox yüksəksən, sənin vücudunun dəyəri heyvani istəklərə tabe olmaqda deyil.» Bu halda insan nəfsinin paklaşdırılması və günahın tərk edilməsi çox asan olacaqdır.

Həmçinin nəfsin paklaşdırılması üçün bu kimi xislətlərin ziddinə olan xislətləri gücləndirmək və onları pərvəriş etmək lazımdır ki, rəzil xüsusiyyətlər tədricən aradan getsin. Onun yerinə tədricən yaxşı xüsusiyyətlər gəlib ikinci növ xüsusiyyətə çevrilsin. Məsələn, əgər hər hansı bir şəxsə qarşı həsəd ediriksə, ona nəsib olan ne'mət və xoşbəxtlikdən əziyyət çəkiriksə, ona qarşı nalayiq sözlər danışmaqla, əzab əziyyət verməklə, işlərində maneçilik törətməklə, təhqir etməklə və e'tinasızlıqla öz qəlbimizi razı salırıqsa çalışmalıyıq ki, onu tə'rifləyək, ona ehtiram göstərək, həmkarlıq edək və onun barəsində xeyirxah olaq. Əgər bizim rəftarımız həsədin tələblərinin əksinə olarsa yavaş-yavaş bu rəzil sifət aradan gedəcək və xeyirxahlıq xüsusiyyəti onun yerinə keçəcəkdir.

Əgər paxıllıq kimi bir xəstəliyə düçar olmuşuqsa öz mal-dövlətimizi şəriətin icazə verdiyi və lazım olan hallarda xərcləməyi öz nəfsimizə adət etdirək ki, tədrici olaraq paxıllıq kimi rəzil sifətlər aradan getsin və ehsan etməyə adət edək.

Əgər Allahın vacib etdiyi şər'i vergiləri ödəməkdə paxıllıq

---

[1] "Nəhcül-bəlağə", kəlimati qisar, 449

[2] "Tuhəful-üqul", səh.285

ediriksə nəfsimizin qarşısında qətiyyətlə dayanmalı, onun vəsvəsələrinə qulaq asmamalı və mal-dövlətin vacib hüquqlarını ödəməliyik.

Əgər mal-dövlətimizi öz həyat, məişət işlərində və ailəmizdə xərcləməkdən imtina ediriksə bu yollarda xərcləməyi nəfsimizə qəbul etdirək ki, tədricən bu adətə çevrilsin. Əgər paxıllıq nəticəsində xeyriyyə işlərində iştirak edə bilmiriksə mümkün olan hər bir yolla əməl məqamına gəlməli, mal-dövlətimizin bir miqdarını Allah yolunda xərcləyərək zəiflərə və köməksizlərə verməliyik ki, yavaş-yavaş nəfs bu məsələyə adət etsin. Əlbəttə, bu kimi işlər ilk əvvəldə müəyyən qədər çətin ola bilər, lakin müqavimət göstərdikdə asanlaşar.

Ümumi halda nəfsin saflaşdırılmasında və çirkin, rəzil əxlaqlarla mübarizədə ilk növbədə iki iş görməliyik:

1.Bu çirkin xüsusiyyətlərin və xislətlərin istəyinə müsbət cavab verməməliyik ki, nəticədə bunların kökləri qurusun.

2.Onların ziddi olan gözəl sifətləri gücləndirməli, ona uyğun olaraq əməl etməyi öz nəfsimizə qəbul etdirməliyik ki, tədrici olaraq ona adət edək, bizim varlığımızda sabit bir xislət, səciyyə formasına düşsün, rəzil sifətlərin kökünü kəssin.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Öz nəfsini fəzilətli və yaxşı işlər görməyə məcbur et. Çünki rəzil sifətlər sənin zatının batinində qoyulmuşdur."**[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **"Öz nəfsini yaxşı işlər görməyə və cərimə yükünün ağırlığına adət etdir ki, nəfsin şərafətli olsun, axirətin abad edilsin və səni tə'rifləyənlər çoxalsın."**[2]

O Həzrət (ə) yenə buyurur: **"Nəfsani istəklər və şəhvətlər öldürücü xəstəlikdir, onların ən yaxşı müalicə yolu onların qarşısında dözüb müqavimət etməkdir."**[3]

**4.Pis dostlarla əlaqələrin kəsilməsi və onlarla gediş-gəlişin tərk edilməsi.** İnsan başqalarından tə'sir qəbul edir. Bə'zi xüsusiyyətlərin, ədəb qaydalarının və rəftarlarının çoxunu təmasda

---

[1] "Ğurərul-hikəm", 1-ci cild, səh.130

[2] "Ğurərul-hikəm", səh.492

[3] "Ğurərul-hikəm", səh.72

olduğu insanlardan əxz edir və həqiqətdə onlarla eyni xislətdə olur. Xüsusilə, insanın yaxın dostları və yoldaşları ona daha çox tə’sir göstərirlər. Əxlaqsız, yaramaz və pis xasiyyətli insanlarla dostluq insanı fəsada və bəd xasiyyətli olmağa, yaxşı, əməli saleh və gözəl əxlaqlı insanlarla dostluq isə insanı islaha, yaxşılıqlara tərəf çəkir. İnsanın fitri xüsusiyyətlərindən biri də özünü başqaları ilə eyniləşdirməkdir. Əgər onunla ünsiyyətdə olanlar pis xasiyyətli və günahkar olsalar, insan da pis əxlaqla, yaramaz işlərlə ünsiyyətdə olar. Onların pisliklərini nəinki hiss etməz, hətta çox hallarda bu işlər onun nəzərində gözəl cilvələnər. Bunun əksinə olaraq əgər insanın oturub-durduğu şəxslər gözəl əxlaqlı və saleh insanlar olarsa insanın özü də yaxşı əxlaqla, gözəl əməllə ünsiyyətdə olar, özünü həmin dostlarla eyniləşdirməyə meyl göstərər.

Deməli, yaxşı dost Allah ne’mətlərindən biri, insanın tərəqqiyə, səadətə nail olması amilidir. Bunun əksinə olaraq pis dost insanın ən pis çətinliklərindən biri olub, onun bədbəxtlik və azğınlıq səbəbidir. Dost seçməyi kiçik və əhəmiyyətsiz bir iş hesab etmək olmaz. Bu, son dərəcə mühüm, müqəddəratı həll edən və həyati bir məsələdir.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurub: **“Müsəlman şəxs fasiq və günahkarla dostluq etməməlidir. Çünki günahkar dost pis işlərini yaxşı cilvələndirir və dostlarının da onun kimi olmasını istəyir. Pis dost nə dünya işlərində insana kömək edir, nə də axirət işlərində. Onunla gediş-gəliş edilməsi abırsızlığa səbəb olur.”**[1]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Müsəlmana layiq deyildir ki, fasiq, axmaq, yalançı insanlarla dostluq etsin.”**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurub: **“İnsan öz dostunun və ünsiyyətdə olduğu şəxsin dinində olar.”**[3]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Fasiq (günahkar) dostlardan ciddi şəkildə çəkinin, çünki şər şərə birləşər.”**[4]

---

[1] “Kafi”, 2-ci cild, səh.640
[2] “Kafi”, 2-ci cild, səh.640
[3] “Kafi”, 2-ci cild, səh.642
[4] “Ğurərul-hikəm”, səh.147

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **"Şər adamlarla ünsiyyətdə olmaqdan, onlarla oturub-durmaqdan ciddi şəkildə çəkin, çünki pis dost od kimidir; hər kəs ona yaxınlaşsa yandırar."**[1]

Yenə buyurur: **"Pis dostla oturub-durmaqdan ciddi şəkildə uzaq ol! Çünki o, onunla ünsiyyətdə olanı həlak edər, abır-heysiyyətinə xələl gətirər."**[2]

Deməli, öz nəfsini paklamaq istəyən bir şəxsin pis dostları və yoldaşları olarsa onlarla ünsiyyətdə olmağı, gediş-gəlişi dərhal tərk etməlidir. Çünki ləyaqətsiz şəxslərlə dostluğu qorumaqla eyni zamanda günahı tərk etmək çox çətindir. Pis dostlar insanın nəfsin saflaşdırılması ilə əlaqədar qərar və iradəsini süstləşdirir, onu günah işlərə, fəsada doğru rəğbətləndirir. Günaha mürtəkib olmaq bir adətdir. Onun tərk edilməsi də yalnız o vaxt mümkün ola bilər ki, insan ona adət edən sair kəslərlə oturub-durmasın.

**5.Sapma ehtimalı verilən hallardan uzaq olmaq.** Nəfsin saflaşdırılması və günahın həmişəlik olaraq tərk edilməsi asan deyil. Əksinə, çətin işdir. İnsanın həmişə günaha düşmək ehtimalı vardır. Nəfsi-əmmarə təbii olaraq onu pisliklərə də'vət edir. Bədənin fərman verilmə mərkəzi olan qəlb daimi olaraq dəyişilməkdədir. O, xarici hadisələrdən tə'sirlənir, onların əsasında fərman verir ki, insan hansı şəraitdə qərar tapsın, nə görsün, nə etsin. Mə'nəviyyat məclis və mərkəzlərində, ibadət və ehsan yığıncaqlarında təbiidir ki, yaxşı işlərə meyl edir. Fisq-fücur, günah məclisləri və mərkəzlərində də təbii olaraq günaha doğru çəkilir. Mə'nəvi səhnələri müşahidə etməklə mə''nəviyyətə rəğbət tapır, şəhvət yaradan mənzərələri görməklə şəhvətə təhrik olunur. Eyş-işrət məclisində iştirak edərsə əyyaşlığa meyl göstərər, dua məclisində iştirak edərsə Allaha nəzər yetirər; dünya əhli ilə, mal-dövlət məftunları ilə oturub-dursa heyvani ləzzətlərə doğru meyl edəcək, Allahın saleh bəndələri ilə oturub-dursa yaxşılıqlara, islahata üz gətirəcəkdir.

Deməli, nəfsini saflaşdırıb günahı tərk etmək məqsədində olan bir şəxs hökmən gözünü və qulağını şəhvət yaradan mənzərələrdən, fəsaddan, azğınçılıq və günahdan örtməli, belə məclislərdə iştirak

---

[1] "Ğurərul-hikəm", səh.147
[2] "Ğurərul-hikəm", səh.142

etməməli, belə insanlarla oturub-durmamalıdır. Əks halda həmişə xətaya, günaha düçar olacaqdır. Məhz buna görə də islam dini insanı haram məclislərdə, o cümlədən qumar, şərab və s. yığıncaqlarında iştirak etməkdən çəkindirmiş, naməhrəmə baxmaq, məhrəm olmayan qadınla xəlvət yerdə olmaq, müsafihə (qadınla əl verib görüşmək), onunla deyib-gülmək və zarafat etmək kimi işləri qadağan etmişdir. Hicabın şəriət qanunu halına salınması səbəblərindən biri də qeyd olunan mətləbdir.

İslam dini istəmişdir ki, günahın tərk olunması və nəfsin saflaşdırılması üçün münasib mühit yaransın. Əks halda nəfsi-əmmarənin nəzarət altına alınması qeyri-mümkün olacaqdır. Çünki fasid, pozğun və əxlaqsız mühit təbii olaraq insanı fəsada çəkir. Hətta, günah barədə fikirləşmək belə insanı günaha çəkə bilər. Buna görə də islam bizə buyurur ki, insan hətta öz beynində günahın fikrinə belə yol verməməlidir.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Göz şəhvəti görsə qəlb axır-aqibəti düşünmək barədə kor olar."**[1]

Yenə buyurur: **"Günah barəsində fikirləşmək səni ona aludə olmağa təşviq edir."**[2]

## *ÖZÜNÜ İSTƏMƏK BÜTÜN FƏSADLARIN MƏNŞƏYİDİR*

Əxlaq alimləri özünü istəmək sifətini ümmül-fəsad (fəsadların anası) və bütün rəzilətlərin, günahların mənşəyi hesab etmişlər. Nəfsin paklaşdırılmasında da onunla ciddi şəkildə mübarizə aparmaq lazımdır. Biz burada ilk növbədə özünü istəməyin mə'nasını deyir, sonra bu sifətin pis nəticələrini və onunla mübarizə yollarını bəyan edəcəyik.

Bilməliyik ki, hər bir canlı varlıq özünün zatına, sifətlərinə, təsirlərinə, fe'l və kamallarına məhəbbət bəsləyir. Yə'ni, təbii olaraq özünü sevir. Deməli, özünü sevməyi külli şəkildə məzəmmət etmək olmaz və bu barədə əlavə izaha ehtiyac duyulur.

Əvvəldə qeyd olundu ki, insanın iki vücud mərhələsi vardır; insani "öz" və heyvani "öz". İlahi yönə malik olan insani "öz" mələkut aləmindən nazil olmuşdur ki, Allahın yer üzündəki xəlifəsi olsun. Bu yönün elm, həyat, qüdrət, rəhmət, ehsan, feyz, kamal və

---

[1] "Ğurərul-hikəm", səh.315
[2] "Ğurərul-hikəm", səh.518

yaxşılıqla uyğunluğu vardır və təbii olaraq onları istəyir. Deməli, əgər özünü tanısa, özünün vücud dəyərini anlasa və onu əzizləsə bütün kamalların və yaxşılıqların mənşəyinə yaxınlaşacaq, onda fəzilətlər, əxlaqi gözəlliklər və yaxşılıqlar canlanacaqdır. Buna görə də bu növ özünü istəməyi məzəmmət etmək olmaz. Əksinə bu baxımdan yaxşı və bəyənilləndir. Çünki bu sifət həqiqətdə özünü sevmək deyil, Allahı istəməkdir. Bu, əvvəllər də qeyd olunmuşdu, gələcəkdə də onun barəsində bir az izah verəcəyik.

İnsan vücudunun digər mərhələsi isə onun heyvani "öz"üdür. O, bu mərhələdə eynilə bir heyvandır. Bütün heyvani qərizələrə, meyllərə və istəklərə malikdir. İnsan bu dünyada yaşayıb həyatını davam etdirmək üçün öz heyvani ehtiyaclarını ağlasığan həddə tə'min etməlidir. Bu cəhətdə heç bir qadağa və məzəmmət yoxdur. Lakin əsas və mühüm məsələ bədənə hakimiyyətin əqlin və mələkuti ruhun öhdəsinəmi, yoxsa nəfsi-əmmarənin və heyvani "öz"ün ixtiyarında olmasıdır.

Əgər əql və insani "öz" insana hakim olarsa heyvani nəfs və onun istəklərini mö'tədil vəziyyətə salar, hər bir şeyi fəzilətlərin və insani gözəlliklərin dirçəldilməsi, Allah dərgahına yaxınlaşmaq vasitəsi edər. Belə olan halda Allaha mənsub edilən insani "öz" ilkinliyə, əsalətə malik olur. Əsas hədəf də fəzilətlərin, əxlaqi gözəlliklərin dirçəldilməsi, Allah dərgahına yaxınlaşıb kamala yetməkdən ibarət olur. Heyvani ehtiyacların tə'min olunması isə ikinci dərəcəli yönə malik olur. Deməli, insanın özünü istəməsi, zatını əzizləyib sevməsi nəinki məzəmmət olunur, üstəlik bəyənilən və tə'riflənən bir xasiyyət hesab olunur.

Amma əgər nəfsi-əmmarə və heyvani «öz» bədənə hakim olarsa, əqli və insani «öz»ü məğlub edərək işdən kənarlaşdırır, bədən meydanında yeganə və yenilməz qəhrəmana çevrilir. Belə olan halda insan tədrici olaraq Allahdan və insani kamallardan uzaqlaşaraq heyvaniyyətin qaranlıq vadilərinə doğru süqut edir. Həqiqi "öz"ünü, yə'ni insaniyyətini unudur. İkinci dərəcəli yön olan heyvaniyyəti onun yerində oturdur. Məhz buna görə də bütün pisliklərin mənşəyi və özünü istəmək mə'nasına olan bu xislət bəyənilməzdir və həmişə məzəmmət olunur.

Özünü istəyən adam yalnız heyvani "öz"ünü istəyir. Onun bütün hərəkət, əməl, rəftar və danışıqlarında əsas hədəfi heyvani istəklərini və meyllərini tə'min etməkdir. O, özünü əməli olaraq bir

heyvan hesab edir və həyatda heyvani istəklərin tə'min olunmasından başqa bir hədəfi güdmür. Alçaq heyvani hədəflərə nail olmaq üçün özünü azad hesab edir, hər bir yaramaz əmələ bəraət qazandıraraq görülməsinə icazə verir. Onun üçün yalnız bir şey müqəddəsdir - o da heyvani nəfsdir. Hər bir şeyi, hətta haqq-ədaləti belə özü üçün istəyir. Elə bir ədalət ki, onun öz xeyrinə və istəklərini tə'min etmək istiqamətində olsun. Əgər onun zərərinə tamam olarsa belə, ədaləti istəməyib və onunla mübarizə aparmağa özünə haqq qazandırır. Hətta hökm və qanunları da öz ürəyi istədiyi kimi yozur, öz əməllərinə bəraət qazandırır. Yə'ni, ilkinliyi və əsaləti öz fikir və rə''ylərinə verir və din qayda-qanunlarını və hökmlərini onunla uyğunlaşdırır.

Özünü istəyən adam fəzilətlərdən, əxlaqi gözəlliklərdən və həqiqi kamallardan məhrumdur. O, dünyanın aldadıcı, süst və puç işlərinə, o cümlədən şan-şöhrət, cah-cəlal, məqampərəstlik, vəzifəpərəstlik, hərislik, tamahkarlıq, təkəbbür, rəyasət, yeyib-yatmaq, cinsi ləzzətlərdən faydalanmaq, əylənib özünü şad etmək kimi işlərə qurşanır, Allahı yad etməkdən, nəfsini təkamülə çatdırıb pərvəriş verməkdən qafil olur.

Özünü istəyən adam nəfsi-əmmarənin qarşısında müt'i olduğundan həyatında nəfsin istəklərini tə'min etməkdən və onu mümkün qədər razı salmaqdan başqa bir hədəfi olmadığından heyvani hədəflərə nail olmaq yolunda heç bir çirkin əməli əsirgəmir, hər bir çirkin işə də bəraət qazandırır. O, özünün heyvani hədəfləri yolunda zülm etməkdən, yalan danışmaq, töhmət vurmaq, və'dəsinə xilaf çıxmaq, yalandan bəzəmək, xəyanət və digər günahlardan imtina etmir. Deməli, özünü istəmək doğrudan da bütün fəsadların mənşəyidir; o, hər bir çirkin əməli başqa yerə yozub görülməsinə icazə verir. Hətta demək olar ki, hər bir günah həqiqətdə bir növ müxtəlif surətlərdə zahir olan özünü istəməkdir. Məsələn, zülm etmək, başqalarının hüququnu tapdalamaq özünü istəməkdən başqa bir şey deyildir. Həmçinin yalan danşmaq, qeybət etmək, yaramaz sözlər danışmaq, eyb axtarmaq, fəsad törətmək, intiqamçılıq eynilə özünü istəmək rəzil sifətidir ki, qeyd olunan surətlərdə cilvələnmişdir.

Özünü istəməyin müxtəlif dərəcə və mərhələləri vardır. Onun ən yüksək mərhələsi özünəpərəstişdən ibarətdir. Əgər bu çirkin xislətlə mübarizə aparılmazsa tədricən bu xüsusiyyət şiddətlənib elə bir

həddə çatır ki, nəfsi-əmmarəni mə’bud və itaəti vacib olan bir şey qərar verir, öz istəklərinə müt’i olub pərəstiş etmə həddinə çatdırır. Allah-təala belə şəxslər barəsində buyurur: **“Mə’budunu öz həvayi-nəfsi qərar verən şəxsi görmədinmi?”**[1]

Məgər ibadətin, şəxsin öz mə”budunun qarşısında zəlillik göstərməsi, heç bir qeyd-şərt olmadan onun fərmanlarına tabe olmasından başqa bir mə’nası vardırmı? Özünü istəyən adam da belədir, çünki o, öz nəfsinə itaət etməyi vacib hesab edir. Onun qarşısında zəlillik göstərir. Qeyd-şərt olmadan fərmanlarına itaət edir. Deməli, özünü istəyən şəxs həqiqi mə’nada müvəhhid ola bilməz.

## *DÜNYAYA MƏFTUN OLMAQ BÜTÜN GÜNAHLARIN MƏNŞƏYİDİR*

Qur’an ayələrində və hədislərdə dünya barəsində çoxlu məzəmmətlər gözə dəyir. O, bihudəlik, qürur mənşəyi kimi təqdim olunur. Ona baş qoşmağın mö’minə yaraşan iş olmadığı, ondan ciddi şəkildə çəkinməyin lazım olduğu qeyd olunur.

Qur’anda buyurulur: **“Dünya həyatı aldadıcı həzzdən (əyləncədən) başqa bir şey deyildir.”**[2]

Yenə buyurulur: **“Dünya oyun-oyuncaqdan və həvəsbazlıqdan başqa bir şey deyildir. Axirət dünyası isə təqvalılar üçün daha yaxşıdır. Bu barədə dərindən düşünmürsünüzmü?”**[3]

Yenə buyurulur: **“Bilin ki, dünya həyatı oyun-oyuncaqdan, həvəsbazlıqdan, bəzəkdən, fəxrdən, mal-dövlət və övladın çoxluğundan başqa bir şey deyildir. Onun məsəli vaxtlı-vaxtında yağan, onun ardınca yerdən bitki cücərən və əkinçini heyrətə gətirən yağışa bənzəyir. Sonra baxıb görərsən ki, saralıb (quruyub) çürüyüb. Bunun ardınca axirətdə çətin və şiddətli əzab olacaqdır.”**[4]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Dünya**

---

[1] “Furqan” surəsi, ayə:43

[2] “Ali-İmran” surəsi, ayə:185

[3] “Ən”am” surəsi, ayə:32

[4] “Hədid” surəsi, ayə:20

**malından çəkinin. Çünki dünya şirin və gözəl nəzərə çarpır. O, şəhvət və həvəslərlə qarışıqdır. Özünü yaxın və ötəri şeylərlə sevdirir, azacıq işlərlə heyrətə salır. Arzu və yalanlarla özünü bəzəyir. Onun xoşluqları davamlı deyildir, müsibətlərindən və çətinliklərindən aman yoxdur. Çox aldadıcı və ziyanlıdır. Halbahal olub dəyişən, aradan gedən, fani və məhv olandır, (insanları) yeyən və həlak edəndir.”**[1]

Yenə buyurur: **“Dünya arzular evidir. Onun əhli ondan köç etməlidirlər. Şirin və gözəl nəzərə çarpır. Sür’ətlə onu tələb edənlərə doğru gedir, məhəbbətini (ona) nəzər edənlərin qəlbinə salır.”**[2]

Bu kimi ayə və rəvayətlər dünyanı məzəmmət edərək, camaatı ondan çəkindirir. “Nəhcül-bəlağə”də dünya və ona məftun olanlar çox məzəmmət edilmiş, camaatdan dünyanı tərk edib axirət fikrində olmaları istənilmişdir. Orada insanlar iki dəstəyə bölünür; dünya əhli və axirət əhli. Onlardan hər birinin özünəməxsus proqramları vardır. Qur’anda buyurulur: **“Hər kəs dünya mənfəətini istəsə (Biz) ona dünya mənfəətini, hər kəs axirət savabını istəsə ona da axirət savabını verərik.”**[3]

Yenə buyurulur: **“Mal-dövlət və övladlar dünya həyatının zinətləridir. Lakin əbədi qalan saleh əməllər sənin Pərvərdigarının yanında həm savab, həm də ümid baxımından daha xeyirlidir.”**[4]

## *DÜNYA NƏDİR?*

Hər bir halda islam dünyanı məzəmmət olunmuş hesab edir və insanlardan zöhdü (dünyaya məftun olmamağı) istəyir. İndi dünyanın nə olması və ondan necə uzaq olunmasını araşdırmalıyıq.

Görəsən məzəmmət olunan dünya elə bu dünyanın varlıqları olan yer, günəş, ulduzlar, heyvanlar, bitkilər, ağaclar, mə’dənlər və insanlardan ibarətdirmi? Bunun müqabilində axirət aləmi yə’ni, digər aləm nədir? Buna əsasən dünya həyatı yemək, içmək,

---

[1] “Nəhcül-bəlağə”, 111-ci xütbə

[2] “Nəhcül-bəlağə”, 45-ci xütbə

[3] “Ali-İmran” surəsi, ayə:145

[4] “Kəhf” surəsi, ayə:46

işləmək, istirahət etmək, evlənmək və bu dünya həyatı ilə əlaqədar olan sair işləri görməkdən ibarətdir. İslam bunları məzəmmət etmişdirmi? Yoxsa yer, göy, heyvanlar, bitkilər pisdir və onlardan uzaq olmaq lazımdır? İslam dini ticarəti, ruzi qazanmağı, nəsil artırmağı və s. işləri məzəmmət edirmi? Şübhəsiz belə deyildir. Bunların hamısı Allahın yaratdığıdır və əgər pis olsaydılar yaradılmazdılar. Allah bunların hamısını Özünün gözəl ne'mətləri hesab edərək ondan istifadə etsin deyə insanın ixtiyarına qoymuşdur. Sərvət, mal-dövlət nəinki məzəmmət olunmur, hətta Qur'anda xeyirli bir şey kimi təqdim olunur: **"Əgər meyyit xeyirli bir şeyi (mal-dövləti) tərk etmiş olsa valideynlərinə və yaxın qohum-əqrəbasına məxsusdur."**[1]

Ticarətlə məşğul olub işləmək, halal ruzi qazanmaq nəinki məzəmmət olunmamışdır, əksinə, çoxlu rəvayətdə ibadətlərin ən yaxşısı kimi təqdim olunmuşdur.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"İbadət yetmiş qismdir. Onun ən yaxşısı halal ruzi qazanmaqdır."**[2]

İmam Məhəmməd Baqir (ə) buyurur: **"Hər kəs camaatdan ehtiyacsız olmaq üçün ruzi qazanmaq arxasınca gedərsə və ailəsinin ruzisini genişləndirib qonşularına ehsan edərsə, Allahla qiyamətdə görüşəndə onun surəti on dörd gecəlik ay kimi parıldayar."**[3]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Ailəsinin ruzisini əldə etmək üçün çalışan bir şəxs Allah yolunda cihad edən şəxs kimidir."**[4]

Rəvayətlərdə əkinçiliyə, ticarətə, hətta nikaha belə tövsiyə edilmişdir. Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) və pak imamların (ə) da tutduğu yol belə olmuşdur. Onlar daim işləyirdilər. Zahidlərin sərvəri Əliyyibni Əbi Talib (ə) də ciddi işgüzarlıqla çalışır və daim fəaliyyətlə məşğul olurdu. Belə isə, görəsən məzəmmət olunan dünya hansıdır?

Bə'ziləri demişlər ki, dünyanın özü deyil, ona məftun olmaq, məhəbbət bəsləmək bəyənilməzdir. Bə'zi ayə və rəvayətlərdə də

---

[1] "Bəqərə" surəsi, ayə:180
[2] "Kafi", 5-ci cild, səh.78
[3] "Kafi", 5ci cild, səh.88
[4] "Kafi", 5-ci cild, səh.88

dünyaya məhəbbət məzəmmət olunmuşdur. Qur’anda buyurulur: **“Nəfsani istəklərə – qadınlara, övladlara, qızıl-gümüş kisələrinə, cins atlara, heyvanlara, əkinə məhəbbət camaat üçün zinət verilmişdir. Bu, dünya həyatının həzzidir. Lakin Allah yanında yaxşı qayıdış yeri vardır.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Məbada dünyanı sevəsən! Çünki dünya məhəbbəti hər bir günahın kökü və hər bir bəlanın mənşəyidir.”**[2]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Dünyaya məhəbbət bütün xətaların və günahların başıdır.”**[3]

Bu kimi ayə və hədislərdən mə’lum olur ki, dünyaya və dünyəvi işlərə bağlılıq məzəmmət olunmuşdur, bu işlərin özü yox.

Burada belə bir sual irəli gəlir. Görəsən dünya işlərinə məhəbbət mütləq şəkildə məzəmmət olunur və insan qadına, övlada, evə, mal-dövlətə, yeyib-içməyə məhəbbət bəsləməməlidir? Bunu iddia etmək olarmı? Halbuki bu kimi işlərə məhəbbət insanların fitri və təbii işlərindəndir və Allah da insanı belə yaratmışdır. Məgər insan öz həyat yoldaşını, övladlarını sevməyə bilərmi? Məgər yeməliləri, geyməliləri, bu dünyanın sair gözəlliklərini sevməyə bilərmi? Əgər bu işlərə məhəbbət bəsləmək məzəmmət olunsaydı Allah insanı belə yaratmazdı. İnsan yaşamaq və diri qalmaq üçün bu kimi işlərə ehtiyac duyur və yaradılışında təbii olaraq onlara meyl göstərir.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“İnsanlar dünyanın övladlarıdır və heç kəs anasına məhəbbət bəslədiyinə görə məzəmmət olunmaz.”**[4]

Rəvayətlərdə tövsiyə olunur ki, övladlarınıza və həyat yoldaşınıza məhəbbət göstərin. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və mə’sum imamlar da (ə) qadınlarına və övladlarına məhəbbət izhar edir, bə’zi yeməkləri daha çox sevirdilər. Deməli yer, göy, bitkilər, ağaclar, mə’dənlər, heyvanlar və sair Allah ne’mətləri məzəmmət olunmamışlar. Onlara və dünya həyatına məhəbbət bəsləmək pis deyildir. Bə’zi rəvayətlərdə dünya tə’riflənmişdir.

---

[1] “Ali İmran” surəsi, ayə:14
[2] “Ğurərul-hikəm”, səh.150
[3] “Biharul-ənvar”, 3-cü cild, səh.7
[4] “Nəhcül-bəlağə”, 33-cü qisar kəlməsi

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) dünyanı məzəmmət edən bir şəxsin cavabında buyurdu: **"Dünya, onu təsdiq edənlər üçün doğruçuluq və sədaqət evi, həqiqəti tapanlar üçün əmin-amanlıq evi, ondan (axirət üçün) ehtiyat götürənlər üçün zənginlik evi, ibrət alanlar üçün öyüd-nəsihət evidir. Dünya Allah dostlarının məscidi, mələklərin namaz qıldığı yer, vəhyin nazil olduğu məkan və Allah övliyalarının ticarət yeridir. Onlar dünyada Allahın fəzl və mərhəmətinə nail olmuş, behişti qazanmışlar."**[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **"Dünya axirət üçün ən yaxşı kömək vasitəsidir."**[2]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Abır-heysiyyətini qorumaq, borclarını ödəmək və sileyi-rəhm etmək üçün halal mal kəsb etməyi xoşlamayan bir kəsdə xeyir və yaxşılıq yoxdur."**[3]

Belə isə, görəsən məzəmmət olunan dünya nədir ki, ona məhəbbət bəsləmək bütün günahların mənşəyi olsun?

Ayə və rəvayətlərin məcmusundan belə başa düşülür ki, dünyada olan varlıqlar, dünya həyatı və dünyəvi işlərə sadəcə məhəbbət və bağlılıq deyil, dünyaya meyl etmək, ona məftun olmaq məzəmmət olunur. İslam insanlardan istəyir ki, dünyanı olduğu kimi tanısınlar və onun üçün artıq yox, elə həmin qədər dəyər versinlər. Özlərinin və dünyanın yaradılışındakı hədəfləri və məqsədləri tanısınlar, həmin yolda hərəkət etsinlər. Əgər belə olsalar axirət əhli, amma əgər əməl və rəftarları bu hədəfin əksinə olarsa dünya əhlidirlər.

## *DÜNYANIN HƏQİQƏT VƏ MAHİYYƏTİ*

Bu mətləbin izahında öncə islam nəzərindən dünyanın həqiqət və mahiyyətini bəyan edib sonra nəticə alacağıq.

İslamın dünyaya iki cür e'tiqadı vardır. Biri yaşadığımız maddi dünya, digəri isə ölüb köçdüyümüz axirət dünyası. Ona axirət aləmi deyilir. Belə ki, insanın həyatı bu dünyada yaşadıqdan sonra ölməklə sona çatmır. Ölümdən sonra axirət aləmində davam edir. İslam dini bu dünyanı ötəri, fani və yol arasında olan ev, keçid, axirət aləmini isə əbədi bir dünya hesab edir.

---

[1] "Nəhcül-bəlağə", 330-cu qisar kəlməsi

[2] "Biharul-ənvar", 73-cü cild, səh.127

[3] "Kafi", 5-ci cild, səh.72

İnsan bu dünyaya bir qədər yaşayıb sonra ölüb məhv olmaq üçün gəlməmişdir ki, öz nəfsini elm və əməl vastəsilə pərvəriş edib təkmilləşdirməklə, axirət aləmində xoşhallıq və sevinclə əbədi yaşasın. Deməli, dünya axirət üçün əkin sahəsi, ticarət yeri, yol ehtiyatı hazırlamaq məntəqəsidir. Baxmayaraq ki, insan bu dünyada yaşamaq, Allahın onun üçün yaratdığı ne'mətlərdən istifadə etmək məcburiyyətindədir. Lakin, ne'mətlərdən bəhrələnmək hədəf deyil, sadəcə bir müqəddimədir. İnsan və dünyanın yaradılışında hədəf bu deyildir ki, bu dünyadakı həyatı yaxşı nizama salsın, firavanlıqda yaşasın, müxtəlif növ ne'mətlərdən və ləzzətlərdən mümkün qədər faydalansın. Əksinə o, daha ali və yüksək bir hədəf, yə'ni insaniyyətin şərəfli gövhərini pərvəriş etmək və Allah dərgahına yaxınlaşmaq üçün nəzərdə tutulubdur. Misal üçün aşağıdakı hədislərə diqqət yetirin:

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Dünya sizin daimi eviniz olmaq üçün yaradılmamışdır. Əksinə, bir keçiddir ki, saleh əməl vasitəsilə özünüzün əbədi mənziliniz üçün yol ehtiyatı tədarük görürsünüz. Belə isə dünyadan köç etmək üçün tələsin və ayrılıq üçün miniklərinizi hazırlayın."**[1]

Həzrət Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) başqa yerdə buyurur: **"Ey insanlar! Dünya ötəri bir saray, axirət isə əbədilik evidir. Axirət qərargahı üçün keçid məhəllindən ehtiyat götürün. Sirr pərdələrinizi sizin sirlərinizdən agah olan kəsin yanında cırmayın. Bədənlərinizi xaric etməmişdən qabaq qəlblərinizi dünyadan xaric edin. Dünyada imtahana, sınağa çəkiləcəksiniz və siz dünyadan başqa bir şey üçün yaradılmısınız. İnsan ölən zaman camaat "nə qoydu?", mələklər isə "özü üçün əvvəlcədən nə göndərdi?" - deyərlər. Allah atanıza rəhmət eləsin, mal-dövlətinizin bir miqdarını öncədən göndərin (ehsan edin) ki, Allah yanında borc surətində qalsın. Qoymayın ki, onun vacibləri (xums, zəkat və sair) sizin boynunuzda qalmış olsun."**[2]

Yenə buyurur: **"Agah olun! Arzu etdiyiniz və məhəbbət göstərdiyiniz, bə'zən sizi qəzəbləndirən, bə'zən isə sevindirən bu dünya nə sizin eviniz, nə onun üçün yaradıldığınız bir**

---

[1] "Nəhcül-bəlağə", 1323-cü xütbə

[2] "Nəhcül-bəlağə", 303

**mənzil, nə də ona doğru çağırıldığınız yerdir. Bilin ki, nə dünya sizin üçün əbədi qalacaq, nə də siz dünyada əbədi qalacaqsınız. Baxmayaraq ki, dünya sizi aldadıcı gözəllikləri ilə aldadır, lakin şər və pisliklər ilə də sizi qorxudur. Onda mövcud olan həzər olunmalı şeylər vasitəsilə onun qürurlarından və onda mövcud olan qorxmalı şeylər vasitəsilə onun tamahlandırmasından çəkinin. Çağırıldığınız evə doğru yarışın və qəlblərinizi dünyadan ayırın.”**[1]

Gördüyünüz kimi, bu hədislərdə dünyanın həqiqəti və mahiyyəti fani olan ötəri yer deyə, bəyan olunur. O, yol arasında olan bir ev, keçid yeri, qürur, aldadılmaq və hiyləgərlik evidir. İnsan bura üçün deyil, axirət aləmi üçün yaradılmışdır. İnsan bu dünyaya gəlmişdir ki, elm və əməl ilə öz insaniyyətinə pərvəriş verib, axirət aləmi üçün yol ehtiyatı və tədarük görsün.

## *AXİRƏT ƏHLİ*

İslam insanlardan istəyir ki, dünyanı elə olduğu kimi tanıyıb, əməl və rəftarlarını belə bir nəzərlə uyğunlaşdırsınlar. Dünyanı belə tanıyan şəxslər heç vaxt ona məftun olmaz, onun bər-bəzəklərinə aldanmaz. Bu dünyada yaşamaqlarına, onun qanuni ləzzət və ne’mətlərindən istifadə etmələrinə baxmayaraq onun əsiri və qulu olmazlar. Allahı və axirət aləmini heç vaxt unutmaz, saleh əməllə axirət aləmi üçün daim yol ehtiyatı toplamağa çalışarlar. Onlar bu dünyada yaşayırlar, lakin qəlblərinin gözü daha yüksəkliklərə nəzər salır. Hər anda, hər halda və hər bir əməldə Allahı və axirət aləmini nəzərə alıb, axirət dünyasının xeyrinə olaraq ondan bəhrələnirlər. Dünyanı axirət üçün bir yol, əkin sahəsi, ticarət yeri hesab edir, axirət aləmi üçün yol ehtiyatı hazırlamağa çalışırlar. Bu dünyanın hər bir şeyindən axirət faydaları üçün bəhrələnir, hətta öz əməlləri, yemək, içmək, evlənmək və sair kimi dünyəvi işlərdən də axirət aləmi üçün istifadə edirlər. Belə şəxslər dünya əhli deyil, axirət əhlidirlər.

İbni Əbi Yə’fur deyir: İmam Cə’fər Sadiqə (ə) dedim: «Biz dünyanı sevirik.» Buyurdu: «Dünya mal-dövlətləri ilə nə edirsiniz?» Ərz etdim: «Onların vasitəsilə evlənirik, həccə gedirik, onu ailəmiz üçün xərcləyirik, din qardaşlarımıza kömək edirik və

---

[1] “Nəhcül-bəlağə”, □ □ □ □ 173cü xütbə

Allah yolunda sədəqə veririk.» Buyurdu: «Bu ki, dünya deyil axirətdir.»[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Ey Allah bəndələri, agah olun və bilin ki, pərhizkarlar həm bu dünyadan, həm də axirətdən fayda aparırlar. Deməli, dünya əhli ilə dünya ne'mətlərindən bəhrələnməkdə şərikdirlər, amma dünya əhli axirətdə bunlarla şərik deyillər. Dünyada ən yaxşı şəkildə yaşayır, onun yeməlilərindən ən yaxşı şəkildə istifadə edirlər. Bunlar dünyadan zalımların, təkəbbürlülərin, xoş güzəran keçirənlərin faydalandığı kimi istifadə etmişlər. Sonra kamil ehtiyatla, ticarət yerindən bəhrələnməklə dünyadan axirətə köçmüşlər. Dünyanın zövq və ləzzətinə nail olmuş, yəqin şəkildə inanmışlar ki, axirətdə də Allahın mərhəməti sayəsində yaşayacaqlar. Belə ki, onların istəklərindən heç biri geri qaytarılmayacaq, onların ləzzət və xoşluqdan olan bəhrələri azalmayacaqdır."**[2]

Dünyada qazanc, sənətkarlıqla, ticarət və əkinçiliklə məşğul olmaq, ondakı ictimai məs'uliyyətləri, məqam və mənsəbləri qəbul etməyin insanın axirət əhli və zahid olması ilə ziddiyyəti yoxdur. Əksinə, elə məhz bunlar axirət yolunda və Allahın razılığını qazanmaq üçün istifadə edilə bilər. Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) işlərində və qazanclarında malik olduğu ciddiyyətlə belə, camaat arasında ən zahid bir adam idi. Camaata hakim olduğu dövrdə gecə ikən ibadət mehrabında ağlayaraq deyirdi: **"Ey dünya, ey dünya! Məndən uzaq ol! Məni aldatmaq üçün özünü təqdim edib məhəbbət göstərirsənmi? Bu vaxt sənin vaxtın deyil. Heyhat! Başqasını aldat, mənim sənə ehtiyacım yoxdur. Mən sənə üç dəfə təlaq vermişəm ki, artıq qayıtmağın mümkün deyil. Sənin həyatın qısa, dəyərin az, ümidin əhəmiyyətsizdir. Ah, yol ehtiyatının azlığından, yolun uzaqlığından, səfərin uzaqlığından və mənzilin əzəmətindən!"**[3]

Digər bir yerdə buyurur: **"Ey dünya, məndən uzaq ol! Sənin cilovunu öz boynuna atıb buraxmışam. Sənin caynaqlarından**

---

[1] "Biharul-ənvar", 73-cü cild, səh.106

[2] "Nəhcül-bəlağə", 27-ci kitab

[3] "Kəlimati qisar", 77

**xilas olmuşam, sənin tələlərindən qaçmışam, sənin sapmalarına düşməkdən çəkinmişəm.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) böyük bir ordu ilə müharibəyə gedərkən köhnə və dəyərsiz ayaqqabılarını İbni Abbasa göstərib deyirdi: **“Allaha and olsun, mənim nəzərimdə bu köhnə ayaqqabı hökumət və rəislikdən daha sevimlidir. Rəyasətə ona görə razılıq vermişəm ki, haqqı bərqərar edəm, yaxud haqsızlıqların qarşısını alam.”**[2]

Allahın xalis bəndələri həmişə belə olmuş və hal-hazırda da belədirlər. Onlar elə bu dünyada yaşadıqları halda daha yüksək üfüqlərə nəzər edirlər. Onlar axirət əhlidirlər. Sair insanlar kimi qazanc və ticarətə, maddi fəaliyyətlərə ciddiyyət göstərir, hökumət, rəislik, sərkərdəlik, həyatın idarə olunması kimi işlərlə məşğul olurlar. Lakin hər bir işi Allahın razılığını qazanmaq və öz vəzifəsini yerinə yetirmək məqsədilə görürlər. Allah ne’mətlərindən qanuni və şər’i həddə istifadə edir və eyni halda dünyaya “üç dəfə təlaq verib” onun mehr və məhəbbətini qəlblərindən çıxarırlar. Hakimiyyəti ələ almaq üçün müharibə edirlər, amma sadəcə rəhbərliyə çatmaq üçün deyil, haqq-ədalətin bərqərar olunması, müdafiə edilməsi naminə.

## *DÜNYA ƏHLİ*

Amma dünyanı olduğu kimi tanımayan, dünyanın özünə və onun həyatına əsl hədəf kimi baxaraq dünyəvi işlərlə məşğul olanlar və bu dünyadan sonra hesab-kitaba və əbədi həyata inanmayanlar dünyanın mal-dövlətinə, arvad-uşaqlarına, cah-cəlalına, məqamına aşiq olmuş, dünya həyatından bərk-bərk yapışmış və ona şiddətlə ürək bağlamışlar; axirət həyatını və Allahı unutmuş, mə’nəvi dəyərlərə göz yummuşlar. Heyvani istəklərinin tə’min olunması və dünya ləzzətlərindən son dərəcə bəhrələnməyi öz himmətlərinin əsası qərar vermişlər. Belə şəxslər hətta fəqir, əliboş və guşənişin olmalarına, yaxud hər növ ictimai məs’uliyyətdən imtina etmələrinə baxmayaraq dünya əhli hesab olunur.

Qur’anda buyurulur: **“Onlar dünya həyatının zahirini**

---

[1] “Nəhcül-bəlağə”, 145-ci məktub

[2] “Nəhcül-bəlağə”, 33-cü xütbə

**görürlər, lakin axirətdən qafildirlər.”**[1]

Yenə buyurulur: **“Onlar həmin kəslərdir ki, dünya həyatını axirət həyatı müqabilində satın almışlar.”**[2]

**“Yoxsa siz dünya həyatına razılıq verdiniz? Halbuki, bu azacıq mənfəətdən başqa bir şey deyildir.”**[3]

**“Bizim görüşümüzə ümid bəsləməyən, dünya həyatına ürək bağlayıb onunla qəlblərini sevindirən və Bizim ayələrimizdən qafil olanların əbədi yeri bu dünyada kəsb etdikləri şeylərə görə cəhənnəm əzabıdır.”**[4]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“İnsanın Allah dərgahından ən çox uzaq olduğu hallar odur ki, qarınla övrətinin (cinsiyyət üzvünün) istəklərini tə’min etməkdən başqa heç bir hədəfi olmasın.”**[5]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Təqvanın dünyaya məftun olan qəlbdə yerləşməsi haramdır.”**[6]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **“Dünyanı öz nəfsləriniz üçün müamilə qiyməti qərar verməyin və dünyanı Allahın yanında olanların əvəzində dəyişməyin. Həqiqətən bu çox pis ticarətdir.”**[7]

Dünya ona görə məzəmmət olunur ki, o qurur gətirir, aldadıcıdır, insanı axirətdən yayındırır, özünü gözəl və şirin cilvələndirərək insanı məftun edir, onu Allahdan yayındırır və axirət üçün yol azuqəsi hazırlamaqdan saxlayır. Dünya məzəmmət olunmuş və onun çirkinlikləri ifşa edilmişdir ki, insanlar ayıq olub onun hiylələrinə uymasınlar, gözlərini ona dikib onun əlində əsir olmasınlar. Məzəmmət olunan şey Allah ne’mətləri deyil, məhz dünyaya qəlbən bağlılıq, yaradılışın hədəfini unutmaq və axirətin əbədi həyatından qafil olmaqdır.

---

[1] “Rum” surəsi, ayə:7

[2] “Bəqərə” surəsi, ayə:86

[3] “Tövbə” surəsi, ayə:38

[4] “Yunis” surəsi, ayə:8

[5] “Biharul-ənvar”, 73-cü cild, səh.18

[6] “Ğurərul-hikəm”, səh.383

[7] “Nəhcül-bəlağə”, 32-ci xütbə

Deməli, dünyada axirət üçün işləyənlər axirət əhli, amma dünya üçün işləyənlər dünya əhlidirlər. Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"İnsanlar dünyada (necə) əməl etdiklərinə görə iki dəstəyə bölünürlər. Biri onlardır ki, dünyada elə dünya üçün işləyirlər. Dünya onları özünə məftun edir və axirətdən saxlayır, öz ölümlərindən sonra övladlarının fəqir olmasından qorxurlar, amma gələcəkdəki (axirətdəki) fəqirliyindən əmin-amanlıq hissi keçirir, ömürlərini başqalarının mənafeyinin tə'min olunması yolunda sərf edirlər. İkinci isə dünyada dünyadan sonrakı vaxt (qiyamət) üçün işləyənlərdir, onların ruziləri də zəhmətsiz olaraq onlara çatır. Yə'ni, dünya və axirət qismətlərinə çatır və hər iki aləmin maliki olurlar. Ona görə də onlar Allahın yanında abır-heysiyyətli və möhtərəm olacaq, Allahdan istədikləri hər bir şey müqabilində onlara müsbət cavab veriləcəkdir."**[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **"Dünya qərar tutmaq evi deyil, keçid məkanıdır. Ondakı insanlar iki qrupdur: Biri öz nəfslərini dünyanın dəyərsiz əşyaları ilə müamilə edənlərdir ki, dünya onu zillətə, fəlakətə salar. Digəri isə öz insani nəfsini alıb azad edənlərdir."**[2]

Dünya əhli ilə axirət əhli arasında olan fərq onların varlı və kasıb olmalarında, dünya işləri ilə məşğul olub yoxsa işsiz olmalarında, ictimai məs'uliyyətləri qəbul edib etməmələrində, camaat arasında yaşamalarında, yoxsa guşənişin olmalarında, ticarətlə məşğul olub, yoxsa elm, tədris, kitab yazmaq və moizə ilə məşğul olmalarında, dünya ne'mətlərindən istifadə edib etməmələrində, dünyəvi və məqamda olub olmamalarında deyildir. Onların əsaslı fərqləri dünyəvi işlərə, yoxsa axirət işlərinə meyl etməkdə, dünya həyatınamı, yoxsa axirət həyatına ürək bağlamalarında, dünyaya, yoxsa Allaha nəzər yetirməsində, heyvani istək və həvəsləri tə'min edilməsini həyatın hədəfi hesab etməsində, yoxsa insani gözəl əxlaqları və fəzilətləri tərbiyə etməsindədir. Hər şey insanı özünə məşğul edib onu Allahdan və

[1] "Nəhcül-bəlağə", 269-cu kəlmə
[2] "Nəhcül-bəlağə", 133-cü qısa kəlmələr

axirət aləmindəki səadətini tə’min etməkdən yayındırsa, hətta elm, tədris, kitab yazmaq, imamət, vaizlik, çıxış olsa belə, dünya hesab olunur. Hətta dünyada guşənişinlik edib tərki-dünyalıqla, ibadətlə məşğul olmaq belə Allahdan başqası üçün olarsa dünya hesab olunur.

Deməli, nə dünya əhli, nə də axirət əhli eyni səviyyədə deyillər. Dünya əhlinin bir qrupu kamil şəkildə dünyaya meyl edir, ümumiyyətlə, Allahdan və axirət aləmindən qafil qalırlar. Belə şəxsləri dünya qulları, dünyapərəstlər adlandırırlar. Onların müqabilində Allahın xalis bəndələridir ki, onların bütün diqqətləri Allaha və axirət aləminə yönəlir və Allahın tam razılığını qazanmaqdan başqa hədəfləri yoxdur. Bu iki qrup arasında qarşılıqlı olaraq çoxlu dərəcə və mərtəbələr vardır. Hər kəs dünyaya nə qədər meyl edirsə həmin miqdar da dünya əhli olur və Allah dərgahından uzaqlaşır. Bunun əksinə olaraq nə qədər Allahı yad edib axirətə diqqət yetirsə, həmin miqdarda dünyanı tərk edən zahid hesab olunacaqdır. Başqa sözlə, dünya əhli və axirət əhli olmaq iki nisbi məsələdir.

## *TƏQVA – TƏZKİYƏNİN MÜHÜM AMİLİDİR*

İslam məktəbində təqva çox böyük imtiyaza malikdir. Mö’minlərin içərisində müttəqilər (təqvalılar) də imtiyazlı şəxslər hesab olunur. Qur’anda, hədis kitablarında, xüsusilə “Nəhcül-bəlağə” kitabında təqva kəlməsi və bu kökdən alınan sair kəlmələr çox təkrar olunmuşdur. Qur’ani-Kərim insanların dəyər və kəramətinin me’yarını təqva hesab edərək buyurur: **“Allah yanında sizin ən əziziniz və ən hörmətliniz ən təqvalı olanınızdır.”**[1]

Təqva ən gözəl axirət ehtiyatı və səadətin ən böyük vasitəsi kimi təqdim olunur. Qur’anda buyurulur: **“(Öz axirətiniz üçün) yol ehtiyatı tədarük görün, ehtiyatların ən yaxşısı təqvadır.”**

Yenə buyurulur: **“Yaxşı əməl sahibləri və təqvalı olanlara çox böyük mükafat veriləcəkdir.”**[2]

**“Belə isə hər kəs təqvalı olub layiqli əməllər görsə onlar üçün**

[1] “Hucurat” surəsi, ayə:13

[2] “Ali-İmran” surəsi, ayə:172

**heç bir qorxu və qəm-qüssə olmayacaqdır.”**[1]

**“Pərvərdigarınızın məğfirətinə, bağışlamasına və behiştə doğru tələsin. Elə bir behişt ki, onun genişliyi asimanların və yerin genişliyi qədərdir və təqvalılar üçün nəzərdə tutulub.”**[2]

**“Həqiqətən müttəqilər behiştdə və ne’mətlər arasında yaşayırlar, Pərvərdigarın əta etdiyi ne’mətlərdən xoşhaldırlar.”**[3]

“Nəhcül-bəlağə”də və hədis kitablarında təqva əxlaqın başı, ən böyük səadət vasitəsi kimi təqdim olunmuşdur.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Təqva bütün əxlaqların başıdır.”**[4]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Bir xüsusiyyət hər kəsdə olsa dünya və axirət onun ixtiyarında olacaq, behiştə gedəcəkdir.** Soruşdular: Ey Allahın Rəsulu, o hansı xüsusiyyətdir? Buyurdu: «**Təqva. Hər kəs camaatın ən hörmətlisi (izzətlisi) olmaq istəyirsə təqvanı özünə adət etsin. (Sonra bu ayəni oxudu:) “Hər kəs təqvalı olsa Allah onun üçün (düşdüyü çətin vəziyyətlərdən) çıxış yolu qərar verəcək, ruzisini gümanı gəlmədiyi yerdən çatdıracaqdır.”»**[5]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“(Amandır) heç vaxt təqvanı əldən vermə. Çünki o, bütün xeyirləri və yaxşılıqları əhatə edir. Təqvadan başqa bir xeyir yoxdur. Təqva vasitəsilə əldə olunan xeyirlər də ondan başqasında tapılmır. İstər dünya xeyri olsun, istərsə də axirət xeyri.”**[6]

İmam Səccad (ə) buyurur: «**Hər əməlin şərafət və dəyəri təqva ilədir. Səadət və nicat yalnız müttəqilər nail olurlar. Mütəal Allah buyurur: “Həqiqətən səadət və qurtuluş müttəqilərə məxsusdur.”»**[7]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Ey Allah**

---

[1] “Ə”raf” surəsi, ayə:35

[2] “Ali-İmran” surəsi, ayə133

[3] “Tur” surəsi, ayə:18

[4] “Nəhcül-bəlağə”, 41-ci qısa kəlam

[5] “Biharul-ənvar”, 70-ci cild, səh.285

[6] “Biharul-ənvar”, 70-ci cild, səh.285

[7] “Biharul-ənvar”, 77-ci cild, səh.386

**bəndələri! Agah olun və bilin ki, müttəqilər axirət ne'mətlərindən bəhrələnəcəklər. Dünya ne'mətlərindən bəhrələnməkdə dünya əhli ilə şərikdirlər. Lakin dünya əhli axirətdə onlarla şərik deyillər. Dünyada ən yaxşı şəkildə yaşayır, ən yaxşı yeməklərdən istifadə edirlər. Müttəqilər dünyada müşriklərin və təkəbbürlülərin istifadə etdiyi həmin ne'mətlərdən istifadə edirlər, lakin dünyadan çoxlu fayda və yol ehtiyatı ilə köçəcəklər. Dünyada zöhd ləzzətindən faydalanır və bilirlər ki, qiyamətdə Allahın rəhməti sayəsində yaşayacaqlar. Onlar hər nə istəsələr Allah yerinə yetirəcək və onların ləzzətlərdən olan bəhrələri azalmayacaqdır."**[1]

Bə'zi hədislərdə təqva nəfsin saflaşdırılması və paklanması üçün mühüm amil, nəfsani xəstəliklərə şəfa verən ən yaxşı dərman kimi təqdim olunur. Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Həqiqən təqva sizin qəlblərinizə şəfa verən, qəlblərinizin korluğunu işıqlandıran, bədən xəstəliklərinizə şəfa verən, sinələrinizin fəsadını islah edən, nəfsin aludəliklərini paklayan, göz pərdələrini cilalayan, batini iztirablarınıza aramlıq verən, sizin qaranlıqlarınıza nuranilik verən bir şeydir."**[2]

## *TƏQVA ŞƏRİƏT HÖKMLƏRİNİN QOYULMASINDA HƏDƏFDİR*

İslamda təqva əsl əxlaqi bir dəyər, şəriət hökmlərinin qoyulmasında əsas hədəf kimi təqdim edilmişdir. Qur'anda buyurulur: **"Ey insanlar! Sizi və sizdən qabaqkıları yaradan Pərvədigarınıza ibadət edin, bəlkə təqvalı olasınız."**[3]

**"Sizdən əvvəlki insanlara oruc vacib edildiyi kimi, sizə də vacib edildi, bəlkə təqvalı olasınız."**[4]

**"Qurbanlıqların əti və qanı Allaha çatmır, lakin sizin təqvanız Allaha çatır."**[5]

**"Axirət səfəri üçün yol ehtiyatı götürün, (və bilin ki,)**

---

[1] "Nəhcül-bəlağə", 27-ci kitab
[2] "Nəhcül-bəlağə", 198-ci xütbə
[3] "Bəqərə" surəsi, ayə:21
[4] "Bəqərə" surəsi, ayə:183
[5] "Həcc" surəsi, ayə:38

**ehtiyatların ən yaxşısı təqvadır.”**[1]

Gördüyünüz kimi, bə’zi ibadətlərin qanun şəklinə salınmasında əsas hədəf və hətta ibadətin özünün fəlsəfəsi bu olmuşdur ki, bəndələr o əməlləri yerinə yetirməklə təqvalı olsunlar. Təqva islam nəzərində o qədər əhəmiyyət daşıyır ki, sair əməllərin qəbul olunmasında me’yar hesab edilir, təqvasız əməl rədd olunur və onun heç bir faydası yoxdur.

Qur’anda buyurulur: **“Allah (yaxşı əməlləri) yalnız müttəqilərdən (təqva sahiblərindən) qəbul edir.”**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Əbuzərə buyurdu: **“Təqva əldə etmək üçün əməlin özündən daha artıq sə’y göstər, çünki təqva ilə olan heç bir əməl az, kiçik deyildir. Allah tərəfindən qəbul olunan bir əməl necə az və kiçik hesab edilə bilər, halbuki Qur’anda buyurulur: “Allah (əməli) yalnız müttəqilərdən qəbul edir”**[3]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Onların ağlamaqları səni aldatmasın, çünki təqva yalnız qəlbdədir.”**[4]

Qur’anda buyurulur: **“Əgər səbr etsəniz və təqvalı olsanız bu, işlərin ən mühümündən ibarətdir.”**[5]

Gördüyünüz kimi Qur’anda və hədislərdə təqva əsaslı bir dəyər, ən yaxşı yol ehtiyatı, qəlbin xəstəliklərindən ötrü ən yaxşı dərman, nəfsin təzkiyə və təmizlənməsində ən böyük vasitə kimi təqdim olunmuşdur. Onun əhəmiyyətini çatdırmaq üçün təkcə bunu demək kifayətdir ki, şəriət qanunlarının və hökmlərinin qoyulmasında əsas məqsəd təqvadır.

İndi isə təqvanın mə’nasını izah edirik.

## *TƏQVANIN TƏ’RİFİ*

Adətən təqva mənfi bir proqram, yə’ni günahlardan çəkinmək və pəhriz etmək kimi təqdim olunur və belə təsəvvür edilir ki, ictimai işlərdə iştirak etməklə təqva halətinin qorunub saxlanması çox

---

[1] “Bəqərə” surəsi, ayə:197
[2] “Maidə” surəsi, ayə:27
[3] “Biharul-ənvar”, 77-ci cild, səh.89
[4] “Biharul-ənvar”, 70-ci cild, səh.286
[5] “Ali-İmran” surəsi, ayə:186

çətindir, hətta qeyri-mümkündür də. Çünki insanın nəfsi təbii olaraq günahlara meyl edir, əgər ictimai məs'uliyyətləri qəbul edərsə təbii olaraq günaha doğru çəkiləcəkdir. Buna görə də ya təqvalı və pəhrizkar olmalı və ictimai işlərdən kənara çəkilməli, ya da ictimai məs'uliyyətləri qəbul edərək təqvanı əldən verməlidir. Çünki onların hər ikisinin bir yerə yığışması qeyri-mümkündür.

Bu cür təfəkkürdən belə çıxır ki, insan nə qədər guşənişin olsa bir o qədər təqvalı olacaqdır. Amma ayələrdə, hədislərdə və "Nəhcül-bəlağə"də təqva müsbət bir dəyər kimi qiymətləndirilir. Təqva yalnız günahın tərk olunması deyildir. Əksinə bundan ibarətdir ki, insanda batini bir qüvvə olsun və onunla nəfsini nəzarət altına ala bilsin ki, davamlı məşğələlər, riyazətlər nəticəsində nəfs üçün belə bir səciyyə hasil olsun və nəfsini o qədər gücləndirsin ki, Allahın əmrlərinə müt'i, qeyri-qanuni nəfsani istəklər və meyllər qarşısında müqavimətli və sabit olsun. Lüğətdə də təqva həmin mə'nadadır.

Təqva qoruyub-saxlamaq mə'nasında olan "viqayə" kökündən alınmışdır. Təqva yə'ni, «özünü saxlamaq» və «nəfsi nəzarət altına almaq.» Təqva mənfi və inkari bir iş deyil, insana müsbət sifət və toxunulmazlıq verən bir xüsusiyyətdir. Təqva insanın şəriət qanunları və göstərişlərinə itaət etməklə əlaqədar vəfalı qalmasıdır. Hər günahın tərk edilməsinə təqva deyilmir. Əksinə, təqva insanda günahın tərk edilməsi, nəfsin nəzarət alınması ilə əlaqədar səciyyənin yaranmasıdır. Təqva ən yaxşı axirət ehtiyatıdır. Bu da mənfi deyil, müsbət bir işdir. Nümunə üçün Əmirəl-mö'minin Əliyyibni Əbitalibin (ə) kəlamlarından bir neçəsinə diqqət yetirin:

**"Ey Allah bəndələri, sizi təqvaya tövsiyə edirəm! Çünki təqvanın nəfs ilə münasibəti onu yaxşılıqlara doğru çəkən bir cilov kimidir. Belə isə təqvanın möhkəm iplərinə sarının, onun həqiqətlərindən tutun ki, sizi aramlıq və rifah mənzillərinə, geniş vətənlərə, hifz olunan pənahgahlara və izzət mənzillərinə çatdırsın."**[1]

**"Həqiqətən təqva sizin üçün bir pənahgah və sipər, sabah (qiyamət) üçün behiştə doğru olan aşkar bir yoldur ki, onu keçənlər fayda aparar, onu əmanət alanlara mühafizəçi olar."**[2]

---

[1] "Nəhcül-bəlağə", 195-ci xütbə

[2] "Nəhcül-bəlağə", 191-ci xütbə

**“Ey Allah bəndələri, agah olun (və bilin) ki, təqva möhkəm bir pənahgahdır. Günah və təqvasızlıq təməlsiz bir evdir ki, sakinlərini saxlayıb ona sığınanları qoruya bilməz. Bilin ki, təqva ilə günahların zəhərləri və tikanları kəsilir.”**[1]

**“Ey Allah bəndələri! Həqiqətən təqva Allah övliyalarını günahdan elə saxlayır və Allahdan qorxunu onların qəlblərində elə qərarlaşdırır ki, gecələri ibadət etmək və Allahla raz-niyaz üçün oyaq qalır, gündüzləri oruc tuturlar.”**[2]

**“Həqiqətən təqva bu dünyada sənin üçün sığınacaq və ölümdən sonra səadətdir.”**[3]

Gördüyünüz kimi bu hədislərdə **təqva** müsbət və vücudi bir dəyər, insanı çirkinlikdən saxlayıb ona toxunulmazlıq verən bir qüvvə, güclü nəzarətçi bir amil kimi təqdim olunur. **Təqva** bir cilova bənzəyir ki, onun vasitəsilə günahkar, ipə-sapa yatmayan nəfs, onun istək və meylləri nəzarət altına alınır və tənzimlənir. **Təqva** möhkəm bir qalaya və hasara bənzəyir ki, insanı batini düşmənlərinin – yə’ni qanunsuz nəfsani istəklərin və şeytani həvəslərin hücumlarından qoruyur. **Təqva** şeytanların öldürücü və zəhərli oxlarının qarşısını alan bir sipərə bənzəyir. **Təqva** insana azadlıq verir, onu həvayi-nəfsin zəncirlərindən, əsarətindən xilas edir, boynundan hərislik, tamahkarlıq, həsəd, şəhvət və qəzəbin buxovlarını götürür. **Təqva** məhdudiyyət deyil, nəfsi nəzarət altına almaq və onu mülkiyyətə keçirməkdir. **Təqva** insana izzət, şərafət və şəxsiyyətdə müqavimət verir, qəlbi şeytani fikirlərin hücumundan saxlayıb ilahi mələklərin nazil olması və müqəddəs nurların saçması üçün hazırlayır, əsəb sisteminə aramlıq və xatircəmlik verir. **Təqva** insanı soyuqdan, istidən və bə’zi hadisələrdən qoruyan paltara və evə bənzəyir.

Qur’anda buyurulur: **“Təqva paltarı daha xeyirlidir.”**[4] Deməli, təqva mənfi bir sifət deyil, müsbət bir dəyər və axirət üçün yol ehtiyatıdır. Əlbəttə, Qur’anda və hədislərdə təqva günah qarşısında qorxmaq, onu tərk etmək mə’nasında da gəlmişdir. Lakin bunlar

---

[1] “Nəhcül-bəlağə”, 157-ci xütbə
[2] “Nəhcül-bəlağə”, 114-cü xütbə
[3] “Ğurərul-hikəm”, səh.222
[4] “Ə”raf” surəsi, ayə:26

təqvanın özü deyil, onun tələbləridir.

## *TƏQVA VƏ GUŞƏNIŞİNLİK*

Guşənişin həyat tərzi keçirib ictimai məs’uliyyətləri qəbul etməmək nəinki təqvanın əlamətlərindəndir, hətta bə’zi hallarda təqvanın tam əksi sayılır. İslamda röhbaniyyət (tərki-dünyalıq) və guşənişinlik yoxdur. Bu din insana günahdan qaçmaq üçün guşənişinlik edərək dünyəvi işləri tərk etməyi tövsiyə etmir. Əksinə, ondan istəyir ki, məs’uliyyətləri qəbul etsin, ictimai işlərdə iştirak etsin, eyni halda təqva vasitəsilə öz nəfsini cilovlayıb nəzarət altında saxlasın və onu azğınlıqdan qorusun.

İslam heç vaxt "qanuni rəyasət və məqamı qəbul etmə" demir. Əksinə, o, deyir ki, bunları qəbul et, özü də Allahın razılığını qazanmaq, Allah bəndələrinə xidmət etmək üçün qəbul et. Şan-şöhrət qulu olma, onu şan-şöhrət qazanmaq, nəfsani istəklərə və şəhvətlərə nail olmaq üçün bir vasitə qərar vermə, haqq yolundan çıxma.

İslam heç də buyurmur ki, təqva mərhələsinə çatmaq üçün ticarət və qazancdan əl çək, halal ruzi əldə etmək üçün çalışma. O, sadəcə olaraq buyurur ki, dünyanın əsiri və ona qul olma.

İslam heç vaxt demir ki, dünyanı tərk et və ibadət üçün bir guşədə əyləş; o buyurur ki, dünyada yaşa və onun abadlığı üçün çalış. Lakin dünya əhli kimi ona məftun olma. Dünyanı Allaha doğru yaxınlaşmaq üçün bir vasitə et.

Təqvanın əsas məqsədi də məhz budur ki, islamda ən yaxşı dəyər və xislətlər kimi təqdim olunmuşdur.

## *TƏQVA VƏ BƏSİRƏT*

Ayə və hədislərdən mə’lum olur ki, təqva insana bəsirət və agahlıq verir ki, onunla dünya və axirətin həqiqi mənafeyini ayırd edib onun ardınca getsin.

Qur’anda buyurulur: **"Ey iman əhli! Əgər təqvalı olsanız Allah sizə (haqqı batildən fərqləndirən nur) furqan verər."**[1] Yə’ni Allah sizə səadətlə bədbəxtçilik, mənafe ilə zərəri ayırd edə biləsiniz deyə, bəsirət gözü verər.

Başqa ayədə buyurulur: **"Təqvalı olun ki, sizə elm əta etsin,**

---

[1] "Ənfal" surəsi, ayə:29

**Allah hər bir şeyi biləndir.”**[1]

Qur’anın bütün insanlar üçün nazil olmasına baxmayaraq, onunla yalnız müttəqilər hidayət olunur və öyüd-nəsihət alırlar. Buna görə də buyurulur: **“Qur’an camaat üçün bir xəbərdarlıq, təqva əhli üçün isə hidayət və öyüd-nəsihətdir.”**[2]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Həqiqətən təqva sizin qəlbinizin xəstəliklərinə şəfa verən bir dərman, qəlb gözünüzün açılması üçün bir səbəbdir.”**[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Əgər şeytanlar bəni-adəmin qəlbinin ətrafına fırlanmasaydı, onlar mələkut aləmini müşahidə edərdilər.”**[4]

İmam Cə’fər Sadiq (ə) atasının belə buyurduğunu nəql edir: **“Qəlbi günahdan da artıq korlayan bir şey yoxdur. Qəlb günah ilə çarpışır, elə bir həddə çatır ki, günah onu məğlub və alt-üst edir.”**[5]

Bu kimi ayə və hədislərdən mə’lum olur ki, təqva insanın bəsirətli, əql sahibi, düzgün dünyagörüşlü olmasına səbəb olur, idrak və ayırd etmə qüvvəsini gücləndirir. Əql insanın vücudunda əmanət qoyulan çox dəyərli bir gövhərdir. İnsan onun vasitəsilə məsləhət və zərərləri, xeyir və şəri, xoşbəxtlik və bədbəxtlik amillərini və nəhayət, edilməli və edilməməli şeyləri bir-birindən ayırd edir. Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Bədəndəki əql Haqqın peyğəmbəridir.”**[6]

Əqlin üzərinə belə bir vəzifə qoyulmuşdur və o bu işi yerinə yetirməyə qadirdir. Lakin bu şərtlə ki, qüvvələr və qərizələr onun hakimiyyətini qəbul etsinlər, onun qarşısında müxalifət və maneçilik törətməsinlər. Həva-həvəslər əqlin düşmənidir. Ona öz işini lazımi şəkildə yerinə yetirməsinə mane olur. Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Həvayi-nəfs əqlin düşmənidir.”**[7]

---

[1] “Bəqərə” surəsi, ayə:282

[2] “Ali-İmran” surəsi, ayə:138

[3] “Nəhcül-bəlağə”, 198-ci xütbə

[4] “Biharul-ənvar”, 70-ci cild, səh.59

[5] “Biharul-ənvar”, 70-ci cild, səh.54

[6] “Ğurərul-hikəm, 1-ci cild, səh.10

[7] “Ğurərul-hikəm”, səh.10

Yenə buyurur: **"Hər kəs öz şəhvətinə hakim olmazsa əqlə də malik olmaz."**[1]

Başqa bir hədisdə buyurur: **"Ücb və özünü bəyənmək əqli fəsada çəkir (korlayır)."**[2]

**"İnadkar adamın düzgün bir rə"yi olmaz."**[3]

Düzdür, bədənin idarə olunması və hakimiyyəti əqlə həvalə edilmişdir və əql də onu yerinə yetirə bilər. Lakin nəfsani qərizələr və meyllər onun müvəffəqiyyət qazanmasına mane olan ən böyük amillərdir. Əgər qərizələrdən biri, yaxud hamısı normal vəziyyətdən çıxaraq tüğyan edərsə və əqlin işinə maneçilik törədərsə, bu halda əql öz vəzifəsini yerinə yetirməyə necə müvəffəq ola bilər? Belə insanın əqli vardır, lakin onda dərk və ayırdetmə qüvvəsi yoxdur. Onun silahı vardır, lakin həvayi-nəfs, şəhvətlər və qəzəblər onun üzünü qaranlıq bulud, qalın toz kimi tutmuş, nurunu söndürmüş və həqiqətləri dərk etməsinin qarşısını almışlar. Şəhvətpərəst bir adam özünün həqiqi mənafeyini necə ayırd edər və şəhvətin tüğyançı qüvvəsini necə cilovlaya bilər? Xudbin insan öz eyblərini nə vaxt tanıya bilər ki, onu da islah etmək qərarına gəlsin? Sair sifətlər də, o cümlədən qəzəb, tamah, həsəd, kin-küdurət, təəssüb, inadkarlıq, mal-dövləti, məqam və rəyasəti sevmək və s. xislətləri özündən necə uzaqlaşdıra bilər?

Əgər bunlardan biri, yaxud bir neçəsi nəfsə hakim kəsilsə əməli əqli həqiqətləri dərk etməkdən saxlayacaq, amma əql bunların əksinə olaraq bir iş görmək istəsə bunun qarşısında çoxlu maneələr icad edərək dad-fəryad qoparacaq, mühiti əql üçün qaranlıqlaşdıracaq və onu öz vəzifəsini yerinə yetirməkdə bacarıqsız və aciz edəcəkdir. Həvayi-nəfsin əlində əsir olan bir şəxs hətta öyüd-nəsihətdən belə nəticə almayacaqdır. Qur'an ayələri və moizələr qəlbinin qəsavətini daha da artıracaqdır.

Deməli, təqvanı bəsirət, aydın fikirlilik və vəzifəni tanımağın ən mühüm amillərindən biri hesab etmək olar.

Bu bəhsin sonunda qeyd etməliyik ki, **"təqva bəsirətin artmasına səbəb olur"** dedikdə məqsəd nəzəri əqldə və

---

[1] "Ğurərul-hikəm", səh.702

[2] "Ğurərul-hikəm", səh.26

[3] "Ğurərul-hikəm", səh.31

həqiqətlərin dərk olunmasında bəsirətli etməsi deyil, əməli əql və vəzifənin ayırd edilməsini, başqa sözlə desək, “olmalı” və “olmamalı” şeyləri ayırd etməkdir. Təqvasız adamın riyaziyyat, təbabət və sair kimi elmi məsələlərdən də aciz olmasını təsəvvür etmək düzgün olmaz. Baxmayaraq ki, təqva onun şüurunun inkişafında və ayıqlığında müəyyən qədər tə’sir göstərir.

## *TƏQVA VƏ ÇƏTİNLİKLƏRƏ QƏLƏBƏ*

Təqvanın mühüm nəticələrindən biri həyat çətinliklərinə qələbə çalmaqdır. Qur’anda buyurulur: **“Hər kəs təqvalı olsa Allah (çətinliklərin həllində) onun üçün bir çıxış yolu qərar verər və gümanı gəlmədiyi yerdən ona ruzi çatdırar.”**[1]

Yenə buyurulur: **“Hər kəs təqvalı olsa Allah onun işlərini asanlaşdırar.”**[2]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Hər kəs təqvalı olsa çətinliklər və şiddətli müsibətlər ona yaxınlaşdıqdan sonra ondan uzaqlaşar. Acılıqlar onun üçün şirin olar, çətinliklər seli onun müqabilində yarılaraq pərakəndə vəziyyətə düşər, çətin və dərdli işlər onun üçün asan olar.”**[3]

Bu kimi ayə və hədislərdən mə’lum olur ki, təqva müşkül məsələlərin həll olunmasında, çətinliklərə qələbə çalınmasında insana kömək edir. İndi təqvanın bu kimi işlərdə nə qədər tə’sir göstərdiyini araşdırırıq.

Həyat çətinliklərini ümumi şəkildə iki dəstəyə bölmək olar. Onlardan bə’zilərinin həlli insanın ixtiyarında deyil. O cümlədən bədən üzvünün nöqsanlı olması, əlacsız xəstəliklərə tutulma, qarşısı alına bilməyən təhlükələr və bu kimi şeylər. Belə ki, onların qarşısının alınması bizim imkanımızdan xaricdədir.

İkinci qismi elə çətinliklərdən ibarətdir ki, bizim qərar və iradəmiz onların həll olunmasında və hətta qarşısının alınmasında belə tə’sirlidir. Əksər ruhi, cismi, ailəvi, ictimai çətinlikləri misal olaraq qeyd etmək olar.

Əlbəttə, təqva bu iki qismdən olan çətinliklərin hər birinin həll

---

[1] “Təlaq” surəsi, ayə:2

[2] “Təlaq” surəsi, ayə:4

[3] “Nəhcül-bəlağə”, 198-ci xütbə

olunmasında mühüm rol ifa edə bilər. Birinci qismdən olan çətinliklərin qarşısının alınması və aradan qaldırılması əməldə qeyri-mümkün olmasına baxmayaraq, bu çətinliklər qarşısında necə rəftar etmək və necə reaksiya göstərmək bizim ixtiyarımızdadır. İnsan təqvalı olub özünü saxladıqda, öz nəfsinə tamamilə hakim kəsildikdə dünya və onun çətinliklərini ötəri, axirət həyatını əbədi hesab edir, Allahın yenilməz və sonsuz qüdrətinə arxalanır, dünyanın xoşagəlməz hadisələrini və çətinliklərini kiçik və müvəqqəti sayıb onların qarşısında ah-fəğan etmir. Əksinə, Allahın iradəsi və istəyi qarşısında qeydsiz-şərtsiz təslim olur. Təqvalı insan Allahla, axirət aləmi ilə ünsiyyətdə olur. Bu dünyanın ötəri hadisələri və çətinlikləri onun ruhi aramlıq və xatircəmliyini poza bilmir. Çünki xoşagəlməz hadisələr, çətinliklər və ağır müsibətlər zatən dərdli deyildir. Əksinə, nəfsin iztirab və dözümsüzlüyü insanın narahat olmasına səbəb olur və təqva bu barədə insana kömək edir.

İkinci qism də, yə'ni, həyatda insanın başına gələn acı hadisələr və şiddətli müsibətlərin çoxu nəfsani istəklərin, çirkin sifətlərin, şeytani meyllərin qələbə çalmasından irəli gəlir. Ailə mühitində baş verən çətinliklərin əksəriyyətini ya qadın, ya kişi, ya da hər ikisi öz nəfsani istəklərinə nəzarət edə bilmədiklərindən yaradırlar. Özləri də öz əllərilə yandırdıqları odda yanıb ah-nalə edirlər. Sair çətinliklər də eynilə belədir.

Həsəd, kin-küdurət, intiqamçılıq, inadkarlıq, təəssüb, xudbinlik, xudpəsəndlik, tamahkarlıq, şəhvət, qəzəb, özünü yuxarı tutmaq, təkəbbür və sair kimi yaramaz əxlaqlar insan üçün çoxlu çətinliklər, qəm-qüssə yaradır, şirin həyatı acıdır. Belə bir şəxs öz həvayi-nəfsinin əlində o qədər əsirdir ki, hətta öz dərdini, xəstəliyini ayırd edib müalicə etməkdən belə acizdir. Bu kimi acı hadisələrin qarşısını ala biləcək ən tə'sirli və ən yaxşı şey təqva, nəfsin nəzarət altına alınması və özünü saxlamaqdan ibarətdir. Təqvalı şəxs üçün bu cür hadisələr ümumiyyətlə irəli gəlmir. O, öz həyatını çox aram və nurani qəlblə davam etdirir və axirət səfəri üçün yol ehtiyatı hazırlayır.

Dünyaya məhəbbət (məftunluq) bütün çətinliklərin mənşəyidir. Lakin təqvalı bir şəxs dünyaya və onda olanlara məftun olmadığından, onları itirən zaman ruhən əzab hissi keçirmir.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Dünya**

**məhəbbətindən uzaq ol. Çünki, o hər bir günahın əsli və hər bir bəlanın mənşəyidir.”**[1]

## *TƏQVA VƏ AZADLIQ*

Bə’ziləri belə fikirləşə bilər ki, təqva insanı azadlıqdan məhrum edir, onun üçün müəyyən məhdudiyyətlər yaradır və həyatı insan üçün çətinləşdirir. Lakin islam bu yanlış əqidəni rədd edir və buyurur ki, təqva insanın azadlıq, asayiş, izzət və alicənablığına səbəb olur. Bununla yanaşı təqvasız insanı əsir və qul hesab edir.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Təqva hidayətin, müqavimətin açarı, axirət ehtiyatıdır. Təqva qul olmaqdan və fəlakətdən qurtuluş vasitəsidir.”**[2]

O Həzrət (ə) yenə buyurur: **“İslamı qəbul etməkdən böyük bir şərafət, təqvadan əziz bir izzət (əzizlik) və vərə”dən (təqvanın yüksək dərəcəsi) yaxşı bir pənahgah yoxdur.”**[3]

Yenə buyurur: **“Hər kəs təqvalı olsa çətinliklər və şiddətli müsibətlər ondan uzaqlaşar, acı hadisələr onun üçün şirin olar, çətinliklər dalğası onun ətrafında pərakəndə olar və çətinliklər onun üçün asanlaşar.”**[4]

Bu hədislərdə təqva çətinliklərin həll olunması üçün bir açar, insanın azadlıq və izzət səbəbi, çətinliklərdən və həyatın acı hadisələrindən qurtuluş vasitəsi və ən yaxşı sığınacaq kimi təqdim olunmuşdur.

Deməli, təqva heç vaxt insanın məhdudiyyətinə, azadlıqdan məhrum olmasına səbəb olmur. Əksinə, o, insanın şəxsiyyətini dirçəldir və onu şəhvət, qəzəb və intiqamçılıq hissləri, kin-küdurət, özünü sevmək, xudbinlik, təəssüb, inadkarlıq, tamahkarlıq, mal-dövlət düşgünlüyü, özünəpərəstiş, məqam, vəzifə və qadın düşgünlüyü, şəhvətpərəstlik kimi yaramaz, rəzil xüsusiyyətlərdən azad edir, onun insani şəxsiyyətini və əqlini gücləndirir ki, qərizələrə və nəfsin tüğyançı qüvvələrinə qalib gəlsin, onları normal hala salsın və həqiqi mənafeyi istiqamətində ona yol

---

[1] “Ğurərul-hikəm”, səh.150
[2] “Nəhcül-bəlağə”, 230-cu xütbə
[3] “Nəhcül-bəlağə”, Əlmuxtaru minəl-hikəm, 371
[4] “Nəhcül-bəlağə”, 193-cü xütbə

göstərsin, bu qərizə və qüvvələrin ifrat və təfritinin qarşısını alsın.

Qur’ani-Kərim həvayi-nəfsə itaət edərək ona müt’i olanları, nəfsani istəklərin tə’min olunmasında çalışanları, öz nəfsani meyllərinə çatmaq üçün heç bir hədd-hüdud gözləməyənləri bütpərəst və nəfspərəst adlandırır və buyurur: **“O kəsi görmədinmi ki, elmi ola-ola öz həvayi-nəfsini özünə mə’bud qərar vermişdir?! Allah onu yoldan azdırdı, qulağına və qəlbinə möhür vurdu, gözlərinə zülmət pərdəsi saldı. Allahdan başqa kim onu hidayət edə bilər? Məgər ibrət almazlarmı?!”**[1]

Bəli, özünün nəfsani istəkləri qarşısında qeydsiz-şərtsiz təslim olan, o istəklərə çatmaq üçün heç bir çirkin əməldən çəkinməyib dəlicəsinə onları əldə etməyə çalışan, əqlin xeyirxahlıq nidasına, Peyğəmbərin (s.ə.v.v.) yol göstərməsinə qulaq asmayan şəxslər doğrudan da nəfsin əsiri və quludur. Həvayi-nəfs insanın şəxsiyyətini, əqlinin dəyərli gövhərini məğlub edərək öz əsarəti altına alır. Onun əsarətdən azad olması üçün təqvadan başqa bir yol yoxdur. Deməli, təqva məhdudiyyət gətirmir. Əksinə, insana həqiqi azadlıq verir.

## *TƏQVA VƏ RUHİ XƏSTƏLİKLƏRİN MÜALİCƏSİ*

Əvvəllər qeyd olundu ki, çirkin əxlaq, o cümlədən həsəd, kin, intiqamçılıq, eyb axtarmaq, qəzəb, təəssüb, tamahkarlıq, xudbinlik, təkəbbür, qorxu, iradəsizlik və sair xislətlər nəfsani xəstəliklərdir. Bu kimi şəxslərin nəfsləri məcazi mə’nada deyil, doğrudan da xəstədir.

Elmi yolla isbat olunmuşdur ki, insanın nəfsi ilə bədəni arasında nəinki möhkəm bir əlaqə bərqərardır, həm də onlar bu rabitə vasitəsilə bir-birinə tə’sir qoyur, bir-birindən qarşılıqlı olaraq tə’sirlənir. Cismi xəstəliklər nəfsi narahat və pərişan edir, nəfsani xəstəliklər cismdə və insanın əsəb sitemində tam tə’sir qoyur. Psixi və ruhi xəstəliklərdən çoxu, əsəb zəifliyi və s. çirkin əxlaq nəticəsində yaranır. Hətta bə’zi cismi xəstəliklər, o cümlədən mə’də-bağırsaq yarası, anormal həzm, mə’də qıcqırması, baş ağrısı, ürək ağrısı kimi cismani xəstəliklərin mənşəyi də bir sıra çirkin əxlaqlar, o cümlədən həsəd, kin, tamah, özünü istəmək və yüksək tutmaq ola bilər. Şəhvətpərəstlikdə ifratçı və zərərli adətlərin nə

[1] “Casiyə” surəsi, ayə:23

qədər çirkin və təhlükəli xəstəliklər yaratması aşkar şəkildə müşahidə olunur. Əvvəldə qeyd oluduğu kimi nəfsani xəstəliklərin yeganə şəfa vericisi təqvadır. Deməli, belə bir müddəa irəli yürüdüb demək olar ki, təqva həm cismani (fiziki), həm də mə'nəvi xəstəliklərin müalicə olunmasında, ruhun sağlamlığında layiqli tə'sirə malikdir.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) təqva barəsində buyurur: **"Təqva sizin cismi xəstəliklərinizə dərman olub, qəlblərinizin fəsadını islah edər və nəfslərinizin aludəliklərini təmizləyər."**[1]

## *MÜTTƏQİLƏRİN (TƏQVA SAHİBLƏRİ) XÜSUSİYYƏTLƏRİ*

Təqvanın nə olduğunu yaxşı anlamaq, təqva əhlinin əlamətləri və sifətlərilə tanış olmaq üçün "Nəhcül-bəlağə"nin "Həmmam" xütbəsinin tərcüməsini qeyd edirik:

Həmmam Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) səhabələrindən olan abid bir kişi idi. Bir gün dedi: «Ya Əmirəl-mö'minin! Müttəqilərin sifətlərini mənim üçün elə bəyan et ki, sanki onları görürəm.»

İmam (ə) ona cavab verməkdə bir az tərəddüd etdi, sonra qısa şəkildə buyurdu: **"Ey Həmmam! Təqvalı ol, yaxşı işlər gör, çünki Allah Qur'anda buyurur: "Allah təqvalılarla və yaxşı əməl sahiblərilədir."**

Həmmam bu qısa cavabla kifayətlənmədi, Həzrətə (ə) and verdi ki, daha artıq izah versin. Həzrət Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) Allaha həmd-səna etdikdən, Peyğəmbərə (s.ə.v.v) salavat göndərdikdən sonra buyurdu:

**«Sübhan Allah insanları yaratdı. Halbuki onların itaət etməsindən ehtiyacsız, günahlarından da amanda idi. Çünki günahkarların günahı Ona heç bir zərər çatdırmaz, itaət edinlərin ibadət və itaəti də Ona heç bir fayda yetirməz. Onların ruzilərini öz aralarında bölüşdürdü, hər kəsi özünə münasib olan bir yerdə qərar verdi. Müttəqilər dünyada fəzilət əhlidirlər, danışanda doğruçu, paltar geyməkdə orta, yol gedərkən təvazökardırlar. Allahın haram**

[1] "Nəhcül-bəlağə", 198-ci xütbə

buyurduqlarından göz yumur, öz xeyrlərinə və onlara fayda verəcək olan elmə qulaq asırlar. Çətinlik və bəla zamanı özlərini elə aparırlar ki, sanki asayişdə və xoşluqdadırlar. Əgər onların əcəlləri əvvəlcədən tə'yin olunmasaydı səvabın şövqündən və cəzanın qorxusundan ruhları bir an belə bədənlərində qərar tutmazdı. Allah onların nəzərində əzəmətli və böyükdür. Buna görə də Allahdan başqası onların nəzərində kiçik görünür. Behiştə qarşı sanki onu görmüş və ne'mətlərindən bəhrələnmiş kəslər kimidirlər. Cəhənnəmə qarşı isə sanki onu görmüş və orada əzaba düçar olmuş kəslər kimidirlər. Onların qəlbləri qəmlidir və (camaat) onların şərindən amandadır. Bədənləri arıq, hacətləri az, nəfsləri iffətlidir. Bu dünyada bir neçə gün səbr edib, onun ardınca əbədi asayişə və xoşluğa çatırlar. Bu da Pərvərdigarları tərəfindən onlar üçün hazırlanan faydalı bir ticarətdir. Dünya onlara üz gətirir, lakin onlar dünyanı qəbul etməkdən üz döndərirlər. Dünya onları əsir etmək istəyir, amma onlar canlarını alıb azad edirlər.

Gecə vaxtları (namaz üçün) ayaq üstə dayanır, Allahın ayələrini düşünərək oxuyur, onu oxuyub təfəkkür etməklə özlərini qəmgin edir və beləliklə də öz dərdlərinin dərmanını axtarırlar. Təşviq (müjdə) ayələrinə çatdıqda ümidvar olur, elə şövqə gəlirlər ki, sanki Allahın mükafatını gözləri önündə müşahidə edirlər. Qorxu və əzab ayəsinə çatdıqda isə ona qəlbən elə diqqət yetirirlər ki, sanki cəhənnəm əhlinin şivən və fəryad səsləri qulaqlarının dibindədir. Rüku üçün əyilir, səcdə üçün alınlarını, əllərini, ayaqlarını və dizlərini yerə sərir, Allahdan öz nəfslərinin azadlığını istəyirlər.

Gündüz olanda səbirli, elmli, yaxşı əməl sahibi və təqvalıdırlar. Allah qorxusu onları yonulmuş oxlar kimi arıqlatmışdır. Belə ki, baxan şəxs onların xəstə olduğunu güman edir, halbuki xəstə deyillər. Camaat onların dəli olduğunu güman edərlər, halbuki dəli deyillər. Əksinə, böyük bir iş (qiyamət) barəsində təfəkkür etmək onları belə ağır vəziyyətə salmışdır.

Özlərinin az əməllərindən razı deyillər və çox əməli çox hesab etmirlər. Öz nəfslərini (itaətdə təqsirə yol verdiklərini güman etməklə) müttəhim edirlər və əməlləri barəsində də

**qorxudadırlar. Onlardan hər biri tə'riflənən zaman onların barəsində deyilənlərdən qorxur və belə deyirlər: "Mən özümə başqalarından daha artıq agaham. Pərvərdigarım isə mənim özümə məndən də artıq agahdır. Pərvədigara, barəmdə deyilən sözə görə məni cəzalandırma. Məni onların təsəvvür etdiklərindən daha üstün qərar ver və başqalarının bilmədiyi günahlarımı bağışla!"**

**Təqva əhlinin nişanələrindən biri də budur ki, sən onu görərsən ki, din işində qüdrətli, mülayim, rəftarda uzaqgörən, yəqində imanlı və müqavimətli, elmdə həris, səbirlilikdə bilikli, zənginlikdə orta səviyyəni seçən, ibadətdə xüşulu, fəqirlikdə zinətli və abırlı, çətinliklərdə səbirli, halal ruzi axtarmaqda çalışqan, hidayət axtarışına rəğbətli, tamahdan uzaq və ciddiyyətlidirlər.**

**Saleh əməl görürlər, amma yenə də qorxurlar. Gecə olan zaman şükr etməyə himmət edir, sübh çağları Allahı zikr və yad edir, gecə ikən məbada qəflət etdiklərini güman edərək qorxur, sübh vaxtları Allahın fəzl və mərhəməti vasitəsilə sevinirlər. Əgər nəfs, istəmədiyi şeylərdə onunla ciddi rəftar etsə, o da əvəzində nəfsin meyl etdiyi işlərdən çəkinər. Əbədi işlərə (yaxşı əməllərə) rəğbətli, fani şeylərə (dünya işlərinə) e'tinasızdırlar. Səbirliliyi elmlə, danışığı əməllə qarışdırırlar.**

**Onları arzuları qısa, xətaları az, qəlbi xüşu halında, nəfsi qane, yeməyi az, işləri asan, dini qorunmuş, nəfsani istəkləri aradan getmiş, qəzəbi yatmış halda görərsən. İnsanlar onların ehsan və yaxşı işlərinə ümid bəsləyir, şər işlərindən amandadırlar. Əgər camaat arasında qafil və xəbərsiz olsalar, zikr edənlərdən hesab olunarlar. Əgər zikr edənlər arasında olsalar qafillərin cərgəsində hesab olunmazlar. Ona zülm edən bir şəxsi bağışlayar, onu (mal-dövlətdən, köməkdən) məhrum edən şəxsə ehsan edər, ondan ayrılan şəxslərlə əlaqə bərqərar edərlər.**

**Söyüş söyməkdən çəkinir, aram, yumşaq və mülayimliklə danışar. Ondan çirkin iş görünməz, bəyənilən işləri də hər bir yerdə hazırdır. Xeyir işlər və yaxşılıqlara üz gətirər, pisliklərdən qaçar. Çətinliklərdə vüqarlı, xoşagəlməz işlərdə səbirli, asayişdə və rifahda şükr edəndirlər. Nifrət etdiyi şəxslərə zülm etməz, sevdiyi adamlar barəsində günaha**

**düşməzlər; şəhadət verməzdən qabaq haqqı e'tiraf edər, hifz etdiyi şeyi zay etməz, ona xatırladılan şeyləri unutmaz, heç kəsi çirkin ləqəblərlə çağırmaz, qonşusuna zərər yetirməz, camaat üçün baş verən müsibətlərdə şadlıq keçirməz, batil yolda qədəm götürməz və haqdan xaric olmazlar. Əgər sakit olsalar sükutdan qəmgin olmaz, əgər gülsələr gülüş səsləri ucalmaz. Əgər zülmə mə'ruz qalsa səbr edər ki, Allah onun üçün intiqam alsın. Nəfsi onun tərəfindən çətinliyə mə'ruz qalır, lakin camaat onun tərəfindən rifah və asayişdədirlər. Axirət işində öz nəfsini əzab-əziyyətə atır və camaatı öz nəfsindən asayişə çatdırır. Onların insanlardan uzaq gəzməsi zöhd və iffətə, onlara yaxınlaşması isə xoşxasiyyətli və mehribançılıqlarına görədir. Uzaq gəzmələri təkəbbür və xudbinliyə, yaxınlaşmaları da məkr və hiyləyə görə deyildir..."**[1]

Ravi deyir: Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) sözləri buraya çatanda Həmmam ucadan fəryad etdi və huşdan getdi, canını Allaha tapşırdı. O Həzrət (ə) buyurdu: «Elə bu hadisənin baş verəcəyindən qorxurdum.» (Sonra buyurdu:) «Ləyaqətli şəxslərdə moizələr belə tə'sir qoyur...»

## *NƏFSİN SAFLAŞDIRILMASI VƏ NƏZARƏT ALTINA ALINMASINDA MÜRAQİBƏT MÜHÜM AMİLDİR*

İnsanın öz ruhunu paklamasında və nəfsini təmizləməsində ən mühüm amillərdən biri də nəfsi nəzarət altına alıb ona diqqət yetirməkdir. (Bu müraqibət adlanır.) Öz xoşbəxtliyini düşünən insan rəzilə sifətlərdən və nəfsani xəstəliklərdən qafil olmamalı, nəfsini daim nəzarət altında saxlamalı, bütün səciyyələri, əxlaq və əməlləri, hətta fikirlərini belə nəzarət altına almalıdır. Biz bu mövzunu bir neçə mətləb əsasında izah edirik:

---

[1] "Nəhcül-bəlağə", 193-cü xütbə

Qur’an və hədislərdən mə’lum olur ki, insanın bütün əməlləri, hərəkət və danışıqları, hətta çəkdiyi nəfəsləri, başından keçən fikirləri və niyyətləri belə əməl dəftərində qeyd olunub, qiyamət hesabı üçün saxlanılır. Hər insan qiyamətdə özünün pis əməllərinin cəzasına çatacaq, yaxşı əməllərinin mükafatına layiq görüləcəkdir. Qur’anda buyurulur: **“Qiyamət günündə insanlar öz əməllərini müşahidə etmək üçün (qəbirlərdən) dəstə-dəstə xaric olarlar. Hər kəs zərrə qədər xeyir iş görmüş olsa onu görəcək, hər kəs də zərrə qədər pis iş görmüş olsa onu görəcəkdir.”**[1]

Yenə buyurulur: **“Kitab qoyular. Günahkarları görərsən ki, əməl dəftərində yazılanlardan qorxaraq deyirlər: “Ey vay! Bu kitab necə də hər bir şeyi qeydə almışdır! Böyük və kiçik işlərdən heç biri fövtə getməmişdir.” Onlar bütün əməllərini hazır görər və Pərvərdigarın heç kəsə zülm etməz.”**[2]

Yenə buyurulur: **“Elə bir gün (qiyamət günü) ki, hər kəs hər hansı bir xeyir iş görübsə onu və hər hansı bir pis iş görsə də onu hazır görər. Onunla (pis) əməli arasında uzun-uzadı fasilə olmasını arzu edər.”**[3]

**“Dilinə gətirdiyi hər bir söz üçün (onun qeyd olunması üçün) bir mələk hazır və nəzarətçi olar.”**[4]

Əgər bütün əməl, rəftar, hərəkət, danışıq, hətta fikir və düşüncələrimizin belə qeydə alındığına, fövtə getmədiyinə əqidəmiz olsa onun axır-aqibətinin düşünməkdən necə qafil ola bilərik?!

## *QİYAMƏTDƏ HESAB*

Qur’an ayələri və hədislərdən mə’lum olur ki, qiyamətdə bəndələrin hesab-kitabı dəqiq şəkildə aparılacaqdır. Onların bütün əməlləri – istər kiçik, istərsə böyük olsun, mühasibəyə çəkiləcək, ən kiçik əməl belə nəzərdən yayınmayacaqdır.

Qur’anda buyurulur: **“Qiyamətdə ədalət tərəzilərini bərqərar**

---

[1] “Zilzal” surəsi, ayə:8
[2] “Kəhf” surəsi, ayə:50
[3] “Ali-İmran” surəsi, ayə:30
[4] “Qaf” surəsi, ayə:18

**edərik. Heç kəsə zülm olunmaz. Əgər bir xardal dənəsi ağırlığında əməli olsa da onu hesaba çəkərik. Bizim özümüz hesab çəkmək üçün kifayətik.”**[1]

Yenə buyurulur: **“Əgər nəfsinizdə olanları zahir etsəniz, yaxud gizlətsəniz Allah sizdən ona görə hesab çəkəcəkdir.”**[2]

**“Əməllərin miqdarının öçülməsi qiyamətdə haqq əsasında olacaqdır. Hər kəsin əməl tərəzsisi ağır olsa nicat tapar. Hər kəsin də əməl tərəzisi yüngül olsa onlar öz nəfslərinə ziyan vermiş olacaqlar. Çünki Bizim ayələrimizə zülm etdilər.”**[3]

Qiyamət Qur’anda **“yovmul-hesab”** (hesab günü), Allah-təala isə **“səriul-hisab”** (hesablara sür’ətlə yetişən) kimi vəsf edilir. Ayə və rəvayətlərə uyğun olaraq bütün bəndələr üçün irəli gələcək ən ağır mərhələlərdən biri əməllərin mühasibəsi və haqq-hesaba çəkilməsidir. İnsan ömrü boyunda tədricən müəyyən işləri görür və bir müddətdən sonra onların əksəriyyətini unudur. Halbuki, ən kiçik əməl belə onun əməl dəftərindən silinmir. Hamısı qeydə alınır və insanla birlikdə qalır. Bu dünyada onlardan, ümumiyyətlə, qafil olmasına baxmayaraq, insanın bəsirət gözünün açıldığı vaxt ölümdən sonra hamısını bir dəfəlik müşahidə edəcək, sonra anlayacaqdır ki, bütün əməlləri, danışıqları, əqidə və fikirləri onun yanındadır və heç vaxt ondan ayrılmayacaqdır.

Qur’anda buyurulur: **“Hər insan hesab üçün bir sürüyən və bir də şahidlə (iki mələklə) gələcəkdir. (Ona belə deyilər:) Həqiqətən sən bu həqiqətlərdən qafil idin. Amma bu gün sənin batini gözün daha itidir.”**[4]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Qiyamətdə bəndədən dörd şey barəsində sual edilməyincə yerindən hərəkət etməz. Ömrünü nəyə sərf etdiyindən, cavanlığını nəyə sərf etdiyindən, mal-dövlətini haradan əldə edib harada xərclədiyindən və biz Əhli-beytə qarşı bəslədiyi münasibətdən.”**[5]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) başqa bir hədisdə buyurur:

---

[1] “Ənbiya” surəsi, ayə:47
[2] “Bəqərə” surəsi, ayə:284
[3] “Ə”raf” surəsi, ayə:8
[4] “Qaf” surəsi, ayə:22
[5] “Biharul-ənvar”, 7-ci cild, səh.358

“Qiyamət günü bəndəni hesab üçün hazır edəndə dünyada yaşadığı hər bir günün müqabilində iyirmi dörd xəzinə gətirərlər – gecə gündüz saatlarının miqdarı qədər. Nur və sevinclə dolu olan bir xəzinəni açarlar, bəndə onların müşahidə etməklə o qədər sevinər ki, əgər şadlıqlarını cəhənnəm əhlinin arasında bölüşdürsələr onlar (sevincdən) odun əzab-əziyyətini hiss etməzlər. Həmin saat Pərvərdigara ibadətlə məşğul olduğu saatdır. Sonra onun üçün digər bir xəzinəni açarlar, o çox qaranlıq, iyli və vəhşətlidir. Onları müşahidə etməklə o qədər nalə və ah-fəğan edər ki, əgər onun ah-fəğanını behişt əhli üçün bölüşdürsələr behişt ne’mətləri onlar üçün acı olar. O həmin saatdır ki, Allah qarşısında günah etmişdir. Onun üçün digər bir xəzinə gətirərlər ki, tamamilə boşdur: onda nə sevindirici əməl, nə də qəmli bir əməl vardır. O həmin saatdır ki, yuxuda olmuş, yaxud mübah işlərə məşğul olmuşdur. Allahın bəndəsi bunu müşahidə etməklə qəmgin olub təəssüflənir, çünki dünyada onu yaxşı işlərlə doldura bilərdi, amma səhlənkarlıq nəticəsində bu işlərə yol vermişdir. Buna görə də Mütəal Allah qiyamət barəsində buyurur: **“Bu gün xəsarət günüdür.”**[1]

Qiyamətdə bəndələrin əməllərinin hesab-kitabı dəqiq şəkildə araşdırılacaq, onların müqəddəratı tə’yin ediləcəkdir. Bu zaman insanın zahiri və batini əzaları, eləcə də peyğəmbərlər, mələklər, hətta yer belə, çox çətin və həlledici bir hesabda şəhadət verəcəkdir. Qəlblər o hesabın şiddətindən döyünər, bədənlər qorxudan lərzəyə gələr. O gün elə qorxuludur ki, analar öz qucaqlarındakı südəmər körpələrini unudar, hamilə qadınlar uşağını salar. Hamı işin axırının necə nəticələnəcəyindən iztirab hissi keçirər. Görəsən onların hesablarının axır-aqibətləri Allahın razılığı, azadlıq bəratını əxz etmək, peyğəmbərlərin və Allah övliyalarının qonşuluğu, Ədn behiştində daimi həyat və Allahın layiqli bəndələrinin qonşuluğunda olmaqla nəticələnəcəkdirmi, yoxsa Pərvərdigari-aləmin qəzəbinə düçar olaraq məxluqatın arasında rüsvay olacaq və cəhənnəmdə əbədi yaşayacaqdır?

Hədislərdən mə’lum olur ki, bəndələrin hamısının hesabı eyni səviyyəli deyildir: bə’zilərinin hesabı çox ağır və uzun, bə’zilərinin hesabı isə sadə və asandır. Hesab müxtəlif mərhələlərdə yerinə yetirilir. Hər dayanacaqda bir şeydən sual olunur. Dayanacaqların

---

[1] “Biharul-ənvar”, 7-ci cild, səh. 262

ən çətini başqalarının haqqını ödəmə dayanacağıdır. Bu dayanacaqda camaatın hüquqlarından, insanın onlara etdiyi zülmdən sual olunar. Orada hesab tamamilə düzəlməli, hər kəs öz borcunu borc sahiblərinə qaytarmalıdır. Amma çox təəssüflə, orada borclarını ödəmək üçün insanın ixtiyarında heç bir mal-dövlət olmayacaq. Məcbur qalaraq öz yaxşı əməllərindən – əgər olsa – götürüb borclarının əvəzinə verməli olacaqdır. Əgər yaxşı əməli olmazsa borc sahiblərinin pis işləri onun əməl dəftərinə yazılacaq.

Qiyamət çox çətin bir gündür. Allah hamımızın fəryadına çatsın! Əlbəttə hesabın çətin və uzun olması bəndələrin hamısı üçün eyni dərəcədə deyildir. Fərdlərin yaxşı və pis əməllərinə, onların miqdarına görə fərqlənir. Lakin təqvalılar və Allahın layiqli bəndələri üçün çox qısa və asan olacaqdır.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) qiyamət gününün uzunuluğu barəsində soruşan bir şəxsin cavabında buyurdu: **"Allaha and olsun! Mö'min üçün o qədər asan olacaqdır ki, vacib namazı qılmaqdan da asan gəlib keçəcəkdir."**[1]

## *QİYAMƏT GƏLMƏMİŞ HESABLARIMIZA YETİŞƏK!*

Məada, hesab-kitaba, cəza və mükafata iman gətirən, bütün əməllərinin qeydə alınaraq qiyamət günündə dəqiq şəkildə araşdırıldığını, əməllərə yaxşı mükafat və ya pis cəza veriləcəyini bilən bir şəxs özünün əməl, rəftar və əxlaqına qarşı necə e"tinasız qala bilər? Ümumiyyətlə, belə bir şəxs gün, həftə, ay, il, ömür ərzində nə etdiyini, axirət səfəri üçün nə qədər yol ehtiyatı tədarük gördüyünü fikirləşməzmi?

Allaha və qiyamətə iman gətirmək bunu tələb edir ki, elə bu dünyada öz əməllərimizin hesab-kitabını araşdıraq, nə etdiyimizi və nə edəcəyimizi yaxşı-yaxşı düşünək. Ağıllı bir tacir zərərə düşməmək və sərmayəsini hədərə verməmək üçün hər gün, hər ay və hər il öz gəlir-çıxarını hesabladığı kimi biz də bu cür əməl etməliyik.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Qiyamətdə sizin hesabınıza çatmazdan (və əməlləriniz araşdırılmazdan) qabaq elə bu dünyada öz əməllərinizi hesaba çəkin."**[2]

---

[1] "Məcməuz-zəvaid", 1-ci cild, səh.337

[2] "Ğurərul-hikəm", səh.385

Yenə buyurur: **“Hər kəs bu dünyada öz nəfsinin hesabını aparsa qazanar.”**[1]

İmam Əliyyən Nəqi (ə) buyurur: **“Hər gün öz (əməllərinin) hesabına yetişməyən bir şəxs bizdən deyildir. Əgər belə bir şəxs yaxşı və saleh iş görmüş olsa Allahdan daha artıq tovfiq istəsin. Əgər çirkin bir işə mürtəkib olmuşsa istiğfar və tövbə etsin.”**[2]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Hər kəs öz nəfsinin hesabına yetişsə fayda aparar. Hər kəs hesabdan qafil olsa ziyan görər. Hər kəs bu dünyada (günah işlərdən) qorxsa qiyamətdə amanda olar. Hər kəs öyüd-nəsihət alsa bəsirəti açılar. Hər kəs (bəsirətlə) görsə başa düşər. Hər kəs başa düşsə ağıllı və bilikli olar.”**[3]

Peyğəmbər (s.ə.v.v.) buyurur: **“Ey Əbazər! Qiyamətdə sənin hesabın araşdırılmazdan qabaq elə bu dünyada nəfsinin hesabını apar. Çünki bu günün hesabı sabahkı (qiyamət) gününün hesabından çox asandır. Əməllərin qiyamətdə mizana çəkilməzdən qabaq bu dünyada mizana çək və bu yolla özünü qiyamət günü üçün hazırla. Elə bir gün üçün ki, sənin əməllərin Allaha təqdim olunar və ən kiçik bir şey belə Ondan məxfi qalmaz... Ey Əbazər! İnsan yalnız o vaxt təqva əhli ola bilər ki, öz nəfsinin hesabını bir şərikin öz şəriki ilə mühasibə etməsindən daha şiddətli aparsın. İnsan yaxşı-yaxşı fikirləşməli, yeməyini, içməyini, geyməyini hansı yolla əldə etdiyinə diqqət yetirməli və haram, yoxsa halal yolla əldə etdiyini müəyyənləşdirməlidir.. Ey Əbazər! Hər kəs öz malını hansı yolla əldə etməsinin fərqinə varmazsa Allah da onu cəhənnəm atəşinə hansı yolla daxil etməkdən çəkinməz.”**[4]

İmam Səccad (ə) buyurur: **“Ey Adəm övladı! Sən yalnız o vaxta qədər xeyir və yaxşılıqda olarsan ki, öz nəfsində bir moizəçin olsun, nəfsinin hesabına yetişməyi unutmayasan, Allah xovfu sənin şüarın olsun. Özünsə daim qəm-qüssəli olasan. Ey Adəm övladı! Həqiqətən sən öləcək və qiyamətdə**

---

[1] “Ğurərul-hikəm”, səh.618
[2] “Vəsailuş-şiə”, 11-ci cild, səh.377
[3] “Vəsailuş-şiə”, 11-ci cild, səh.379
[4] “Vəsailuş-şiə”, 11-ci cild, səh.379

**(yenidən) diriləcək, hesab üçün Allahın ədalət mizanının müqabilində qərar tutacaqsan. Belə isə qiyamət hesabı üçün cavab verməyə hazır ol!”**[1]

İnsan bu dünyada tacirə oxşayır; onun sərmayəsi məhdud ömrüdən, yə’ni elə bu saatlar, günlər, həftələr, aylar və illərdən ibarətdir. Çox dəyərli gövhər olan ömür sərmayəsi istər-istəməz sərf olunur və insan tədrici olaraq ölümə yaxınlaşır. Cavanlıq qocalığa, qüdrətlilik zəifliyə, sağlamlıq xəstəliyə çevrilir. Əgər ömrün keçməsi müqabilində saleh bir əməl görsə və axirət üçün yol ehtiyatı tədarük görsə ziyan etməz, çünki özü üçün səadətli, xoş bir gələcək hazırlamış olur. Amma dəyərli ömür sərmayəsini, cavanlığını, qüvvətliyini, sağlamlığını tələf edib onun müqabilində axirət üçün saleh bir əməl görməzsə, əksinə, öz nəfsini çirkin əxlaqlara, günaha mürtəkib olmaqla aludə edərsə elə bir böyük ziyana düçar olacaq ki, heç vaxt bərpa oluna bilməz.

Qur’anda buyurulur: **“Əsrə and olsun ki, bütün insanlar ziyankarlıqdadır. Yalnız iman gətirib saleh əməl görən və haqqa riayət etməyə və səbirli olmağa tövsiyə edənlərdən başqa.”**[2]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Ağıllı o kəsdir ki, bu gün sabahın (qiyamətin) fikrində olsun və öz nəfsinin azad olunmasında çalışsın. Labüd olaraq baş verəcək şey üçün (ölüm və axirət) saleh əməl yerinə yetirsin.”**[3]

Yenə buyurur: **“Hər kəs öz nəfsinin hesabına yetişsə eyblərini dərk edər və günahlarını anlayar. Bundan sonra günahlarından tövbə edərək eyblərini islah edər.”**[4]

## *HESABIMIZI NECƏ ÇƏKƏK?*

Nəfsin nəzarət altına alınaraq idarə edilməsi çox asan və sadə bir iş deyildir. Bu işdə tədbirə, bacarığa, səbrə, fəaliyyətə və ciddiyyətə çox ehtiyac vardır. Məgər nəfsi-əmmarə belə bir sadəliklə təslim olarmı? Məgər belə bir sadəliklə mühakiməyə çəkilməyə hazır

---

[1] “Vəsailuş-şiə”, 11-ci cild, səh.378
[2] “Əsr” surəsi
[3] “Ğurərul-hikəm”, səh.238
[4] “Ğurərul-hikəm”, səh.696

olarmı? Məgər belə sadəlikdə hesabın cavabını verərmi?

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Hər kəs öz nəfsini tədbir və siyasətlə idarə etməsə onu zay etmiş olur."**[1]

Yenə buyurur: "**Hər kəs öz nəfsinə aldansa nəfsi onu həlakətə salar."**[2]

Yenə buyurur: **"Hər kəsin öz nəfsində oyaqlıq və agahlığı olsa Allah tərəfindən onun üçün bir keşikçi tə'yin edilər.**[3]

Yenə buyurur: **"Cihadı davam etdirməklə nəfsinizi öz mülkiyyətinizə keçirib öz ixtiyarınıza alın."**[4]

Nəfsin sorğu-suala çəkilməsi və ondan hesab alınması üç mərhələdə yerinə yetirilməlidir ki, tədricən ona adət etsin və təslim olsun.

**1.Müşaritə (şərtləşmək).** Nəfsdən hesab almağı bu yolla başlayırıq. Günün ilk saatlarında və gündəlik işlərimizə başlamazdan əvvəl müşaritə üçün müəyyən bir vaxt tə'yin edirik. Məsələn, sübh namazından sonra sakit bir yerdə oturub nəfsimizə xitab edərək deyirik: Mən indi diriyəm, lakin nə vaxta qədər sağ olacağım mə'lum deyildir. Bəlkə də bir saat, yaxud ondan bir az artıq diri qalam. Ömrümün keçən saatları tələf olmuşdur, lakin qalan saatları mənim sərmayəm hesab olunur. Hər bir saatda axirətim üçün yol ehtiyatı hazırlaya bilərəm. Əgər elə bu zaman əcəlim çatsaydı və Əzrail mənim ruhumu qəbz etmək üçün gəlsəydi nə qədər arzu edərdim ki, kaş ömrümə bir gün, hətta bir saat belə əlavə edilsin! Ey biçarə nəfsim! Fərz et ki, belə bir halda sənin istəklərin qəbul olundu və yenidən dünyaya qayıtdın, gör onda nə edəcəksən? Ey nəfs! Mənə və özünə rəhm et, bu saatları əbəs yerə tələf etmə. Səhlənkarlıq etmə, əks halda qiyamətdə peşman olacaqsan. O gündə artıq həsrətlərin heç bir faydası olmayacaqdır. Ey nəfs! Ömrümün hər saatı müqabilində Allah sənin üçün bir xəzinə qərar vermişdir ki, yaxşı və pis əməlləri orada ehtiyat edirlər. Onların nəticəsini də qiyamətdə görəcəksən. Ey nəfs! Çalış, xəzinələri saleh əməllərlə doldurasan. Ehtiyatlı ol ki, xəzinələri

---

[1] "Ğurərul-hikəm", səh.640
[2] "Ğurərul-hikəm",səh.685
[3] "Ğurərul-hikəm",səh.679
[4] "Ğurərəl-hikəm", səh.131

günah və mə'siyətlə doldurmayasan!

Elə bu qayda ilə hər bir bədən üzvünə xitab edərək onlardan peyman alarıq ki, günaha mürtəkib olmasın. Məsələn, dilimizə xitabən deyirik: Yalan, qeybət, söz gəzdirmək, eyb axtarmaq, söyüş söymək, boş-boş sözlər danışmaq, camaata həqarət hissi ilə yanaşmaq, özünü tə'rifləmək, yersiz mübahisə aparmaq, yalandan şəhadət vermək və sair kimi rəzil əxlaqlardan və Allahın haram buyurduğu işlərdən çəkin, çünki bu işlər insanın axirət həyatını puç edir. Mən sənə bu işləri görməyə əsla icazə vermirəm. Ey dil! Özünə və mənə rəhm et, günahdan əl çək, çünki sənin bütün sözlərin əməl xəzinəsində qeydə alınacaqdır, mən də qiyamətdə onlara cavabdehlik daşımalıyam.

Beləliklə, dilimizdən əhd-peyman alırıq ki, günah işlərə düşməsin. Bundan sonra dilin görə bildiyi yaxşı əməlləri xatırladır və onu məcbur edirik ki, gün ərzində onları yerinə yetirsin. Məsələn, ona deyirik: Sən filan zikrlə, filan kəlamla əməl xəzinəsini nur və sevinclə doldura, qiyamətdə nəticəsini ala bilərsən. Bu işdən qafil olma, əks halda peşman olacaqsan.

Bu yolla bütün bədən üzvlərindən tək-tək əhd-peyman alırıq ki, günaha mürtəkib olmasın və yaxşı işlər görsün.

İmam Cə'fər Sadiq (ə) öz atasından belə nəql edir: **"Gecə gəlib çatan zaman elə car çəkir ki, cin və insanlardan başqa bütün varlıqlar onu eşidər. O, deyər: Ey Adəm övladları! Mən yeni bir məxluqam, mən də baş verən işlərə şəhadət verirəm, məndən istifadə edin. Gün çıxandan sonra artıq dünyaya qayıtmıram. Ondan sonra artıq məndə yaxşı işlər görüb onları artıra və pis işlərdən tövbə edə bilməzsiniz. Gecə keçib getdikdən və gündüz gəldikdən sonra gün də həmin kəlamla nida edər."**[1]

Şeytan və nəfsi-əmmarə də bizə belə deyə bilər: "Sən belə proqramlarla yaşaya bilməzsən! Axı sən bu qədər məhdudiyyətlə necə yaşaya bilərsən?! Məgər hər gün bir saatı hesab-kitab üçün ayıra bilərsənmi?

Şeytan və nəfsi-əmmarə bu cür vəsvəsələrlə bizi aldadaraq qəti qərara gəlməkdən yayındırmaq istəyir. Onların qarşısında ciddi müqavimət göstərib deməliyik ki, bu proqramların icrası tamamilə

[1] "Vəsailuş-şiə", 11-ci cild, səh.380

mümkündür və adi həyatla zidd deyildir. Bu işlər mənim öz nəfsimi paklaşdırmaqda və axirət səadətinə çatmaqda zəruri olduğundan onları mütləq yerinə yetirməliyəm. Çox da çətin deyildir. Sən iradə edib qəti qərara gəlsən, istədiyinə nail ola bilərsən. Əgər işin əvvəlində müəyyən qədər çətinlik olsa da əməl etməklə tədricən asanlaşacaqdır.

**2.Müraqibət** (n**əzarət altında saxlamaq, muğayat olmaq).** Əhd-peyman mərhələsindən sonra ona əməl etmək və davam etdirmək mərhələsi gəlib çatır. Gün ərzində nəfsimizi bütün hallarda nəzarət altına almalıyıq ki, bağladığımız əhd-peymana əməl edək. İnsan hər bir halda nəfsini nəzarət altına almalı, daim ayıq olmalıdır. Həmişə Allahı hazır və bütün əməllərinə nəzarətçi görməli, əhd-peymanını xatırlamalıdır. Çünki əgər bir anlığa qafil olarsa şeytan və nəfsi-əmmarə onun iradəsinə nüfuz edərək öz əhdinə əməl etməyin qarşısını ala bilər.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Ağıllı o kəsdir ki, nəfsi ilə həmişə cihad edir, onun islah olunmasına çalışır, onun istəklərinin qarşısını alır və bu yolla onu öz mülkiyyətinə keçirir. Ağıllı insan öz nəfsinə nəzarət etməklə dünya və onda olanlardan bezar olacaqdır.”**[1]

Yenə buyurur: **“Hər kəs öz nəfsinin daxilində onun qarşısını alan bir şeyə malik olsa, Allah tərəfindən onun üçün bir mühafizəçi tə’yin olunar.”**[2]

**“Nəfsə e’timad göstərib onun barəsində nikbin olmaq şeytanın ən möhkəm fürsətlərindən biridir.”**[3]

İnsan nəfsini həmişə nəzarət altına almaqla Allahı xatırlayır və özünü Mütəal Allahın hüzurunda görür. Heç bir əməli əvvəlcədən təfəkkür etmədən yerinə yetirmir. Əgər hər hansı bir günaha düşərsə dərhal Allahı xatırlayır, qiyaməti yada salır və o işi tərk edir. Əhd-peymanı unutmaz və bu vasitə ilə öz nəfsini daim nəzarət altında və öz mülkiyyətində saxlayar, onu pisliklərdən, yaramaz işlərdən və çirkinliklərdən qoruyar. Bu proqram nəfsin saflaşdırılmasında və aludəliklərdən təmizlənməsində ən yaxşı

---

[1] “Ğurərul-hikəm”, səh.237

[2] “Ğurərul-hikəm”, səh.698

[3] “Ğurərul-hikəm”, səh.54

vasitədir. Bundan əlavə gün ərzində öz nəfsini nəzarət altına alan insan daim öz vəzifəsini, vacibatları və müstəhəbləri yerinə yetirmək, xeyir əməllər və saleh işlər görmək fikrində olur. Çalışır ki, namazını fəzilətli vaxtında, hüzuri-qəlb və xüzu-xüşu ilə yerinə yetirsin və namazı elə qılsın ki, sanki axırıncı namazıdır. Hər bir halda və bütün işlərdə Allahı yad etsin. Boş vaxtlarını bihudə yerə tələf etməsin. Onlardan axirət işi üçün istifadə etsin. Ağıllı insan öz vaxtının qədir-qiymətini bilir, yaranan hər bir fürsətdən nəfsinin islah olunmasında istifadə edir və bu işdə ciddiyyət göstərir, bacardığı qədər müstəhəb əməlləri yerinə yetirir. Yaxşı olar ki, insan mühüm müstəhəblərin bə'zilərini yerinə yetirməyi özünə adət etdirsin.

İnsan ixlas və qürbət qəsdi ilə bütün gündəlik işlərini ibadət və Allah dərgahına yaxınlaşmaq vasitəsi qərar verə bilər. Hətta ticarət və qazanc, işləmək, yemək, içmək, yatmaq, evlənmək və s. mübah işləri ixlas və niyyətlə ibadətlərin cərgəsinə keçirə bilər. Qazanc və ticarət əgər halal ruzi qazanmaq və Allah bəndələrinə xidmət etmək məqsədilə olsa ibadətdir. Həmçinin yemək, içmək, istirahət etmək həyatını davam etdirmək vasitəsilə Allaha bəndəlik etməkdən ötrü yerinə yetirilsə yenə də ibadət hesab olunur. Allahın xalis bəndələri həmişə belə olmuşlar.

**3.Mühasibə (əməllərin haqq-hesabı).** Üçüncü mərhələ gündəlik əməlləri təftiş edib hesablamaqdır. İnsan gündəlik əməllərin hesabını aparmaq üçün müəyyən bir saat tə'yin etməlidir. Yaxşı olar ki, bu saat yatmaq vaxtı, bütün işlərdən ayrıldığı vaxt olsun. Həmin saatda xəlvət bir yerə çəkilib gizlində gün ərzində gördüyü işlər barəsində fikirləşsin. Tərtiblə birinci saatlardan başlasın. Əməllərini dəqiq şəkildə, günün axır saatlarına qədər hesaba gətirsin. Əgər ön saatlarda xeyir işlərə və ibadətə məşğul olmuşsa, Allaha onu bu işə müvəffəq etdiyinə görə şükr etsin, onları davam etdirmək qərarına gəlsin.

Əgər günaha batmışsa nəfsini danlayaraq ona xitab etsin və desin: Ey bədbəxt nəfs! Nə etmisən?! Nə üçün əməl dəftərini günahla qaraltmısan? Qiyamətdə Allahın cavabını necə verəcəksən? Axirətin dərdli əzabları ilə neyləyəcəksən? Allah sənə ömür, salamatlıq və imkanlar vermişdir ki, axirət üçün yol ehtiyatı tədarük görəsən, sən isə onu günahla doldurursan! Məgər ehtimal vermirsənmi ki, elə bu saat əcəlin gəlib çatar? O halda nə

edəcəksən? Ey həyasız nəfs! Nə üçün Allahdan xəcalət çəkmirsən? Ey yalançı! Ey münafiq! Sən Allaha iman gətirdiyini, qiyamətə inandığını iddia edirsən, amma nə üçün əməldə belə deyilsən?

Sonra tövbə edib qərara alsın ki, bir daha günah işə mürtəkib olmayacaq və keçmiş günahlarını da bərpa edəcək.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Hər kəs öz nəfsinin günah və eyblərini məzəmmət etsə günaha düşməkdən uzaq olar."**[1]

Əgər nəfsin tüğyan və inadkarlıq etdiyini, günahı tərk və tövbə etməyə hazır olmadığını görsə nəfsi-əmmarəyə qarşı müqavimət göstərməlidir. Bu barədə əməli surətdə icra olunan tənbehlərdən istifadə edə bilər. Məsələn, əgər haram yemək yemişsə, yaxud başqa bir günah iş görmüşsə, onun əvəzində müəyyən miqdarda malı Allah yolunda infaq etsin, bir, yaxud bir neçə gün oruc tutsun, müvəqqəti olaraq ləzzətli yeməklər yeməkdən, sərin su içməkdən, nəfsin istədiyi sair ləzzətli işlərdən çəkinsin. Yaxud bir saat qızmar günün altında dayansın. Hər bir halda nəfsi-əmmarənin qarşısında zəiflik göstərmək olmaz. Əks halda o, insana hakim olur və insanı həlakətə, tənəzzülə doğru çəkir. Amma sən onun müqabilində müqavimət göstərsən, hökmən təslim olacaqdır.

Əgər o saatda nə bir xeyir iş görmüş və nə də günaha batmışsa, yenə də nəfsini danlayıb desin ki, ömür sərmayəsi olan bu saatı necə hədərə verdin?! Sən bu saatlarda saleh bir iş görüb axirətin üçün ehtiyat toplaya bilərdin, ey ziyankar, ey bədbəxt! Nə üçün bu dəyərli fürsəti əldən verdin? Həsrət və peşmançılığın faydalı olmadığı bir gündə peşman olacaqsan!

Beləliklə, bir şərik kimi tam diqqətlə gündəlik işlərin hamısını nəfsdən hesab çəkib onu cəzalandır. Əlbəttə, mühasibənin nəticəsi bir dəftərdə qeyd olunsa daha yaxşıdır.

Ümumiyyətlə, müraqibə və mühasibə nəfsin paklaşdırılmasında zəruri və faydalı bir iş hesab olunur. Səadət istəyən hər bir insan bu məsələlərə diqqət yetirməlidir. İlk əvvəldə çətin nəzərə çarpmasına baxmayaraq, insan qəti qərara gəlib bu sahədə müqavimət göstərsə bu işlər onun üçün tezliklə asanlaşacaq, nəfsi-əmmarə nəzarət altına alınacaqdır.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: "Sizə ayıqların ən ayığının

[1] "Ğurərul-hikəm", səh.696

və axmaqların ən axmağının kim olduğunu deyimmi? Ərz etdilər: Ey Allahın Rəsulu buyurun. Buyurdu: «**Camaatın ən ayığı odur ki, öz nəfsinin hesaba çəksin, ölümdən sonrakı günlər üçün saleh əməl görsün. Axmaqların ən axmağı o kəsdir ki, həvayi-nəfsə tabe olsun və uzun-uzadı arzulara məşğul olsun.**»

Bir kişi ərz etdi: Ey Allahın Rəsulu, nəfsin hesabını necə çəkmək olar? Həzrət buyurdu: «**Gün axıra çatanda, gecə olanda öz nəfsinə müraciət edərək de: Ey nəfs! Bu gün də gəlib keçdi. Artıq o, qayıtmayacaqdır. Allah bu gün barəsində səndən sual edəcəkdir ki, onu hansı yollarda sərf etdin və onda nə iş gördün? Allahın həmd-sanasını və zikrini yerinə yetirdinmi? Mö'min qardaşının haqqını əda etdinmi? Onun qəlbindən qəm-qüssəni dağıtdınmı (onu sevindirdinmi)? Onun olmadığı yerdə ailəsinə və övladlarına baş çəkdinmi? Ölümündən sonra onun ailəsi barəsində olan haqqına riayət etdinmi? Mö'min qardaşının qeybəti olunduğu zaman onu öz abır-heysiyyətinlə müdafiə etdinmi? Bir müsəlmana kömək etdinmi? Bu gündə nə etdin? Sonra yerinə yetirdiyi işlərin hamısını bir-bir xatırla. Əgər xeyir iş görmüş olsan Allaha səni bu işə müvəffəq etdiyinə görə həmd-səna et. Əgər günaha düşdüyünü görsən tövbə et və sonralar bir daha o günaha düşməyəcəyin barədə özünə söz ver. Peyğəmbərə və onun Əhli-beytinə salavat göndərməklə günah aludəliklərini nəfsindən təmizlə, Əmirəl-mö'minin Əliyyibni Əbitaliblə (ə) bey'əti öz nəfsinə təlqin et, düşmənlərinə lənət göndər. Əgər bəndə belə edərsə Allah ona buyurar: «Mən qiyamət hesabında səninlə münaqişə etməyəcəyəm. Çünki Mənim övliyalarımla dostluq etdin, düşmənlərim ilə düşmən oldun.**”[1]

İmam Musa ibni Cə'fər (ə) buyurur: “**Hər gün öz nəfsinin hesabına çatmayan şəxs bizdən deyildir. Əgər yaxşı iş görmüş olsa Allahdan daha artıq müvəffəqiyyət istəsin. Əgər günaha batmışsa istiğfar və tövbə etsin.**”[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Əbuzərə buyurdu: “**Aqil insan öz saatlarını bölməlidir: Bir saatı Allahla münacata aid etməli, bir saatını nəfsin hesabına yetişməyə ayırmalı, bir saatını da**

---

[1] “Biharul-ənvar”, 70-ci cild, səh.69

[2] “Kafi”, 1-ci cild, səh.45

**Allahın ona əta etdiyi şeylərdə təfəkkürə sərf etməlidir.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Öz nəfsinizi, onun əməlləri barəsində hesaba çəkin. Vacibatı yerinə yetirməyi ondan tələb edin. Ondan istəyin ki, fani dünyadan istifadə etsin, axirət üçün ehtiyat göndərsin və o səfərdən qabaq ona hazırlaşsın.”**[2]

Yenə buyurur: **“İnsan üçün çox mühümdür ki, özü üçün müəyyən bir saatı tə’yin etsin. Bütün işləriini qurtardıqdan sonra öz nəfsi ilə haqq-hesab çəksin. Fikirləşsin ki, keçən bu gecə-gündüz ərzində hansı yaxşı və faydalı işləri görmüş, hansı pis və ziyanlı işlərə mürtəkib olmuşdur.”**[3]

Həzrət yenə buyurur: **“Öz nəfsinlə cihad et və bir şərik kimi onu mühasibəyə çək, borc sahibi kimi ilahi hüquqların əda olunmasını ondan istə. Çünki camaatın ən xoşbəxti o kəsdir ki, nəfsi ilə mühasibə etsin.”**[4]

Yenə buyurur: **“Hər kəs öz nəfsini hesaba çəksə onun eyblərini anlayar və günahlarını dərk edər. Sonra öz günahlarından tövbə edərək onun eyblərini islah edər.”**[5]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Qiyamətdə sizin hesabınıza yetişməzdən qabaq elə bu dünya da öz hesabınıza yetişin. Çünki, qiyamətdə əlli dayanacaqda bəndələrin hesabına yetişiləcək, hər dayanacaq isə min il çəkəcəkdir. (Sonra bu ayəni oxudu:) “Elə bir gündə ki, onun miqdarı əlli min ildir.”**[6]

Sonda bunu qeyd etmək lazımdır ki, insan nəfsdən hesab çəkən zaman ona e’timad etməməli, ona nikbin olmamalıdır. Çünki, nəfs aldadıcı və insanı pis işlərə əmr edəndir. O, yüzlərlə hiylə və fırıldaqla yaxşını pis, pisi isə yaxşı kimi qələmə verir, insanın öz vəzifəsini layiqincə tanıyıb əməl etməsinə mane olur, günaha mürtəkib olmağa və adəti tərk etməməyə bəraət qazandırır, günahları unutdurub kiçik göstərir, böyük ibadətləri kiçik, kiçik

---

[1] “Biharul-ənvar”, 70-ci cild, səh.64
[2] “Ğurərul-hikəm”, səh.38
[3] “Ğurərul-hikəm”, səh.753
[4] “Ğurərul-hikəm”, səh.371
[5] “Ğurərul-hikəm”, səh.696
[6] “Biharul-ənvar”, 70-ci cild, səh.64

ibadətləri böyük hesab edir və insanı məğrurluğa düçar edir, ölümü və qiyaməti insanın yadından çıxardır, uzun-uzadı ümid və arzuları gücləndirir, mühasibəni çətin, hətta əməl olunması mümkün olmayan, bə'zən də qeyri-zəruri bir iş kimi qələmə verir. Buna görə də, insan nəfsə bədbin olmaqla onu mühasibəyə çəkməli, hesab çəkərkən tam diqqətli olmalı, münaqişə etməli, şeytanın və nəfsin bəhanələrinə məhəl qoymamalıdır.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Həqiqətən zikr üçün onun öz əhli vardır ki, onu (zikri) dünyanın əvəzində götürmüşlər. Ticarət və müamilə onları Allahı yad etməkdən saxlamır, günlərini Allaha zikrlə keçirir, günahları haram edən ayə və rəvayətləri qafillərin qulağına oxuyurlar. Ədalətə çağırır, özləri də ona əməl edirlər. Pis işlərdən çəkindirib özləri də onlardan çəkinirlər. Sanki, dünyanı ötüb keçmiş, axirətə çatmışlar və dünyanın fövqündə olan şeyləri müşahidə edirlər. Sanki, bərzəx əhlinin qeyb vəziyyətlərindən agahdırlar, qiyamət və onun və'dələri onlara gerçəkləşmişdir. Qeyb pərdələrini dünya əhli üçün qaldırarlar. Elə şeyləri görərlər ki, adi camaat onları müşahidə etməz, elə şeyləri eşidərlər ki, başqaları eşitməzlər. Onlar, öz gündəlik əməl namələrini açmış və əməllərinin mühasibəsi üçün oturmuşlar. Onlara əmr olunan hər kiçik və böyüyün yerinə yetirilməsində təqsirə yol vermişlərsə, yaxud qadağan olunmuş işlər görmüşlərsə onları hesaba gətirərlər. Hamının günahını öz çiyinlərinə çəkir və lakin özlərini isə həmin günahları yerinə yetirməkdən aciz bilirlər. Nalə və ağlamaqları ucalır, bu vasitə ilə Haqqın dərgahında öz peşmançılıqlarını bildirirlər. Onların hidayət nişanələri və qaranlıqlarda çıraqlar olduğunu görərsən. Mələklər onların ətrafını əhatə etmişlər. Onlara ilahi xatircəmlik və aramlıq nazil olmuşdur. Asimanın qapıları onlar üçün açılmış, kəramət məqamları onlar üçün hazırlanmışdır."**[1]

## *TÖVBƏ, YAXUD NƏFSİN PAKLAŞDIRILMASI*

Günahın qarşısının alınması və onun tərk edilməsi nəfsin paklaşdırılmasının ən yaxşı yoludur. Ümumiyyətlə günaha aludə olmayan və ilkin zati səfa və paklıqda qalan insan şübhəsiz

---

[1] "Biharul-ənvar", 72-ci cild, səh.364

sonradan tövbə edən insandan fəzilətlidir. Hələ günah işə mürtəkib olmayan, ona adət etməyən bir şəxs gözünü günahda daha asan yuma bilər. Amma bu iş günaha aludə olan və onu tərk etmək istəyən şəxsə bir qədər çətindir.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Günahı tərk etmək tövbə etməkdən daha asandır."**[1]

Amma əgər insan günaha aludə olsa belə, Allahın rəhmətindən mə'yus olmamalıdır. Çünki Allah dərgahına yüksəliş və nəfsin islah olunması yolu heç vaxt bağlanmamış, mehriban Allah tövbə və qayıdış yolunu bütün günahkarlar üçün açıq qoymuş və onlardan istəmişdir ki, Allah dərgahına qayıdıb tövbə etsinlər, tövbə suyu ilə nəfs lövhəsini aludəliklərdən və günah çirkinliklərindən təmizləsinlər.

Qur'anda buyurulur: **"Mənim özlərinə zülm edən bəndələrimə de: «Allahın rəhmətindən mə'yus olmayın, həqiqətən Allah bütün günahları bağışlayır. O bağışlayan və mehribandır.»"**[2]

Yenə buyurur: **"Mö'minlər sənin yanına gəldikləri zaman de: «Sizə salam olsun, Allah rəhmət və mehribanlığı Özünə vacib etmişdir. Sizlərdən hər biri nadanlıq üzündən çirkin bir iş görmüş olsa, sonra tövbə edib Allah dərgahına qayıtsa və özünü islah etsə, əlbəttə, Allah bağışlayan və mehribandır.»"**[3]

## *TÖVBƏNİN VACİBLİYİ*

Günahkarlar üçün tövbədən də zəruri və vacib bir iş olmasını güman etməməliyik. Allaha, Peyğəmbərə, məada, savaba, cəzaya, hesaba, kitaba, behişt və cəhənnəmə iman gətirən bir şəxs tövbənin və onun dərhal yerinə yetirilməsinin zəruri olmasına şəkk etməz. Öz nəfsimizdən, günahlarımızın nə qədər olduğundan xəbərdar olduğumuz halda nə üçün tövbədən qafil olmalıyıq? Məgər, məada,

---

[1] "Biharul-ənvar", 73-cü cild, səh.364

[2] "Zumər" surəsi, ayə:53

[3] "Ən"am" surəsi, ayə:54

hesaba, kitaba, cəhənnəm əzabına inanmayırıqmı? Məgər Allahın və'dəsində – günahkarları cəhənnəmdə cəzalandıracağına dair və'dəsinə şəkk edirikmi? İnsanın nəfsi günah vasitəsilə qaralır, çirkinləşir, onun, hətta, insan surətindən heyvan surətinə çevrilməsi də mümkündür. Necə ola bilər ki, belə bir qaranlıq və çirkin nəfs ilə Allah hüzuruna yol tapa bilək, behiştdə Allah övliyaları ilə qonşu olaq? Günaha mürtəkib olmaqla Allah dərgahına doğru aparan «sirati-müstəqim»i boşlayıb heyvaniyyət vadisinə süqut edir, Allahdan uzaqlaşıb şeytana yaxınlaşırıq. Bununla belə, yenə də axirət dünyasında xoşbəxt olub nicat tapmağımızı, behiştdə ilahi ne'mətlərdən faydalanmağımızı necə gözləyə bilərik? Necə də xam xəyallardır!

Deməli, öz xoşbəxtliyinin fikrində olan günahkar bir insan üçün tövbə edib Allah dərgahına qayıtmaqdan başqa bir çıxış yolu qalmır. Bu da Allahın böyük mərhəmətidir; O, tövbə qapısını bəndələrin üzünə açıq qoymuşdur.

Öz sağlamlığının fikrində olan zəhərlənmiş bir insan heç vaxt özünün müalicə olunmasının və zəhərlərin bədənindən çıxarılmasının vacibliyində şəkk etmir, bu işdə tə'xiri rəva görmür. Çünki, gec hərəkət edəcəyi təqdirdə öləcəyini yəqin şəkildə bilir. Halbuki, günah insan nəfsi üçün zəhərdən də öldürücüdür. Əgər zəhər insanın bu dünyadakı bir neçə günlük həyatına son qoyursa, günah nəfsi əbədi həlakətə salır və insanın axirət səadətini məhv edir. Əgər zəhər insanın əlini dünyadan kəsirsə, günah insanı Allahdan uzaqlaşdırır və Onun dərgahına yaxınlaşmaq feyzindən məhrum edir.

Deməli, bizim üçün tövbə edib Allah dərgahına qayıtmaq hər bir işdən daha zəruri və tə'cili olmalıdır. Çünki bizim mə'nəvi həyatımız və axirət səadətimiz ona bağlıdır. Qur'anda buyurulur: **"Ey mö'minlər! Sizin hamınız tövbə edib Allah dərgahına qayıdın, bəlkə qurtuluşa nail olasınız."**[1]

Digər bir ayədə buyurulur: **"Ey mö'minlər! Nəsuh (davamlı və xalis) tövbə ilə tövbə edib Allah dərgahına qayıdın. Bəlkə, Allah sizin günahlarınızı məhv etdi və sizi, ağaclarının altından çaylar axan behiştə daxil etdi."**[2]

---

[1] "Nur" surəsi, ayə:31

[2] "Təhrim" surəsi, ayə:8

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Hər bir dərdin dərmanı vardır. Günahların da dərmanı istiğfar etməkdir.”**[1]

İmam Məhəmməd Baqir (ə) buyurur: “**Hər bəndənin qəlbində ağ bir nur vardır. Hərgah günaha mürtəkib olsa o ağ nurda qara bir ləkə də əmələ gəlir. Əgər tövbə edərsə qara ləkə dərhal aradan gedir. Əgər o günahlarına davam edərsə, qara ləkə də tədricən artır və elə bir həddə çatır ki, ağ nur tamamilə aradan gedir. Sonra onun sahibi heç vaxt xeyrə doğru qayıtmaz. Buna görə də Mütəal Allah buyurur: “Kəsb etdiklərinə görə onların qəlblərinə möhür vuruldu.”**[2]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Tövbənin tə’xirə salınması bir növ qürur və aldatmadır. Tə’xirə salmağın davam etdirilməsi sərgərdançılıq və heyrətdir. Allahın qarşısında bəhanə gətirmək həlakətdir. Günah işlərə israr etmək Allahın cəzalandırmasından əmin-amanlıq hissi keçirməkdir. Halbuki ziyankarlardan başqa heç kim Allahın cəzalandırması müqabilində əmin-amanlıq hissi keçirməz.”**[3]

Yaxşı olar ki, bir qədər özümüzə gələk. Keçmiş günahlarımızı xatırlayaq və axır-aqibətimizin necə qurtaracağı barədə fikirləşək. Hesab dayanacaqlarını, əməllərin mizanını, Qəhhar Allahın hüzurunda, mələklərin və bütün məxluqatın arasında rüsvay olmağı, qiyamətin çətinliklərini, nəhayət, cəhənnəm əzabı və Allahın rəhmətindən məhrum olmağı nəzərimizdə canlandıraq, batini və əsaslı bir dəyişiklikdə Allaha doğru qayıdaq. Bütün günahlarımızı tövbənin həyat bəxş edən suyu ilə yuyaq, nəfsin aludəliklərini və çirkinliklərini aradan qaldırmaq, günahlardan çəkinmək, axirət səfərinə hazırlaşmaq və Allah dərgahına yaxınlaşmaq barədə qəti qərara gələk.

Lakin, görəsən şeytan belə sadəliklə bizdən əl çəkəcəkmi? Məgər bizim tövbə edərək Allah dərgahına qayıtmağımıza imkan verəcəkmi? O, həmin şeytandır ki, bizi həmişə günaha vadar edir, tövbə etməyimizin qarşısını alır, günahlarımızı əhəmiyyətsiz və kiçik qələmə verir. Onları bizim yadımızdan elə çıxardır ki,

---

[1] “Vəsailuş-şiə”, 11-ci cild, səh.354
[2] “Biharul-ənvar”, 73-cü cild, səh. 332
[3] “Biharul-ənvar”, 73-cü cild, səh. 365

hamısını birdəfəlik unudur, ölüm, hesab, cəza fikrinə belə düşmürük. Bizi dünyaya elə məşğul edir ki, heç vaxt tövbə edib qayıtmaq fikrinə düşmürük. Nəhayət əcəlimiz gəlib çatır və aludə nəfs ilə dünyadan gedirik. Vay olsun bizə! Vay olsun bizim qəflət və bədbəxtçiliyimizə!!

## *TÖVBƏNİN QƏBUL OLUNMASI*

Əgər tövbə düzgün olsa Allah dərgahında hökmən qəbul olunur. Bu da mehriban və mərhəmətli Pərvərdigarın ne'mətlərindən biridir. Allah bizi cəhənnəm və onda əzaba düçar olmaq üçün deyil, əbədi səadət və behişt üçün yaratmışdır. Peyğəmbərləri göndərmişdir ki, insanları əbədi səadət və xoşbəxtlik yoluna hidayət etsinlər, günahkarları tövbə edib Allah dərgahına qayıtmağa çağırsınlar.

Allah tövbə qapısını hamı üçün açıq qoymuşdur və daim insanları öz dərgahına doğru də'vət edir. İlahi peyğəmbərlər və övliyalar insanları daim tövbəyə doğru çağırmışlar. Çoxlu Qur'an ayələrində Allah-təala günahkarları Öz tərəfinə də'vət edir və onların tövbəsini qəbul edəcəyini və'də verir. Allahın və'dələrində də yalana yol yoxdur. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və mə'sum imamlar (ə) da yüzlərlə hədisdə camaatı tövbə edib Allah dərgahına qayıtmağa də'vət etmiş, onlara ümid vermişlər.

Qur'anda buyurulur: **"O həmin Allahdır ki, bəndələrinin tövbəsini qəbul edib günahları bağışlayır. O, gördüyünüz işlərin hamısından agahdır."**[1]

Yenə buyurulur: **"Əlbəttə, Mən tövbə edib iman gətirən və saleh əməllər görüb hidayət olunanlar üçün çox-çox bağışlayanam."**[2]

Yenə buyurulur: **"O kəslər ki, hər vaxt yaramaz bir iş görüb, nəfslərinə zülm etdikdə Allahı xatırlayır və günahları üçün istiğfar edirlər. Allahdan başqa kim günahları bağışlaya bilər? Və o kəslər ki, günahın çirkinliyini bilə-bilə çirkin işlər və günahlarda davamlı olmazlar. Məhz, o kəslərin əməllərinin mükafatı bağışlanmaq və ağaclarının altından çaylar axan behiştlərdir ki, həmişəlik orada yaşayacaqlar. Əməl sahibləri**

---

[1] "Şura" surəsi, ayə 25

[2] "Taha" surəsi, ayə 82

**üçün necə də yaxşı mükafatdır!”**[1]

İmam Məhəmməd Baqir (ə) buyurur: **“Günahdan tövbə edən şəxs ümumiyyətlə, günah etməyən şəxs kimidir. Günah işlərə olduğu kimi davam edən və sadəcə dildə istiğfar edən şəxs məsxərəçi şəxsə oxşayır.”**[2]

Bu kimi ayə və rəvayətlər olduqca çoxdur. Deməli, tövbənin qəbul olunmasında şəkk-şübhəyə yer yoxdur və Mütəal Allah tövbə edənləri sevir. Qur’anda buyurulur: **“Həqiqətən, Allah tövbə edib paklananları sevir.”**[3]

İmam Məhəmməd Baqir (ə) buyurur: **“Allahın tövbə edən bəndədən razılığı qaranlıq bir gecədə minik heyvanını və yol ehtiyatını itirdikdən sonra tapan şəxsin sevincindən daha artıqdır.”**[4]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Bəndə xalis və davamlı tövbə edəndə Allah onu sevir və günahlarının üstünü örtür.”** Ravi ərz etdi: Ey Peyğəmbərin övladı, onun günahlarını necə örtür? Buyurdu: **“Əməli yazan mələklər o bəndənin günahlarını unudur, Allah bəndənin bədən üzvlərinə və yerə (günahın edildiyi yerə) göstəriş verir ki, Bizim tövbə edən bəndəmizin günahlarını örtün. Belə adam Allahla (Qiyamətdə) görüşəndə heç kəs və heç bir şey onun günahlarını müşahidə etmir.”**[5]

## *TÖVBƏ NƏDİR?*

Tövbə insanın keçmiş əməllərindən peşman olmasıdır. O kəsə həqiqi tövbəkar demək olar ki, doğrudan da, səmimi qəlbdən keçmiş günahlarından peşman olsun. Peyğəmbər (s.ə.v.v.) buyurur: **“(Günahdan) peşman olmaq tövbədir.”**[6]

Düzdür ki, Allah tövbəni qəbul edir və günahları bağışlayır, lakin, təkcə dildə “əstəğfirullah” deməyi, yaxud peşmançılıq izhar etməyi, yaxud da bə’zən ağlamaq kimi işləri həqiqi tövbəyə dəlil

---

[1] “Ali İmran” surəsi, ayə 135
[2] “Kafi”, 2-ci cild, səh.435
[3] “Bəqərə” surəsi, ayə 222
[4] “Kafi”, 2-ci cild, səh. 436
[5] “Kafi”, 2-ci cild, səh. 436
[6] “Həqaid” səh. 386

hesab etmək olmaz. Yalnız üç əlamətin varlığı ilə tövbəni həqiqi hesab etmək olar:

1.Keçmiş günahlardan qəlbən peşman olub onlara nifrətlə yanaşsın. Öz-özlüyündə qəmlənib peşman olsun və xəcalət hissi keçirsin.

2.Gələcəkdə günaha batmamaq barədə ciddi şəkildə qərar qəbul etsin.

3.Əgər günah nəticəsində bərpa olunmağı mümkün olacaq bir iş görmüşsə onun əvəzini ödəməyə qərara alsın. Məsələn, camaatın haqqını qaytarsın. Əgər bir kəsin malını qəsb etmişsə, yaxud, oğurlamışsa, yaxud, tələf etmişsə yaranan ilk fürsətlərdə onu sahibinə qaytarmağa dair qərara gəlsin. Əgər onu verə bilməzsə mümkün olan hər bir yolla sahibini razı salsın. Əgər kiminsə qeybətini etmişsə, ardınca pis sözlər danışmışsa ondan halallıq istəsin. Əgər bir kəsin haqqını tapdalayıb ona zülm etmişsə məzlumun razılığını cəlb etsin. Əgər mal-dövlətinin vacib hüquqlarını (xums, zəkat, və s.) verməyibsə versin. Əgər namaz və oruc kimi əməllər fövtə gedibsə qəzasını yerinə yetirsin.

Belə bir şəxs barəsində demək olar ki, o, doğrudan da keçmiş günahlarından peşman olmuşdur və tövbəsi də qəbul olunur. Amma sadəcə "istiğfar" kəlməsini deyən, lakin, qəlbdə peşman olmayan və gələcəkdə onu tərk etməyə dair qərara gəlməyən, yaxud, bərpa olunası günahların əvəzini çıxmayan şəxs tövbə etməmiş olur və o, dua məclisində iştirak etməsinə, atifələrdən tə'sirlənməsinə, göz yaşı axıdıb ah-nalə etməsinə baxmayaraq tövbəsinin qəbul olmasını gözləməməlidir.

Bir nəfər Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) hüzurunda istiğfar kəlməsini dilinə gətirdikdə Həzrət (ə) buyurdu: **"Anan matəmində otursun! Bilirsənmi istiğfar nə deməkdir? İstiğfar İlliyyin dərəcəsidir və onun altı mə'nası vardır: 1.Keçmiş günahlardan peşman olmaq. 2.Həmişəlik olaraq günahı tərk etmək qərarına gəlmək. 3.Camaatın haqqını ödəmək. Belə ki, qiyamətdə Allahın hüzuruna gələn zaman üzərində başqasının haqqı olmasın. 4.Tam dəqiqliklə tərk etdiyi ibadətlərin qəzasını yerinə yetirsin. 5.Günahlarına o qədər qəm-qüssəli olsun ki, haram yeməklərdən bədənində əmələ gələn ətlər əriyib aradan getsin və dəri bədəninə yapışsın, sonradan (onun yerinə) təzə ət gəlsin. 6.Əvvəllər günahın şirinliyini daddığın kimi, itaətin**

**çətinlik və əzabını da bədəninə dadızdırasan. Bundan sonra «əstəğfirullah» de!”**[1]

Şeytan o qədər hiyləgərdir ki, insanı hətta tövbə barəsində belə aldadır. Mümkündür günahkar insan dua məclisində iştirak edib tə’sirlənsin, göz yaşı axıdıb nalə etsin. Bu zaman şeytan deyər: “Bəh-bəh, nə qədər yaxşı hal tapmısan! Artıq sən tövbə edib günahlardan paklanmısan.” Halbuki qəlbən günahlardan peşman olmayıb, gələcəkdə günahların tərk olunmasına dair qərar qəbul etməyib, camaatın və Allahın haqqını ödəməyi qərara almayıb. Belə bir əməl həqiqi tövbə sayılmır və insanın nəfsinin paklaşmasına, axirətdə xoşbəxt olmasına səbəb olmaz. Belə insan günahlardan qayıtmamış və Allah dərgahına üz tutmamışdır.

## *NƏDƏN TÖVBƏ ETMƏLIYIK?*

Günah nədir və hansı günahdan tövbə etməliyik? Cavab budur ki, insanın Allah dərgahına yaxınlaşmasına mane olan və insanı dünyaya bağlayıb tövbə edərək Allah dərgahına qayıtmasına mane olan hər bir şey günah hesab olunur və ondan uzaq olmaq, nəfsi belə işlərdən təmizləmək lazımdır. Günahı iki qismə bölmək olar:

**1.Əxlaqi günahlar.**

**2.Əməli günahlar.**

**1.Əxlaqi günahlar.** Rəzil əxlaqi xüsusiyyətlər və çirkin sifətlər insanı günaha aludə edir. Ona insaniyyətin «siratəl-mustəqim» yolunu ötməyə, Allah dərgahına yaxınlaşmağa mane olur. Çirkin sifətlər nəfsdə kök salarsa artıq xasiyyətə çevrilir, insan zatının batinini tamamilə dəyişdirir və hətta insanın nə olmasında belə tə’sir qoyur. Əxlaqi günahların sadəcə olaraq əxlaqi olmasını bəhanə edərək əhəmiyyətsiz və kiçik saymaq və nəfsin onlardan təmizlənməsindən və tövbə etməkdən qafil olmaq olmaz. Əksinə, nəfsin onlardan paklanması zəruri və həyati bir məsələ hesab olunmalıdır.

**Rəzil əxlaqi xüsusiyyətlər aşağıdakılardır:** Riyakarlıq, münafiqlik, qəsb, təkəbbür, xudbinlik, bədxasiyyətlilik, zülm, hiylə, qeybət, böhtan, söz gəzdirmək, eyb axtarmaq, xəbərçilik, və’dəyə xilaf çıxmaq, yalan danışmaq, dünyaya məhəbbət, hərislik, paxıllıq, valideynin hüququna riayət etməmək, qohum-əqrəba ilə əlaqələri

---

[1] “Vəsailuş-şiə”, 11-ci cild, səh. 361

kəsmək, ne'mətlərə qarşı nankorluq və naşükürlük, israfkarlıq, həsəd, acı dillilik, başqalarını söymək və sair sifətlər.

Yüzlərlə ayə və rəvayətlərdə bu sifətlər məzəmmət edilmiş, onların dünya və axirətdəki cəzaları bəyan olunmuş və əxlaqi kitablarda araşdırılmışdır. Amma onların hamısını burada irəli çəkmək olmaz. Maraqlananlar hədis və əxlaq kitablarına müraciət edə bilərlər.

**2.Əməli günahlar.**

Əməli günahlar aşağıdakılardır: Oğurluq, nahaq yerə adam öldürmək, zina, ləvat, riba (faiz) vermək və ya almaq, camaatın malını qəsb etmək, müamilədə fırıldaqçılıq, vacib cihad meydanından qaçmaq, əmanətə xəyanət etmək, şərab və sair məstedici şeyləri içmək, ölmüş heyvan əti, donuz əti və sair haram yeməkləri yemək, qumar oynamaq, yalan yerə şəhadət vermək, yalan yerə and içmək, günahsız adamlara zina nisbəti vermək, vacib namazları, orucu, həcci, əmr be mə''ruf və nəhy əz münkəri tərk etmək, nəcis yeməklər yemək və sair haram işlər. Bunlar məşhur günahlardır ki, fiqh kitablarında araşdırılmışdır. Maraqlananlar hədis kitablarına müraciət edə bilərlər.

İnsan bu məşhur günahlardan çəkinməli və onlara düçar olduqda tövbə edərək Allah dərgahına qayıtmalıdır. Başqa günahlar da vardır ki, məşhur deyil və günah ünvanı ilə tanınmamışlar. Lakin, onlar Allahın seçilmiş bəndələri və övliyaları üçün günah hesab olunur. O cümlədən, müstəhəbləri tərk etmək, məkruh işlər görmək, hətta günahı təsəvvür etmək, Allahdan başqasına diqqət yetirmək, insanı Allahdan qafil edən nəfsani və şeytani fikirlər və s. Bunların hamısı Allah övliyaları nəzərində günah hesab edilir və onlar bu işlərdən tövbə edirlər. Bundan əlavə, onlar hətta Allahın Özünü, sifətlərini və fe'llərini tanımaqda qüsura yol verdiklərindən (bu, mümkünül-vücud olan hər bir insanın təbiətidir) Allahın seçilmiş bəndələri üçün nöqsanlı hal və günah hesab edilir. Belə nöqsanlı halları hiss etdiklərinə görə bədənləri lərzəyə gəlir, ah-nalə ilə tövbə edib Allaha tərəf qayıdırlar. Mə'sum imamların (ə) və peyğəmbərlərin (s) istiğfar və tövbələri də məhz bu qəbildəndir. İmam Cə'fər Sadiq (ə) buyurur: **"Peyğəmbəri-Əkrəm səlləllahu əleyhi və alihi və səlləm hər gün yetmiş dəfə tövbə edirdi.**

**Halbuki heç bir günahı yox idi.”**[1]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Bə’zən mənim qəlbimə qaranlıq gəlir, buna görə də gecə-gündüz yetmiş dəfə istiğfar edirəm.”**

---

[1] “Məhəccətul-beyza”, 7-ci cild, səh. 17

## İKİNCİ HISSƏ

### *TƏHLIYƏ, YAXUD NƏFSIN PƏRVƏRIŞ OLUNMASI VƏ TƏKMILLƏŞDIRILMƏSI*

### TƏHLIYƏ, YAXUD NƏFSIN PƏRVƏRIŞ VERILIB TƏKMILLƏŞDIRILMƏSI

Nəfsi aludəliklərdən pakladıqdan sonra onun təkmilləşdirilməsi və pərvəriş olunması mərhələsi gəlir. Bu əxlaq elmində «**təhliyə**» adlandırılır. Əqli elmlərdə isbat olunmuşdur ki, insanın nəfsi daim hərəkətdə, yeniləşməkdədir. Onun fe'liyyətləri qüvvə və iste'dadlarına qarışmışdır. Öz iste'dadlarını tədrici olaraq fe'liyyətə çevirir. Əvvəldə kamil olmur, tədrici olaraq özünü qurur, zat gövhərinə pərvəriş verir. Əgər düzgün yolda hərəkət edərsə tədriclə təkamülə çatır, kamilləşir, nəhayət, yekun kamal mərhələsinə nail olur. Əgər azğınlığa çəkilmiş olsa və azğınlıq yolunda addımlasa, tədrici olaraq insaniyyətin son kamalından uzaqlaşaraq heyvaniyyətin dəhşətli vadilərinə süqut edir.

### *ALLAH DƏRGAHINA YAXINLIQ*

Qeyd etmək lazımdır ki, insanın mə'nəvi təkamülü və hərəkəti şərti və e'tibari hərəkət deyil, həqiqi hərəkətdir, arizi (sonradan əlavə olunan) deyil, zati bir hərəkətdir və bu hərəkət onun bədəni ilə deyil, mücərrəd ruhu ilə əlaqədardır. Bu hərəkətdə insan zatının gövhəri hərəkət edib dəyişilir. Deməli, insanın hərəkət yolu da e'tibari və məcazi deyil, həqiqi yoldur. Amma, hərəkət yolu onun daim dəyişilməkdə olan zatından ayrı deyildir. Əksinə, hərəkət edən şey öz zatının batinində hərəkət edir və hərəkət yolunu özü ilə yanaşı aparır.

Belə bir sual yaranır: Bildiyimiz kimi hər bir hərəkətin son və yekun məqsədi vardır. İnsanın zati hərəkətinin axır məqsədi nədir? İnsanlar bu dünyada hansı məqsədə doğru hərəkət edirlər və onların axır-aqibətləri necə qurtaracaqdır?

Ayə və rəvayətlərdən mə'lum olur ki, insanların hərəkəti üçün müqəddər olunan son hədəf Allah dərgahına yaxınlaşmaqdır. Lakin, bütün insanlar eyni bir yolda hərəkət etmədiklərindən hamısı Allah dərgahına yaxınlaşa bilmirlər. Qur'anda insanlar üç qismə bölünür:

1.**Əshabul-məymənəh (sağ tərəf sahibləri).**

**2.Əshabul-məş’əməh (sol tərəf sahibləri).**

**3.Sabiqun (öndə olan).**

Sonuncu dəstə Allah dərgahına yaxın olanlar kimi vəsf edilir və buyurulur: **“Siz insanlar üç dəstədən ibarətsiniz. Sağ tərəf sahibləri. Kimdir onlar?! Sol tərəf sahibləri. Kimdir onlar?! Və bir də öndə olanlar! Bunlar Allah dərgahına yaxın olanlardır və onlar Nəim cənnətlərində məskunlaşacaqlar.”**[1]

«Əshabul-məymənəh» yə’ni xoşbəxtlər, «əshabul-məş’əməh» yə’ni bədbəxtlər. «Sabiqun» isə o kəslərdir ki, «sirati-mustəqim»i ötüb keçməkdə başqalarından qabağa keçmiş və Allah dərgahına yaxınlıq məqamına nail olmuşlar. Yuxarıdakı ayədən mə’lum olur ki, insanların təkamül yolunda hərəkətinin yekun məqsədi Allah dərgahına yaxınlaşmaqdır. Başqa bir ayədə isə buyurulur: **“Amma əgər Allah dərgahına yaxın olanlardan olsa, (onu) qiyamətdə rəhmət, gözəl ruzi və Nəim cənnəti gözləyir! Əgər sağ tərəf sahiblərindəndirsə, sağ tərəf sahiblərindən sənə məxsus olan bir salam vardır. Əgər yalan sayanlardan, yoldan azanlardansa, onlara cəhənnəmin qaynar suları veriləcək və onların yerləri cəhənnəm olacaqdır.”**[2]

Başqa bir ayə də buyurulur: **“Belə (kafirlərin güman etdikləri kimi) deyildir. Həqiqətən, yaxşı əməl və itaət sahibi olan mö’minlərin əməl dəftəri İlliyyundadır (ali dərəcələrdədir). Sən nə bilirsən ki, İlliyyun nədir! Elə bir kitabdır ki, Allah tərəfindən təsbit olunmuş bir kitabdır və Allah dərgahına müqərrəb olanlar o məqamı görə bilərlər.”**[3]

Bu ayələrdən mə’lum olur ki, Allah dərgahına yaxınlıq məqamı insanların ruhi təkamülünün yekun kamal mərhələsi və məqsədidir. Allahın insaniyyətin düzgün yolunda hərəkət edən seçilmiş bəndələri həmin məqama nail olurlar. Deməli, «müqərrəblər» xoşbəxtliyə nail olanlardan ibarət olan seçilmiş bir qrupdur. Qur’anda buyurulur: **“Məlaikələr: “Ey Məryəm, Allah sənə Öz tərəfindən olan bir kəlmə ilə (yə’ni İsa ibni Məryəmlə) müjdə**

---

[1] “Vaqiə” surəsi, ayə 12

[2] “Vaqiə” surəsi, ayə 88-91

[3] “Mütəffifin” surəsi, ayə 21

**verir ki, axirətdə Allah yanında heysiyyətli və müqərrəblərdən olar" - dedilər."**[1]

Deməli, iman, yəqin və saleh əməllərdə başqalarından qabağa keçən Allahın layiqli bəndələri qiyamətdə çox yüksək və ali məqamlarda olacaqlar. Bu məqam da "qürb məqamı" və bə'zi ayələrin tə'birincə **"ində Məlikin muqtədir"** adlandırılır. Şəhidlər də belə yüksək məqama malikdirlər. Qur'anda buyurulur: **"Allah yolunda öldürülən şəxslərin ölü olduğunu güman etməyin. Əksinə, onlar diridirlər və Allahın yanında ruzidən bəhrələnirlər."**[2]

Bununla da mə'lum olur ki, insanın yekun kamalı Allah dərgahına yaxınlaşmaqdan ibarətdir.

## *ALLAH DƏRGAHINA YAXIN OLMAĞIN MƏ'NASI*

İndi isə "Görəsən Allah dərgahına yaxın olmaq dedikdə məqsəd nədir?", "İnsanın Allaha yaxın olmasını necə təsəvvür etmək olar?" suallarını araşdırmalıyıq. "Qürb" sözünün mə'nası "yaxınlıq" deməkdir. Bunun üç mə'nası var:

**1.Məkan baxımından yaxınlıq.** Ərəb dilində məkan baxımından bir-birinə yaxın olan iki şeyə "bir-birinə qəribdir" - deyilir.

**2.Zaman baxımından yaxınlıq.** Zaman baxımından da bir-birinə yaxın olan iki şeyə «bu iki şey bir-birinə qəribdir» - deyilir.

Aydındır ki, bəndələrin Allaha yaxınlığı qeyd olunan bu iki növdən deyildir. Çünki Allaha nə zaman, nə də məkan aid olunmur ki, hər hansı bir şey zaman və ya məkan baxımından Ona yaxınlığa nisbət verilsin. Əksinə, Allahın Özü zamanın və məkanın xaliqidir və onlara tam əhatəlidir.

**3.Məcazi yaxınlıq.** Bə'zən, "filan şəxs filan şəxsə yaxındır" - deyirik və məqsədimiz də budur ki, bu şəxs onun sevdiyi və ehtirama layiq gördüyü adamdır, onun istəklərinə müsbət cavab verir. Bu kimi yaxınlıq həqiqi deyil, məcazi yaxınlıqdır.

Görəsən, bəndənin Allaha yaxınlığı bu qismdən ola bilərmi? Əlbəttə, Allah Özünün layiqli bəndələrini sevir və onların istəklərini yerinə yetirir. Lakin bəndənin Allaha yaxın olmasını bu

---

[1] "Ali-İmran" surəsi, ayə 45

[2] "Ali-İmran" surəsi, ayə 169

növdən də hesab etmək olmaz. Çünki əvvəldə də qeyd etdiyimiz və əqli elmlərdə də sübuta yetdiyi, ayə və hədislərdə də qeyd edildiyi kimi, insanın zati və «sirati-mustəqim»dəki hərəkəti məcazi deyil, həqiqi və gerçək işlərdəndir. Bu qədər ayə və rəvayətlərdə qeyd olunan "Allaha doğru qayıtmaq" məsələsi həqiqətə malikdir və heç vaxt e'tibari ola bilməz. Qur'anda buyurulur: **"Ey arxayın nəfs! Öz Pərvərdigarına doğru qayıt. Sən Ondan razısan və O da səndən razıdır."**[1]

Yenə buyurulur: **"Hər kəs saleh (yaxşı) bir iş görmüş olsa onun faydası özünə qayıdar və hər kəs çirkin işə mürtəkib olsa öz ziyanına əməl etmişdir. Sonra sizin hamınız Pərvədigarınıza tərəf qaytarılacaqsınız."**[2]

Başqa ayədə buyurulur: **"(Səbr edənlər) bir müsibət baş verən zaman "Biz Allaha məxsusuq və Ona doğru qaytarılacağıq" deyərlər."**[3]

Bir sözlə, Allah dərgahına qayıtmaq, «sirati-mustəqim»də və Allah yolunda olub nəfsi kamala çatdırmaq məcazi deyil, həqiqi əməllərdəndir. İnsanın Allaha tərəf hərəkət etməsi agahlıq və ixtiyar üzündən olan bir hərəkətdir. Nəticəsi də ölümdən sonra aşkar olacaqdır. İnsan, varlığının əvvəlindən bu hərəkəti başlayır və öldüyü vaxta qədər davam etdirir. Deməli, Allaha yaxınlıq da həqiqi bir işdir, Allahın layiqli bəndələri doğrudan da Allaha yaxınlaşırlar. Günahkar və yaramaz iş sahibləri doğrudan da Allahdan uzaqlaşırlar. Allah dərgahına yaxınlaşmağın həqiqi mə'nasının nədən ibarət olduğunu araşdırmalıyıq.

«Allaha yaxınlıq» yaxınlığın yuxarıda işlənən mə'nalarından deyil, tam başqa mə'nadadır. Onu kamal yaxınlığı, vücudi dərəcə hesab etmək olar. Bu məsələni anlamaq üçün əvvəlcə bir müqəddiməni qeyd edirik.

İslam fəlsəfsi və Kəlam kitablarında isbat olunmuşdur ki, vücud və varlıq müxtəlif dərəcə və mərtəbələrə malik olan bir həqiqətdən ibarətdir. Vücud eynilə şiddətli və zəif mərhələləri olan bir nura oxşayır. Nurun ən zəif mərhələsi də (məsələn, bir voltluq lampanın

---

[1] (Fəcr" surəsi, ayə 28

[2] "Casiyə" surəsi, ayə:15

[3] "Bəqərə" surəsi, ayə:156

işığı) işıqdır, nəhayət, sırf nurdan olan (nurdan başqa bir şeyin olmadığı) ən yüksək mərtəbəyə qədər davam edir. Yüksək və aşağı mərtəbələr arasında yerləşən müxtəlif mərhələlərdəki nurların hamısı nurdur. Fərqləri də zəif və şiddətli olmaqdadır. Vücud da bunun kimi müxtəlif mərhələlərə malikdir. Onların fərqləri də şiddətli və zəif olmalarına görədir. Vücudun ən aşağı mərhələsi təbiət və maddə, ən yüksək mərhələsi isə Allahın vücudi kamal baxımından sonsuz olan müqəddəs Zatıdır. Bu iki mərtəbə arasında müxtəlif dərəcələr vardır ki, onların da fərqləri şiddətli və ya zəif olmaları ilədir. Deməli, vücud nə qədər güclü, onun dərəcəsi nə qədər yüksək və kamil olarsa həmin qədər də Allahın sonsuz və müqəddəs zatına yaxın olacaqdır. Bunun əksinə olaraq vücud nə qədər zəif olarsa, Allahın vacibul-vücud Zatından bir o qədər uzaq olacaqdır.

Bu müqəddiməyə diqqət yetirməklə bəndənin Allah dərgahına yaxın və ya uzaq olmasının mə’nasını təsəvvür etmək olar. İnsan ruh baxımından mücərrəd bir həqiqətdir. Fe’l və iş nəzərindən maddədən asılıdır. Buna görə də hərəkət edə bilir, kamilləşir, nəhayət öz vücudunun son mərhələsinə çatır. Hərəkətin əvvəlindən məqsədə çatdığı vaxta qədər bir şəxsdən, bir həqiqətdən başqa bir şey deyildir. Nə qədər çox kamal kəsb edərsə, vücud mərhələlərində təkamülə doğru nə qədər hərəkət edərsə həmin qədər də vücudun mənbəyinə, yə’ni Allahın sonsuz və müqəddəs zatına daha yaxın olar. İnsan iman və saleh əməllərlə öz vücudunu kamilləşdirərək ilahi qürb məqamına nail ola bilər. Varlığın mənşəyindən, kamal və camal mənbəyindən daha artıq nuraniyyət əldə edərək özü də daha da artıq tə’sir mənşəyi ola bilər.

Bununla aydın olur ki, insanın hərəkəti sonsuz bir məqsədə doğru davam edir. Hər kəs öz sə’y və himməti qədər qürb məqamından birinə nail olur. Başqa sözlə desək, qürb məqamı bir nöqtə deyil, əksinə, müxtəlif dərəcələrə malik olan bir həqiqətdir. Qürb bir nisbi məsələdir. İnsan nə qədər artıq çalışıb sə’y etsə, daha yüksək məqamlara nail olaraq Allahın feyzlərindən bəhrələnər.

### *İMAN NƏFSANİ KAMALLARIN ƏSASIDIR*

İman və mə’rifət nəfsani kamalların və Allah dərgahına seyr etməyin əsasıdır. Bu yolda addımlayan bir şəxs hərəkətdən öncə öz hərəkətinin məqsədini aydınlaşdırmalı və hara gedəcəyini, hansı

yolla hərəkət etməli olduğunu bilməlidir. Əks halda məqsədə çatmayacaqdır. Allaha iman insanın hərəkətinə istiqamət verib onun məqsədini aydınlaşdırır. İmansız şəxslər də təkamülün düzgün yolunu keçməkdə acizdirlər. Qur'anda buyurulur: **"Allaha və qiyamətə imanı olmayan şəxslər düzgün yoldan azacaqlar."**[1]

**"Xeyr, axirət aləminə iman gətirməyənlər, uzun-uzadı əzaba və azğınçılığa giriftar olarlar."**[2]

Allaha və məada inanmayan kafir insan kamal aləmindən ayrılmış, birbaşa maddiyyata, heyvani istəklərin tə'min olunmasına üz gətirmişlər. Buna görə də onun bu hərəkətinin məqsədi maddi aləmdən başqa bir şey olmayacaqdır. O, kamal yolunda olmadığından onun üçün Allaha yaxınlıq heç vaxt mümkün olmayacaqdır. Onun hərəkət istiqaməti yalnız dünya olduğu üçün insaniyyətin düzgün yolunun mərtəbələrindən uzaq olacaqdır. Əgər kafir şəxs xeyir bir iş görmüş olsa da bu, onun nəfsinin kamala çatmasına, Allah dərgahına yaxınlaşmasına səbəb olmaz, çünki bu işi Mütəal Allah üçün və təqərrüb niyyəti ilə görmür ki, onun üçün bir faydası olsun. Əksinə o, dünya üçün etmişdir və nəticəsini də elə bu dünyada alacaq, qiyamətdə onun heç bir tə'siri olmayacaqdır. Allah Qur'anda buyurur: **"Pərvərdigarlarına kafir olan şəxslərin əməllərinin məsəli çox şiddətli küləyi olan bir gündə küləyin qarşısında qərar tutaraq ətrafa səpələnən külə bənzəyir ki, kəsb etdiklərini qoruyub saxlamağa qüdrətləri olmaz. Zəlalət və nicat yolundan uzaq olmaq da məhz budur."**[3]

İman əməllərin əsası, bünövrəsidir və onlara dəyər verir. Əgər mö'minin canı iman və tövhid kəlməsilə qarışsa nurani olar, Allah dərgahına tərəf seyr edər və saleh əməllər də ona kömək göstərər. Qur'anda buyurulur: **"Hər kəs izzət istəyirsə (bilməlidir ki,) bütün izzətlər Allahın yanındadır. Pak söz (la ilahə illəllah) Allaha doğru yüksəlir və saleh əməl (isə) onu (daha da) yuxarı aparır."**[4]

Saleh əməl insanın canını və ruhunu yüksəkliyə aparıb Allahın

---

[1] "Mö"minin" surəsi, ayə 74
[2] "Səba" surəsi, ayə 8
[3] "İbrahim" surəsi, ayə 18
[4] "Fatir" surəsi, ayə 10

qürb məqamına çatdırır, onun üçün pak və gözəl bir həyat hazırlayır. Lakin bu şərtlə ki, imanlı olsun. İmansız ruh qaranlıq və zülmətlidir, Allah dərgahına yaxınlaşmağa, pak həyatdan faydalanmağa ləyaqəti yoxdur. Qur’anda buyurulur: **“Hər kəs mö’min olan halda saleh bir iş görsə, istər qadın olsun, istərsə də kişi Biz onu pak-pakizə həyatla dirildərik.”**[1]

Deməli, Allah dərgahına tərəf seyr etmək istəyən bir şəxs əvvəlcə iman qüvvəsini gücləndirmək üçün çalışmalıdır. Onun imanı nə qədər güclü və yüksək olarsa bir o qədər də kamalın yüksək mərhələlərinə çatacaqdır. Qur’anda buyurulur: **“Allah sizlərdən imanlı olan şəxslərin dərəcəsini yuxarı aparır. Elmə malik olan şəxsləri yüksək dərəcələrə qaldırır. Allah gördüyünüz işlərdən agahdır.”**[2]

## *ALLAH DƏRGAHINA YAXINLAŞMAĞIN VƏ TƏKAMÜLÜN SƏBƏBLƏRİ*

Nəfsin təkmilləşdirilməsi və Allah dərgahına yaxınlaşmaq üçün bir neçə vasitədən istifadə etmək olar. Onların ən mühümləri aşağıdakılardır:

1.Allahı yad etmək;
2.Fəzilətlərin və əxlaqi normaların pərvəriş olunması;
3.Saleh əməl;
4.Cihad və şəhadət;
5.Allah bəndələrinə yaxşılıq və onlara xidmət;
6.Dua;
7.Oruc tutmaq.

Bu kitabda tədricən həmin məsələləri araşdırırıq.

## BİRİNCİ - ALLAHI YAD ETMƏK

Allahı yad və Onu zikr etməyi insanın batini hərəkətinin və Pərvərdigari-aləmin dərgahına yaxınlaşmasının ilk yolu hesab etmək olar. Allaha tərəf gedən insan zikr vasitəsilə tədrici olaraq maddi aləmin fövqünə çıxır, səfa və nuraniyyət aləminə qədəm qoyur, daha da kamilləşir və nəhayət Allah dərgahına yaxın bir məqama nail olur. Allahı yad etmək ibadətlərin ruhu və onların

---

[1] “Nəhl” surəsi, ayə 97
[2] “Mücadilə” surəsi, ayə 11

şəriətdə qanun halına salınmasının əsas hədəfidir. Çünki hər bir ibadətin dəyəri bəndənin Allaha nə qədər diqqət yetirməsinə bağlıdır. Ayə və rəvayətlərdə Allahı zikr etmək barəsində çoxlu tövsiyələr edilmişdir. Qur'anda buyurulur: **"Ey iman gətirənlər! Allahı çox-çox zikr edin."**[1]

**"(Əql sahibləri) o kəslərdir ki, ayaq üstə də, oturanda da, yatan zaman da Allahı yad edir, asimanların və yerin yaradılışında fikirləşirlər (və deyirlər:) Pərvərdigara, bu əzəmətli dəstgahı əbəs yerə yaratmamısan. Sən pak və münəzzəhsən. Bizi cəhənnəm odunun əzabından saxla."**[2]

**"Öz nəfsini təzkiyə edib Pərvərdigarını yad edən və namaz qılan şəxs, mütləq nicat tapacaq."**[3]

Yenə buyurulur: **"Sübh və axşam Rəbbini yad et."**[4]

**"Pərvərdigarını çox yad elə, gecə və sübh çağları Ona təsbih de."**[5] **"Namazını qıldıqdan sonra ayaq üstə, oturan yerdə və uzanan zamanda Allahı yad edin."**[6]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Hər kəs Allahı çox yad etsə, Allah onu behiştdə Öz lütf və mərhəmətinin sayəsində qərar verər."**[7]

O Həzrət (ə) öz səhabələrinə buyurdu: "**Bacardığınız qədər gecə-gündüzün bütün saatlarında Allahı yad edin, çünki, Allah sizə, Onu çox zikr etməyi əmr etmişdir. Allah, Onu yad edən hər bir mö'mini yad edir. Bilin ki, hər bir mö'min bəndə Allahı yad edirsə, Allah da onu yaxşılıqla yad edir."**[8]

İmam Cə'fər Sadiq (ə) buyurur: "Mütəal Allah Həzrət Musaya buyurdu: **«Gecə və gündüz ərzində Məni çox zikr et. Zikr deyən zaman xüşu halında, bəla nazil olanda səbirli, Məni yad edərkən xatircəm ol. Mənə ibadət et və Mənə heç bir şərik**

---

[1] "Əhzab" surəsi, ayə 9
[2] "Ali-İmran" surəsi, ayə 191
[3] "Ə"la" surəsi, ayə 15
[4] "İnsan" surəsi, ayə 25
[5] "Ali-İmran" surəsi, 41
[6] "Nisa" surəsi, ayə 103
[7] "Vəsailuş-şiə", 4-cü cild, səh. 118
[8] "Vəsailuş-şiə", 4-cü cild, səh. 118

**qoşma. Hamının qayıdacaq yeri Mənə doğrudur. Ey Musa! Məni öz ehtiyatın qərar ver, baqiyati-salihat (əbədi qalan saleh əməllər) xəzinələrini Mənim yanımda qoy.»**[1]

İmam Cə'fər Sadiq (ə) başqa hədisdə buyurur: **"Allahı zikr etməkdən başqa hər bir şeyin həddi-hüdudu vardır, Allah vacibatlar müəyyən etmişdir. Hər kəs onları yerinə yetirsə, həddi elə o qədərdir. Ramazan ayının orucu da məhduddur. Həcc də məhduddur. Bu mərasimlər yerinə yetirilməklə sona çatır. Amma Allahı zikr etməyin həddi-hüdudu yoxdur və Mütəal Allah onun az miqdarı ilə kifayətlənməmişdir.** (Sonra bu ayəni tilavət etdi:) **"Ey iman gətirənlər, Allahı çox-çox zikr edin, gecə-gündüz, sübh-axşam Ona təsbih deyin."** Mütəal Allah bu ayədə zikr üçün müəyyən bir miqdar tə'yin etməmişdir. (Sonra buyurdu:) **Atam (İmam Məhəmməd Baqir) çox zikr edən idi. Mən onunla yol gedəndə Allahı zikr edərdi. Onunla yemək yeyəndə Allahı zikr edər, hətta camaatla söhbət edən zaman belə Allahı zikr etməkdən qafil olmazdı. Görürdüm ki, dili ağzına yapışıb və "la ilahə illəllah" deyir. Sübh namazından sonra bizi bir yerə toplayıb gün çıxana qədər zikr deməyi göstəriş verirdi.** (Nəhayət sözü bura çatır:) Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Sizə əməllərin ən yaxşısının nə olduğunu xəbər verimmi ki, sizin dərəcənizi hər bir əməldən daha artıq yüksəltsin, Allahın yanında hər şeydən daha pak-pakizə və rəğbətli olsun, sizin üçün dinar və dirhəmdən daha yaxşı, hətta Allah yolunda cihad etməkdən belə fəzilətli olsun?!"** Ərz etdilər: Ey Allahın Rəsulu, buyurun! Buyurdu: **"Allahı çox zikr edin."** İmam (ə) sonra buyurdu: **Bir nəfər Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) yanına gəlib dedi: Məscid əhlinin ən yaxşısı kimdir?** Buyurdu: **«O kəsdir başqalarından daha artıq Allahı yad etsin."** Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurdu: **«Hər kəsin zikr edən dili olsa ona dünya və axirət xeyri əta olunar.»**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Əbuzərə buyurdu: **"Qur'anı oxu və Allahı çox zikr et. Çünki, sənin (Allahı) zikr etməyin sənin asimanda yad olunmağına səbəb olar və yer üzündə sənin üçün**

---

[1] "Vəsailuş-şiə", 4-cü cild, səh. 118.
[2] "Vəsailuş-şiə", 4-cü cild, səh.118

**nur olar.”**[1]

İmam Həsən (ə) Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) belə buyurduğunu nəql edir: **“Behişt bağlarına doğru (hərəkətdə) bir-birinizi ötün.” Səhabələrə ərz etdi: “Behişt bağları hansıdır?” Buyurdu: “Zikr dövrələri.”**[2]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Qafillər arasında Allahı zikr edən bir şəxs fərarilər arasında olan mücahidə bənzəyir. Belə mücahid üçün behişt vacibdir.”**[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) səhabələrinə buyurdu: **“Behişt bağlarından istifadə edin!”** Ərz etdilər: Ey Allahın Rəsulu, behişt bağları hansılardır? Buyurdu: **“Zikr məclisləri. Sübh və axşam Allaha zikr edin, hər kəs özünün Allah yanında olan məqam və mənzilətinin dəyərini bilmək istəyirsə Allahın onun nəzərində olan dərəcəsinə baxsın. Çünki Allah Öz bəndəsini o məqama çatdırar ki, bəndə Allahı həmin məqama seçmişdir. Bilin ki, Rəbbiniz yanında sizin ən yaxşı əməliniz və sizin dərəcə və məqamınızı hər şeydən daha yaxşı yüksəldən, üzərinə günəşin saçdığı şeylərdən daha yaxşı olan şey Allahı zikr etməkdir. Çünki Allah buyurmuşdur: “Mən, Məni yad edən şəxsin həmsöhbətiyəm.”**[4]

Nümunə olaraq qeyd olunan ayə və rəvayətlərdə zikrin dəyəri mə’lum olur. İndi isə zikr dedikdə məqsədin nə olduğunu araşdırırıq.

## *ZİKR DEDİKDƏ MƏQSƏD NƏDİR?*

Allahı zikr etmək böyük bir ibadət, insanın özünü qurmasında, nəfsini təkmilləşdirməsində və onun Allah dərgahına doğru seyr etməsində ən yaxşı yoldur. İndi ayə və rəvayətlərdə qeyd olunan «zikr»in mə’nasının nə olduğunu aydınlaşdırmalıyıq. Görəsən, məqsəd “sübhanallah”, “əlhəmdu lillah” və “la ilahə illəllah” kimi tələffüz olunan zikrlərdirmi, yoxsa məqsəd başqa şeydir? Bu kimi sözlər batini diqqət olmadan belə bir mühüm tə’sirə malik ola

---

1 “Biharul-ənvar”, 93-cü cild, səh.154
2 “Biharul-ənvar”, 93-cü cild, səh.156
3 “Biharul-ənvar”, 93-cü cild, səh.160
4 “Biharul-ənvar”, 93-cü cild, səh.163

bilərmi?

Lüğətdə “zikr” tələffüzdə deyilən zikrlər mə’nasında gəlmişdir. Həm də qəlbən diqqət yetirməyə və hüzuri-qəlbə də aid edilir. Hədislərdə bu iki mə’nanın hər biri işlədilmişdir. Hədisdə qeyd olunur ki, Həzrət Musa (ə) münacat edərkən belə dedi: **“Pərvərdigara, dili və qəlbi ilə Sənə ah-zar edən şəxsin mükafatı nədir?” Cavab gəldi: “Ey Musa! Onu qiyamətdə ərşin sayəsində və Öz pənahımda qərar verərəm.”**[1]

Gördüyünüz kimi bu hədisdə zikr həm dildə olan zikr, həm də qəlb vasitəsilə olan zikr mə’nasındadır. Çoxlu rəvayətlərdə də hər iki mə’nada gəlməsi qeyd olunur. Amma əksər hallarda qəlbən diqqət yetirmək və hüzuri-qəlb mə’nasına işlənib. Həqiqi və kamil zikr də bundan ibarətdir. Allahı zikr etməkdə məqsəd budur ki, Allahı ruhani bir məqamda görəsən, dünyanın batininə diqqət yetirsən, özünün hər bir hal və əməllərinə yalnız Allahı hazır və nəzarətçi görəsən. Allahı belə yad edən şəxs Onun göstərişlərinə əməl edər, vacibatı yerinə yetirər və haram işlərdən çəkinər. Buna görə də Allahı zikr etmək çox da asan deyildir. İmam Cə’fər Sadiq (ə) buyurur: **“Hər bir kəsin əlindən gəlməyən ən çətin üç əməl var: 1.İnsanlarla özün-özünlə olduğun kimi insafla davranmaq. Yə’ni, özün üçün bəyəndiyin şeyləri onlar üçün də bəyənəsən. 2.Var-dövlət yolunda mö’minlə bərabər olasan. (Yə’ni olduğunu onlarla paylaşasan). 3.Bütün vəziyyət və hallarda Allahı yad etməkdə məqsəd “sübhanallahi vəlhəmdu lillahi vəla ilahə illəllahu vəllahu əkbər” demək deyil. Bu mə’nadadır ki, vacib bir iş irəli gələrsə onu yerinə yetirəsən, haram iş qarşıya çıxdıqda onu tərk edəsən.”**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Əmirəl-mö’minin Əliyyibni Əbitalibə (ə) buyurdu: **“Üç şey mənim ümmətimin imkanı xəricindədir (yə’ni, onlara çox çətindir): 1.Mal-dövləti mö’min qardaşlarla paylaşmaq (və onlarla bu sahədə bərabər olmaq). 2.Özün üçün istədiyini camaat üçün də istəyib, özün üçün bəyənmədiyini onlar üçün də bəyənməmək. 3.Hər vaxt və bütün hallarda Allahı zikr etmək. Zikr dedikdə məqsəd təkcə “sübhanəllah”, “vəlhəmdu lillah”, “la ilahə illəllah”, “əllahu**

---

[1] “Biharul-ənvar”, 93-cü cild, səh.156

[2] “Biharul-ənvar”, 93-cü cild, səh.151

**əkbər" kəlmələri deyil. Əksinə, həqiqi zikr bundan ibarətdir ki, haram bir iş qarşıya gəldikdə Allahı yad edərək Ondan qorxub həmin işi tərk edəsən."**[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Subhan Allaha səhv və qəflət üzündən zikr demə və Onu unutma. Allaha kamil zikr de. Belə ki, qəlbinlə dilin bir-birilə uyğun olsun, batinin zahirinlə uyğun gəlsin. Allahı yalnız o halda həqiqi zikr edərsən ki, zikr halında özünü unudasan və işi yerinə yetirərkən özünü görməyəsən."**[2]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Hər kəs Allahı doğrudan yad etsə Ona müt'i olacaqdır. Hər kəs Allahdan qafil olsa günaha mürtəkib olar. Allaha itaət etmək hidayət, günaha düşmək azğınlıq əlamətidir. Zikr itaətin, qəflət isə günahın mənşəyidir. Belə isə öz qəlbini qiblə qərar ver. Dilini yalnız qəlbinin göstərişləri, əqlinin müvafiqliyi və imanın razılığı ilə hərəkət etdir. Çünki Allah sənin zahir və batininə agahdır. O kəs kimi ol ki, ruhu qəbz olunma halındadır, yaxud əməllərin hesabını vermək üçün Allahın hüzurunda dayanmışdır. Öz nəfsini özün üçün mühüm olan ilahi təkliflər, yə'ni əmr və nəhylərin yerinə yetirilməsi, və"d və qorxutmalardan başqa şeylə məşğul etmə. Hüzn suyu ilə qəlbini yuyub pakla. Allah səni yad etdiyi üçün, sən də Onu yad et, çünki O səndən ehtiyacsız olduğu halda səni yad edir. Deməli, Allahın səni yad etməsi sənin Onu yad etməyindən daha dəyərli, ləzzətli, kamil və sabit olacaqdır. Sənin Allah zikri ilə tanış olmağın Onun müqabilində xüzulu, həyalı olmağına və bəndəlik etməyinə, nəticədə Onun sabiq fəzl və mərhəmətini müşahidə etməyinə səbəb olacaqdır. Bu zaman sənin itaətlərin çox olsa da belə, Allahın əta etdiyi ne'mətlər müqabilində kiçik və əhəmiyyətsiz olacaqdır. Belə isə əməllərini yalnız Allah üçün yerinə yetir. Əgər öz zikrini (böyük) hesab etsən riyakarlığa, xudbinliyə, cəhalətə, camaatla kobud xasiyyətli olmağa, ibadətləri böyük hesab etməyə, Allahın kərəm və mərhəmətindən qafil olmağa səbəb olar. Belə zikrin Allahdan uzaq olmaqdan başqa bir faydası olmaz, dövranın keçməsilə qəm-qüssədən və vəhşətdən başqa bir tə'siri olmaz.**

[1] "Biharul-ənvar", 93-cü cild, səh.151
[2] "Ğurərul-hikəm", səh.817

**Allahı zikr etmək iki cürdür: biri xalis zikrdir və qəlb onunla uyğundur. Digəri isə Allahdan başqasının yadını inkar edən zikrdir. Belə ki, Rəsuli Əkrəm (s.ə.v.v) buyurur: (Pərvərdigara,) Mən Səni layiqincə məhd edə bilmirəm, Sən elə Özünü tə'riflədiyin kimisən." Deməli, hətta Allahın Rəsulu da öz zikri üçün heç bir dəyər görmür. Çünki bu mətləbə diqqət yetirmişdir ki, Allahın Öz bəndəsini zikr etməsi bəndənin Onu zikr etməsindən irəlidir. Rəsuli-Əkrəmdən (s.ə.v.v.) aşağı mərtəbədə olanlar isə öz zikrlərini əhəmiyyətsiz hesab etməyə daha layiqlidirlər. Allahı zikr etmək istəyən bir şəxs bilməlidir ki, Allah Öz bəndəsini yad etməyincə, ona müvəffəqiyyət və tövfiq verməyincə bəndə Onu zikr etməyə qadir olmaz."**[1]

Gördüyünüz kimi, bu hədislərdə qəlbən diqqət yetirmək və batini hüzur zikrin nümunəsi kimi təqdim olunmuşdur. Özü də, onlar qəlbdən keçən xəyallar və tə'sirsiz zehni təsəvvürlər kimi deyil, əksinə elə batini və tə'sirli hüzurdur ki, Allahın əmr və nəhylərinə əməl etmək onun nişanələri kimi tanınmışdır. Lakin bu sözdən "**la ilahə illəllah**", **"subhanəllah", "vəlhəmdu lillah"** kimi tələffüz olunan zikrlərin zikrin həqiqi nümunələri olmaması təsəvvür olunmamalıdır. Əksinə, bu kəlmələrin özü də Allahı zikr (yad) etməyin müəyyən mərtəbələridir. Bundan əlavə, tələffüzdə olan bu zikrlərin mənşəyi qəlbdir. Dildə bu zikrləri deyən şəxs qəlbən də (az olsa belə) bu sözləri dediyinə diqqət yetirir ki, İslam nəzərindən bu kəlmələrin, zikrlərin dildə deyilməsi, oxunması belə, bəyəniləndir, onların savabı vardır, amma bu şərtlə ki, Allaha yaxınlaşmaq qəsdi ilə deyilmiş olsun. Belə ki, namazın zahiri də həmin hərəkət və kəlmələrdən ibarətdir ki, biz eynilə bunları yerinə yetirməyə vəzifəliyik. Amma buna baxmayaraq, yenə də, hüzuri-qəlb namazın məğzi, ruhudur.

## *ZİKRİN MƏRTƏBƏLƏRİ*

Zikrin müxtəlif dərəcə və mərtəbələri vardır: onun ən ibtidai və ilkin mərhələsi dildə tələffüz edilən zikrdən başlayır, kamil şühud və fəna məqamına qədər davam edir. **İlk mərhələdə** zikr edən şəxs qəlbən Allaha diqqət yetirdiyinə görə məxsus zikrləri qürbət qəsdilə dildə təkrar edir, amma onların mə'nasına diqqət yetirmir. **İkinci**

[1] "Biharul-ənvar", 93-cü cild, səh.158

**mərhələdə** zikrləri qürbət qəsdilə deyir və həmin halda onların mə'nasını da zehnində canlandırır. **Üçüncü mərhələdə** isə dil qəlbə tabe olub zikr deyir; qəlb Allaha diqqət yetirdiyindən və zatının batinində zikrin mə'na və məfhumlarına iman bəslədiyindən qəlb dilə zikr etmək fərmanı verir. **Dördüncü mərhələdə** Allah yolunun yolçuları Pərvərdigari-aləm qarşısında tam batini ilə hüzuri-qəlbə malikdir, diqqəti kamil həddədir, hər bir halda Onu özünə hazır və nəzarətçi görür. Bu məqamda olan insanların da vəziyyəti bir-birindən fərqlənir. Onların kamili və daha kamili vardır. Nəzər-diqqətlərini Allahdan qeyrilərindən nə qədər kəssələr həmin miqdarda da Allahla ünsiyyət bağlayır, Ona məhəbbət göstərir və nəhayət kamil şühud və fəna məqamına çatırlar.

Ən yüksək mərtəbə olan bu məqamda Allaha yaxınlaşmaqda olan bəndə dünyəvi hicabları parçalayıb məcazi və qeyri-həqiqi olan məhəbbətləri qəlbindən çıxarır, xeyirlərin və kamalların həqiqi mənbəyinə qovuşur. Hər bir şeyi – hətta öz nəfsini belə buraxıb Allaha müraciət edir. Ümidini Allahdan başqalarından üzüb yalnız Ona məhəbbət bəsləyir, Ondan başqa heç bir kamal görmür ki, ona ürək bağlasın, Ondan başqa heç bir munis tapmır ki, onunla ünsiyyət saxlasın. Allahın belə xalis bəndələri əzəmət, cəlal, kamal, xeyir və nur mə'dəninə yol tapmışlar. Onlar batin (bəsirət) gözləri ilə Allahın camalının nurunu müşahidə edir, hətta bir an belə dünyanın məcazi varlıqlarına diqqət yetirmir, onlara ürək bağlamırlar. Onlar kamal mənbəyinə çatdıqlarından məcazi və şərti olan kamallar onların nəzərində dəyərsiz olur. Allahla görüşə olan eşq-məhəbbətdə yanır, bu ləzzəti dünyaya dəyişmirlər. Gördükləri dünya varlıqlarının hamısını Allahın camal nurunun bir şüası, Onun kamil vücudundan bir nişanə hesab edirlər.

Bir nəfər Əmirəl-mö'minin Əliyyibni Əbitalibdən (ə) soruşdu: "Allahı görmüsənmi?" Buyurdu: "Vay olsun sənə! Mən görmədiyim Allaha ibadət etmərəm." Soruşdu: "Allahı necə görmüsən?" Buyurdu: "Vay olsun sənə! Allahı zahiri gözlərlə görmək olmaz, lakin Onu iman həqiqəti ilə müşahidə edərlər."[1]

İmam Hüseyn (ə) "Ərəfə" duasında belə deyir: ***"Pərvərdigara, Sənin varlığını isbat etmək üçün özü Sənə ehtiyaclı olan bir şeyə necə istinad oluna bilər?! Sən nə vaxt gözlərdən qaib olmusan ki, (Səni isbat etmək üçün) dəlilə ehtiyac duyulsun?! Nə vaxt uzaq***

---

[1] "Həqaiq", səh.179

***olmusan ki, əsərlər və əlamətlər Sənə çatmağa səbəb olsun?! Kor olsun o gözlər ki, Səni özünə nəzarətçi görməyir! Necə ziyankardır o bəndə ki, Öz məhəbbətindən ona heç bir pay verməmisən.”***

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) “Şə’baniyyə” münacatında deyir: *“Pərvərdigara, Sənə doğru gələn yolu kamil surətdə qət etməyi mənə əta et (yə’ni, Sənə qovuşmağı). Bizim qəlb gözlərimizi Sənin camalını müşahidə etmək nuru ilə işıqlandır ki, qəlblərin bəsirət gözləri nur hicablarını yarsın, əzəmət mə”dəninə nail olsun və bizim ruhlarımız Sənin müqəddəs məqamına qovuşsun.”*

İmam Səccad (ə) Allahın belə xalis bəndələrinin münacatları barəsində buyurur: **“Pərvərdigara, dillər Sənin cəlalına layiq olacaq həmd-səna və tə’rifi bəyan etməkdə qüsurlu, ağıllar Sənin camalının zatını dərk etməkdə və gözlər Sənin camal nurlarını görməkdə acizdir. Sən mə’rifət məqamına çatmaqda bəndələrin üçün acizlik izhar etməkdən başqa bir yol qoymamısan. Pərvərdigara, bizi o bəndələrindən qərar ver ki, Səninlə görüş şövqünün pöhrələrini onların qəlblərində əkmisən, Sənə eşq-məhəbbət yanğısı onların qəlblərinin hər yerini bürüyübdür. Onlar ali fikirlərə doğru hərəkət edir, qürb və şühud məqamının bağlarındakı (mə”nəvi) ne’mətlərdən bəhrələnirlər. Pərvərdigarının sözündə: Məhəbbət mənbəyinin lütf camlarından içir, səfa və məhəbbət arxlarına varid olurlar. Onların (batini) gözlərindən pərdələr götürülmüş, batini əqidələrindən şəklər və zülmətlər aradan qalxmış, qəlblərindən şəkk çirkabları aradan getmişdir. Mə’rifət vasitəsilə qəlbləri genişlənmişdir, zöhd müsabiqəsində himmətləri yüksəlmişdir, Allah ilə müamilədə ürəyə yatan içməliləri vardır, Allah ilə üns məclisində batinləri pak-pakizədir, qorxulu yerlərdə əmin-amanlıq yolundan faydalanırlar. Pərvərdigara tərəf qayıtmaqda (müraciət etməkdə) xatircəm nəfsə malikdirlər, səadət və qurtuluş yolunda yəqin mərhələsinə çatmışlar, öz məhbublarını müşahidə etməklə gözləri aydın olmuşdur, istədikləri şeyə nail olduqlarına görə batini aramlığa malikdirlər, dünyanı axirətlə müamilə etməkdə qazanc əldə ediblər.**

**Pərvərdigara! Səni zikr etməklə ilham xatirələri qəlblərə**

**necə də ləzzət verir! Qeyb yolunda təfəkkür etmək vasitəsilə Sənin dərgahına doğru seyr etmək nə qədər şirindir! Sənin məhəbbətinin dadı nə qədər ləzzətlidir! Sənin dərgahına yaxınlıq suyu içmək necə də ürəyə yatımlı və ləzzətlidir! Belə isə, bizi (Sənin dərgahından) uzaqlıqdan və qovulmaqdan qurtarıb pənah ver, bizi ariflərin ən məxsusundan, bəndələrin ən salehlərindən, itaət edənlərin ən sadiqlərindən, ibadət edənlərin ən xalislərindən qərar ver! Ey əzəmət və cəlal sahibi, ey kərim və ehsan sahibi olan Allah, Səni and verirəm rəhmət və ne'mətlərinə, ey rəhm edənlərin ən rəhimlisi!"**[1]

Bir sözlə, dördüncü məqam çox yüksək bir mərhələdir və onun da özünə görə müəyyən məqam və dərəcələri vardır ki, Vacibul-vücudun Müqəddəs Zatına, sonsuz camal və kamala, yə'ni, sonsuzluğa qədər davam edir. Bu, Allaha arif olanların dilində zikr məqamı, üns məqamı, inqita (Allaha tərəf gedən yolu qət etmə) məqamı, məhəbbət məqamı, şövq məqamı, riza məqamı, xovf məqamı, şühud məqamı, eynul-yəqin məqamı, həqqul-yəqin məqamı və nəhayət fəna məqamı və bəqa-billah məqamı adlandırılır. Bu kimi ifadələr əksər hallarda ayə və hədislərdən əxz edilmiş və onların hər birinə ad qoyulmasının da müəyyən bir səbəbi vardır. Məsələn, irfan yolunu seyr edən bir şəxs Vacibul-vücud zatının sonsuz kamal, camal və əzəmətinə diqqət yetirdikdə, Onun məhəbbət, işraq və nuraniyyətini nəzərə aldıqda, özünün sonsuz qüsurlarına diqqət yetirdikdə, o yüksək məqama çatmaq üçün məsafənin çoxluğunu anladıqda onun üçün yandırıcı eşq (şövq) yaranır, buna görə də "**şövq məqamı"** adlandırılır. Özünün nail olduğu məqam, dərəcə və kamallara baxdığı zaman həmin şühudlarla ünsiyyətdə tutub sevindiyi üçün **"üns məqamı"** adlandırılır.

Mütəal Allahın sonsuz kamal, camal və əzəmətinə diqqət yetirdiyinə, özünün isə sonsuz zəiflik, acizlik və qüsurlarını anladıqda qəlbi lərzəyə gəlir, kədərlənir, xovf və qorxu onun bütün vücudunu bürüyür, ağlayıb ah-nalə edir. Buna görə də həmin məqam **"xovf məqamı"** adlandırılır. Sair məqamalarda eynilə bu cürdür.

Yaxşı olar ki, həvayi-nəfsin əlində əsir, maddiyyat zülmətlərində

---

[1] "Biharul-ənvar", 94-cü cild, səh.150æ "Münacatul-arifin"

məhbus və mə'nəvi məqamlara çatmaqdan məhrum olan bəndə (müəllif təvazökarlıq edərək özünü belə adlandırır – red.) bu sonsuz və ənginliyi mə'lum olmayan dəryalara qədəm qoymasın, belə ali və yüksək məqamların şərh olunmasını öz əhlinə həvalə etsin. Çünki bir kəs Allahla üns, məhəbbət və görüşün ləzzətini dadmayınca onları şərh etməkdən aciz olar. **"Uhibbussalihinə və ləstu minhum" (Zərbi-məsəl: Salehləri sevirəm, amma özüm onlardan deyiləm.)** Pərvərdigara, Sənə zikr etməyin şirinliyini bizə dadızdır və bizi zikr əhlindən qərar ver!

Yaxşı olar ki, bu sözləri öz əhlindən eşidək. Böyük filosof, rəbbani arif Sədrəddin Şirazi yazır: «*Əgər ilahi rəhmət nurlarından biri bəndənin halına şamil olsa cəhalətdən və təbiət yuxusundan ayılar və bilər ki, hiss olunan aləmin fövqündə digər bir aləm, heyvani ləzzətlərdən yüksəkdə daha böyük ləzzətlər vardır. Bu zaman batil və dəyərsiz işlər görməkdən və günahlara mürtəkib olmaqdan tövbə edib Allah dərgahına qayıdar. Bu zaman Allahın ayələrində dərindən diqqət yetirməyə, ilahi movizələri dinləməyə, əziz Peyğəmbərin (s.ə.v.v) hədisləri üzərində düşünməyə və şəriətin tələbinə uyğun əməl etməyə başlayır, axirətin kamal mərhələlərinə çatmaq üçün dünyanın çirkin işlərindən, o cümlədən cah-cəlal, mal-dövlət və sair kimi şeylərdən əl çəkir. Əgər ilahi mərhəmətlər ona daha artıq şamil olarsa, ciddi şəkildə qərara alacaq ki, Allahdan başqa hər bir şeydən göz yumsun, yalnız Ona doğru hərəkət etsin, nəfs vətənindən, həva-həvəs məqamından çıxıb Allah dərgahına doğru seyr etsin. Bu halda mələkut nurlarından bir şüa onun üçün aşkar olar, qeyb aləmindən onun üzünə bir qapı açılar, tədricən qüds aləmindən başqa səhifələr bunun üçün görünməyə başlayar. Qeybi işləri misal qalibində müşahidə edər, qeybi işlərin müşahidə olunması ləzzətini daddıqdan sonra xəlvətə, guşənişinliyə, zikri davam etdirməyə meyle edər, qəlbi maddi işlərə məşğuliyyətlərdən təmizlənir və bütün varlığı ilə Allaha diqqət yetirər. Bu zaman lədünni elmlər (heç bir müəllimə ehtiyac olmadan Allah tərəfindən verilən elm) tədrici olaraq ona verilir və mə'nəvi nurlar vaxtaşırı onun üçün zahir olar. Nəhayət tam şəkildə gerçəkləşdikdən sonra haldan-hala düşmək, dəyişilmək (xisləti) onun daxilində məhv olub aradan gedir, qəlbinə aramlıq, xatircəmlik nazil olur. Bu zaman cəbərut aləminə varid olub, müfariqə (maddi aləmdən fərqli olan) əqlləri müşahidə edir,*

*onların nurlarına qovuşub nurani olur. Bu halda Zati-Əhədiyyətin səltənət, əzəmət və kibriya nuru onun üçün aşkar olur, vücudu "həbaən mənsura" olur – pərakəndə vəziyyətə düşüb, sultani əhədiyyətin cəlal və əzəməti müqabilində süqut edir. Buna* ***"tövhid məqamı"*** *deyilir ki, Allahdan başqa hər bir şey belə şəxsin nəzərində həlak olub aradan gedir və "bu gün hökm kimə məxsusdur?! Qəhhar və Vahid olan Allaha" nidasını dinləyir.»*[1]

Rəbbani arif mərhum Kaşani yazır: «Allah məhəbbətinə nail olub onu qüvvətləndirmək və liqaullaha (Allaha qovuşmağa) yetişmək iste'dadını əldə etmək üçün mə'rifət əldə edib onu qüvvətləndirmək lazımdır. Mə'rifət əldə etməyin yolu da yalnız qəlbi dünyəvi işlərdən, maddi məhəbbətlərdən paklaşdırmaq, fikir, zikr və Allahdan başqasının məhəbbətini qəlbdən çıxarmaq vasitəsilə hər bir şeydən əl üzüb Allaha diqqət yetirməkdir. Çünki qəlb bir qaba bənzəyir. Əgər su ilə dolsa artıq onda sirkəyə yer yoxdur, sirkə doldurmaq üçün onu boşaltmaq lazımdır ki, sirkəni qəbul edə bilsin. Allah heç kəs üçün iki qəlb yaratmamışdır. Məhəbbət Allahı bütün qəlblə sevməklə kamil olur. Allahdan başqasına diqqət yetirdiyin qədər qəlbinin bir guşəsi Allahdan qeyrisinə məşğul olur. İnsan Allahdan başqasına məşğul olduğu miqdarda Ona məhəbbəti azalır. Amma onun Allahdan başqasına olan nəzəri Allahın işi, Onun yaratdığı, ilahi sifət və isimlərin təzahürü olduğuna görə olsa, o zaman bu, başqa məsələ.

Allah-təala Qur'anda məhz həmin məsələyə işarə edərək buyurur: **"Qulillahu summə zərhum – De: Allah! Sonra onlardan uzaqlaş."** Bu halət şövqün qələbəsi nəticəsində hasil olur. Belə ki, insan onun üçün aşkar olan şeylərin daha da aşkar olmasına, hələ hasil olmayan şeylərə doğru isə şövqlü olmağa çalışmalıdır. Çünki şövq həmişə o şeyə aid olur ki, müəyyən bir cəhətdən dərk olunsun, digər cəhətlərdən isə dərk olunmasın. Bu zaman daim iki iş arasında qərarlaşacaqdır ki, onların heç birinin axırı görünmür. Çünki hasil olmuş şeylər üçün aşkarlıq dərəcəsi və mərtəbələrin sonu yoxdur. Həmçinin yerdə qalanlar üçün də – Allahın cəmal və cəlalının da sahili yoxdur. Əksinə, vüsalın hasil olması ilə belə, yenə də ləzzət bəxş edən bir şövqü hiss edir ki, onda heç bir qəm-qüssəyə yol yoxdur. Deməli, şövq heç vaxt sükunətdə qalmır, xüsusilə ondan yuxarıda müşahidə etdiyi çoxlu dərəcələrdə. ***"Onların nurları qarşılarında o tərəfə bu tərəfə***

---

[1] "Məfatihul-qeyb", səh.54

***doğru hərəkət edir və "Pərvərdigara, bizim nurumuzu tamamla!" - deyirlər."***[1]

## *ZİKRİN VƏ MƏ'NƏVI GÖRÜŞÜN ƏLAMƏTLƏRİ*

Əvvəldə deyildiyi kimi zikr, şühud və liqa batini bir məqam, həqiqi mə'nada mə"nəvi-ruhani bir təkamüldür. İnsan bu məqamda doğrudan da əvvəllər çatmadığı vücudi bir mərtəbəyə çatır. Əgər *"şühud məqamı, onun gerçəkliyi və həqiqəti vardır"*, həmçinin, *"üns məqamı, riza məqamı, məhəbbət məqamı, şövq məqamı, vüsal məqamı, liqa məqamı məcazi mə'na deyildir, əksinə, həqiqəti vardır"* deyilsə, deməli, qeyd olunan məqamların hər biri bir mərtəbə və həqiqi vücud dərəcəsidir və təbii olaraq, onunla yeni əsər və əlamətlərə malik olmalıdır ki, həmin kamalın varlığı onun əlamətlərinin mövcudluğu ilə tanınır.

Burada onun təsirlərindən bir neçəsini qeyd edirik.

**1.Allaha itaət etməkdən ötrü öhdəçilik daşımaq**.

Əgər bir şəxs o məqama çatsa və öz zatının batinində Allahı müşahidə etsə, özünü onun hüzurunda görsə, şübhəsiz ki, onun əmr və göstərişlərinə itaət edəcək, əmr etdiyi şeyləri yerinə yetirəcək, qadağan etdiyi şeyləri tərk edəcəkdir. Bir kəs o məqama çatıb-çatmadığını bilmək istəsə, gərək Allahın əmr və nəhyləri qarşısında nə qədər məs'uliyyət hissi keçirdiyinə nəzər salsın. Bu halda həmin məs'uliyyət hissinə əsasən həmin məqama nə dərəcədə yiyələndiyini müəyyən edə bilər. Mümkündür ki, insan şühud və üns məqamına çatsın, lakin, Mütəal Allahın əmr və nəhyləri qarşısında kamil şəkildə öhdəçilik daşımasın. İmam Cə'fər Sadiq (ə) zikr barəsində belə buyurur: ***"Zikr bu mə'nadadır ki, Allahın əmr etdiyi bir şeylə qarşılaşdığın zaman onu yerinə yetirəsən, qadağan etdiyi bir şeylə qarşılaşdığın zaman isə ondan çəkinəsən."***[2]

İmam Hüseyn (ə) "Ərəfə" duasında belə deyir: ***"Ey o Allah ki, Səninlə ünsün şirinliyini Öz dostlarına dadızdırmısan. Onlar da öz növbəsində ibadət üçün Sənin müqabilində dayanır, Sənin qarşında müt'i olub Sənə sitayiş edirlər. Ey o kəs ki, heybət libasını Öz övliyalarına geyindirmisən ki, Sənin hüzurunda***

---

[1] "Həqaiq", səh.181

[2] "Biharul-ənvar", 93-cü cild, səh.255

***dayanıb istiğfar etsinlər.”***

Allah-təala Qur’anda belə buyurur: ***“Onlara de: Əgər doğrudan da Allahı sevirsinizsə, mənə itaət edin ki, Allah da sizi özünə dost bilib sevsin.”***[1]

İmam Cə’fər Sadiq (ə) buyurur: ***“Hər kəs doğrudan da Allaha zikr edən olsa, Ona müt’i olacaqdır. Hər kəs də ki, qafil olsa günahkar olacaqdır.”***[2]

**2.Xüzu və bəndəlik.**

Bir kəs Allahın əzəmət və mərhəmətini müşahidə etsə, şübhəsiz, Onun müqabilində müt’i olub onda xüzu’ halı formalaşacaq, öz qüsur və zəifliyindən xəcalət çəkib başını aşağı dikəcəkdir. İmam Cə’fər Sadiq (ə) buyurur: ***“Sənin Allahın hüzurunda olmağını dərk etməyin sənin xüzu halında olub həya və xəcalət hissi keçirməyinə səbəb olacaqdır.”***[3]

**3.İbadətə eşq.**

Şühud məqamına çatmağın əlamətlərindən biri ibadətə şiddətlə məhəbbət göstərmək və ondan ləzzət almaqdır. Çünki bir kəs Allahın əzəmət və qüdrətini dərk edib, özünü Pərvərdigari-aləmin əzəmət və kamal mənbəyinin müqabilində görsə, o zaman münacat, üns və raz-niyazın ləzzətini hər şeydən artıq sevəcəkdir. Mə’nəvi ləzzətlərdən məhrum olan bir şəxs məcazi və ötəri ləzzətlərə – həqiqətdə qəm-qüssənin dəf edilməsindən ibarət olan ləzzətlərə ürək bağlayır. Amma Pərvərdigarla münacat və Ona ibadət etməyin həqiqi ləzzətini dadan bir şəxs özünün bu gözəl vəziyyətini heç bir (maddi) ləzzətlə dəyişməz. Belə xalis bəndələr Allaha Onun savablarına göz dikib, cəzalandırılmasından qorxduqlarına görə deyil, məhz Onun pərəstişə layiq olduğuna görə ibadət edirlər.

Bu barədə Peyğəmbəri-Əkrəmin (s.ə.v.v), Həzrət Əmirəl-mö’minin Əliyyibni Əbitalibin (ə), imam Səccad (ə) və sair imamların (ə) ibadətlə əlaqədar keçirdikləri ruhi vəziyyətlər barədə müəyyən mətləbləri eşitmisiniz.

**4.Aramlıq və xatircəmlik.**

Dünya əzab-əziyyətə düşmək, qəm-qüssəyə düçar olmaq yeridir. Dünyanın çətinlikləri ümumiyyətlə üç qismə bölünür:

---

[1] “Ali İmran” surəsi, ayə:31

[2] “Biharul-ənvar”, 93-cü cild, səh.158

[3] “Biharul-ənvar”, 93-cü cild, səh.158

1.Müxtəlif müsibətlər, o cümlədən insanın özünün, qohum-əqrəbasının xəstələnməsi, özünün və ona aid olan şəxslərin ölməsi, başqalarının ona zülm etməsi, haqqını tapdalaması, yaramaz sözlər danışıb maneçilik törətməsi və s.

2.İnsanın bir daha əldə edə bilmədiyi dünyəvi işlərin əldən getməsi nəticəsində yaranan narahatçılıq və həsrət.

3.İxtiyarında olan şeylərin əldən verilməsindən qorxmaq. Məsələn, mal-dövlətin oğurlanıb tələf edilməsindən, müəyyən hadisələr nəticəsində əziz övladını əldən verməsindən, xəstələnəcəyindən, özünün öləcəyindən və s.-dən qorxması kimi. Bu kimi işlər əksər hallarda insanın asayişini və aramlığını əlindən alır. Hamısının da mənşəyi dünyaya məhəbbət bağlayıb Allahın zikrindən qafil olmaqdır. Qur'anda buyurulur: ***"Hər kəs Bizim zikrimizdən üz döndərsə ona məişət və yaşayışı çətinləşər."***[1]

Amma bütün kamalların və xeyirlərin mənşəyinə çatan, sonsuz camal və kamalı müşahidə edən Allahın xalis bəndələri Onunla zikrdən və ünsiyyətdən sevinc hissi keçirir, heç bir qəm-qüssəyə düçar olmurlar. Allaha malik olduqlarından hər bir şeyləri vardır. Dünya və onun işlərinə ürək bağlamamışlar ki, onlar olmadıqda qəm-qüssədə, qorxuda olsunlar. Kamalların və xeyirlərin mənbəyinə ürək bağlamışlar ki, onda hər bir kamal vardır.

İmam Hüseyn (ə) "Ərəfə" duasında deyir: **"Pərvərdigara, Səndən başqa şeyləri Öz övliyalarının qəlblərindən çıxardan yalnız Sənsən. Onlar Səndən başqa heç kəsi sevmir, Səndən başqasına pənah aparmırlar. Qorxulu hadisələr (hər tərəfdən) hücum edən zaman Sən onların həmdəmisən. Onlar üçün hasil olan mə'rifət də yalnız Sənin hidayətin nəticəsindədir. Səni tapmayan şəxs nəyi tapacaqdır? Səni tapan şəxs nəyi itirmiş olacaqdır? Bundan da böyük ziyankarlıq ola bilərmi ki, bir şəxs Sənin əvəzinə başqasını (mə"bud) seçsin?! Necə də bədbəxtdir, o kəs ki, Sənin əvəzinə başqasına müraciət edib! İnsan Səndən başqasına necə ümid bağlaya bilər. Halbuki, Sənin yaxşılıqların ondan kəsilmir? Öz hacətlərini Səndən başqasından necə istəyə bilər, halbuki, Sən Öz ehsan adətini dəyişdirməmisən!"**[2]

Hər bir halda, üns məqamına çatmağın əlamətlərindən biri

---

[1] "Taha" surəsi, ayə:111

[2] "Ərəfə" duası

insanın qəlbən aramlığı, xatircəmliyidir. Ümumiyyətlə, Allahın zikrindən başqa heç bir şey həyatın təlatümlü bəlaları arasında insanın qəlbinə aramlıq bağışlaya bilməz. Allah-təala Qur’anda buyurur: **“İman gətirənlər və qəlbləri Allahın zikri ilə aramlıq tapanlar... Agah olun ki, qəlblər yalnız Allahın zikri ilə aramlıq tapar.”**[1]

İnsan nə qədər güclü imana malik olsa, bir o qədər də artıq xatircəm olacaqdır.

**5.Allahın bəndəyə diqqət yetirməsi.**

Bəndə Allahı yad etdiyi zaman Mütəal Allah da qarşılıqlı olaraq Öz bəndəsini diqqət mərkəzində saxlayır. Bu mətləb ayə və rəvayətlərdən aydın olur. Allah-təala Qur’anda buyurur: **“Məni yad edin ki, Mən də sizi yad edim.”**[2]

İmam Cə’fər Sadiq (ə) buyurur: “Mütəal Allah buyurur: **«Ey Adəm övladı! Məni öz qəlbində yad et ki, (Mən də) səni yad edim. Ey Adəm övladı! Məni xəlvətdə yad et ki, Mən də səni xəlvətdə yad edim. Ey Adəm övladı! Məni cəmiyyət içində yad et ki, Mən də səni, sənin cəmiyyətindən də yaxşı olan bir cəmiyyətdə yad edim.»** (İmam (ə) sonra əlavə etdi:) **Hər hansı bəndə Allahı camaat arasında yad etsə, Allah da onu mələikələrin arasında yad edər.”**[3]

Allahın bəndəyə olan lütf, mərhəmət və diqqəti şərti və e’tibari bir iş deyil. Onun gerçəkliyi vardır və onu aşağıdakı iki yoldan biri ilə izah etmək olar:

1-Bəndə Allahı yad edir və bu yollarda Allahın rəhmətini qəbul etməyə hazır olur, Mütəal Allah da ona kamal əta edib dərəcəsini yüksəldir.

2-Zikr edən bəndə Allahı yad və Onun dərgahına doğru hərəkət edən zaman Allahın lütf və mərhəmətinə layiq görülür. Bu da onu daha yüksək mərtəbələrə cəzb edir, qəlbinin idarə olunmasını öhdəsinə alır.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Mütəal Allah buyurur: «Bəndəni Mənə diqqət yetirib Mənə məşğul olduğu halda gördükdə onu münacata, (Məndən) istəməyə məşğul edirəm. Bə’zən ona qəflət baş vermək istədikdə onun (qəflətin) baş**

---

[1] “Rə”d” surəsi, ayə:27
[2] “Bəqərə” surəsi, ayə:152
[3] “Vəsailuş-şiə”, 4-cü cild, səh.118

**vermәsinin qarşısını alıram. Bunlar da Mәnim hәqiqi övliyalarım, dostlarımdır. Bunlar hәqiqi şücaәtlilәrdir. Әgәr yer әhlini hәlak etmәk istәsәm, mәhz onların bәrәkәtinә әzabı yer üzünün әhalisindәn dәf edirәm.»”**[1]

Allahın Onu zikr edәn bәndәsinә diqqәt yetirmәsi zahiri bir iş deyildir. Әksinә, bunun hәqiqәti vardır vә yuxarıda qeyd olunan iki mәsәlә ilә izah olunur ki, әlbәttә, hәr ikisinin dә mövcud olması mümkündür.

**6.Allahın bәndәyә mәhәbbәti.**

Zikrin әlamәt vә nәticәlәrindәn biri Allahın (zikr edәn) bәndәsini sevmәsidir. Qur’an ayәlәrindәn vә hәdislәrdәn mә’lum olur ki, bәndә Allahı yad edәrkәn, Onun vә Peyğәmbәrinin göstәrişlәrinә itaәt edәrkәn Mütәal Allah da qarşılıqlı olaraq onu sevir. Qur’anda buyurulur: **“Camaata de, әgәr doğrudan da Allahı sevirsinizsә mәnә itaәt edin, Allah da sizi sevsin.”**[2]

İmam Cә’fәr Sadiq (ә) Peyğәmbәri-Әkrәmin (s.ә.v.v) belә buyurduğunu nәql edir: **“Hәr kәs Allahı çox zikr etsә Allah tәrәfindәn mәhәbbәtә layiq görülәr. Hәr kәs dә Allahı çox yad etsә onun әmәl dәftәrindә belә yazılar: «Bu bәndә Cәhәnnәm vә nifaqdan azaddır.”**[3]

Allahın Öz bәndәsinә mәhәbbәt bәslәmәsi nә e’tibari vә nә şәrti bir iş, nә dә ki, insanın insana mәhәbbәt bәslәmәsi kimi deyildir. İnsanın insana mәhәbbәti qәlbi vurğunluq, bağlılıqdan ibarәtdir vә ona ehtiyacdan irәli gәlir. Lakin Allahın mәhәbbәt bәslәmәsini bu cür mә’nalandırmaq düzgün deyildir.

Allahın bir bәndәni sevmәsini belә izah etmәk olar: O Öz bәndәsinә daha artıq lütf vә mәrhәmәt göstәrir, ibadәt, diqqәt vә ixlas üçün müvәffәqiyyәt verir, bununla da onu yüksәk dәrәcәlәrә, kamala doğru aparır. Bәndәsini çox istәdiyinә, onun raz-niyaz sәsini eşitmәk istәdiyinә görә onu namaz, zikr vә münacata sövq edir. Onun Öz dәrgahına yaxınlaşmasını istәdiyi üçün onun üçün kamala yetmә vasitәlәri hazırlayır. Bir sözlә, Allah bәndәni sevdiyi üçün onun qәlbinin idarә olunmasını öz ixtiyarına keçirir. Onu qürb mәqamına doğru daha yaxşı vә daha sür’әtlә hәrәkәt etmәkdәn ötrü müyәssәr edir.

---

[1] “Biharul-әnvar”, 93-cü cild, sәh.162
[2] “Ali İmran” surәsi, ayә:31
[3] “Vәsailuş-şiә”, 4-cü cild, sәh.1181

**7.Daha mühüm nəticələr.**

Bu məqam sahibinə getdikcə elə yüksək və ali nəticələr, gözəl faydalar əta olunur ki, qələm onu yazmaqda, dil bəyan etməkdə acizdir və belə bir məqama çatanlardan başqa heç kim bunun həqiqi mə'nasını dərk edə bilməz.

Allah dərgahına seyr edənlər nəfsi aludəliklərdən təmizləməklə, batini saflaşma, Allaha ibadət, riyazət, təfəkkür və davamlı zikrlə elə bir məqama çatırlar ki, batini qulaq və göz vasitəsilə elə həqiqətləri müşahidə edib eşidirlər ki, onların zahiri göz və qulaqla eşidilməsi əsla mümkün deyildir. Onlar bə'zən bütün varlıqların, hətta mələklərin belə, təsbih və təqdis səslərini eşidir, onlarla birlikdə təsbih deyirlər. Bu dünyada yaşadıqlarına, elə bu insanlarla qaynayıb-qarışdıqlarına baxmayaraq, batinlərində ən yüksək üfüqlərə nəzər salır, digər bir aləmdə yaşayırlar və sanki, ümumiyyətlə, bu dünyada deyillər. Onlar digər dünyada behişt və cəhənnəmi müşahidə edir, mələklərlə, saleh insanların ruhları ilə əlaqə yaradırlar. Tam başqa bir dünya ilə ünsiyyət yaradır, tamamilə başqa ne'mətlərdən faydalanırlar, lakin əksər hallarda bu barədə heç bir söz demirlər. Çünki, belə şəxslər əsl mətləbi gizlədir və camaat arasında məşhurlaşmaqdan ciddi şəkildə imtina edirlər.

Elm və ilahi mə'rifət arifin qəlbinə varid olur, o, adi elmlərdən olmayan kəşf və şühudlara malikdir. Allaha tərəf gedən yol elə bir məqama çatır ki, bütün əşyalardan, hətta, öz nəfsindən belə qafil olur. Allahın Özündən, adlarından və sifətlərindən başqa bir şeyə diqqət yetirmir. Vacibul-vücudun zatını hər bir yerdə hazır və nəzarətçi görür. O, buyurur: **"Huvəl-əvvəlu vəl-axiru vəz-zahiru vəl-batin." Əvvəl də, axır da, zahir də, batin də yalnız Odur.** Arif bu dünyanı Allahın sifətlərinin, hər bir camal və kamal sifətlərinin təzahür yeri görür, sair varlıqların fəqir, Vacibul-vücudun isə mütləq şəkildə zəngin və ehtiyacsız olmasını əyani olaraq müşahidə edir. O, Vacibul-vucudun heç bir qeyd-şərt olmadığı, məhdudlanmadığı kamal və camalını müşahidə etməklə Onun nuruna qərq olur.

Qeyd olunmalıdır ki, fəna məqamının özü də müxtəlif dərəcə və məqamlara malikdir ki, bu bəndə (yə'ni, müəllif) onlara daxil olmaqdan məhrumdur.

İmanın təkmilləşdirilməsi, zikr, liqa və şühud məqamına çatmaq üçün aşağıdakı yollardan istifadə etmək olar:

1.Təfəkkür və qəti dəlillər. Allahın varlığını və tövhidi isbat etmək üçün gətirilən dəlil və sübutlar bu yolda tə'sirli ola bilər. Hikmət, kəlam və irfan kitablarında qeyd olunan dəlillərlə isbat olunur ki, bütün dünya varlıqları sırf ehtiyaclıdırlar. Hətta, ehtiyacın özüdür. Onlar vücuda gəlməkdə və həyatlarını davam etdirməkdə, bütün əməl və rəftarlarında hər şeydən ehtiyacsız olan bir varlığa ehtiyac duyurlar. Özləri də ki, sırf şəkildə əlaqənin özündən - vücudi-rəbtdən ibarətdir. Hamısı məhdud və möhtacdır. Onlar zatən qəni və ehtiyacsız olan, heç bir cəhətdən məhdudlanmayan, mütləq kamala sahib olan bir vücud sayəsində yaşayırlar. Vacibul-vücud bir zatdır ki, onda bir nöqsan, məhdudiyyət, ehtiyacın olmağı mümkün deyildir. Bütün kamal sifətlərinə malikdir. Onun müqəddəs zatında elm, qüdrət, həyat və s. kimi kamalların heç bir həddi-hüdudu yoxdur. Hər bir yerdə hazır və nəzarətçidir. Heç bir şey Ondan pünhan və gizli deyildir. Bütün varlıqlara yaxındır. İnsana, hətta, onun damarından belə yaxındır. Ayə və rəvayətlərdə Allah belə vəsf edilir:

Qur'anda buyurulur: **"Şərq də, qərb də Allaha məxsusdur, hər tərəfə üz çevirsəniz, Allah elə oradadır."**[1]

Yenə buyurulur: **"Siz harada olsanız Allah sizinlədir. O, sizin etdiklərinizi bilir və görür."**[2]

**"Biz insana onun şah damarından da yaxınıq."**[3]

**"Allah hər bir şeyi görür və hər yerdə hazırdır."**[4]

İlahi mə'rifət barəsində olan əqli dəlillər haqda dərindən təfəkkür etmək insanı küfr zülmətlərindən çıxararaq iman sərhəddinə tərəf çəkir, təkamül yolunu onun üzünə açır və imanın tələbi olan əmələ doğru də'vət edir.

**2.Allahın ayələrində təfəkkür etmək.** Qur'ani-Kərim bu dünya varlıqlarının hər birini dünyanı yaradanın vücuduna dair bir ayə və nişanə hesab edir. Çoxlu ayələrdə tə'kid olunur ki, Allahın ayələrində təfəkkür edib dərindən fikirləşin ki, dünyada mövcud olan bütün gözəlliklər, qəribəliklər, nizam-intizam və ona hakim

---

[1] "Bəqərə" surəsi, ayə:115
[2] "Hədid" surəsi, ayə:4
[3] "Qaf" surəsi, ayə:16
[4] "Həcc" surəsi, ayə:17

olan uyğunluqdan elm, qüdrət və hikmət sahibi olan Pərvərdigarı dərk edəsiniz. İnsanlardan istənilmişdir ki, öz varlığında, eləcə də başdan-ayağa sirlər xəzinəsi olan ruhun və bədənin mürəkkəb quruluşunda dərindən fikirləşsinlər, dillərin, rənglərin, zahiri formaların müxtəlif olmasında, cütlərin varlığı barəsində dərindən düşünsünlər. Həmçinin, onlardan istənilmişdir ki, günəşin və ulduzların yaradılışında, onların gözəl və nizamlı hərəkətində, eləcə də yer, dağlar, təpələr, ağaclar, bitkilər, suda və quruda yaşayan müxtəlif canılalar barəsində təfəkkür etsinlər. Qur'anda bunların çoxuna işarələr edilmişdir.

Doğrudan da, başdan-ayağa gözəlliklərlə, qəribəliklərlə dolu olan dünyada hər bir varlıqda yüzlərlə sirlər, qəribəliklər, incəliklər gizlənmişdir; Günəş sistemi, ulduzlar, kəhkəşanlar, buludlardan tutmuş atom kimi heyrətləndirici bir aləm, yer, dağlar, təpələr, mə'dənlərdən tutmuş okeanlara, dəryalara, göllər və çaylara qədər, böyük meşələrdən tutmuş müxtəlif bitkilərə, kiçikli-böyüklü ağaclara qədər, böyük heyvanlardan fil və dəvədən tutmuş qarışqa və milçəyə kimi, hətta, mikroskopik canlılar, o cümlədən, müxtəlif viruslar, mikroblar və s. İnsan bunlarda mövcud olan gözəllikləri zərifləri və qəribəlikləri, dünya varlıqlarındakı nizam-intizamı, dəqiq qanunauyğunluqları müşahidə etməklə onların yaradanının sonsuz əzəmət və qüdrətini elm və hikmətini dərk edərək heyrətə dalır və səmimi qəlbdən deyir: **"Pərvərdigara! Sən bunları boş-boşuna, əbəs yerə yaratmamısan! Ulduzlarla bəzənmiş asimana nəzər sal və onda yaxşı fikirləş. Meşənin kənarında oturaraq Allahın əzəmət və qüdrətinə tamaşa et, necə də gözəl dünyadır!"**

**3.İbadət.** İman və mə'rifət hasil olduqdan sonra insan saleh (yaxşı) əməllər görməyə, şər'i vəzifələrini yerinə yetirməyə ciddiyyət göstərməlidir. Çünki saleh əməl yalnız iman və mə'rifətlə kamilləşir, nəhayət, insan ilahi qürb məqamına çatır. Düzdür ki, iman mə'rifət və tövhid kəlməsi ilə yüksəlir, lakin saleh əməl onun köməyinə gəlir. Allah-Təala Qur'anda buyurur: **"Hər kəs izzət istəyirsə (bilməlidir ki,) izzət bütünlüklə Allaha məxsusdur. Pak söz (la ilahə illəllah) Allaha doğru yüksəlir, saleh əməl onu daha da ucaldır."**[1]

---

[1] "Fatir" surəsi, ayə:10

Saleh əməlin iman və mə'rifət ilə müqayisədəki rolu bir növ benzinin təyyarədən ötrü ifa etdiyi rola bənzəyir. Benzin olmasa təyyarə havaya qalxıb hərəkətini davam etdirə bilmədiyi və yanacaq qurtaran zaman süqut etdiyi kimi, iman və mə'rifət də saleh əməllə yanaşı olmazsa, insanı yüksək məqamalara çatdırmaz. Əgər saleh əməl ona kömək etməsə süqut edər.

Allah Qur'anda buyurur: **"Pərvərdigarına ibadət et ki, yəqin (məqamı) sənin üçün hasil olsun."**[1]

Nəfsin kamala çatmasının, düzgün tərbiyələndirilməsinin və yəqin məqamına çatmasının yeganə yolu şər'i vəzifələrin dəqiq və düzgün yerinə yetirilməsində, ibadət və bəndəliyə ciddi yanaşmaqdadır. Əgər bir şəxs ibadətdən başqa yolla yüksək mə'nəvi məqamlara çata biləcəyini güman edirsə, doğrudan da yanılmışdır. Allahın köməyi ilə saleh əməlin barəsində sonralar söhbət aparacağıq.

**4-Zikr və dua.** İslam dini zikr deməyə və onu davam etdirməyə xüsusi diqqət yetirmişdir. Peyğəmbəri-Əkrəmdən (s.ə.v.v) və mə'sum imamlardan (ə) çoxlu dualar və zikrlər gəlib çatmışdır. Onu oxuyanlar üçün çoxlu savablar nəzərdə tutulmuşdur. Zikr həqiqətdə nəfsin kamala yetməsinə, insanın Allah dərgahına yaxınlaşmasına səbəb olan mühüm bir ibadət hesab olunur.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Beş şey insanın əməl tərəzisini ağırlaşdırır: Subhanəllah, vəl-həmdu lillah, və la ilahə illəllahu, vəllahu əkbər (zikrləri) və saleh övladın ölümünə səbr etmək."**[2]

Yenə buyurur: **"Məni me'raca apardıqları zaman behiştə daxil oldum. Bu vaxt qızıl və gümüşdən bir qəsr tikməyə məşğul olan mələkləri gördüm. Lakin bə'zən onlar işlərini dayandırırdılar. Onlara dedim: "Nə üçün bə'zən işləyir, bə'zən də işinizi dayandırırsınız?" Dedilər: "Tikinti üçün lazım olan vəsait olan zaman işləyirik, tamam olduqda dayanırıq." Dedim: "Sizin tikinti materiallarınız nədir?" Dedilər: "«Subhanəllahi, vəlhəmdu lillahi, və la ilahə illəllahu, vəllahu əkbər» zikri. Mö'min dünyada bu zikrləri deməyə məşğul olanda bu vəsait bizə çatır və qəsri tikirik, amma onlar zikrdən qafil olduqları zaman biz də işdən dayanırıq."**[3]

---

[1] "Hicr" surəsi, ayə:99
[2] "Biharul-ənvar", 93-cü cild, səh.169
[3] "Biharul-ənvar", 93-cü cild, səh.169

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Hər kəs “subhanəllah”, desə behiştdə onun üçün bir ağac əkilər. Hər kəs “əlhəmdu lillah” desə, Allah Özü cənnətdə onun üçün bir ağac əkər. Hər kəs “la ilahə illəllah” desə, Allah ona behiştdə bir ağac əkər. Hər kəs “Allahu Əkbər” desə, Allah behiştdə onun üçün bir ağac əkər.”**

Bu zaman Qureyşdən olan bir kişi soruşdu: “Ey Allahın Rəsulu! Belə isə bizim behiştdə nə qədər ağacımız olacaq!”

Həzrət (s.ə.v.v) buyurdu: **«Bəli, belədir. Lakin ehtiyatlı olun ki, od göndərib ağaclarınızı yandırmayasınız. Çünki Allah-təala Qur’anda buyurur: “Ey iman gətirənlər! Allaha və Onun Rəsuluna itaət edin, öz əməllərinizi xarab və puç etməyin.”»**[1]

Hər kəlam Allahı insana xatırladarsa, məfhumu da həmd-səana və təsbih olarsa, zikr adlanır. Lakin hədislərdə xüsusi zikrlər bəyan olunmuş və onların oxunması üçün müəyyən savablar nəzərdə tutulmuşdur ki, onların ən mühümləri aşağıdakılardır:

**La ilahə illəllah, Subhanəllah, Əlhəmdu lillah, Əllahu əkbər, La hövlə və la quvvətə illa billah, Həsbunəllah və ni’məl vəkil, La ilahə illəllahu subhanəkə inni kuntu minəz-zalimin, Ya həyyu ya qəyyum ya mən la ilahə illa ənt, Ufəvvizu əmri iləllah innəllahə bəsirun bil-ibad, La hövlə və la quvvətə illa billahil-əliyyil-əzim, Ya Allahu, ya Rəbb, ya Rəhman, ya Ərhəmər-rahimin, ya Zəl-cəlali vəl-ikram, ya Ğəniyyu ya Muğni.** Allahın dua və hədislərdə gələn sair adları da bunlardandır.

Bunların hamısı zikrdir və Allahı insana xatırladır, onun Allah dərgahına yaxınlaşmasına səbəb olur. Allah dərgahına doğru seyr edən insan bu zikrlərin hər birini seçib onu davam etdirə bilər. Lakin mə’rifət əhli bə’zi zikrlərə daha çox üstünlük vermişlər. Bə’ziləri “la ilahə illəllah”ı, bə’ziləri “subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər”i, bə’ziləri isə başqa zikrləri seçir. Lakin bə’zi hədislərdən mə’lum olur ki, “la ilahə illəllah” sair zikrlərdən daha üstündür.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“İbadətlərin ən yaxşısı “la ilahə illəllah” deməkdir.”**[2]

Yenə buyurur: **“Kəlamların sərvəri və böyüyü “la ilahə**

---

[1] “Biharul-ənvar”, 93-cü cild, səh.168
[2] “Biharul-ənvar”, 93-cü cild, səh.195

**illəllah"dır."**[1]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Cəbrəildən nəql edir ki, Allah-Təala belə buyurur: **"La ilahə illəllah kəlməsi Mənim möhkəm (alınmaz) qalamdır. Hər kəs ona daxil olsa Mənim əzabımdan amanda olar."**[2]

Lakin zikrdən əsas məqsəd insanın Allaha nəzər və diqqət yetirməsi olduğundan, demək olar ki, hər bir kəlam insanı Allaha daha çox yaxınlaşdırsa daha münasib olacaqdır.

Ayrı-ayrı fərdlərin müxtəlif vəziyyətləri və bir-birindən fərqli məqamları vardır. Mümkündür ki, **"Allah"** kəlməsi bə'zi şəxslər, yaxud bə'zi vəziyyətlər üçün maraqlı və münasib olsun, halbuki, **"ya mucibə də'vətil-muztərrin"** kəlməsi digərləri üçün daha cazibəli və münasib ola bilər. Bə'ziləri üçün **"la ilahə illəllah**" kəlməsi, bə'ziləri üçün də "ya Ğəffaru, ya Səttar" kəlməsi münasib görünsün. Sair zikrlər də belədir. Məhz buna görə də, əgər təkamül yolçusu kamil mürəbbi (ustad) tapa bilsə, yaxşı olar ki, bu barədə ondan kömək alsın. Əgər tapa bilmirsə dua və hədis kitablarından, Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) və mə'sum imamların (ə) göstərişlərindən istifadə edə bilər. Bütün zikrlər və ibadətlər yaxşıdır, bu şərtlə ki, düzgün şəkildə yerinə yetirilsin. Məhz bu halda insanı Allah dərgahına yaxınlaşdırıb ali məqamlara çatdıra bilər. Təkamül yolçusu olan insan onların hamısından, yaxud bə'zisindən istifadə edə bilər, lakin böyük alimlər zikr və şühud məqamına çatmaq üçün tövsiyə edirlər ki, müəyyən olunan xüsusi zikri seçsinlər, onları xüsusi formada və xüsusi sayda davam etdirsinlər ki, məqsədə nail ola bilsinlər.

Bu mühüm məsələyə də diqqət yetirmək lazımdır ki, şəriətdə gəlib çatan zikr və dualar ibadətdir və bəndəni ümumi şəkildə Allah dərgahına yaxınlaşdıra bilər. Lakin onlardan əsas hədəf Allahdan başqalarından tam mə'nada ayrılmaq, qəlbi yalnız Allaha tərəf yönəltməkdir. Deməli, təkcə kəlmələrin təkrar olunması ilə də kifayətlənməməliyik. Onun mə'nasına diqqət yetirərək ali hədəflərindən qafil olmamalıyıq. Çünki zikrlərin təkrar olunması, hətta onların davam etdirilməsi belə, çox çətin deyildir və bu əməl də təklikdə insanı hədəfə çatdıra bilməz. Amma faydalı olan şey–insan təfəkkürünün təmərküzləşməsi, qəlbin öz mə"budu qarşısında hüzuri-

---

[1] "Biharul-ənvar", 93-cü cild, səh.204
[2] "Biharul-ənvar", 93-cü cild, səh.192

qəlb tapması, qəlbdən keçən sair şeylərin inkar edilməsidir. Bu da olduqca çətin məsələdir. Çünki zikr zamanı müxtəlif fikirlər insana hücum gətirir və onu Allahı yad etməkdən qafil edir. Halbuki, bu kimi düşüncələr qəlbdən çıxarılmayınca nəfs ilahi nuraniyyəti qəbul etməyə ləyaqəti olmayacaqdır. O qəlb Allah nurunun saçılması yeri ola bilər ki, Allahdan qeyrilərindən tamamilə boşaldılmış olsun. Qəlbin, fikrin başqa şeylərdən təmizlənməsi və təmərküzləşməsində ciddi əzm və iradəyə, nəfs ilə cihada ehtiyac duyulur. Elə də olmur ki, insan üçün bir dəfəyə, heç bir məşq etmədən mümkün olsun. Nəfs ilə tədricən xoş davranmaq lazımdır ki, bu işlərə adət etsin.

## *ƏMƏLİ GÖSTƏRİŞLƏR*

Mə'rifət əhlindən bə'ziləri bu yolu ötüb keçmək üçün aşağıdakı işləri tövsiyə etmişlər:

1-Mürid hər bir şeydən əvvəl, tövbə vasitəsilə öz nəfsini günahlardan, çirkin və rəzil xislətlərdən təmizləməlidir. Əvvəl tövbə məqsədi ilə qüsul et, qüsul halında günahlarını, batini aludəliklərini nəzərində canlandır və mehriban Allaha belə ərz et: "Pərvərdigara, günahlardan tövbə edərək Sənə tərəf qayıtdım. Qərara almışam ki, bir daha günah etməyim. Bədənimi su ilə pakladığım kimi, qəlbimi də günahlardan, aludəliklərdən rəzil xüsusiyyətlərdən paklayıram."

2.Özünü daim Allahın hüzurunda gör və çalış ki, bütün vəziyyətlərdə Allahı xatırlayasan. Əgər azacıq qəflət baş vermiş olsa dərhal tövbə et.

3.Öz nəfsini günaha aludə olmamasından ötrü tamamilə nəzarət altına al. Gecə-gündüz ərzində nəfsdən hesab çəkmək üçün müəyyən bir saat ayır, gündəlik əməllərini tam diqqətlə araşdır, onu ciddi şəkildə mühasibəyə çəkib cəzalandır.

4.Sükuta riayət et, zərurət miqdarından artıq danışma.

5.Ehtiyac qədərində yemək ye, çox yeməkdən, qarına qulluq etməkdən çəkin.

6.Daim dəstəmazlı ol. Hər vaxt dəstəmazın batil olsa dərhal yenidən dəstəmaz al. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: «Mütəal Allah buyurur: **"Hər kəs dəstəmazı batil olduqdan sonra yenidən dəstəmaz almasa Mənə cəfa etmişdir. Hər kəs dəstəmaz aldıqdan sonra iki rəkət namaz qılmasa Mənə cəfa etmişdir. Hər kəs namaz qılıb dünya və axirət işləri barəsində dua etsə, onun duasını qəbul etməsəm Mən ona cəfa etmiş olaram. Lakin**

**Mən cəfakar Allah deyiləm.”**[1]

7-Gecə-gündüz ərzində bir saatı hüzuri-qəlblə Allaha diqqət etməyə ayır. Əgər gecə zamanı, xüsusilə səhər çağları olsa daha yaxşı olar. Sakit bir guşədə əyləş, başını dizlərinə qoy və bütün duyğularını özünə cəm et. Yad fikirlərin daxil olmasının qarşısını ciddi şəkildə al. Bir müddət bu əməli davam etdir, bəlkə bunun vasitəsilə sənin üçün mükaşifələr (qeyb aləmindən olan görüntü) hasil olsun.

8.«**Ya Həyyu ya Qəyyum, ya Mən la ilahə illa ənt**» zikrini daim dildə və eyni zamanda hüzuri-qəlblə təkrarla.

9.Gecə-gündüz ərzində uzun bir səcdə yerinə yetir və imkan olduqca hüzuri-qəlblə bu zikrləri təkrar et: **“La ilahə illa ənt, subhanəkə inni kuntu minəz-zalimin.”**

Səcdənin davam etdirilməsi dəfələrlə təcrübədən çıxmışdır və çox müsbət tə’sirləri vardır. Bə’zi ariflər barəsində nəql olunur ki, səcdədə bu zikri dörd min dəfə təkrar edirmişlər.

10.Gecə-gündüzdə bir saat hüzuri-qəlb ilə “Ya Ğəniyyu ya Muğni” sözünü təkrarlamaqdan ötrü ayır.

11.Hər gün hüzuri-qəlblə bir qədər Qur’an oxu, ayələrin mə’nasında təfəkkür et. Əgər ayaq üstə oxusan daha yaxşı olar.

12.Sübhə yaxın yuxudan oyanan zaman dəstəmaz al və sakit bir yerdə hüzuri-qəlb ilə gecə namazı qıl, vətr namazının qunutunu uzat, özün və mö’minlər üçün bağışlanmaq istə.

Gecə namazından sonra “Səxrə” ayəsini hüzuri-qəlblə yeddi dəfə oxu, çünki bu, yəqinin hasil olmasında, Allahdan başqasının fikirlərinin zehindən çıxarılmasından ötrü çox faydalıdır. Səxrə ayəsi budur:

**“İnnə Rəbbəkumullahulləzi xələqəssəmavati vəl-ərzə fi sittəti əyyamin, summəstəva ələl-ərşi yuğşil-ləylən-nəharə yətlubuhu həsisən vəş-şəmsu vəl qəməru vən-nucumu müsəxxəratin bi əmrih, əla ləhul-xəlqu vəl-əmru, təbarəkəllahu Rəbbul-ələmin. Ud’u Rəbbəkum təzərruən və xifyətən innəhu la yuhibbul-mu’tədin və la tufsidu fil-ərzi bə’də islahiha vəd’uhu xovfən və təməən innə rəhmətəllahi qəribun minəl-muhsinin.”**[2]

Nəzrədə tutulan nəticəyə çatmaq üçün qırx gecə-gündüz bu göstərişə əməl edilməlidir. Mümkündür ki, Subhan Allahın nəzərini cəlb edəsən və sənin üçün müəyyən uğurlar hasil olsun. Lakin əgər

---

[1] “Vəsailuş-şiə”, 1-ci cild, səh.268

[2] “Ə”raf” surəsi, ayə:54-56, “Üsuli Kafi”, 1-ci cild, səh.344

birinci qırx günlükdə müvəffəq olmasan mə'yus olma, ikinci qırx günlüyü daha artıq ciddiyyətlə başla və öz istəyinə çatıncaya qədər davam etdir. Əgər yenə də müvəffəq olmasan öz nəticəni əldə edənə qədər üçüncü, dördüncü və sair qırx günlükləri davam etdir. Heç vaxt əməldən, ciddiyyətdən, nəfslə cihaddan usanma, Allaha mə'rifət yolunda ciddiyyət göstər və mehriban Allahdan müvəffəqiyyət dilə. Səndə iste'dad və qabiliyyət formalaşan zaman Allahın köməkliyi ilə nailiyyət əldə edəcəksən.

Əgər arif işin əvvəlində bütün bu işləri əncam vermək üçün qüdrət və himmətə malik olmasa az miqdardan başlayıb tədricən artıra bilər. Lakin bu əməllərin ən mühümü təfəkkür, nəfsin nəzarət altına alınması, hüzuri-qəlb və Allaha diqqət yetirməkdir. Əsas məsələ budur ki, təkamül yolçusu pərakəndə şəkildə olan bütün fikirlərini nəfsdən (qəlbdən) uzaqlaşdırsın və birbaşa Allaha diqqət yetirsin. Əlbəttə, bu çox çətin işdir.

Allahdan başqa olan fikirləri qəlbdən çıxarmaq üçün tədricən dörd mərhələni ötmək olar:

1.Birinci mərhələdə çalışın zikr halında ikən bütün diqqətiniz zikrlərə yönəlsin, bütün başqa fikirləri başınızdan çıxardın. Bu əməli o qədər davam etdirin ki, nəfsinizə kamil şəkildə hakim kəsiləsiniz və onun başqa fikirlərə yönəlməsinin qarşısını alasınız.

2.İkinci mərhələdə, elə birinci yolda olduğu kimi, zikrlə məşğul olun, bu şərtlə ki, zikrin mə'na və məfhumlarına tam diqqət yetirəsiniz, onları zehninizdən keçirəsiniz, digər fikirlərin hücum gətirməsindən tamamilə uzaq olasınız. Bu göstərişi o qədər davam etdirin ki, nəhayət zikrin bütün mərhələlərində başqa fikirlərin qəlbə yönəlməsinin qarşısını ala biləsiniz. Eyni halda, zikrlərin məfhum və mə'nalarına da diqqətlə nəzər yetirməlisiniz.

3.Üçüncü mərhələdə çalışmalısınız ki, ilk növbədə mə'naları qəlbinizdə canlandırasınız, zikrləri qəlbən qəbul edib onlara iman gətirdiyiniz üçün onu dilinizdə təkrar edəsiniz. Həqiqətdə dil qəlbə itaət edir.

4.Dördüncü mərhələdə çalışırsınız ki, bütün fikirləri, məfhumları, mə'naları və hətta zikrlərdən təsəvvür olunan məfhumları belə, qəlbinizdən çıxardasınız, onu sübhan Allah tərəfindən əta olunan nuraniyyət üçün hazırlayasınız, bütün varlığınızla Haqq-Təbarəkə və Təalaya diqqət yetirəsiniz, Ondan başqa hər bir şeyi qəlbinizdən çıxardıb qəlbin qapısını Allah tərəfindən olan lütflərə açasınız. Bu zaman mümkündür ki, Allah tərəfindən olan məxsus lütflərə layiq görüləsiniz, ilahi nurdan istifadə edəsiniz, onun cazibəsi ilə kamal

mərhələsinə doğru seyr edəsiniz. Təkamül yolçusu bu məqamda o qədər qərq ola bilər ki, Allahdan başqa heç bir şeyi görməyə bilər, belə ki, hətta öz nəfs və davranışlarını da müşahidə etməyə bilər, yalnız Allahla ünsiyyət bağlaya bilər.

Yaxşı olar ki, sözün davamını Allah övliyalarının dilindən gətirək. Çünki, onlar bu yolu keçib getmiş, Allahla üns, liqa və şövq məqamının ləzzətini dərk etmişlər.

## *ƏMIRƏL-MÖ'MININ ƏLIYYIBNI ƏBITALIBIN (Ə) GÖSTƏRIŞI*

Nuf deyir: Əlinin (ə) sür'ətlə getdiyini gördüm. Soruşdum. «Ey mənim Mövlam! Hara gedirsiniz?»

Buyurdu: «Ey Nuf, mənə mane olma! Çünki arzularım məni məhbubuma tərəf aparır.»

Soruşdum: «Ey mənim Mövlam, arzuların nədir?»

Buyurdu: «Arzularımı bilməli olan şəxs bilir və onları başqasına deməyə ehtiyac yoxdur. Ədəb bunu tələb edir ki, Allahın bəndəsi ondan başqasını ne'mət və hacətlərdə şərik etməsin.»

Ərz etdim: «Ey Əmirəl-mö'minin, mən həvayi-nəfsin qələbəsindən, dünyəvi işlərin tamahından qorxuram.»

Buyurdu: «Nə üçün qorxanların qoruyucusundan, ariflərin pənahgahından qafilsən?»

Ərz etdim: «Onu mənə tanıtdır!»

Buyurdu: «O, böyük Allahdır ki, onun fəzl və mərhəməti ilə öz arzularına çatarsan. Öz himmət və sə'yinlə ona diqqət yetir, qəlbinə daxil olanları çıxart. Əgər bu iş sənə çətin gəlsə mən ona zaminəm. Allaha doğru qayıt və bütün diqqətini Ona doğru yönəlt. Sübhan Allah buyurur: "Öz izzət və cəlalıma and olsun! Məndən başqasına ümid bağlayan şəxsin ümidini kəsərəm, ona zillət və xarlıq libası geyindirərəm, Öz yaxınlığımdan uzaqlaşdıraram. Mənimlə olan əlaqəsini kəsərəm və onun yadından gizli qalaram. Vay olsun onun halına, yoxsa müşküllərdə Məndən başqasına pənah aparır?! Halbuki, çətinliklərin həll olunması yalnız Mənim əlimlədir. Məndən başqasına ümid bəsləyirmi?! Halbuki, Mən diri və əbədiyəm. Çətinliklərin həll olunmasında yadların qapısına gedirmi, halbuki onların qapısı bağlıdır. Mənim qapımı isə buraxır! Halbuki, o, açıqdır. Kim Mənə ümid bağlayıb və Mən onun ümidini kəsmişəm?! Bəndələrimin ümidini Özümə bağlamışam və onu özləri üçün saxlamışam. Asimanı elə kəslərlə doldurmuşam ki, Mənə təsbih deməkdən yorulmurlar, mələklərə demişəm ki, Mənimlə bəndələrim arasında olan qapıları heç

vaxt bağlamasınlar. Bir şəxs üçün çətinlik yarandıqda bilmirmi ki, Mənim iznim olmadan bir kimsə onun çətinliyini həll edə bilməz?! Nə üçün bəndə öz istəklərində Mənə müraciət etmir? Halbuki, ona istəmədiyi şeyləri əta etmişəm. Nə üçün Məndən istəmir və Məndən başqasından istəyir?! Yoxsa belə təsəvvür edir ki, ilk əvvəldə bəndəmə əta edirəm, lakin istəyib sual etdikdə onu məhrum edirəm? Mən paxılammı ki, bəndəm Məni paxıl hesab edir?! Dünya və axirət Mənim əlimdə deyildirmi?! Cud (bəxşiş vermək, əta etmək) və kərəm Mənim sifətlərimdən deyildirmi?! Fəzl və mərhəmət mənim əlimdə deyildirmi?! Bütün arzular mənə doğru gəlib nəticələnmirmi?! Kim onları kəsə bilər?! Öz izzət və cəlalıma and olsun, əgər yer üzündə olan bütün insanların istəklərini bir yerə toplasam və onların hər birinə, hamısının istədiyi qədər versəm Mənim mülkümdən zərrə qədər azalmaz. Mənim tərəfimdən əta olunanlar necə nöqsanlı ola bilər?! Necə də fəqir və biçarədir Mənim rəhmətimdən mə'yus olan şəxs! Nə qədər biçarədir o kəs ki, itaətsizlik edib haram işlərə mürtəkib olsun və Mənim hörmətimi saxlamayıb tüğyan etsin!»

Əli (ə) bu sözlərdən sonra buyurdu: "Ey Nuf! Bu duanı oxu:

İlahi, in həmədtukə fə biməvahibikə, və in məccədtukə fə bimuradikə, və in qəddəstukə fə biquvvətikə, və in hələltukə fəbi qudrətikə, və in nəzərtu fə ila rəhmətikə, və in əzəztu fə əla ni'mətikə. İlahi, innəhu mən ləm yəşğəlhul-vəlvəu bizikrikə və ləm yəzvihis-səfəru biqurbikə kanət həyatuhu əleyhi məytətən və məytətuhu ələyhi həsrətən. İlahi, tənahət əbsarun-nazirinə iləykə bi sərairil-qulubi və taləət əsğəs-samiinə ləkə nəciyyatus-suduri fələm yəlqə əbsarəhum rəddun dunə ma yuridun. Hətəktə bəynəkə və bəynəhum hucbəl-ğəfləti fəsəkənu fi nurikə və tənəffəsu biruhikə fəsarət qulubuhum məğarisən lihəybətikə və əbsaruhum məakifən liqudrətikə və qərrəbtə ərvahəhum min qudsikə fəcələsu isməkə bivəqaril-mucaləsəti və xüzuil-muxatəbəti fəəqbəltə iləyhim iqbaləş-şəfiqi və ənsəttə ləhum insatər-rəfiqi və əcəbtəhum icabatil-əhibbai və nacəytəhum munacatəl-əxillai fəbəlliğ biyəl-məhəlləlləzi iləyhi vəsəlu vənqulni min zikri ila zikrikə və la tətruk bəyni və bəynə mələkuti izzikə babən illa fətəhtəhu və la hicabən min hucubil-ğəfləti illa hətəktə hətta tuqimə ruhi bəynə ziyai ərşikə və təc'ələ ləha məqamən nəsbə nurikə innəkə əla kulli şəy'in qədir. İlahi, ma ovhəşə təriqən la yəkunu rəfiqi fihi əməli fikə və əb"ədə səfərən la yəkunu rəcai minhu dəlili minkə, xabə məni'təsəmə bihəbli ğəyrik, və zəufə ruknu mənistənədə ila ğəyri ruknik, fə ya muəllimə muəmmilihil-əmələ fə yəzhəbu ənhum kabətul-vəcəl, la təhrimni salihəl-əməl, vəklə'ni kələətə mən farəqəthul-hiyəl, fəkəyfə

yəlhəqu muəmmilikə zullul-fəqri və əntəl-ğəniyyu ən məzaril-muznibin. İlahi, və innə kullə həlavətin munqətiətun və həlavətəl-imani təzdadu həlavətuha ittisalən bikə. İlahi, və innə qəlbi qəd bəsətə əmələhu fiykə fəəziqhu min həlavəti bəstikə iyyahul-buluğə lima əmmələ, innəkə əla kulli şəy'in qədir. İlahi, əs'əlukə məs'ələtə mən yə'rifukə kunhə mə'rifətikə min kulli xəyrin yənbəği lil-mu'mini ən yəslukəh, və əuzu bikə min kulli şərrin və fitnətin əztə biha əhibbaəkə min xəlqik, innəkə əla kulli şəy'in qədir. İlahi, əs'əlukə məs'ələtəl-miskinilləzi qəd təhəyyərə fi rəcahu, fəla yəcidu məlcəən vəla musnədən yəsilu bihi iləykə, vəla yəstədillu bihi ələykə illa bikə, və biərkanikə və məqamatikəl-ləti la tə"tilə ləha minkə, fə əs'əlukə bismikəl-ləzi zəhərtə bihi lixassəti övliyaik, fəvəhhədukə və ərəfukə fəəbədukə, bi həqiqətikə ən tuərrifəni nəfsəkə li əqirrə ləkə bi rububiyyətikə əla həqiqətil-imani bikə və la təc'əlni, ya İlahi, mimmən yə'budul-ismə dunəl-mə'na vəl-həzni biləhzətin min ləhəzatikə tunəvviru biha qəlbi bimə'rifətikə xassətən və mə'rifəti övliyaikə, innəkə əla kulli şəy'in qədir.[1]

## *İMAM CƏ'FƏR SADIQIN (Ə) GÖSTƏRİŞİ*

Ünvan Bəsri 94 yaşlı qoca bir kişi idi. O deyir: «Mən elm öyrənmək üçün Malik ibni Ənəsin yanına gedib-gəlirdim. Cə'fər ibni Məhəmməd (ə) bizim şəhərə gəldikdə onun hüzuruna getdim. Çünki o Həzrətin (ə) də elmindən istifadə etmək istəyirdim. Bir gün mənə buyurdu: **"Mən diqqət və nəzarət altında olan bir adamam. Bundan əlavə, hər bir gecə-gündüzün hər bir saatlarında xüsusi zikrlərim vardır. Sən mənim zikrlərimin qarşısını alma, elm kəsb etmək üçün əvvəldə olduğu kimi Malik ibni Ənəsin yanına get."**

Mən bu sözdən qəmgin oldum və onun yanından çıxıb getdim. Ürəyimdə dedim: "Əgər imam (ə) məndən bir xeyir görsəydi məni görüşdən məhrum etməzdi." Sonra Peyğəmbər (s.ə.v.v) məscidinə gedib o həzrətə salam verdim. Sonrakı gün də Peyğəmbərin (s.ə.v.v) rövzəsinə gedib iki rək'ət namaz qıldım və dua edərək dedim: "Ya Allahu, ya Allah, in tu"tifu ələyyə qəlbə Cə"fərin və tərzuqəni min ilmihi əhtədi bihi ila siratikəl-mustəqim!" (Ey Allah, ey Allah! Sən Cə'fərin qəlbinə məhəbbət sal və onun elmindən məni Sənin düz yoluna istiqamətləndirəcək qədər bəhrələndir!) Sonra yenə də qəm-

[1] "Biharul-ənvar", 94-cü cild, səh.94

qüssə içində evə qayıtdım, amma Malik ibni Ənəsin yanına getmədim. Çünki Cə'fər ibni Məhəmmədə (ə) məhəbbət mənim qəlbimdə özünə yer açmışdı. Bir müddət guşənişinlik etdim. Vacib namazımı qılmaqdan başqa sair işlər üçün evdən çıxmırdım. Nəhayət səbrim tükəndi. Bir gün imamın (ə) qapısına getdim və daxil olmaq üçün icazə istədim. Xidmətçi gəlib dedi:

"Nə işin var?"

Dedim:-Mən imamın hüzuruna gedib salam vermək istəyirəm.

Dedi:-Ağa mehrabda namaz qılır.

Sonra evə girdi. Mən də qapının ağzında oturdum. Çox keçmədi ki, xidmətçi qayıdıb dedi:-Mənzilə buyurun.

Mən evə daxil oldum və Həzrətə (ə) salam verdim. Salamımı aldı və buyurdu:-Əyləş, Allah səni bağışladı.

O Həzrətin (ə) hüzurunda oturdum. Mübarək başını aşağı saldı. Bir qədər sükutdan sonra qaldırıb buyurdu:-Künyən nədir?

Ərz etdim:-Əba Əbdillah.

Buyurdu:-Allah səni bu künyədə sabit saxlasın və səni müvəffəq etsin. Nə istəyirsən?

Ürəyimdə dedim: «Əgər bu görüşdə bu xeyir-duadan başqa bir fayda olmasa, elə bu da mənim üçün dəyərli olacaqdır.» Sonra ərz etdim:

Allahdan istəmişəm ki, sənin qəlbini mənə qarşı mehriban etsin, sənin elmindən məni bəhrələndirsin. Ümidvaram ki, Mütəal Allah duamı qəbul etsin.

Həzrət buyurdu:-Ey Əba Əbdillah! (Həqiqi) Elm təəllüm (öyrənməklə) vasitəsilə hasil olmur. Əksinə, elm bir nurdur ki, Allah hidayət etmək istədiyi bəndənin qəlbinə salır. Əgər elm istəyirsənsə, əvvəlcə qəlbində bəndəliyin həqiqətini yarat və elmi əməl vasitəsilə istə, Allahdan dərk etməyi istə ki, sənə başa salsın.

Dedim:-Ey Şərif!

Buyurdu:-Mənə "Əba Əbdillah" de.

Dedim:-Ey Əba Əbdillah! Bəndəçiliyin həqiqəti nədir?

Buyurdu:-Bəndəçiliyin həqiqəti üç şeydədir.

**Birincisi** budur ki, bəndə özünü Allahın ona əta etdiyi şeylərin sahibi və maliki bilməsin, əksinə, malı Allahın malı bilsin. Çünki bəndələr heç bir şeyə sahib olmazlar. (Əlində olanları) Allahın buyurduğu yollarda sərf etsin.

**İkincisi** budur ki, özünü işlərin idarə olunmasında bacarıqsız görəsən.

**Üçüncüsü** budur ki, özünü Allahın əmr və nəhylərini yerinə yetirməyə məşğul edəsən. Deməli, əgər bəndə özünü mal-dövlətin maliki bilməzsə, mal-dövlətin Allah yolunda sərf edilməsi ona asan olacaqdır. Əgər işlərin idarə olunmasını – tədbiri Allaha həvalə edərsə, dünya müsibətlərinə dözmək onun üçün asan olacaqdır. Əgər Allahın əmr və nəhylərini əməl etməyə məşğul olarsa, dəyərli vaxtlarını yersiz öyünmək və mübahisə etmək kimi yollarda zay etməyəcəkdir. Əgər Allah bir bəndəni bu üç şeylə əzizləsə, dünya, şeytan və məxluqat ona çox dəyərsiz və asan görünəcəkdir. Belə olan halda o, mal-dövlətini artırıb bunun vasitəsilə fəxr edib öyünmək üçün çalışmaz. Camaatın nəzərində izzət və üstünlük sayılan (məcazi) şeyləri istəməz. Dəyərli vaxtlarını batil və əbəs şeylərlə keçirməz. Bu, təqvanın ilk dərəcəsidir ki, Allah-təala Qur'ani-Kərimdə buyurur: ***"O axirət evidir ki, onu yer üzündə fitnə-fəsad və üstünlük istəməyənlər üçün qərar verərik. Xeyirli aqibət müttəqilər üçündür."***

Ərz etdim:-Ey Əba Əbdillah! Mənə əməli göstərişlər ver.

Buyurdu:-Sənə doqquz şeyi vəsiyyət edirəm. Bu, haqq yolunu keçmək qərarına gələn bütün insanlar üçün mənim göstərişim və vəsiyyətimdir. Allahdan istəyirəm ki, bunlara əməl etməkdən ötrü səni müvəffəq etsin. Göstərişlərin üçü nəfsinin razılığı barəsində, üçü helm (həlimlik) və səbr barəsində, üçü isə əməl barəsindədir. Sən bunları əzbərlə və heç vaxt bunları yerinə yetirməkdə səhlənkarlıq etmə.

Ünvan Bəsri deyir: «Bütün nəzər diqqətimi Həzrətin (ə) sözlərinə yönəltdim.» O, buyurdu:

Riyazətlə (nəfslə) əlaqədar tövsiyə etdiyim şeylər bunlardır:

1.Ehtiyatlı ol, iştahan olmayan şeyi yeməyəsən. Çünki bu, axmaqlığa və nadanlığa səbəb olur.

2.Acımamış yemə.

3.Halal yeməklərdən ye və yeməkdən əvvəl "Bismillah" de.

Sonra Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) buyurduğu aşağıdakı hədisi nəql etdi: **"İnsan qarnından da şər qab doldurmur. Əgər yeməyə ehtiyacı varsa, qarnının üçdə birini yemək üçün, üçdə birini su üçün və üçdə birini də nəfəs almaq üçün saxlamalıdır."**

Helm barəsində tövsiyə edilən işlər aşağıdakılardır:

1.Hər kəs sənə "mənə dediyin hər bir sözün əvəzində sənə on qat cavab verəcəyəm. - desə sən cavabında de: "Əgər sən mənə on kəlmə

pis söz desən də cavabında məndən hətta bir kəlmə də eşitməyəcəksən!”

2.Hər kəs sənə nalayiq sözlər desə cavabında de: “Əgər düz deyirsənsə Allah məni bağışlasın, yox, əgər yalan deyirsənsə Allah səni bağışlasın!”

3.Hər kəs səni söyüşlə təhdid edərsə sən ona nəsihət və dua və’dəsi ver.

Elm barəsində tövsiyə olunan şeylər aşağıdakılardır:

1.Bilmədiyin hər bir şeyi alimlərdən soruş. Amma ehtiyatlı ol ki, sənin sualların onları sınaqdan keçirmək və onlara əziyyət vermək məqsədi daşımasın.

2.Şəxsi rə’yinə əməl etməkdən ciddi şəkildə uzaq ol və bacardığın qədər ehtiyatı əldən vermə.

3.Yırtıcı şirdən qaçdığın kimi, şəxsi rə’y əsasında (şər’i dəlili olmadan) fətva verməkdən çəkin. Öz boynunu, camaatın keçməsi üçün körpü qərar vermə.

Sonra buyurdu:

Mənim yanımdan qalx, ey Əba Əbdillah! Sənə kifayət qədər nəsihət etdim, mənim zikrlərimə mane olma. Çünki mən öz nəfsimə dəyər verirəm. Salam olsun hidayətə tabe olanlara![1]

## *MƏRHUM ƏLLAMƏ MƏCLISININ GÖSTƏRIŞI*

Bu yolun yolçularından biri böyük alim, rəbbani arif mərhum Əllamə Məhəmməd Təqi Məclisidir. O, yazır: «Mən riyazətlə və nəfsimi paklaşdırmaqla məşğul olduğum dövrdə əldə etdiyim şeylər təfsiri mütaliə etdiyim vaxtlara aiddir. Bir gecə yuxu ilə ayıqlıq arasında Həzrət Məhəmmədi (s.ə.v.v) müşahidə etdim, öz-özümə dedim ki, yaxşı olar o Həzrətin (s.ə.v.v) kamal və əxlaqına yaxşı diqqət edim. Nə qədər çox diqqət yetirdimsə, o Həzrətin (s.ə.v.v) əzəmət və nuraniyyəti də bir o qədər genişləndi və getdikcə nuru hər yeri əhatə etdi. Bu zaman ayıldım (özümə gəldim), mənə ilham oldu ki, Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) əxlaqı Qur’andır. Gərək Qur’anda dərindən düşünüb təfəkkür edim. Ayələrdə nə qədər çox diqqət etdimsə, daha artıq həqiqətləri dərk etdim. Nəhayət bir dəfə qəlbimə çoxlu həqiqət və mə’rifət nazil oldu. Hər bir ayəyə diqqət yetirdikəcə hər dəfə mənə belə bir ne’mət əta olunurdu. Əlbəttə, belə mətləbləri belə müvəffəqiyyətə nail olmayan şəxslər üçün təsdiq etmək çox

[1] “Kəşkül” (Şeyx Bəhai), 2-ci cild, səh.184, “Biharul-ənvar”, 1-ci cild, səh.224

çətindir. Hətta, adətən qeyri-mümkündür. Lakin mənim məqsədim din yolunda olan qardaşlarıma yol göstərməkdən ibarətdir.

Riyazət və nəfsin saflaşdırılmasının göstərişi aşağıdakılardan ibarətdir:

Faydasız sözlərdən, hətta Allahın zikrindən başqa sözlər danışmaqdan belə, çəkinmək. Ləzzətli yeməklərdən, içməklərdən, libaslardan, gözəl mənzillərdən və zövcələrdən çəkinmək, zəruri miqdarla kifayətlənmək. Allah övliyalarından başqaları ilə oturub-durmaqdan çəkinmək. Çox yatmaqdan çəkinmək, Allaha zikr etməyi kamil müraqibət ilə davam etdirmək.

Allah övliyaları **"ya Həyyu ya Qəyyum, ya mən la ilahə illa ənt"** zikrinə davam etməyi təcrübə etmiş və böyük nəticələr almışlar. Mən də həmin zikri sınaqdan çıxarmışam. Lakin mənim zikrim əksər hallarda "ya Allah"dır. Bu, Allahdan başqalarını qəlbdən çıxarmaq və yalnız Allaha diqqət yetirməklə baş verir.

Əlbəttə əsas və mühüm məsələ Allahı zikr etməyin kamil müraqibətlə yanaşı olmasıdır, sair işlər zikrin dəyərinə çatmaz. Əgər bu əməl qırx gecə-gündüz davam edərsə, ilahi hikmət və məhəbbət nurları (qapıları) insanın üzünə açılır. Sonra insan "fəna fillah" və "bəqa fillah" məqamına nail olur.» [1]

## *AXUND MOLLA HÜSEYNQULU HƏMƏDANININ MƏKTUBU*

Rəbbani və ilahi alim, zahid və arif mərhum Axund Molla Hüseynqulu Həmədani (rəhmətullahi ələyh) Təbriz alimlərindən birinə belə bir məktub yazır:

«Bismillahir-rəhmanir-rəhim. Əlhəmdu lillahi Rəbbil-aləmin. Vəssəlatu vəssəlamu əla Muhəmmədin və alihit-tahirin və lə'nətullahi əla ə'daihim əcməin.

Dini qardaşlara gizli qalmasın ki, bütün hərəkətlərdə, sükunətlərdə, danışıqlarda, anlarda və sairədə şərif şəriətə tam dəqiqliklə əməl etməkdən başqa yolla Allah dərgahına yaxınlaşmaq olmaz. Zövqi xurafatlar, hətta əgər bu məqamdan başqa yerlərdə yaxşı olsa da belə, bu, cahillərin və sufilərin adətidir və insanı məqsəddən daim uzaqlaşdırır. Hətta bir şəxs saqqalını qırxmamağa və ət yeməməyə adət etsə, imamların ismətinə iman gətirmiş olsa belə, həmçinin zikrin keyfiyyətində də mə'sum imamlardan (ə) nəql edilənlərdən başqasına

[1] "Rövzətil müttəqin", 13-cü cild, səh.128

əməl edərsə, başa düşməlidir ki, yenə də Allahdan uzaqlaşacaqdır. Buna əsasən, şərif şəriəti hər şeydən qabağa salmalı və ona əməl etməyə cidiyyət göstərməlidir. Şəriətdə diqqət yetirilən hər şeyə, eləcə də bu zəif bəndənin əqli və nəqli dəlillərdən əldə etdiyinə görə, Allah dərgahına yaxınlaşmaq üçün mövcud olan yolların ən mühümü günahı tərk etməkdə ciddi sə'y göstərməkdir. Bu xidməti etməyincə nə zikrin, nə də fikrin qəlbin halına faydası olmayacaqdır. Çünki, Sultanı inkar edib ona qarşı çıxan bir şəxsə xidmət və peşkəş etmək faydasızdır. Bilmirəm hansı sultan əzəmətli şəriət sahibi olan bu Sultandan böyükdür?! Hansı ədavət onunla olan ədavətdən daha qəbahətlidir?!

Sənə xatırlatdıqlarımdan başa düş ki, ilahi məhəbbəti tələb etdiyin halda günaha düçar olmağın nalayiq bir işdir. Ciddi şəkildə günahın nifrətə səbəb olması və nifrətin də məhəbbətlə zidd olmasını bildiyin halda bilməmisən ki, günahı tərk etmək dinin həm əvvəlidir, həm də axırı. Həm batinidir, həm də zahiri. Belə isə, günahlara qarşı cihada qalx, bütün sə'ylərini toplayıb sübh yuxudan durduğun vaxtdan, axşam yatdığın vaxta qədər bütün anlarda ciddiyyətlə müraqibəyə (özünə nəzarətə) məşğul ol. Haqq-Təalanın müqəddəs hüzurunda ədəb qaydalarına riayət et. Bil ki, sən bütün vücudunun hissələri ilə belə zərrə-zərrə Onun qüdrəti dairəsində əsirsən. Onun hüzurunun şərif hörmətinə riayət etməlisən. Elə ibadət et ki, sanki Onu görürsən, sən Onu görməsən də O səni görür. Daim Onun əzəmətinə, özünün isə həqir və zəlilliyinə, Onun yüksək məqamına, özünün alçaq məqamına, Onun izzətinə, özünün zillətinə, Onun qəniliyinə, özünün isə başdan-ayağa ehtiyaclığına diqqət yetir. Onun müqəddəs dərgahından qafil olma. Çünki O, həmişə sənə diqqət yetirir. Onun hüzurunda zəlil və zəif bir bəndənin dayandığı kimi dayan. Onun hüzurunda, şahın ayaqlarına düşüb yalvaran bir qul kimi ol. Şərəf və fəxr baxımından sənə elə bu kifayətdir ki, sənə bu çirkin və aludə, günah nəcasətinə bulaşdırdığın, günah çirkləri ilə aludə etdiyin dilinlə Onun əzəmətli adını zikr etmək icazəsi veribdir.

Ey Əziz! Bu kərim və rəhim Allah dili nur dağının, yə'ni şərif zikrin xəzinəsi qərar vermişdir. Sultanın xəzinəsini nəcasətlə, qeybət, yalan, söyüş, əziyyət və s. kimi günahlarla aludə etməyin bihəyalıqdır. Sultanın xəzinəsi ətirli, gülablı olmalıdır, nəcasətlə dolu yox!. Şübhəsiz, müraqibət zamanı diqqətsiz olduğundan sənin yeddi üzvün – yə'ni gözün, dilin, qulağın, əlin, ayağın, bətnin və fərcin nə qədər günah etdiyini, nə qədər od yandırdığını bilmirsən!!! Bilmirsən ki, öz dilində nə qədər fəsad işlər törətmisən! Öz dilinin inkarçı qılıncı ilə qəlbinə necə yaralar vurmusan! Əgər öldürməmiş olsan, çox yaxşıdır.

Əgər bu fəsadları şərh etmək istəsəm, bir kitaba sığmaz. Bu halda bir vərəqdə, bir səhifədə nə yaza bilərəm?! Sən ki, öz bədən üzvlərini günahlardan təmizləməmisən, qəlbinin əhvalını şərh etməyimi nə cür gözləyə bilərsən?! Belə isə, dərhal sidq ürəkdən tövbə et, sonra isə Allahın əmr və fərmanlarına ciddi yanaşıb müraqibəni (nəfsə nəzarəti) tezləşdir.

Bir sözlə, müraqibə mərhələsində çalışdıqdan sonra, əlbəttə, Allah dərgahına yaxınlığı tələb edən şəxs səhər çağları oyaq qalıb gecə namazı qılmağı əldən verməz. Gecə namazını özünün məxsus ədəbləri və hüzuri-qəlb ilə qıl. Əgər vaxtın çox olsa, həmin vaxtı zikr, münacat və təfəkkürə sərf et. Lakin gecənin məxsus bir qədərini hüzurla zikrə məşğul ol. Bütün hallarda (günahlar barədə) hüznü qəlbindən çıxartma. Əgər hüznün yoxdursa, səbəbləri ilə onu əldə et. Onu qurtardıqdan sonra Fatimeyi Zəhranın (s.ə) zikrini de, "Tövhid" surəsini on iki dəfə oxu, sonra on dəfə **"la ilahə illəllahu vəhdəhu la şərikə ləh ləhul-mulk"** ayəsini axıra qədər oxu, yüz dəfə "la ilahə illəllah", yetmiş dəfə istiğfar et və Qur'andan bir qədər tilavət et. Səhərin məşhur dualarını, yə'ni "Ya mən dələə lisanəs-səbah"-ı axıra qədər oxu. Həmişə dəstəmazlı ol. Həmişə dəstəmaz alandan sonra iki rək'ət namaz qılsan çox yaxşıdır. Çox ehtiyatlı və ayıq ol ki, başqalarına heç bir vəch ilə əziyyət verməyəsən. Müsəlmanların, xüsusilə alimlərin, onların içində də təqvalıların hacətlərinin rəva olunmasında ciddi çalış. Günaha düşmə ehtimalı verilən hər bir məclisdən, əlbəttə ki, uzaq ol! Hətta qəflət əhli ilə oturub-durmaq da, zərurət halından başqa, zərərlidir, günahdan uzaq olsa belə. Çoxlu öyünmək, çox zarafat etmək, boş-boş sözlər danışmaq, boş sözlərə qulaq asmaq qəlbi öldürür.

Əgər müraqibə olmadan zikrə və fikrə məşğul olsan, hal yarada bilsə də, faydasız olacaqdır. Çünki hal davamlı olmur. Müraqibə olmadan zikrin gətirdiyi hala aldanmaq olmaz. Çox taqətim yoxdur, sizin hamınızdan çox-çox iltimasi-duam vardır. Təqsiri və günahı çox olan bu həqir bəndəni unutmayın. Cümə gecələrində "Qədr" surəsini yüz dəfə və cümə günləri axşam çağı yüz dəfə oxuyun.[1]

## *MIRZƏ CAVAD AĞA TƏBRIZININ GÖSTƏRIŞI*

Rəbbani alim, kamil arif mərhum Mirzə Cavad Ağa Məliki Təbrizi belə yazır:

---

[1] "Təzkirətul-müttəqin", səh.207

«Peyğəmbəri-Əkrəm (s.ə.v.v) səcdənin uzadılması barəsində tə'kidli göstərişlər vermişdir. Bu da çox mühüm bir məsələdir. Uzun səcdə bəndəlik etmək istəyənlərin ən yaxın yoludur və məhz həmin cəhətə də görə hər rəkət namazda iki səcdə şər'i qanun halına salınmışdır. İmamların (ə) və onların şiələrinin uzun-uzadı səcdələri barəsində mühüm mətləblər nəql olunmuşdur. İmam Səccadın (ə) namazlarının birində səcdədə min dəfə **"la ilahə illəllahu həqqən həqqa, la ilahə illəllahu təəbbudən və rəqqa, la ilahə illəllahu imanən və sidqən"** cümləsini dediyi qeydə alınıb. İmam Museyi Kazimin (ə) barəsində yazırlar ki, bə'zən onun səcdəsi sübhdən zöhrə qədər davam edirdi. İmamların (ə) səhabələrindən ibn Əbi Ümeyr, Cəmil, Xərribuzdan da həmin mətləbin oxşarı nəql edilmişdir.

Nəcəfi Əşrəfdə təhsil aldığım dövrlərdə mənim bir ustadım var idi. O, təqvalı tələbələrin müraciət yeri idi. Ondan soruşdum: «Hansı əməli təcrübədən çıxarmısınız ki, təkamül yolçusunun halına daha tə'sirli olsun?» Buyurdu: «Hər gecə-gündüzdə uzun bir səcdə yerinə yetir və səcdə halında **"la ilahə illa ənt, subhanəkə inni kuntu minəz-zalimin"** cümləsini de və zikr halında buna diqqət yetir ki, Pərvərdigarım elə pak və münəzzəhdir ki, mənə azacıq belə, zülmü rəva görməz, əksinə özümə zülm edən mən özüməm və özüm özümü belə bir həlakət uçurumuna atmışam.»

Mənim ustadım hörmət etdiyi şəxslərə bu səcdəni tövsiyə edirdi. Hər kəs onu yerinə yetirirdisə, xüsusilə bu səcdəni daha çox uzadan şəxslər, tə'sirini əməldə müşahidə edirdi. Onlardan bə'ziləri o zikri min dəfə, bə'ziləri az bə'ziləri daha artıq təkrar edirdilər. Eşitmişdim ki, onlardan bə'ziləri bu zikri səcdədə üç min dəfə təkrar edirdilər.[1]

## *ŞEYX NƏCMƏDDININ GÖSTƏRIŞLƏRI*

Şeyx Nəcməddin Razi yazır: «Bil ki, şəraitinə və ədəbinə malik olmayan zikr demək çox faydalı olmaz. Əvvəlcə tərtib, adab və şərtləri ilə başlamaq lazımdır. Sadiq mürիddə bu yolu keçmək məqsədi yaransa, bu onu göstərir ki, zikrlə ünsiyyət tutmuşdur. Bu zaman o, məxluqdan vəhşət hissi keçirib hər bir şeydən üz döndərməli, zikrə pənah aparmalıdır ki, "Qulillahu summə zərhum fi xovzihim yəl'əbun". Zikrə davam edərsə, gərək günahlardan

---

[1] "Əl-muraqibat", səh.122

nəsuh (qəti) tövbəsi ilə tövbə edib haqqa qayıtsın və zikr deyən zaman əgər imkanı olsa, qüsul etsin, əks halda isə dəstəmaz alsın. Çünki zikr etmək eynilə düşmənlə mübarizə aparmaqdır, özü də silahsız şəkildə. Çünki silahsız mübarizə aparmaq çox çətindir, **“Dəstəmaz mö’minin silahıdır”**.

Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) sünnəsinə uyğun olaraq pak-pakizə paltarlar geysin. Paltarın paklığının dörd şərti var: «Birincisi nəcasətdən pak olması, ikincisi, qəsbi olmaqdan pak olması, üçüncüsü, haramdan pak olsun, yə’ni, ipəkdən olmasın. Dördüncüsü, Peyğəmbər (s.ə.v.v) sünnəsinə görə qısa olsun ki, **“və siyabəkə fətəhhir – libasını pakla.”** Evi (atrıq əşyalardan) boşaldıb qaranlıq etsin və təmizləsin. Əgər bir qədər ətir verən şey yandırsa, daha yaxşı olar. Üzü qibləyə otursun, hər bir vaxtda diz üstə oturmaq nəhy olunur, yalnız zikr vaxtı icazə verilir. Mərhum Xacə sübh namazından sonra gün çıxana qədər diz üstə oturub zikr deyərdi.

Zikr deyərkən əllərini budunun üstünə qoysun, hüzuri-qəlb tapsın və tam tə”zimlə **“la ilahə illəllah”** kəlməsini deməyə başlasın. **“La ilahə”** kəlməsi boğazdan çıxanda **“illəllah”** qəlbə ensin. Elə desin ki, zikrin tə’siri və qüvvəsi bütün üzvlərə çatsın. Lakin səsini çox ucaltmasın və bacardığı qədər sakit və gizli yerdə olsun. Belə ki, buyurmuşlar: “Vəzkur Rəbbəkə fi nəfsikə təzərruən və xifyətən və dunəl-cəhri minəl qovl.”

Buna əsasən, zikri dalbadal desin, qəlbində onun mə’nasını düşünsün və başqa fikir və xatirələri başından çıxartsın. Belə ki, “la ilahə” kəlməsində qəlbə gələn hər növ fikirləri inkar edir, yə’ni, Allahdan başqa heç bir şeyi istəmir, Ondan başqa heç bir məqsədi və məhbubu olmur. Beyinə gələn bütün fikirlər “la ilahə” kəlməsi ilə inkar olunur. “İlləllah” kəlməsi ilə Allah Təalanı yeganə məqsəd, məhbub və istənilən ünvanı ilə isbat edir. Hər vaxt qəlbinə nəzər salsa, qəlbin meyl etdiyi əlaqəli olduğu hər bir şeyi nəzərinə alsın və qəlbini boşaltdıqdan sonra Allaha tapşırsın; “La ilahə” kəlməsi ilə o meylləri aradan aparsın və həmin şeyin məhəbbətini qəlbindən tamamilə çıxartsın. “İlləllah” kəlməsi ilə haqq məhəbbətini o məhbbətin yerinə keçirsin.

Bu tərtiblə davam etsin ki, qəlbi getdikcə məhbublardan və mə’luflardan (ünsiyyət və ülfət tutulan şeylərdən) boşaltsın. Zikri davam etdirsin. Özünü «ehtizaz» vəziyyətinə salsın. «Ehtizaz» odur ki, zikrin qələbəsi ilə zakirin (zikr edənin) varlığı zikrin nurunda məhv

olub aradan getsin və zikr onun vücudundan meylləri və pərdələri götürsün, onu cismaniyyət dünyasından və ruhaniyyətin axırından yüngülləşdirsin. Belə ki, buyurulur: "Siru fəqəd səbəqəl-mufrədun." Seyr edin, həqiqətən müfrədlər qabağa keçmişlər."

Bil ki, qəlb Allah-Təalanın hazır olduğu gizli bir məkandır ki, **"La yəsəuni ərzi və la səmai və innəma yəsəuni qəlbu əbdiyəl-mu'min. Nə yerlər, nə də səmalar Mənə özündə yer verə bilmədi, Mənə yalnız mö'min bəndəmin qəlbi özündə yer verə bildi."** "Nə qədər ki, qəlb hərəmində başqaları izdiham yaradır, izzət qeyrəti başqasından izzət tələb edər." Lakin "la ilahə" cümləsi qəlb hərəmini başqalarının izdihamından boşaltdığı zaman "illəllah" sultanının təcəlli etdiyi qədəmlərin intizarı çəkilər ki, **"iza fərəğtə fənsəb və ila Rəbbikə fərğəb."**[1]

Gördüyünüz kimi, irfan alimləri zikri davam etdirməyi insanı təkamülə aparan yolların ən yaxşısı hesab edirlər. Onlar bu yolu müxtəlif yollarla qət edib ötməyi təcrübə və tövsiyə etmişlər. Çünki, şəriətdə gəlib çatan zikrlərin hamısı zikrin qanun halına salınmasının əsl hədəfinə, yə'ni Allahdan başqalarından qırılıb Allaha tam diqqət yetirməyə zəmanət verir. Bu zikrlər ayrı-ayrı fərdlərin vəziyyətləri və məqamları ilə əlaqədar fərqlənir. Təkamül yolçusunun hansı vəziyyətdə və məqamda olması hansı zikrin onun üçün daha münasib və cazibəli olmasından asılıdır. Məhz belə olan halda tərbiyəçi ustad daha mühüm rol ifa edə bilər.

Hədis və dua kitablarında çoxlu zikrlər və dualar nəql olunmuş, onların hər birinin özünəməxsus savabı və xüsusiyyəti bəyan edilmişdir. Zikrlər və dualar ümumi halda iki qismdir: Mütləq (qeydsiz-şərtsiz) və müqəyyəd (müəyyən şeylərlə şərtlənən).

Bə'zi zikrlər üçün məxsus zaman, yaxud xüsusi keyfiyyət, yaxud ədəd tə'yin edilmişdir. Bu barədə təkamül yolçusu imamların (ə) tərəfindən bəyan olunan yolla getməlidir ki, savaba dair məxsus nəticələri görmüş olsun. Lakin bə'zi zikrlər mütləqdir. Yə'ni bu barədə ixtiyar təkamül yolçusunun özünə verilir ki, öz vəziyyət və şəraitinə uyğun olaraq onun sayını, münasib zamanını seçsin və zikri davam etdirsin, yaxud da öz mə'nəvi rəhbərindən və ustadından göstəriş alsın. Siz bu barədə hədis və dua kitablarına müraciət edə bilərsiniz.

Burada iki məsələyə diqqət yetirmək zəruridir:

1.Təkamül yolçusu bilməlidir ki, zikr deməkdə əsas hədəf

---

[1] "Mirsadul-ibad", səh.150

Sübhan Allaha qarşı hüzuri-qəlb, diqqət və halın əldə edilməsidir. Buna əsasən zikrin miqdarı, zamanı və keyfiyyəti seçilərkən bu məsələni diqqət mərkəzində saxlamalı, zikri davam etdirməlidir. Hər vaxt yorulub, rəğbətdən düşürsə, onu boşlamalı, münasib vaxtlarda yenidən başlamalıdır. Çünki Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Qəlb bə'zən iqbal (rəğbət) halındadır, bə'zən isə meylsiz və rəğbətsiz haldadır. Meyl və rəğbət olduqda əmələ başla. Çünki qəlb ikrah halında bir əmələ vadar edilərsə kor olar."**[1]

Əlbəttə, ayrı-ayrı adamların şəxsi vəziyyətləri, məqamları və vaxtları da bu barədə tə'sirlidir.

2-Bilmək lazımdır ki, riyazət və zikrin davamında əsas hədəf nəfsin təkamülü, onun Allah dərgahına yaxınlaşmasıdır və bundan başqa yolla müyəssər ola bilməz. Əgər insan özünün şər'i və ictimai vəzifəsini öhdəsinə alsa, onları yerinə yetirməli və həmin halda da Allaha diqqət yetirib Onu xatırlamalı, mümkün qədər zikr deməlidir. Boş vaxtlarında da zikri davam etdirə bilər. Əgər riyazət və zikrin davam etdirilməsi bəhanəsi ilə öz şər'i məs'uliyyətlərini yerinə yetirməyib guşənişinlik edərsə, bu cür əməl onun Allah dərgahına yaxınlaşmasına səbəb olmayacaqdır.

## *YOLUN MANEƏLƏRI*

Kamal yolunu qət edib ali məqamlara çatmaq çox da asan bir iş deyildir. O, çox mühüm və çətin bir işdir. Bu yolda çoxlu maneələr vardır ki, müridlər onları cihad meydanında özlərinə rəqib bilərək onlara qarşı mübarizə aparmalıdırlar. Əks halda məqsədə çatmayacaqlar.

## *BIRINCI MANEƏ*

## *QABILIYYƏTIN OLMAMASI*

Allah dərgahına doğru mə'nəvi təkamülün, ilahi məqamlara çatmağın ən böyük maneəsi mürid şəxsin nəfsinin qabiliyyətinin olmamasıdır. Günaha batmaq nəticəsində aludə olub qaralan bir qəlb ilahi nurların saçma məkanı ola bilməz. İnsanın qəlbi günah nəticəsində şeytanın əmr mərkəzinə çevrilsə, Allah dərgahına yaxın olan mələklər ora necə nazil ola bilər?!

İmam Cə'fər Sadiq (ə) buyurur: **"İnsan günaha mürtəkib olan**

---

[1] "Biharul-ənvar", 70-ci cild, səh.61

**zaman onun qəlbində qara bir nöqtə yaranır. Əgər günahdan tövbə edərsə, həmin qara nöqtə məhv olub aradan gedir. Əgər günaha davam edərsə, qara nöqtə də tədricən böyüyür. Nəhayət qəlbin hər bir yerini örtür. Belə olan halda bu qəlb sahibi heç vaxt nicat tapmaz."**[1]

İmam Cə'fər Sadiq (ə) buyurur: «Atam belə buyurdu: **"İnsan qəlbi üçün günahdan da pis bir şey yoxdur. Çünki günah qəlblə müharibəyə başlayır, nəticədə, ona qələbə çalır. Belə olduqda qəlb tərsinə çevrilir."**»[2]

Günahkar şəxsin qəlbi tərsinə çevrilir və öz yolunun əksinə hərəkət edir. Belə olan halda Allah dərgahına necə yaxınlaşa bilər və ilahi nuru necə əxz edə bilər?! Deməli, mürid insana vacibdir ki, əvvəlcə nəfsini saflaşdırsın, günahlardan təmizlənməyə çalışsın. Məhz bundan sonra riyazət və zikrə başlasın. Əks halda onun zikr və ibadətdəki sə'yləri və fəaliyyətləri onu Allah dərgahına yaxınlaşdırmayacaqdır.

## *IKINCI MANEƏ*

## *DÜNYƏVI BAĞLILIQLAR*

Bu yolun ən böyük maneələrindən biri maddi və dünyəvi bağlılıqlardır. O cümlədən, mal-dövlətə, həyat yoldaşına, övladlara, evə, həyat-məişət vasitələrinə, mənsəbə, məqama, rəyasətə, ata-anaya, qardaşa, bacıya, hətta elm və biliyə olan bağlılıq buna misal ola bilər. Bu cür bağlılıqlar insanı mə'nəvi yüksəliş yolundan və hərəkətdən saxlayır.

Maddi varlıqlara könül verib onlara məftun olan qəlb onlardan necə əl çəkə bilər və yüksək aləmlərə necə seyr edə bilər?! Dünyəvi işlərin mərkəzi olan bir qəlb ilahi nurların saçmasına necə ləyaqəti çatar?! Bundan əlavə, hədislərə uyğun olaraq dünya məhəbbəti bütün günahların mənşəyidir və günahkar insan Allah dərgahına yüksəliş yolunu ötüb keçə bilməz.

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Dünyaya məhəbbət bütün günahların mənşəyidir."**[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"İnsanın Allah qarşısında günah etməsinin altı səbəbi var: Dünyaya bağlılıq, rəyasətə bağlılıq, qadına bağlılıq, yeməyə bağlılıq, yatmağa**

---

[1] "Biharul-ənvar", 73-cü cild, səh.328
[2] "Biharul-ənvar", 73-cü cild, səh.312
[3] "Biharul-ənvar", 73-cü cild, səh.90

**bağlılıq və rahatlığa bağlılıq."**[1]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Bəndənin Allahdan ən uzaq olan vaxtı odur ki, qarnını doyurmaqdan, şəhvət hisslərini tə'min etməkdən başqa bir məqsədi olmasın."**[2]

Cabir deyir: «İmam Məhəmməd Baqirin (ə) hüzuruna getdim. O, mənə buyurdu:

-Ey Cabir! Mən qəm-qüssəliyəm, qəlbim məşğuldur.

Ərz etdim:

-Sənə fəda olum, sənin qəm-qüssəli və məşğul olmağına səbəb nədir?

Buyurdu:

-Allahın saf və xalis dini hər kəsin qəlbinə daxil olsa, qəlbi Allahdan başqa şeylərdən təmizlənər. Ey Cabir! Dünya nədir?! Nə dəyəri vardır?! Görəsən bir tikə yeyilməlidən, geyilməli paltardan, evləniləcək qadından da başqa bir şeydən ibarətdirmi? Ey Cabir! Mö'minlər dünyaya və onun həyatına e'timad etməzlər. Axirət aləminə daxil olmaqdan özlərini amanda görməzlər. Ey Cabir! Axirət əbədi dünya, dünya isə keçid yeridir. Lakin dünya əhli bu məsələdən qafildirlər. Mö'minlər düşüncə, təfəkkür və ibrət əhlidirlər. Qulaqlarına çatan şeylər onları Allahın zikrindən yayındırmır, dünyanın qızıl-gümüşünü (bər-bəzəyini) görmək onları Allahdan qafil etmir. Onlar axirətin savabını dərk edib ona çatırlar."[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"İnsan imanın şirinliyini yalnız o zaman dada bilər ki, dünya yeməklərinə e'tinasız yanaşsın."**[4]

Deməli, təkamül yolçusu bu əlaqə və bağlılıqları öz qəlbindən çıxarmalıdır ki, yüksək mə'nəvi, ilahi məqamlara doğru hərəkət etmək onun üçün müyəssər olsun. Dünya işlərinin fikrini qəlbindən çıxarsın ki, onun yerinə Allahın zikri keçsin.

Qeyd olunmalıdır ki, hədislərdə məzəmmət olunan şey dünyəvi işlərin özləri yox, onlara qəlbən bağlılıq və ona məftun olmaqdır. Təkamül yolçusu sair insanlar kimi, öz həyatını davam etdirmək üçün yeməyə, geyməyə, məskənə, həyat yoldaşına ehtiyacı var və bu kimi ehtiyacları o, hökmən tə'min etməlidir.

---

[1] "Biharul-ənvar", 73-cü cild, səh.94
[2] "Biharul-ənvar", 73-cü cild, səh.18
[3] "Biharul-ənvar", 73-cü cild, səh.36
[4] "Biharul-ənvar", 73-cü cild, səh.49

Nəslin davam etməsi üçün insan evlənməlidir, cəmiyyətin həyatını idarə etmək üçün müəyyən ictimai məs'uliyyətləri qəbul etməlidir. Məhz buna görə də müqəddəs islam şəriətində bunların heç biri məzəmmət olunmamışdır, əksinə, onların hər biri qürbət qəsdi ilə yerinə yetirilərsə, ibadət hesab olunur və insanı Allah dərgahına yaxınlaşdırır. Bunların özləri insanın mə'nəvi yüksəlişinə maneə, Allahın zikrindən qafilliyə səbəb olmaz. Maneə bu kimi dünyəvi işlərə bağlılıq və məftun olmaqdır. Əgər bu işlər həyatda əsas məqsədə çevrilsə, insanın bütün fikrini-zikrini özünə məşğul etsə, onda bunun ardınca Allahdan qafil olmaq gəlir. Pulpərəstlik, qadın və vəzifə düşkünlüyü, məqampərəstlik, elmpərəstlik məzəmmət olunur və insanı Allah dərgahına seyr etməkdən saxlayır, amma pul, məqam, elm özü isə öz-özlüyündə belə deyildir.

Məgər Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Əmirəl-mö'minin (ə), İmam Səccad (ə) və sair imamlar (ə) çalışıb fəaliyyət etmir və ilahi ne'mətlərdən bəhrələnmirdilərmi? Bu da islamın ən böyük məziyyətlərindən biridir ki, həm dünya, həm də axirət işləri üçün müəyyən hədd-hüdud tə'yin etmişdir.

## *ÜÇÜNCÜ MANEƏ*

## *HƏVAYI-NƏFSƏ TABE OLMAQ*

Üçüncü maneə nəfsani meyllərə (həvayi-nəfsə) tabe olmaqdır. Nəfsani istəklər qatı tüstü kimi qəlb evini qaraldır. Belə bir qəlbin ilahi nuraniyyəti qəbul etməyə ləyaqəti çatmır. Həva-həvəslər daimi olaraq qəlbi o tərəfə bu tərəfə sürükləyir, onun rahat və asudə olmasına, Allahla xəlvət etməsinə, Onunla ünsiyyət yaratmasına imkan vermir. Gecə-gündüz nəfsani istəklərini tə'min etməyə çalışır. Belə bir şəxs nə vaxt dünyadan hicrət edərək Müqəddəs Dərgaha yaxınlaşa bilər?!

Mütəal Allah Qur'ani-Kərimdə buyurur: **"Həvayi-nəfsə itaət etmə, çünki o, səni Allah yolundan saxlayar."**[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Camaatın ən şücaətlisi odur ki, öz həvayi-nəfsinə qələbə çalsın."**[2]

---

[1] "Sad" surəsi, ayə:26

[2] "Biharul-ənvar", 70-ci cild, səh.76

## *DÖRDÜNCÜ MANEƏ*

## *ÇOX YEMƏK*

Allahı daim yad və zikr etməyin maneələrindən biri də çox yemək, və qarınquluTuluqdur. Daim yaxşı və ləzzətli yeməklər hazırlayıb qarnını müxtəlif yeməklərlə doldurmaq istəyən bir şəxs Allahla necə xəlvət edib Onunla ünsiyyət yaradıb raz-niyaz edə bilər?! İnsan dolu qarınla ibadət və dua halını necə əldə edə bilər?! Ləzzəti yalnız yemək-içməkdə görən bir şəxs Allahla münacatın ləzzətini nə vaxt dada bilər?! Buna görə də islamda çox yemək, qarınquluTuluq məzəmmət olunmuşdur.

İmam Cə’fər Sadiq (ə) Əbu Bəsirə buyurdu: **“Qarın çox yemək nəticəsində tüğyan edir. Bəndənin Allaha ən yaxın olduğu vaxt qarnının boş olduğu, ən uzaq vaxtı da qarnının dolu olduğu vaxtdır.”**[1]

O Həzrət (ə) yenə buyurur: **“Mütəal Allah qarınqululuğu məzəmmət etmişdir.”**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Qarınqululuq etməyin, çünki o, sizin qəlbinizdəki mə’rifət nurunu söndürər.”**[3]

İmam Cə’fər Sadiq (ə) bir hədisdə buyurur: **“Mö’min şəxsin qəlbi üçün çox yeməkdən də ziyanlı bir şey yoxdur. Çox yemək qəlbin qəsavətli olmasına, şəhvətin təhrik olunmasına səbəb olur. Aclıq mö’minin yeməyi, ruhunun qidası, qəlbinin təamı və bədəninin sağlamlığıdır.”**[4]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Allah bir bəndənin məsləhətini istədikdə ona az danışmağı, az yeməyi, az yatmağı ilham edər.”**[5]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) yenə buyurur: **“Aclıq– nəfsin (istəklərinin) nəzarət altına alınmasına və adətlərin pozulmasına ən yaxşı köməkdir.”**[6]

Əmirəl-mö’minin Əliyyibni Əbitalibdən (ə) rəvayət olunur ki, Mütəal Allah me”rac gecəsi Peyğəmbərə (s.ə.v.v) buyurdu: **“Ey**

---

[1] “Vəsailuş-şiə”, 16-cı cild, səh.405
[2] “Vəsailuş-şiə”, 16-cı cild, səh.407
[3] “Müstədrəkul-vəsail”, 3-cü cild, səh.81
[4] “Müstədrəkul-vəsail”, 3-cü cild, səh.80
[5] “Müstədrəkul-vəsail”, 3-cü cild, səh.81
[6] “Müstədrəkul-vəsail”, 3-cü cild, səh.81

**Məhəmməd! Kaş, aclığın, sükutun və xəlvət yerdə olmağın şirinliyini, onların əsərlərini dadaydın!”** Rəsuli-Əkrəm (s.ə.v.v) ərz etdi: **“Pərvərdigara! Aclığın faydası nədir?”** Mütəal Allah buyurdu: **“Hikmət, qəlbin hifz olunması, Mənə yaxınlıq, daimi hüzn, az xərc etmək, haqq danışmaq, çətinlikdə, yoxsa rifahda olmasının heç bir fərqi olmaması.”**

Bəli, Allah yolunun yolçusu sair insanlar kimi yaşayıb həyatını davam etdirmək və ibadətə qüvvə almaq üçün qidaya ehtiyac duyur. Amma o, bədəninin ehtiyaclarını tə’min edəcək miqdarda yemək yeməli, qarınquluqdan ciddi şəkildə uzaq olmalıdır. Çünki həddindən artıq çox yemək və qarınquluq halsızlığa, ibadətə rəğbətsizliyə, qəlbin qəsavət bağlamasına və Allahdan qafil olmağa səbəb olur. Bunun əksinə olaraq az yemək və aclıq insanın yüngül olmasına, ibadət etmək və Allaha diqqət yetirməkdə hazırlığına səbəb olur və bu məsələ də tamamilə müşahidə olunur. İnsan ac olan halda ruhi səfaya, nuraniyyətə, xoşluğa malik olur ki, dolu qarınla heç vaxt belə vəziyyətlərə malik olmur. Deməli, təkamül yolçusu bədənin ehtiyacı qədər yeməli, xüsusilə zikr, dua və ibadət hallarında ac olmalıdır.

## *BEŞINCI MANEƏ*

## *ZƏRURI OLMAYAN SÖZLƏR DANIŞMAQ*

İnsanı Allah dərgahına yaxınlaşmaqdan saxlayan, hüzuri-qəlb yaranmasına mane olan səbəblərdən biri də faydasız, zəruri olmayan sözlər danışmaqdır.[1]

Mütəal Allah insana nitq qüvvəsi vermişdir ki, öz ehtiyaclarını aradan qaldırsın. Əgər ehtiyac qədərində danışarsa, bu böyük ne’mətdən düzgün istifadə etmiş olur. Amma əbəs, zəruri olmayan işlərə sərf edərsə, Allahın bu böyük ne’mətini zay etmiş olur. Bundan əlavə, çox danışmaq, hətərən-pətərən sözlər demək insanın fikrini pərakəndə və pərişan edir, nəticədə, Mütəal Allaha diqqət yetirib hüzuri-qəlb tapa bilmir. Məhz buna görə də çox və faydasız sözlər danışmaq hədislərdə məzəmmət olunmuşdur. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Çox danışmaqdan çəkinin, yalnız Allah zikrindən başqa. Çünki çox danışmaq – Allah zikrindən başqa – qəlbin qəsavətli olmasına (bərkiməsinə) səbəb olur.**

[1] “Müstədrəkul-vəsail”, 3-cü cild, səh.82

**Allahdan ən çox uzaq olan insanlar qəlbi qara olanlardır.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Dilini saxla və sözlərini say ki, xeyir deməkdən başqa bir sözün olmasın.”**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Danışıq üç cürdür: Faydalı danışıq, sağlam danışıq və faydasız danışıq. Faydalı danışıq Allah zikrindən ibarətdir. Sağlam danışıq Allah tərəfindən sevilən danışıqdır. Faydasız danışıq isə camaat barəsində deyilən əbəs (lazımsız) sözlərdir.”**[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) yenə buyurur: **“Dilini saxla. Çünki bu, nəfsin üçün ən yaxşı hədiyyədir. (Sonra buyurdu:) İnsan yalnız dilini saxlamaqla imanın həqiqətinə nail olar.”**[4]

İmam Riza (ə) buyurur: **“Üç şey dərrakə və düşüncənin nişanələrindəndir: Səbirli olmaq, elm, sükut. Sükut hikmət qapılarından olan bir qapıdır. Sükut məhəbbətə səbəb olur və hər bir xeyrə yol göstərir.”**

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Əql kamil olduqca söz (danışıq) azalar.”**[5]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Heç bir ibadət sükutdan və Allah evinə (həccə) piyada getməkdən fəzilətli deyildir.”**[6]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Əbuzərə buyurdu: **“Sənə uzun müddətli sükutu tövsiyə edirəm, çünki bu vasitə ilə şeytan səndən uzaqlaşar. Sükut dini qorumaq üçün yaxşı bir köməkdir.”**[7]

Bir sözlə, Allah dərgahına doğru seyr etmək istəyən şəxsə vacibdir ki, öz dilini tamamilə nəzarət altına alsın və ölçülüb-biçilmiş söz danışsın, çox danışmaqdan ciddi şəkildə uzaq olsun, dünyəvi işlər barəsində onun həyatı üçün zəruri olan miqdarda danışsın. Bunun əvəzində dilini zikr, elmi və faydalı mətləblərə, ictimai məsələlərə məşğul etsin.

Böyük ustadımız rəbbani arif əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbai (rəhmətullahi əleyh) buyururdu: «Mən sükutdan çox dəyərli

---

[1] “Biharul-ənvar”, 71-ci cild, səh.281
[2] “Biharul-ənvar”, 71-ci cild, səh.281
[3] “Biharul-ənvar”, 71-ci cild, səh.289
[4] “Biharul-ənvar”, 71-ci cild, səh.298
[5] “Biharul-ənvar”, 71- ci cild, səh.290
[6] “Biharul-ənvar”, 71-ci cild, səh.278
[7] “Biharul-ənvar”, 71-ci cild, səh.279

nəticələr müşahidə etdim. Qırx gecə-gündüz sükut edin, zəruri olan işlərdən başqa bir şey danışmayın, fikr (təfəkkür) və zikrə məşğul olun ki, sizin üçün qəlbi səfa və nuranilik hasil olsun.»

## *ALTINCI MANEƏ*

## *ÖZÜNÜ SEVMƏK*

Təkamül yolçusu bütün bu maneələri aradan qaldırdıqdan, bütün mərhələləri qət etdikdən sonra daha böyük bir maneə ilə qarşılaşır ki, o da özünü sevməkdir. O, məhz bu zaman anlayır ki, onun bütün əməlləri, hərəkətləri, hətta ibadətləri belə, özünü sevməkdən qaynaqlanır. İbadət, riyazət, zikr, dua, namaz və oruc öz nəfsinin kamala yetirməsi, axirət mükafatını alması üçündür ki, bu da onun nəfsinə qayıdacaqdır. Belə ibadətlər, insanı behiştə və axirət savabına çatdırmasına baxmayaraq, gözəl məqam olan zikr, şühud və liqa məqamına yüksəltməyəcəkdir. İnsan zat məqamından, nəfsi sevmək mərhələsindən çıxmayınca Mütəal Allahın misilsiz camalını müşahidə etməyəcək. O, bütün hicabları, hətta nəfsin hicablarını yırtmayınca, İlahi nurların onun qəlbinə saçmasına ləyaqət tapmayacaqdır.

Deməli, Bu yolun yolçularına zəruridir ki, cihad və riyazətlə özlərini zatını sevmək hüdudlarından çıxarsınlar, özünü sevməyi Allahı sevməyə çevirsinlər, bütün işlərini yalnız Allahın razılığı üçün yerinə yetirsinlər. Yemək yeməsi yalnız Allaha yetişmək üçün olsun, ibadət etməsi Allahı ibadət və pərəstişə layiq gördüyü üçün olsun. Belə bir insan nə dünyanı istəyir, nə də axirəti. Əksinə, yalnız Allahın Özünü istəyir. Hətta şühud, kəşf və kəraməti də istəmir. Həqiqi mə''buddan başqa heç bir şeyi nəzərində canlandırmır. Əgər son dərəcə çətin olan bu mərhələdən də keçsə, tövhid meydanına qədəm qoyaraq, çox dəyərli liqa, şühud mərtəbəsinə yüksələ və **"fi məq"ədi sidqin ində Məlikin muqtədir"**[1] dərgahına yüksələ bilər.

## *YEDDINCI MANEƏ*

## *IRADƏNIN ZƏIFLIYI*

Bu yolun bəlkə də ən mühüm maneələrindən biri iradənin zəifliyi, qəti qərara gəlməyə dair qüdrətin olmamasıdır. Bu maneə insanı ilk əvvəldən əməldən saxlayır. Şeytan və nəfsi-əmmarə ilk əvvəldə

---

[1] Qəmər surəsi, ayə 55.

riyazət, seyri-süluk (kamal yolunu qət etmə) kimi məsələləri kiçik, əhəmiyyətsiz və qeyri-zəruri məsələlər kimi qələmə verir və çalışır ki, insanı hüzuri-qəlb olmadan, sadəcə zahiri vəzifələri yerinə yetirməklə, qane etsin. O deyir: «Sənin bu vəzifə və ibadətləri yerinə yetirməkdən başqa vəzifən yoxdur, hüzuri-qəlblə, diqqət və zikrlə nə işin var?!» Bə'zən bu fikirlərə düşsə də belə yüzlərlə hiylə və məkrlə onun iradəsini zəiflədir. Bə'zən, bu mövzunu o qədər çətin nəzərə çarpdırır ki, tamamilə mə'yus olur.

Lakin mürid bir insan şeytanın vəsvəsələrinin və nəfsi-əmmarənin istəklərinin qarşısında sinə gərməli, Qur'an ayələrinə, Əhli-beyt (ə) hədislərinə, mə'rifət və əxlaq kitablarına müraciət etməklə seyri-sülukun, hüzuri-qəlbi əldə etməyin, zikr və şühudun dəyərinə vaqif olur. Bunların dəyərinə agah olduqdan, özünün əbədi səadətini onda gördükdən sonra tam ciddiyyətlə əməl məqamına gəlir. Özündə ümidsizliyə əsla yol vermir, öz nəfsinə xitab edərək deyir: «Bu yol çətin olsa da, mənim gələcək səadətim ona bağlıdır, əmələ başlamalıyam, çünki, Allah-Təala buyurur: **"O kəslər ki, Bizim yolumuzda cihad edərlər, onları Öz yolumuza hidayət edərik."**»[1]

Bizim ruhi-mə''nəvi təkamül və Allah dərgahına yaxınlaşmağımızın ilk vasitəsi olan Allah zikri ilə əlaqədar söhbətimiz sona çatdı. Buna görə də əziz oxuculardan üzr istəyirik.

## *IKINCI VASITƏ*

## *ƏXLAQI KEYFIYYƏTLƏRIN VƏ INSANI SƏCIYYƏLƏRIN ÇIÇƏKLƏNDIRILMƏSI*

Nəfsin tərbiyə olunub təkmilləşdirilməsi, seyri-süluk və Allah dərgahına yaxınlaşmağın yollarından biri də insanın özündə əxlaqi keyfiyyətləri və insani səciyyələri çiçəkləndirməsidir ki, bunların da kökü insanda qoyulmuşdur. Gözəl əxlaq insanın mələkuti ruhi ilə tam münasib və uyğun olan dəyərlərdən ibarətdir. Onların tərbiyələndirilməsi, pərvəriş edilməsi ilə insanın insaniyyəti daha kamilləşir və nəhayət Allah dərgahına yaxın bir məqama çatır. Mütəal Allahın müqəddəs Zatı bütün kamalların mənşəyidir. İnsan yüksək aləmdən gəldiyindən pak və aludə olmamış fitrəti ilə yuxarı aləmlə münasib olan insani kamalları tanıyır və təbiidir ki, onlara meyl göstərir. Buna görə də bütün dövrlərdə olan insanlar yaxşı əxlaqın o

[1] "Ənkəbut" surəsi, ayə:69

cümlədən ədalət, fədakarlıq, düzlük, əmanətdarlıq, yaxşılıq, şücaət, səbr, dözümlülük, elm, xeyirxahlıq, məhrumları müdafiə etmək, ne’mətlər qarşısında şükr etmək, səxavətli olmaq, əhdə vəfalı qalmaq, Allaha təvəkkül etmək, təvazökarlıq etmək, əfv edib güzəştə getmək, mülayim rəftar etmək, insanlara xidmət etmək və s. kimi xüsusiyyətlərin gözəlliyini dərk etmişlər.

Allah Qur’anda buyurur: **“And olsun nəfsə və onu yaradana, günah və savab işləri ona ilham edib öyrədənə ki, həqiqətən öz nəfsini aludəliklərdən paklayan kəslər nicat tapar, onu xarab edənlər isə ziyankar olar.”**

Əxlaqi işlər təkrar olunduğu zaman nəfsə nüfuz edir və vərdiş halına çevrilərək insan vücudunun bir hissəsinə çevrilir. O, insan ruhunun quruculuğunda, necə olmasında, hətta nə olmasında belə tə’sir göstərir. Məhz buna görə də islam dini əxlaqi məsələlərə xüsusi diqqət yetirmişdir. Əxlaq məsələləri islam dininin böyük bir qismini təşkil edir. Əxlaq barəsində yüzlərlə, minlərlə ayə və hədis deyilmişdir. Qur’an ayələrinin əksəriyyəti əxlaqi göstərişlərdir. Hətta, Qur’anda qeyd olunan hadisələrin və hekayələrin əksəriyyəti əxlaqi səciyyəyə malikdir. Belə ki, Qur’anı əxlaqi bir kitab kimi də nəzərdən keçirmək olar.

Ümumiyyətlə, böyük ilahi peyğəmbərlərin əsas hədəflərindən biri insan nəfslərinin və ruhlarının paklaşdırılması, onlarda gözəl əxlaqi keyfiyyətlərin çiçəkləndirilməsidir. İslam Peyğəmbəri (s.ə.v.v) də öz be”sətinin əsas hədəfini insani kamalların və əxlaqın təkmilləşdirilməsi kimi təqdim edərək buyurur: **“Mən Allah tərəfindən əxlaqi gözəllikləri tamamlamaqdan ötrü göndərilmişəm.”**[1]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) bütün insanlara xitabən buyurur: **“Sizə gözəl əxlaqı tövsiyə edirəm, çünki Sübhan Allah məni həmin məqsədlə məb”us etmişdir.”**[2]

O Həzrət (s.ə.v.v) yenə buyurur: **“Qiyamətdə insanların əməl tərəzisinə gözəl əxlaqdan da fəzilətli olacaq bir şey qoyulmayacaqdır.”**[3]

---

[1] “Müstədrəkul-vəsail”, 2-ci cild, səh.282
[2] “Biharul-ənvar”, 69-cu cild, səh.375
[3] “Kafi”, 2-ci cild, səh.99

## *ÜÇÜNCÜ VASITƏ*

## *SALEH ƏMƏL*

Qur’ani-Kərimdən mə’lum olur ki, imandan sonra saleh əməl nəfsin təkmilləşdirilməsinə, Allah dərgahına yaxınlaşmağa və ali-insani dərəcələrə nail olaraq axirətdə pak-pakizə həyatdan bəhrələnməyə səbəb olur. Qur’anda buyurulur: **“Hər kəs imanı olduğu halda saleh əməl görsə – istər kişi olsun, istərsə də qadın – Biz onu pak-pakizə bir həyatla dirildərik, onlara əməl etdiklərindən daha yaxşı mükafat verərik.”**[1]

Bu ayədən mə’lum olur ki, insan üçün dünya həyatından əlavə, pak-pakizə olan digər bir həyat da vücuda gələ bilər və o da məhz iman və saleh əməlin nəticəsidir. Qur’ani-Kərimdə buyurulur: **“Hər kəs iman və saleh əməllə Allaha tərəf gedərsə... Məhz onlar çox yüksək dərəcələrə və məqamlara nail olarlar.”**[2]

Yenə buyurulur: **“Hər kəs Pərvərdigarı ilə görüşə ümid bəsləyirsə, gərək saleh əməllər görsün və Rəbbinə ibadətdə heç bir (şeyi) Ona şərik qərar verməsin.”**[3]

Yenə buyurulur: **“Hər kəs izzət istəyirsə, (bilməlidir ki,) izzət bütünlükdə Allaha məxsusdur. Pak söz (la ilahə illəllah) Allaha doğru yüksəlir və saleh əməl onu yuxarı aparır.”**[4]

Allah-Təala bu ayədə buyurur ki, bütün izzətlər və qüdrətlər Ona məxsusdur, Onun yanındadır, pak kəlmə, yə’ni, müvəhhid insanın pak ruhu, pak tövhid əqidəsi Allaha doğru yüksəlir, saleh əməl də onu daha da yüksəldən bir vasitədir.

Saleh əməl pak niyyət və ixlasla görülərsə ilə iş görənin nəfsində tə’sir qoyur və onu inkişaf etdirərək təkamülə çatdırır. Qur’andan mə’lum olur ki, axirətin pak-pakizə və gözəl həyatı, Pərvərdigarın dərgahına yaxınlıq və Onunla görüş iman və saleh əmələ bağlıdır. Qur’anda saleh əməlin üzərində çox tə’kid olunur və əbədi səadətin və qurtuluşun yeganə vasitəsi saleh əməl hesab edilir. Əməlin saleh olmasının yeganə me’yarı onun şəriətlə və vəhylə müvafiq, uyğun olmasıdır. Bütün dünyanı yaradan Allah insanın bütün ruhi xüsusiyyətlərini bildiyindən, onun səadət və təkamül yolunu da

---

[1] “Nəhl” surəsi, ayə:97
[2] “Taha” surəsi, ayə:75
[3] “Kəhf” surəsi, ayə:110
[4] “Fatir” surəsi, ayə:10

bilir. O, bu yolları vəhy vasitəsilə Peyğəmbərə (s.ə.v.v) öyrədir ki, insanlara çatdırsın, insanlar da bu yollardan istifadə etsinlər. Allah-Təala Qur’anda buyurur: **“Ey iman gətirənlər, Allah və Onun Rəsulu sizi sizə həyat bağışlayacaq bir şeyə də’vət etdikləri zaman onu qəbul edin.”**[1]

Saleh əməl müqəddəs şəriətdə vacib və ya müstəhəb əməl kimi təqdim edilir. Təkamül yolçusu da onları yerinə yetirməklə bu mərhələləri keçməli, Allah dərgahına yaxınlaşmalıdır. Yol yalnız budur, hər kəs bundan başqasını seçsə, azğınlıqdadır və o, heç vaxt həqiqi məqsədə çatmaz. Təkamül yolçusu Allahın əmr və fərmanlarına qeydsiz-şərtsiz və tam mə’nada müt’i olmalı, seyri-süluk üçün şəriətin göstərdiyi yoldan başqa bir yolu keçməməli, şəriətdə heç bir mənbəyi, əsası olmayan zikrləri deməkdən və hərəkətləri yerinə yetirməkdən ciddi şəkildə uzaq olmalıdır. Çünki, bunlar təkamül yolçusunu nəinki məqsədə çatdırmır, hətta, onu məqsəddən tamamilə uzaqlaşdırır. Çünki şəriətdən kənara çıxmaq bid’ət və günah sayılır.

Təkamül yolçusu ilk mərhələdə ciddiyyətlə çalışmalı, vacibləri və s. dini göstərişləri düzgün şəkildə və şəriətdə mövcud olan qanunlar çərçivəsində yerinə yetirməlidir. Çünki vacib əməlləri tərk etməklə, hətta müstəhəbləri yerinə yetirsə, zikrləri deməklə ciddi fəaliyyət göstərsə belə, yüksək ali məqamlara çata bilməz.

İkinci mərhələdə müstəhəblərə və zikrlərə növbə çatır. Təkamül yolçusu bu mərtəbədə özünün ruhi qüdrət və iste’dadına uyğun olaraq müstəhəb işləri görməlidir. Bu zaman nə qədər çox çalışarsa, bir o qədər də ali məqamlara çata bilər. Müstəhəblərin hamısı fəzilət baxımından bir səviyyədə deyildirlər. Onların bə’ziləri digərlərindən daha üstün olub, insanı Allah dərgahına daha artıq yaxınlaşdıra bilər. Dua və hədis kitablarında bunlara işarə edilmişdir.

Təkamül yolçusu namazları, duaları, zikrləri bu kitablardan seçib onların yerinə yetirilməsinə davamiyyət göstərə bilər. Onları nə qədər çox və daha yaxşı yerinə yetirsə, onun qəlbinə bir o qədər çox səfa və nuraniyyət gələr, daha yüksək mərtəbə və məqamlara yüksələr.

Biz saleh əməllərdən bə’zilərini burada qeyd edir, qalanlarını isə sair kitablara həvalə edirik. Lakin əvvəlcə qeyd etməliyik ki, vacibatlar, nafilələr, zikrlər və dualar o zaman saleh əməl sayılar və insanı Allaha yaxınlaşdırar ki, tam ixlas (xalis niyyət) üzündən yerinə yetirilmiş olsun. Əməlin saleh olması və insanı Allah dərgahına

---

[1] “Ənfal” surəsi, ayə:24

yaxınlaşdırması iş görənin ixlasının miqdarına bağlıdır. Buna görə də əvvəlcə ixlas barəsində söhbət edib sonra isə saleh əməllərdən bə'zilərini qeyd edirik.

## *IXLAS*

İxlas məqamı təkamülün və seyri-süluk mərhələlərinin ən yüksək mərhələsidir. İxlas nəticəsində qəlb ilahi nurların saçmasının mərkəzinə çevrilir. Qəlbdə hikmət və elm çeşməsi qaynamağa başlayır. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Hər hansı bir bəndə qırx gün bütün əməllərini Allah üçün xalis edərsə, hikmət çeşmələri onun qəlbindən dilinə axar."**[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Haradadır əməllərini Allah üçün xalis edənlər, qəlblərini Allahın diqqət mərkəzinə çevirmək istəyərək pak edənlər?!"**[2]

Fatimeyi Zəhra (ə.s) buyurur: **"Hər kəs Allaha tərəf ibadətinin ən xalisini göndərsə, Allah da ən yaxşı məsləhəti onun üçün nazil edər."**[3]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Bəndələrin pak qəlbləri Sübhan Allahın nəzər etdiyi yerlərdir. Hər kəs öz qəlbini paklaşdırsa, Allahın nəzər yetirdiyi yerə çevrilər."**[4]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Cəbrəildən, o da Mütəal Allahdan nəql edir: **"İxlas Mənim sirlərimdən olan bir sirdir ki, sevdiyim bəndənin qəlbində əmanət qoyaram."**[5]

İxlasın müəyyən mərtəbə və dərəcələri vardır. Onun ən aşağı dərəcəsi budur ki, insan bütün ibadətlərini şirkdən, riyadan, özünü göstərməkdən xalis etsin və onları yalnız Allah üçün yerinə yetirsin. İxlasın bu miqdarı ibadətin düzgün olması şərtidir və bu olmazsa, Allah dərgahına yaxınlıq hasil olmaz. Əməlin dəyəri niyyətin paklığına, şirk və riyadan xalis olmağına bağlıdır.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Allah sizin surət və əməllərinizə baxmır, O sizin qəlblərinizə baxır."**[6]

İmam Cə'fər Sadiq (ə) buyurur: «Mütəal Allah buyurur: **"Mən**

---

[1] "Biharul-ənvar", 70-ci cild, səh.242
[2] "Ğurərul-hikəm", səh.157
[3] "Biharul-ənvar", 70-ci cild, səh.249
[4] "Ğurərul-hikəm", səh.538
[5] "Biharul-ənvar", 70-ci cild, səh.249
[6] "Biharul-ənvar", 70-ci cild, səh.248

**ən yaxşı şərikəm. Hər kəs əməldə başqasını Mənə şərik qərar verərsə, hamısını şərikimə həvalə edərəm. Mən yalnız xalis əməli qəbul edərəm."**[1]

O Həzrət (ə) yenə buyurur: **"Allah-Təala qiyamətdə insanları niyyətləri əsasında məhşur edəcəkdir."**[2]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Xoş olsun o kəsin halına ki, ibadət və duasını yalnız Allah üçün yerinə yetirsin, qəlbini gözü sataşan şeylərlə məşğul etməsin, qulağına çatan şeylər vasitəsilə Allahın zikrini unutmasın, başqasına verilən şeylər səbəbi ilə qəmgin olmasın."**[3]

Yenə buyurur: **"Əməldə ixlas adət əlamətlərindəndir."**[4]

O ibadət Allah tərəfindən qəbul edilir və insanın Allah dərgahına yaxınlaşmasına, kamala yetməsinə səbəb olur ki, hər növ riyadan, özünü istəməkdən, özünü göstərməkdən pak olsun, yalnız və yalnız Allah üçün yerinə yetirilsin. Əməlin qəbul olunması və dəyərinin me'yarı ixlasdır. İxlas nə qədər çox olarsa, əməl də bir o qədər kamil və dəyərli olacaqdır. İbadət edənlər bir neçə qrupdur:

1.Allah əzabından, cəhənnəm odundan qorxduqları üçün Allaha ibadət edənlər.

2.Allah ne'mətlərinə, axirət savabına nail olmaq üçün Allahın əmr və nəhylərinə itaət edənlər. Bu kimi məqsədlər əməlin düzgünlüyünə zərər vurmur. Bu kimi şəxslərin əməlləri düzgündür və savaba da səbəb olur. Çünki Qur'anda və hədislərdə camaatın düz yola hidayət edilməsi üçün əsas e'tibarı ilə bu iki üslubdan istifadə edilmişdir. Bundan əlavə, Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və imamlar (ə), eləcə də Allah övliyaları da Allahın əzabından qorxur, dəhşət hissi keçirir, Allahın behişt və ne'mətlərinə ümidvar olurlar.

3.Allahın əta etdiyi ne'mətlərin şükrünü yerinə yetirmək üçün Ona pərəstiş edən kəslər. Belə məqsədin də əməllərin qəbul olma şərti olan ixlasla ziddiyyəti yoxdur. Buna görə də hədislərdə camaatın itaətə təşviq olunması üçün Allahın ne'mətləri xatırladılır ki, onların xatirinə Allahın əmrlərinə itaət etsinlər. Hətta Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və imamların (ə) özləri də bə'zən ibadətdə ciddiyyət göstərmələrini belə izah edirdilər: **"Əfəla və**

---

[1] "Biharul-ənvar", 70-ci cild, səh.243
[2] "Biharul-ənvar", 70-ci cild, səh.209
[3] "Biharul-ənvar", 70-ci cild, səh.229
[4] "Ğurərul-hikəm", səh.43

**əkunu əbdən şəkura – mən Allahın şükr edən bəndəsi olmamalıyammı?!”**

Bu üç qrupun əməllərinin qəbul olunmasına baxmayaraq, üçüncü dəstənin əməli daha artıq imtiyaza, dəyərə malikdir. Çünki onda daha artıq ixlas vardır.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Allaha ibadət edənlər üç dəstədir: Onlardan bir dəstəsi axirət savablarına çatmaq üçün Allaha ibadət edirlər. Bu «ticarətçilərin» ibadətidir. İkinci dəstə Allahın əzabından qorxduqları üçün ibadət edirlər. Bu, qulların itaətinə oxşayır. Üçüncü dəstə Allah ne’mətlərinə şükr etmək üçün ibadət edirlər. Bu da azad insanların ibadətidir.”**[1]

**4.Ö**z nəfslərini təkmilləşdirmək, ruhlarına pərvəriş etmək üçün ibadət edənlər. Belə bir məqsəd də əməlin səhihliyinin şərti olan ixlasa zərər yetirmir.

**5.**Allahı yaxşı tanıdıqlarına, Onu bütün kamal və xeyirlərin mənbəyi bildiklərinə görə Ona pərəstiş edən seçilmiş və məxsus bəndələri. Onlar Allahın sonsuz qüdrət və əzəmətinə diqqət yetirdiklərindən, Ondan başqa tə’siredici bir varlığı tanımadıqlarından yalnız Onu pərəstişə layiq görür və buna görə də Allahı sevir, Onun əzəmət və qüdrəti qarşısında xuzu və xüşu edirlər. Bu ixlasın ən yüksək mərhələsidir.

İmam Cə’fər Sadiq (ə) buyurur: **“İbadət edənlər üç dəstədir: Onlardan biri Allahdan savab almaq üçün ibadət edirlər. Bu, hərislərin ibadətidir ki, onların əsas məqsədi tamaha görədir. İkinci dəstə cəhənnəm əzabından qorxduqlarına görə ibadət edirlər. Bu, qulların ibadətidir. Onların qorxuları ibadətə səbəb olmuşdur. Lakin mən Allahı sevdiyimə görə Ona ibadət və pərəstiş edirəm. Bu da böyük, alicənab şəxsiyyətlərin ibadətidir, onların məqsədləri də xatircəmlikdir. Mütəal Allah buyurur: “Onlar qiyamət gününün qorxusundan amandadırlar.” Yenə buyurur: “De, əgər Allahı sevirsinizsə, Mənə itaət edin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın.” Hər kəs Allahı sevsə, Allah da onu sevər və o, əmin-amanlıqda olanlardan olar.”**[2]

---

[1] “Biharul-ənvar”, 70-ci cild, səh.196
[2] “Biharul-ənvar”, 70-ci cild, səh.197

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) deyir: **“Pərvərdigara! Mən cəhənnəm odundan qorxduğuma, yaxud behiştə tamah saldığıma görə Sənə ibadət etmirəm. Əksinə, Səni ibadətə layiq gördüyümə görə Sənə ibadət edirəm.”**[1]

Qeyd olunan dəstələrin hamısı ixlaslıdır, əməlləri Allah tərəfindən qəbul olunur, lakin ixlas baxımından eyni bir mərtəbədə deyillər. Onun nisbətən kamili və daha kamili vardır. Beşinci qismdən olan insanlar ixlasın ən yüksək mərtəbəsindədir. Bunu da qeyd etmək lazımdır ki, ali mərtəbələrə malik olanlar aşağıdakı mərtəbələri əldən vermir, onlar ali, yüksək mərtəbələrə malik olmaqdan əlavə, aşağıdakılara da malikdirlər. Siddiqlər və Allahın müxlis bəndələri həm Allahdan qorxur, həm də Onun lütf və kəráminə ümid bəsləyirlər, ne’mətləri qarşısında şükr edir, mə’nəvi qürb məqamını da istəyirlər. Lakin, onların ibadət etməkdə məqsədləri yalnız bu deyil. Onlar Allahı daha yaxşı tanıdıqlarından Ona ibadət və itaət edirlər. Bu seçilmiş ilahi şəxsiyyətlər ali məqamlara çatmaqlarına baxmayaraq, aşağıdakı məqamları da əldən verməmişlər. Çünki, təkamül yolunda hərəkət edən bir insan ali məqama çatanda aşağıdakı məqamlara da malik olmalıdır.

Bura qədər deyilənlər ibadətdəki ixlasla əlaqədar idi. Lakin, ixlas ibadətdə olan ixlasla bitmir. Təkamül yolçusu tədrici olaraq elə bir mərhələyə çatır ki, özünü və qəlbini Allah üçün xalis edir, Allahdan qeyrilərinin hamısını qəlb evindən çıxarır. Belə ki, bütün əməlləri, hərəkətləri, fikirləri belə, yalnız Allaha aid olur, Allahın razılığından başqa heç bir iş görmür, Allahdan başqa heç kimdən qorxmur, Ondan başqa heç kəsə e’timad etmir. Onun dostluğu yalnız Allah xatirinədir, düşmənçiliyi də yalnız Allaha görədir. Bu, ixlasın ən yüksək mərtəbəsidir.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Xoş o kəslərin halına ki, əməlini, elmini, məhəbbətini, düşmənçiliyini, almasını, tərk etməsini, kəlamını və sükutunu yalnız Allah üçün xalis edib.”**[2]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Hər kəsin məhəbbəti, ədavəti, yaxşılığı. Allah üçün olsa, imanı kamil olan şəxslərdəndir.”**

Yenə buyurur: **“Allahın Öz bəndəsinə əta etdiyi şeylərin**

---

[1] “Biharul-ənvar”, 70-ci cild, səh.197

[2] “Ğurərul-hikəm”, səh.462

**içində bundan əzəmətlisi yoxdur ki, onun qəlbində Allahdan başqa bir kəs olmasın.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Hardadır Allaha bağışlanan və Ona itaətlə bağlanan qəlblər?!”**[2]

Təkamül yolçusu bu məqama çatan zaman Mütəal Allah onu Özü üçün xalisləşdirir, Özününköməkliyi, qəlbinə verdiyi nuraniyyət vasitəsi ilə onu günahdan, azğınçılıqdan saxlayır. Belə bəndə müxləs adı ilə tanınır. Müxləslər Allahın seçilmiş bəndələrindəndir.

Qur’ani-Kərimdə buyurulur: **“Biz onları, axirəti yad etdikləri üçün xalisləşdirdik.”**[3]

Həzrət Musa (ə) barəsində buyurulur: **“Həqiqətən o, xalis olunmuş, rəsul və peyğəmbər idi.”**[4]

Allahın müxləs bəndələri elə məqamlara çatırlar ki, artıq şeytan onları azdırmaqdan mə’yus olur. Qur’ani-Kərim şeytanın dilindən belə nəql edir ki, o, Mütəal Allaha dedi: **“Sənin izzətinə and olsun ki, bütün adəm övladlarını aldadacağam, azğınlığa salacağam. Təkcə sənin müxləs bəndələrindən başqa, mənim onların üzərində (onları azdırmaq) payım yoxdur.”**[5]

Sonda qeyd etməliyik ki, belə görkəmli və layiqli məqamlara çatmaq çox da asan deyildir. Bu, nəfsin bütün aludəliklərdən təmizlənməsinə, ibadətdə ciddi sə’yə bağlıdır. Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“İxlas ibadətin səmərəsidir.”**[6]

Hədislərdə də qeyd olunduğu kimi, ibadətə, zikrə məşğul olmaq və onları qırx gün müddətində davam etdirmək insana batini səfa və nuraniyyət gətirir, onun ixlas məqamına çatmasında çox faydalı olur. Lakin, bu iş bir dəfəyə deyil, tədricən və müəyyən mərhələlərin ötüb keçilməsi ilə mümkün olur.

## *SALEH ƏMƏLLƏRDƏN BƏ’ZILƏRI*

Əvvəldə qeyd olunduğu kimi, insanı təkamülə yetirib, Allah dərgahına yüksəldən yeganə yol vəhyə, başqa sözlə peyğəmbərlərin (ə) vasitəsilə şər’i qanun halına salınan və özlərinin də keçdiyi vəhy

---

[1] “Biharul-ənvar”, 70-ci cild, səh.248
[2] “Ğurərul-hikəm”, səh.172
[3] “Sad” surəsi, ayə:46
[4] “Məryəm” surəsi, ayə:51
[5] “Saffat” surəsi, ayə:83
[6] “Ğurərul-hikəm”, səh.17

yoluna tabe olmalıdır. Bu da fərizələr (vacib əməllər) və nafilələr (müstəhəb əməllər) adı ilə tanınmışdır. Saleh əməl də məhz budur. Saleh əməl yə'ni, müqəddəs islam şəriətində gələn, Qur'anda, hədis və dua kitablarında qeydə alınan vacib və müstəhəb əməllər. Siz həmin yolu keçməkdə onlardan istifadə edə bilərsiniz. Biz onların bə'zilərini burada qeyd edirik:

## *1. VACIB NAMAZLAR*

Namaz insanın mə'nəvi seyri-süluku, yüksəlişi və Allah dərgahına yaxınlaşmasında ən yaxşı amildir. İmam Riza (ə) buyurur: **"Namaz hər pərhizkar və təqvalı insanın Allah dərgahına yaxınlaşma vasitəsidir."**

Müaviyə ibni Vəhəb İmam Cə'fər Sadiqdən (ə) soruşdu: "Bəndələri Allah dərgahına yaxınlaşdıran və Allah tərəfindən sevilən əməllərin ən yaxşısı hansıdır?"

İmam (ə) buyurdu: **Allahı tanıdıqdan sonra namazdan yaxşı bir şey tanımıram. Görmədinmi ki, Allahın saleh bəndəsi Həzrət İsa (ə) belə buyurur: "Allah məni, diri olduğum vaxta qədər namaza və zəkata tövsiyə etdi."**[1]

İmam Cə'fər Sadiq (ə) yenə buyurur: **"Allah yanında ən sevimli əməl namazdır. Namaz peyğəmbərlərin son vəsiyyətidir. Nə yaxşı olar ki, insan qüsul etsin, yaxud kamil dəstəmaz alsın, sonra bir kəsin görmədiyi bir guşəyə getsin, rüku və səcdələrinə nəzarət (diqqət) etsin. Bəndə səcdəyə gedib səcdəsini uzadan zaman şeytan fəryad edərək deyir: "Vay olsun mənə! Bu bəndə Allaha itaət etdi, mən isə Ona qarşı çıxdım. O, səcdə etdi, mən isə imtina etdim!"**[2]

İmam Riza (ə) buyurur: **"Bəndənin Allaha ən çox yaxın olduğu zaman səcdə halında olan vaxtıdır. Çünki Mütəal Allah buyurur: «Vəscud vəqtərib.» Yə'ni, səcdə et və (ilahi dərgaha) yaxınlaş."**[3]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"İnsan namaza dayanan vaxt Allahın rəhməti asimandan ona nazil olur, mələklər onu (hər tərəfdən) əhatəyə alır və bir mələk belə deyir: «Əgər namaz qılan bu şəxs namazın dəyərini bilsəydi, heç vaxt namaz**

---

[1] "Kafi", 3-cü cild, səh.264
[2] "Kafi", 3-cü cild, səh.264
[3] "Kafi", 3-cü cild, səh.265

**halından çıxmazdı.»”**[1]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Mö’min bəndə namaza başlayıb onu qurtarana qədər Allah ona nəzər edir, Allahın rəhməti asimandan (nazil olub) onu əhatə edir və mələklər onun ətrafını tutur. Allah ona bir mələyi tə’yin edir ki, belə desin: “Ey namaz qılan, əgər kimin diqqət mərkəzində olduğunu, kiminlə münacat etdiyini bilsəydin, (Ondan) başqa bir kəsə diqqət yetirməz, bu vəziyyətdən heç vaxt çıxmazdın!”**[2]

## *NAMAZDA HÜZURI-QƏLB*

Namaz – mələkuti bir tərkib, ilahi bir mə’cundur ki, onun hər hissəsində bir sirr gizlənmişdir.

Namaz – Allahla birbaşa əlaqə vasitəsi, Onunla raz-niyaz edib ünsiyyət yaratmaq və aləmlərin Rəbbini xatırlamaqdır. O, mə’nəvi təkamülün, mələkut aləminə doğru seyri-sülukun və Allah dərgahına yaxınlaşmağın ən yaxşı vasitəsidir.

Namaz mö’minin me’racı, insanı pisliklərdən, yaramaz işlərdən çəkindirən bir əməldir. O, nuraniyyət və mə’rifətin zülal çeşməsidir; belə ki, hər kəs gecə-gündüz ərzində beş dəfə ona varid olarsa, bütün nəfsani-ruhani çirkinliklərdən paklanar.

Namaz böyük ilahi əmanət, əməllərin qəbul olunması me’yarıdır. O, belə asimani sirlərdən təşkil olunmuşdur, lakin bu şərtlə ki, ruhlu, canlı olsun. Namazın ruhu onu hüzuri-qəlblə qılıb, Allaha diqqət yetirmək, Onun qarşısında xüzu-xüşu izhar etməkdir. Zikrlər, qiraətlər, ruku, səcdə, təşəhhüd və salam namazın zahiri formasını təşkil edir, hüzuri-qəlb və Allaha diqqət yetirmək isə onun ruhu misalındadır. Ruhsuz bədən ölü və tə’sirsiz olduğu kimi, hüzuri-qəlb olmadan qılınan namaz da, təklifin götürməsinə baxmayaraq, namaz qılan şəxsi ali-mə’nəvi məqamlara qaldırmaz. Ümumiyyətlə, namazın şər’i qanun halına salınmasının ən böyük hədəfi zikrin, Allahı yad etməyin hasil olmasıdır. Allah-təala Peyğəmbərə (s.ə.v.v) buyurur: **“Məni yad etmək üçün namaz qıl.”**[3]

Qur’ani-Kərim Cümə namazını zikr ünvanı ilə təqdim edərək buyurur: **“Ey iman gətirənlər, cümə namazının bərqərar**

---

[1] “Kafi”, 3-cü cild, səh.265
[2] “Kafi”, 3-cü cild, səh.265
[3] “Kafi”, 3-cü cild, səh.265

**olunduğunu bildiyiniz zaman zikrə doğru tələsin...”**

Namazın qəbul olunma me’yarı hüzuri-qəlbin miqdarı ilə ölçülür; hüzuri-qəlb nə qədər çox olarsa, namaz da bir o qədər yaxşı şəkildə qəbul olunur. Buna görə də hədislərdə hüzuri-qəlblə əlaqədar çoxlu tə’kidli göstərişlər gözə dəyir. O cümlədən, Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Bə’zən namazın yarısı qəbul olunur, bə’zən üçdə biri, bə’zən dörddə biri, bə’zən beşdə biri, bə’zən də onda biri. Bə’zi namazlar köhnəlmiş paltar kimi bükülüb sahibinin başına çırpılır. Həqiqətən sənin namazından Allaha qəlbən diqqət yetirmiş olduğun miqdarı qəbul olunur.”**

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Bəndə namaz qılmağa başlayan zaman Mütəal Allah ona diqqət yetirir. O, Allahdan üç dəfə qafil olana qədər Allah Öz nəzərini ondan kəsmir. Üçüncü dəfədə Allah ondan üz döndərir.”**

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Mürgüləyən, halsız halda namaz qılmayın. Namaz halında özünüz barədə fikirləşməyin, çünki Allahın hüzurunda dayanmısınız. Həqiqətən bəndənin namazının o miqdarı qəbul olunur ki, qəlbən Allaha diqqət yetirmiş olsun.”**

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Hər bəndə namaz halında Allahdan başqasına diqqət yetirsə, Allah ona xitab edərək deyər: “Ey Mənim bəndəm! Məqsədində kimdir?! Kimi istəyirsən?! Məndən başqa bir pərvərdigar və nəzarətçi axtarırsanmı?! Məndən başqa bir bağışlayan, əta edən istəyirsənmi?! Halbuki, Mən kərimlərin ən kəramətlisi, bəxşiş edənlərin ən çox bəxşiş edəni, əta edənlərin ən yaxşısıyam. Sənə elə savab əta edərəm ki, saya-hesaba gəlməz. Mənə diqqət yetir, çünki Mən və mələklərim sənə diqqət yetiririk.” Namaz qılan şəxs Allaha diqqət yetirən zaman keçmiş günahları məhv olur (bağışlanır). Əgər yenidən (fikri yayınsa və) Allahdan başqasına diqqət yetirsə, Mütəal Allah əvvəldəki kimi yenidən ona xitab edir. Əgər namazına diqqət yetirsə, namazdan qafil olma günahı bağışlanır və onun tə’sirləri aradan gedir. Əgər üçüncü dəfə namazdan yayınarsa, Mütəal Allah da əvvəlki xitabını təkrar edir. Əgər namaza diqqət yetirirsə, bu dəfə də günahları bağışlanır. Əgər dördüncü dəfə yenidən (fikri yayınsa və) namaz fikrindən çıxsa, Allah və mələklər ondan üz döndərər, Allah ona buyurar: “Səni o şeyin vilayətində qərar**

**verdim ki, ona məhəbbət və bağlılığın vardır.”**

Namazın dəyəri hüzuri-qəlb və Allaha diqqət yetirməklədir. Hüzuri-qəlbin miqdarı da batinin saflaşmasında, Allah dərgahına yaxınlaşmaqda tə’sirli olur. Buna görə də böyük peyğəmbərlər (ə), mə’sum imamlar (ə) və Allahın övliyaları namaza bu qədər diqqət yetirmişlər.

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) barəsində yazırlar ki, namaz vaxtı gəlib çatanda iztirabdan üzünün rəngi dəyişərdi. Onun səbəbini soruşanda buyururdu: **“Elə bir əmanəti (qaytarmağın) vaxtı gəlib çatmışdır ki, onu asimanlara və yerə təqdim etdilər, lakin onlar qorxub onu qəbul etməkdən imtina etdi. İnsan isə o böyük əmanəti qəbul etdi. Buna görə qorxuram, görəsən bu əmanətin əda eləməyin öhdəsindən lazımınca gələ biləcəyəm, ya yox.”**[1]

İmam Məhəmməd Baqir (ə) və imam Cə’fər Sadiq (ə) barəsində demişlər ki, namaz vaxtı mübarək üzlərinin rəngi saralardı. Namaz halında elə vəziyyətə düşürdülər ki, sanki gördüyü bir şəxslə üzbəüz dayanıb münacat edir![2]

İmam Səccad (ə) barəsində də yazırlar ki, o, namaza dayananda üzünün rəngi dəyişər, Allahın qarşısında zəlil bir bəndə kimi dayanar, bədən üzvləri qoxudan titrəyərdi. Namazı həmişə vida namazı idi, sanki ondan sonra (əcəli gəlib çatacaq və) heç bir namaz qılmayacaqdı.[3]

Həzrət Fatimeyi Zəhra (ə.s) barəsində qeyd olunur ki, namaz halında nəfəsi Allahın qorxusundan təngiyərdi.[4]

İmam Həsən Müctəba (ə) barəsində belə yazırlar: Namaz halında bədəni lərzəyə düşərdi. Behişt və ya cəhənnəmi xatırlayan zaman ilan vurmuş adam kimi qıvrılıb-açılar, Allahdan behişt diləyir, cəhnnəmdən Ona pənah aparardı.[5]

Ayişə Peyğəmbəri-Əkrəm (s.ə.v.v) barəsində belə deyir: “Peyğəmbərlə söhbət edirdim. Namaz vaxtı gəlib çatanda birdən-birə elə dəyişilirdi ki, sanki bizi tanımırdı, biz də onu tanımırdıq.”

---

[1] “Biharul-ənvar”, 84-cü cild, səh.248
[2] “Biharul-ənvar”, 84-cü cild, səh.248
[3] “Biharul-ənvar”, 84-cü cild, səh.250
[4] “Biharul-ənvar”, 84-cü cild, səh.258
[5] “Biharul-ənvar”, 84-cü cild, səh.258

İmam Səccad (ə) barəsində yazırlar: O, namaz qılarkən əba mübarək çiynindən düşür, lakin bunu hiss etmirdi. Namazı qurtardıqdan sonra səhabələrdən biri soruşur: "Ey Allah Rəsulunun övladı! Namaz halında əba çiyninizdən düşdü, lakin siz diqqət yetirmədiniz?!"

İmam (ə) buyurdu: "Vay olsun sənə! Bilirsənmi ki, hansı şəxsin qarşısında durmuşdum?! Bu məni əbaya diqqət yetirməkdən yayındırmışdı. Bilmirsənmi ki, bəndənin namazı yalnız o miqdarda qəbul olunur ki, Allah qarşısında hüzuri-qəlb tapmış olsun?

Həmin şəxs soruşdu: Ey Allah Rəsulunun övladı, belə isə, biz həlakətdəyikmi?!

İmam (ə) buyurdu: «Xeyr, əgər nafilələri qılsanız, Allah onların vasitəsilə sizin namazlarınızı tamamlayar (kamilləşdirər).»[1]

Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) barəsində yazırlar ki, namaz vaxtı mübarək üzünün rəngi qaçar, sinəsindən qazanın qaynamasına oxşayan bir səs eşidilərdi. Namaza dayananda yerin üstünə atılmış paltar kimi hərəkətsiz olardı.

## *HÜZURİ-QƏLBIN MƏRHƏLƏLƏRI*

Hüzuri-qəlbin müxtəlif mərtəbə və dərəcələri – həm nisbətən kamili, həm də daha kamili vardır. Təkamül yolçusu onları tədrici olaraq qət edə bilər ki, yüksək qürb və şühud məqamına çata bilsin. Bu çox uzun və müxtəlif məqamlara malik olan yoldur ki, mənim kimi uzaqdan nəzarət edən, həsrət odunda yanan bir şəxsin onları izah etməsi rəva deyildir. Lakin onların bə'zi mərtəbələrini qısa şəkildə qeyd edirik ki, təkamül yolçusu üçün faydalı olsun.

**Birinci mərhələ**

Hüzuri-qəlbin birinci mərhələsi bundan ibarətdir ki, namaz qılan şəxs bütün namazlarında, yaxud onun bə'zi hissələrində, sözlərin mə'nalarına diqqət yetirməsə və onların mə'nasını müfəssəl şəkildə bilməsə belə, Allahın hüzurunda dayandığına müəyyən qədər diqqət yetirsin, Onunla danışdığını bilsin və Onunla razi-niyaz etdiyinə fikir versin.

**İkinci mərhələ**

Hüzuri-qəlbin ikinci mərhələsi budur ki, namaz qılan şəxs namaz halında olmaqdan əlavə, özünü Allahın hüzurunda və Onunla danışan bir halda olduğunu bilsin, kəlmələrin, zikrlərin mə'nalarına diqqət

---

[1] "Biharul-ənvar", 84-cü cild, səh.265

yetirsin və Allahla nə danışdığını bilsin. Sözləri elə tələffüz etsin ki, sanki onların mə’nalarını öz qəlbinə başa salır. Məsələn, kəlmələrin tələffüz olunma qaydasını öz övladına təlqin edən və onun mə’naları ilə tanış edən ana kimi.

**Üçüncü mərhələ**

Üçüncü mərtəbədə namaz qılan şəxs əvvəlki mərhələlərdən əlavə gərək təkbirin, təsbihin, təqdisin, tövhidin, təmhidin və s. kimi zikrlərin məfhum və həqiqətlərini yaxşı şəkildə bilsin, onları elmi dəlil və bürhanlarla tanısın və namaz halında onlara diqqət yetirsin, nə dediyini, nə istədiyini və kiminlə danışdığını yaxşı bilsin.

**Dördüncü mərhələ**

Namaz qılan şəxs dördüncü mərhələdə əvvəlki mərhələlərdən əlavə, gərək zikrlərin mə’na və məfhumlarını, məaariflərini kamil şəkildə öz batininə nüfuz etdirmiş, yəqin mərhələsinə, kamil imana çatmış olsun. Bu halda dil qəlbə tabe olur. Qəlb o həqiqətlərə imanlı olduğu üçün dili zikr deməyə vadar edir.

**Beşinci mərhələ**

Namaz qılan şəxs bu mərhələdə əvvəlki mərhələlərdən əlavə kəşf, şühud və kamil hüzur mərhələsinə çatır. Haqqın adlarını, sifətlərini və kamallarını batin gözü ilə müşahidə edir, Allahdan başqa heç bir şeyi görmür. Hətta özünə, öz hərəkətlərinə, zikrlərinə belə, diqqət yetirmir. Allahla danışır, lakin hətta danışığından belə, qafildir. Bu məqamda o, özünü əldən vermiş, Haqq-Təalanın camalını müşahidə etməyə qərq olmuşdur. Bu məqamda da müxtəlif mərtəbə və dərəcələr vardır ki, təkamül yolçusunun vəziyyəti ilə əlaqədar olaraq fərqlənir. Bu məqam dərin bir dəryaya bənzəyir. Yaxşı olar ki, mən belə şeylərdən məhrum olan bir bəndə kimi, ora daxil olmaqdan çəkinim və onu öz əhlinə həvalə edim. **“Allahummərzuqna həlavətə zikrikə və muşahədətə cəmalik. (Pərvərdigara, Sənə zikr etməyin şirinliyini və camalını müşahidə etməyi bizə nəsihət et!”**

## *HÜZURİ-QƏLBIN ƏMƏLƏ GƏLMƏSINDƏ MÜHÜM TƏ’SIREDICI AMILLƏR*

Hüzuri-qəlbin malik olduğu dəyər qədər də, onun özünü əldə etmək çətindir. İnsan namaza daxil olan zaman şeytan dərhal vəsvəsə etməyə başlayır, qəlbi daim o tərəfə bu tərəfə çəkir, onu müxtəlif gərəksiz fikirlərlə, puç xəyallarla məşğul edir. Hesab çəkir, plan cızır, tədbir tökür, keçmiş və gələcək məsələlər barəsində fikirləşir, mühüm elmi

məsələləri həll edir, çox hallarda tamamilə unutduğu mövzuları məhz namaz halında xatırlayır, özünə gəldiyi zaman artıq namazı tamam etmiş olur. Əgər bə'zən namaz fikrinə düşsə də, dərhal bu fikrdən keçir.

Çox təəccüb və təəssüf yeridir: Biz nə edə bilərik ki, bu inadkar və namazı oyun-oyuncağa çevirən nəfsi cilovlayıb onu öz ixtiyarımıza keçirək?! Namaz halında pərakəndə vəziyyətdə olan fikirləri özümüzdən necə uzaqlaşdırıb yalnız Allahı xatırlaya bilərik?! Bu yolu ötüb keçən və buna müvəffəq olan şəxslər bizim üçün daha yaxşı yol göstərə bilər. Yaxşı olar ki, qələmi onlara verək. Lakin mən hüzuri-qəlbin əldə olunmasına faydalı ola bilən bə'zi mətləblərə işarə edirəm:

**1.Xəlvət yerin seçilməsi:**

Əgər namazı tək halda, yaxud müstəhəb namaz qılırsa, yaxşı olar ki, səs-küyün ona maneçilik törətməməsi üçün xəlvət bir yer seçsin. Namaz qılınan yerdə şəkil, yaxud namaz qılanın diqqətini özünə cəlb edə biləcək bir şey olmasın, ümumi mərkəzlərdə qılmasın. Yaxşı olar ki, evdə də namaz qılmaq üçün xəlvət bir yeri seçsin, namazı həmişə orada qılsın. Namaz halında yalnız səcdə yerinə baxsın, yaxud gözlərini yumsun. Hüzuri-qəlb üçün faydalı olmasını ayırd etdiyi bu işlərdən hər birini seçsin. Yaxşı olar ki, kiçik otaqda, yaxud divara yaxın olan yerdə namaz qılsın ki, çox görünən şey olmasın.

Əgər namazı camaatla qılırsa, yalnız səcdə yerinə baxsın, əgər imam qiraəti ucadan oxuyursa, onun qiraətinə qulaq assın.

**2.Maneələrin aradan qaldırılması:**

Namazdan qabaq əvvəlcə hüzuri-qəlbə maneə olacaq şeyləri aradan qaldırmaq, sonra namaza başlamaq lazımdır. Məsələn, əgər bövl və ğait ona təzyiq göstərirsə, əvvəlcə özünü rahatlasın, sonra dəstəmaz alıb namaza başlasın. Əgər çox ac və susuz olduğuna görə aram deyilsə, əvvəlcə aclığını və susuzluğunu aradan qaldırsın, sonra namaz qılsın. Həmçinin əgər çox yediyinə görə namaz qılmağa halı yoxdursa, bir qədər gözləyib hal tapandan sonra namaza başlasın. Əgər çox yorğun olduğuna, yaxud yuxusuzluğuna görə namazda hal tapa bilmirsə, əvvəlcə yorğunluğunu və yuxusunu aradan qaldırsın, sonra namaza başlasın. Əgər hər hansı bir mövzunu ayırd etmək, yaxud nigarançılıq yaradan və pərişan bir hadisənin baş verdiyinə görə fikri qarışmışsa, mümkün olan surətdə namazdan qabaq nigaranlıq törədən amilləri aradan qaldırıb sonra namaza başlasın.

Böyük maneələrdən biri dünyəvi işlərə şiddətli məhəbbət və bağlılıqdır. O cümlədən mal-dövlət, şan-şöhrət, cah-cəlal, məqam, arvad, övlad və s. Bu kimi işlərə məhəbbət bəsləmək namaz halında

insanın fikrinin o tərəfə bu tərəfə getməsinə, Allahdan yayınmasına səbəb olur. Buna əsasən namaz qılan şəxs bu kimi işlərdən əlaqəsini kəsməlidir ki, hüzuri-qəlb və Allaha diqqət onun üçün müyəssər olsun.

**3.İman qüvvəsinin gücləndirilməsi:**

İnsanın Allaha olan diqqəti Onun barəsindəki mə’rifət və agahlığı qədərdir. Əgər iman yəqin həddinə çatmış olsa və mə’’budun qüdrət, hüzur, əhatə və elmini kamil şəkildə dərk etmiş olsa, təbiidir ki, Onun qarşısında xüzu və xuşu edəcək, unutqanlıq və qəflət üçün heç bir əsas olmayacaqdır. Allahı hər bir yerdə hazır və nazir, özünü isə Onun məhzərində görən bir şəxs Allahla danışıq məqamı olan namaz halında da Ondan qafil olmayacaqdır. Belə ki, əgər böyük qüdrət sahibi olan bir padşahla danışırsa, bütün duyğu və hiss üzvləri tamamilə cəm olur və kiminlə danışdığını, nə dediyini bilir. Əgər Allahı da qüdrət və əzəmətlə tanısa, onda namaz halında Ondan qafil olmayacaqdır. Deməli, insan imanını gücləndirmək və kamil mə’rifət əldə etmək üçün daim çalışmalıdır ki, namaz halında da hüzuri-qəlb tapa bilsin.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Allaha elə ibadət et ki, sanki Onu görürsən. Sən Onu görməsən də, O səni görür.”**

Əban ibni Təğlib deyir: İmam Cə’fər Sadiqə (ə) ərz etdim: «Əliyyibni Hüseynin (ə) namaz halında rənginin qaçdığını gördüm (bunun səbəbi nədir)?!»

Buyurdu: «Bəli, o qarşısında durduğu mə’budu tam tanımışdır.»

**4.Ölümü yad etmək:**

Hüzuri-qəlbin yaranmasında faydalı olan işlərdən biri də ölümü yad etməkdir. Əgər insan ölümü yad etsə, ölümün nə vaxtının, nə də necə baş verəcəyinin mə’lum olmadığını, hər an və hər bir şəraitdə baş verəcəyinə diqqət yetirsə, hətta qıldığı namazın onun axırıncı namazı olmasını ehtimal versə, namazını heç vaxt qəflətlə qılmaz. Yaxşı olar ki, namaz qılan şəxs namazdan öncə ölüm fikrinə düşsün, belə təsəvvür eləsin ki, əcəli gəlib çatıb, Əzrail (ə) onu qəbzi-ruh etmək üçün hazır dayanıb, bir saat, yaxud bir neçə dəqiqədən artıq fürsəti yoxdur. Belə ki, ondan sonra əməl dəftəri bağlanacaq, əbədi dünyaya daxil olacaqdır. Orada onun əməlləri araşdırılacaq, nəticəsi ya əbədi səadət və xoşluqda Allah dərgahına yaxınların yanında olmaqdan, ya da bədbəxtçilik, əzab və cəhənnəmin dibində işgəncədən ibarət olacaqdır. Ölümü gözləri önündə canlandırmaqla daha yaxşı hüzuri-qəlbi tapıb, özünü Allahın hüzurunda bilib, namazı tam xüzu, xüşu və vida halında qıla bilər. Namaza başlamazdan əvvəl bu haləti yaratmalı və namaz boyu da da onu davam etdirməlidir.

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Vacib namazı axırıncı namazını qılan şəxs kimi vaxtında qıl. Bu cür şəxs namaz qılmaqdan ötrü bir daha fürsət tapmayacağını bilir. Namaz vaxtı səcdə yerinə bax. Əgər bir şəxsin sənin yanında olduğunu və sənin namazına nəzarət etdiyini görsən namazı yaxşı qılarsan. Bil ki, sən elə bir şəxsin hüzurundasan ki, səni müşahidə edir, lakin sən onu görmürsən.”**

**5.Hazırlıq:**

Namaz qılan şəxs maneələri aradan qaldırdıqdan sonra xəlvət və münasib yerdə namaza başlayır. Namazdan öncə Allahın sonsuz əzəmət və qüdrətini, özünün isə sonsuz zəlillik, bacarıqsızlıq və zəifliyini xatırlasın. Aləmlərin Rəbbinin hüzurunda, Əzrailin qarşısında dayandığını, onunla danışdığını bilsin. O, elə bir əzəmət və qüdrət sahibi qarşısında dayanmışdır ki, hər bir şeyə, hətta gizlin fikirlərə belə, agahdır.

Ölümü, əməllərin dəqiq şəkildə araşdırılmasını, cənnət və cəhənnəmi gözləri önündə canlandırsın. Ehtimal versin ki, onun ölümü çox yaxındır, hətta, elə bu namaz onun son namazı ola bilər. Bu fikrini o qədər davam etdirsin ki, nəfsi aram olsun, hal tapsın. Sonra hüzuri-qəlb ilə azan və iqaməni deməyə başlasın, ondan sonra bu duanı oxusun: **“Allahummə iləykə təvəccəhtu və mərzatəkə tələbtu və səvabəkəbtəğəytu və bikəaməntu və ələykə təvəkkəltu. Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd, vəftəh məsamiə qəlbi bi zikrikə və səbbitni əla dinikə və dini Nəbiyyikə və la tuziğ qəlbi bə’də iz hədəytəni və həb li min lədunkə rəhmətən. İnnəkə əntəl-Vəhhab.” Yə’ni: «Pərvərdigara! Yalnız Sənə üz gətirdim, yalnız Sənin razılığını istədim, yalnız Sənin savabını tələb etdim, yalnız Sənə iman gətirdim, yalnız Sənə təvəkkül etdim. Pərvərdigara! Məhəmməd və onun Əhli-beytinə salavat göndər, qəlbimin qulaqlarını Öz zikrin üçün aç, məni Öz dinində və Peyğəmbərinin dinində sabitqədəm et, məni hidayət etdikdən sonra yolundan azdırma, Öz dərgahından mənə rəhmət əta et. Həqiqətən Sən çox əta edənsən.!”**

Duanı oxuyarkən onun mə’nasına diqqət yetirsin, sonra desin: “Ya Muhsinu, qəd ətakəl-musii. Ya Muhsinu əhsin iləyyə.”

Əgər diqqət və xüşu halındadırsa, təkbirətul-ehramı deyərək namaza başlasın. Lakin hələ hazır olmadığını, hal əmələ gəlmədiyini

bilsə, «əuzu billahi minəş-şeytanir-rəcim» deyib şeytanın vəsvəsələrindən Allaha pənah aparsın. Bu işi hazırlıq tapana qədər davam etdirsin.

Bu zaman hüzuri-qəlb ilə, mə'nasına diqqət yetirməklə təkbirətul-ehramı desin və namaza başlasın. Amma kiminlə söhbət etdiyini, nə dediyini anlasın. Dilin qəlblə münasib olmasına, yalan danışmamasına diqqət yetirsin. "Allahu Əkbər"in nə demək olduğunu bilirsənmi? Yə'ni, Allah vəsf edildiyindən çox-çox böyükdür. Nə dediyinə düzgün şəkildə diqqət yetir. Dediklərinə doğrudanmı imanlısan?!

İmam Cə'fər Sadiq (ə) buyurur: "Namaz qılmaq məqsədi ilə üzü qibləyə dayandıqda dünya və onda olan şeyləri, insanları, onların vəziyyətlərini və məşğuliyyətlərini birdəfəlik unut, qəlbini səni Allahdan saxlayan hər bir işdən boşalt, Allahın əzəmət və cəlalını batin gözləri ilə müşahidə et. Allahın hüzurunda dayandığını yada sal, insanın öncədən göndərdiyi əməllərin Onun hüzurunda aşkar olacağı və Allaha doğru qaytarıldığı bir gündə Onun hüzurunda dayanacağına diqqət yetir. Namaz zamanı xovf (qorxu) və rəca (ümid) arasında ol. Təkbirətul-ehram deyən zaman yerdə və göydə olanları çox kiçik hesab et, çünki namaz qılan şəxs təkbir deyəndə Allah onun qəlbinə nəzər salır. Əgər o, təkbirin həqiqətinə diqqət yetirmirsə, Allah ona belə xitab edir: **"Ey yalançı! Məni aldatmaq istəyirsənmi?! Öz izzət və cəlalıma and olsun, səni Öz zikrimin ləzzətindən, Öz dərgahıma yaxınlıqdan, Mənimlə münacatın ləzzətindən məhrum edərəm!"**

Bəli, namazdan əvvəl niyyət və təkbirətul-ehram halında hazırlıqlı olmaq hüzuri-qəlbdə çox tə'sir qoyur. Lakin bunlardan da mühüm məsələ bu halətin davam etdirilməsidir. Əgər azacıq qəflətə yol verilsə, nəfs o tərəf, bu tərəfə pərvaz edir və hüzur haləti aradan gedir.

Deməli, namaz qılan şəxs bütün namaz boyu öz nəfsini tam nəzarət altına almalı, qəlbin qapısını Allahdan başqasının üzünə bağlamalı, dağınıq fikir və xəyalların qarşısını almalıdır. O, özünü daim Allahın hüzurunda görməli, namazını elə qılmalıdır ki, sanki Allahla danışır, Onun müqabilində rüku və səcdə edir. Çalışmalıdır ki, qiraət halında zikrlərin mə'nasına diqqət yetirsin, nə dediyini, hansı böyük qüdrət sahibi ilə söhbət etdiyini bilsin və bu halı namazın axırına qədər davam etdirsin. Əlbəttə, bu, çox çətin bir işdir, lakin cidiyyət və nəzarət nəticəsində asan olar. **"Vəlləzinə cahədu fina lənəhdiyənnəhum subuləna.**" (Hər kəs Bizə tərəf gəlməyə cəhd etsə, Biz, hökmən onu Öz yollarımıza hidayət

edərik.) Əgər ilk əvvəl tovfiq tapmırsa, mə'yus olmasın, daha cidiyyətlə, qətiyyətlə əməl meydanına daxil olsun ki, tədriclə nəfsinə hakim kəsilsin. Dağınıq xəyal və fikirləri qəlbindən çıxartsın, qəlbini Allaha doğru yönəltsin. Əgər bir gün, yaxud bir neçə həftədə, yaxud bir neçə ayda mümkün olmazsa, yenə də mə'yus olmamalıdır. Çünki hər bir halda bu mümkün olan işdir. Bə'zi insanlar namazın əvvəlindən axırına qədər hüzuri-qəlb halında olur və namaz halında Allahdan başqa heç nəyə diqqət yetirmir.

Biz də belə bir gözəl məqama çatmaqdan ümidsiz olmamalıyıq, kamil mərtəbəyə çatmasaq da, heç olmazsa, mümkün qədərinə nail olmağa sə'y göstərməliyik ki, bunu da qənimət sayaq.

## *2. NAFILƏ NAMAZLARI*

Əvvəldə qeyd olundu ki, namaz insanın Allah dərgahına doğru seyri-süluk etməsi, Allahı yad etməsi üçün ən yaxşı vasitədir. İnsanın xüsusi yaradılışına, onun təkamül yoluna hamıdan daha artıq agah olan Mütəal Allah namazı şər'i qanun halına salmış və Peyğəmbər (s.ə.v.v) vasitəsilə onu insanların ixtiyarına vermişdir ki, öz təkamül və səadətləri üçün ondan bəhrələnsinlər. Namaz heç bir şeylə məhdudlanmır. Hər bir zamanda, məkanda və hər bir şəraitdə ondan bəhrələnmək olar.

Namaz ümumi şəkildə iki qismə bölünür: Vacib namazlar və müstəhəb namazlar. Vacib namaz altıdır.

1.Gündəlik namazlar. 2.Ayət namazı. 3.Meyyit namazı. 4.Vacib təvaf namazı. 5.Nəzir, and, əhd vasitəsilə insana vacib olan namaz. 6.Atanın böyük oğluna vacib olan qəza namazları.

Gündəlik vacib namazlar bütün mükəlləflərə vacibdir, amma sair namazlar xüsusi zamanlarda və xüsusi şəraitlərdə vacib olur. Əbədi səadət və kamal istəyən şəxs ilk mərhələdə vacib namazları şəriətdə qeyd olunan tərzdə yerinə yetirməlidir. Əgər ixlas və hüzuri-qəlblə qılarsa, insanı Allah dərgahına daha yaxşı şəkildə yaxınlaşdırar. Vaciblər tərk olunsa müstəhəblərə ehtiyac olmaz. Vacibləri tərk etmək, amma müstəhəblərin, zikrlərin vasitəsilə kamal yolunu qət etmək və ali məqamlara çatmaq istəyənlər səhv yoldadırlar. Amma vacibləri yerinə yetirdikdən sonra nafilələrin və müstəhəblərin vasitəsilə ali-mə'nəvi məqamları kəsb etmək olar.

Müstəhəb namazlar çoxdur. Onlar da ümumi iki dəstəyə bölünür: Gündəlik namazların nafilələri və sair müstəhəb namazlar.

Gündəlik namazların nafilələri otuz beş rək'ətdir: Zöhrlə əsr namazlarının hər birinin nafiləsi səkkiz rək'ət, məğrib namazının nafiləsi dörd rək'ət, işa namazının nafiləsi iki rək'ət, sübh namazının nafiləsi iki rək'ət və gecə nafiləsi isə on bir rək'ətdir.

Hədis kitablarında gündəlik namazların nafilələrini qılmaq üçün çox tə'kidlər edilmiş, onun üçün çoxlu savablar və müsbət nəticələr qeyd edilmişdir. Onlar vacib namazların təkmilləşdiriciləri kimi təqdim olunur. Amma gündəlik namazların nafilələrindən başqa sair namazlar məxsus vaxt, şərait və məkanlar üçün nəzərdə tutulmuşdur ki, onların da savabları vardır. Siz müstəhəb namazlar və onların savabları ilə tanış olmaq üçün hədis və dua kitablarına baxıb, Allah dərgahına doğru seyr edərkən onlardan istifadə edə bilərsiniz. Bundan əlavə, namaz hər bir zaman, məkan və hər bir halda müstəhəbdir və təkamül yolçusu ondan istifadə edərək bəhrələnə bilər. Onlardan istifadə etmək qapıları həmişə açıqdır. İnsan hər bir zamanda, məkanda və hər bir halda bu böyük feyzdən istifadə edərək Allahla rabitə bərqərar edə bilər.

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Nafilə namazı mö'minin Allah dərgahına yaxınlaşmasına səbəb olur."**[1]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Həqiqətən bə'zən namazın yarısı, bə'zən üçdə biri, bə'zən dörddə biri və bə'zən də beşdə biri yuxarı aparılır (qəbul olunur). Namazın o miqdarı yuxarı aparılır ki, hüzuri-qəlblə qılınmış olsun. Buna görə də nafilələri qılmağa əmr olunmuşdur ki, onların vasitəsilə vacib namazlardakı nöqsanları aradan qaldırılsın."**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: «Mütəal Allah belə buyurur: **"Mənim bəndəmin, Mənim tərəfimdən sevilmək üçün vacibata əməl etməsindən də yaxşı bir şey yoxdur. Nafilələri yerinə yetirməklə o qədər sevimli olur ki, Mən onun eşidən qulağı, görən gözü, danışan dili, zərbə vuran əli, yeriyən ayaqları olaram. Məni çağırsa, qəbul edərəm, bir şey istəsə, əta edərəm. Mən mö'min bəndəmin ruhunu alanda tərəddüd etdiyim kimi heç bir şeydə tərəddüd etmirəm. O, ölümə ikrah hissi ilə yanaşır, Mən isə onun narahat olmağını istəmirəm."»**[3]

---

[1] "Biharul-ənvar", 87-ci cild, səh.36
[2] "Biharul-ənvar", 87-ci cild, səh.28
[3] "Biharul-ənvar", 87-ci cild, səh.31

## *3. GECƏ NAMAZI*

Nafilələrin arasında gecə namazı daha artıq fəzilətə malikdir. Belə ki, Qur'anda və hədislərdə onun barəsində çoxlu tə'kid və tövsiyələr gözə dəyir. Mütəal Allah Peyğəmbəri-Əkrəmə (s.ə.v.v) buyurur: **"Gecənin bir qismini qalxıb namaza məşğul ol. Bu, sənin üçün müstəhəbdir. Bununla Allah səni bəyənilmiş bir məqama məb'us edəcək."**[1]

Allah Öz xalis bəndələrini tə'rif edərkən buyurur: **"O kəslər ki, gecəni Pərvərdigarları üçün səcdə və qiyam halında keçirirlər."**[2]

Mö'minlərin vəsfində buyurulur: **"Gecə yataqlarından dururlar. Həm qorxu, həm də ümidlə Allahı çağırırlar. Onlara verdiyimizdən infaq edirlər. Heç kəs bilmir ki, əməlləri müqabilində onları necə ne'mətlər gözləyir!"**[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Mütəal Allah dünyaya vəhy etdi ki, sənə xidmət edənləri çətinliyə sal, səni tərk edənlərə xidmət et. Allahın bəndəsi gecə qaranlığında Pərvərdigarı ilə xəlvətdə münacat edərkən Allah onun qəlbini nurani edir. O, "ey mənim Rəbbim" deyərkən Allah tərəfindən belə nida olunur: "Bəli, ey Mənim bəndəm! Nə istəyirsənsə istə, əta edəcəyəm. Mənə təvəkkül et ki, sənə kifayət edim."** Sonra Allah mələklərinə buyurar: **"Baxın bəndəmə, görün gecə qaranlığında Mənimlə necə münacat edir, halbuki, dünya əhli bihudə və boş-boş işlərlə məşğuldurlar, qafillər yuxudadırlar. Siz şahid olun ki, Mən bu bəndəmi bağışladım."**[4]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) yenə buyurur: **"Mənim ümmətimin ən şərəfliləri Qur'anı öyrənənlər və gecəni oyaq qalanlardır (ibadətlə keçirənlərdir)."** [5]

O Həzrət (s.ə.v.v) yenə buyurur: **"Cəbrail gecə namazı barəsində o qədər tövsiyə etdi ki, ümmətimin yaxşılarının gecəni yatmayacağını güman etdim."** [6]

---

[1] "İsra" surəsi, ayə: 79
[2] "Furqan" surəsi, ayə64
[3] "Səcdə" surəsi, ayə:16
[4] "Biharul-ənvar", 87-ci cild, səh.139
[5] "Biharul-ənvar", 87-ci cild, səh.138
[6] "Biharul-ənvar", 87-ci cild, səh.148

Başqa bir hədisdə isə belə buyurur: **"Gecə yarısı qılınan iki rək'ət namaz mənim üçün dünya və onda olanlardan daha sevimlidir."**[1]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Gecə namazı qılmaq üzü gözəl, əxlaqı yaxşı, insanı ətirli edir. Ruzini artırır, borcu əda edir, qəm-qüssəni aradan qaldırır və gözə nuranilik verir."** [2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Gecə namazı Allahın razılığını, mələklərin məhəbbətini qazanmaq üçün bir vasitədir. Gecə namazı peyğəmbərlərin sünnəsi, mə'rifət nuru, imanın kökündür (çünki iman gecə namazı vasitəsilə güclənir). O, bədəni aramlaşdırır, şeytanı qəzəbləndirir. O, düşmənlər əleyhinə çəkilən bir silah, duaların və əməllərin qəbul olunması üçün bir vasitədir. İnsanın ruzisinə bərəkət verir, Ölüm mələyi ilə namaz qılan arasında şəfaətçi olur. O, qəbrin çırağı və döşəməsi, Münkərlə Nəkirin cavabıdır, qiyamətə qədər qəbirdə namaz qılanın ziyarətçisi və munisi olacaqdır. Qiyamət bərpa olan zaman namaz onun başına kölgə salacaqdır. Onun başında bir tac, bədənində bir paltar olacaqdır, onun qarşısındakı bir nur onunla cəhənnəm atəşi arasında bir pərdə salacaqdır. Mö'min üçün Allahın yanında bir höccət, əməl tərəzisinin ağırlaşma vasitəsi, siratdan keçmə hökmü, behiştin açarıdır. Çünki namaz təkbir, həmd, təsbih, təqdis, tə'zim, qiraət və duadan ibarətdir. Həqiqətən vaxtında qılınan namaz əməllərin ən fəzilətlisidir."**[3]

Gecə namazının fəziləti barəsində çoxlu ayə və rəvayətlər vardır. Gecə namazını qılmaq peyğəmbərlərin və Allah övliyalarının adətidir. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və onun Əhli beytindən olan mə'sum imamlar (ə) gecə namazına xüsusi diqqət və əhəmiyyət vermişlər. Allah övliyaları və ariflər gecə namazına davamiyyət vasitəsilə, səhər sübh namazından qabaq zikr və duaya məşğul olduqlarından ali məqamlara çatmışlar. Allahın bəndəsinin sübh namazından qabaq yuxudan duraraq özünün yumşaq yorğan döşəyini tərk edib dəstəmaz alaraq gecə qaranlığında gözlər yuxuda olan zaman Pərvərdigari-Aləmin hüzurunda dayanması, Onunla raz-niyaz etməsi necə də çox gözəl bir işdir. O, bu me'rac vasitəsilə yüksək aləmlərə seyr edir,

---

[1] "Biharul-ənvar", 87-ci cild, səh.148
[2] "Biharul-ənvar", 87-ci cild, səh.153
[3] "Biharul-ənvar", 78-ci cild, səh.161

asimanların mələkləri ilə yoldaş olur, Allaha təsbih, təqdis deməyə məşğul olur. Belə bir halda onun qəlbi Allah nurunun saçma mərkəzinə çevrilir, ilahi cazibələrlə qürb məqamına doğru yüksəlir.

### *GECƏ NAMAZININ QILINMA QAYDASI*

Gecə namazı on bir rək'ətdir. İki rək'ət-iki rək'ət (sübh namazı kimi) qılınır. Dörd dənə iki rək'əti gecə namazı niyyəti ilə, beşinci iki rək'ətlik namaz «şəf'» namazı niyyəti ilə, axırıncı bir rək'ət də «vətr» namazı niyyəti ilə qılınır. Gecə namazı üçün xüsusi dualar və ədəblər qeyd olunmuşdur. Bunları dua və hədis kitablarından oxuya bilərsiniz.

## *DÖRDÜNCÜ VASITƏ*

## *CIHAD VƏ ŞƏHADƏT*

İslam dininin genişləndirilməsi, tövhid kəlməsinin yüksəklərə qaldırılması və islam dininin, şəriət qanunlarının və Qur'an hökmlərinin qorunub saxlanması, zülm və zalımlarla mübarizə aparıb məzlum və zəif kütləlləri himayə etmək üçün Allah yolunda aparılan cihad ən böyük ibadətlərdəndir ki, nəfsin təkamülə yetməsinə səbəb olur və bəndənin Allah dərgahına doğru yüksəlməsi üçün bir vasitədir. Onun fəziləti barəsində çoxlu ayə və rəvayətlər qeyd olunur. Allah-Təala buyurur: **"İman gətirib öz vətənlərindən hicrət edən, mal və canları ilə Allah yolunda cihad edənlər üçün Allah yanında uca bir məqam vardır və onlar nicat tapanlardır. Pərvərdigarları onlara içərisində daim ne'mətlər olan behiştləri, Öz razılıq və rəhmətini onlara müjdə verir. Onlar behiştlərdə əbədi qalarlar. Həqiqətən Allah yanında böyük mükafat vardır."**[1]

Yenə buyurulur: **"Allah mücahidlərə, cihada getməyənlərdən böyük savabla üstünlük vermişdir."**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Behiştdə "mücahidlər qapısı" adı ilə tanınan bir qapı vardır. Camaat qiyamət dayanacaqlarında dayandıqları halda mücahidlər iti qılıncları ilə behiştə tərəf hərəkət edəndə həmin qapı açılar. Mələklər onlara "xoş gəldin" deyərlər."**[3]

---

[1] "Tövbə" surəsi, ayə:20
[2] "Nisa" surəsi, ayə95
[3] "Vəsailuş-şiə", 11-ci cild, səh.10

O Həzrət (s.ə.v.v) yenə buyurur: **“Hər yaxşılıqdan yuxarı digər bir yaxşılıq da vardır. Amma insan Allah yolunda öldürüləndə ondan da yüksək bir yaxşılıq yoxdur.”**[1]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Hər kəs Allah yolunda şəhid olsa Mütəal Allah onun günahlarının heç birini onun yadına salmaz.”**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Allah şəhidə yeddi şey əta edər: 1.Birinci qan damlası bədənindən çıxan zaman onun bütün günahlarını bağışlayar. 2.Şəhid olduqdan sonra onun başı iki hurul-eynin ətəyində olar, onlar şəhidin üzündəki toz-torpağı təmizləyər və deyərlər: “Əhsən sənə!”. O da cavabında “mərhəba!”-deyər. 3.Behişt libasını ona geyindirərlər. 4.Behiştin xəzinədarları cürbəcür ətirləri və xoş iyləri ona təqdim edərlər ki, hansını istəsə seçsin. 5.Şəhadət zamanı behiştdəki məqamını müşahidə edər. 6.Şəhid olduqdan sonra ruhuna belə xitab olunar: “Behiştin hansı yerində istəyirsənsə gəz!”. 7.Şəhid Allahın camalına nəzər edər və bu iş də hər bir peyğəmbər və şəhid üçün aramlıqdır.”**

Allah-Təala Qur’anda buyurur: **“Allah mö’minlərin canlarını və mallarını alaraq onların əvəzində behişt verər. Həmin mö’minlər ki, Allah yolunda cihad edirlər, düşmənləri öldürür və özləri də qətlə yetirilirlər. Bu, Allahın Tövratda, İncildə və Qur’anda qeyd olunan haqq və’dəsidir. Allahdan başqa kim əhdinə daha yaxşı əməl edər?! Sizlərə Allahla etdiyiniz müamilədə müjdə olsun və bu böyük bir səadətdir.”**[3]

Qeyd olunan ayə Qur’anın çox zərif ayələrindən biri olub camaatı xüsusi incəliklə cihada təşviq edir. Əvvəldə buyurur ki, Allah mö’minlərin canlarını və mallarını alıb əvəzində onlara behişt verir. Necə də gözəl müamilədir! Alıcı zatən qəni və varlıq aləminin maliki olan Allahdır. Satıcı da mö’mindir ki, Allaha, axirət dünyasına iman gətirmişdir. Müamilə olunan şey mö’minlərin canları və malları, müamilənin dəyəri isə əbədi behiştdir. Sonra buyurulur: Allah-təala üç böyük asimani kitabda – Tövratda, İncildə və Qur’anda belə bir və’dəni qeyd etmişdir. Sonra buyurulur: «Allahdan da əhdinə yaxşı və’də edən bir kəs varmı?!» Ayənin axırında Allah belə bir dəyərli

---

[1] “Vəsailuş-şiə”, 11-ci cild, səh.9
[2] “Vəsailuş-şiə”, 11-ci cild, səh.9
[3] “Tövbə” surəsi, ayə 111

müamiləni mö’minlərə müjdə verərək buyurur: “Ən böyük səadət budur.”

Qur’an Allah yolunda şəhid olan bir insan üçün ən yüksək məqamları nəzərə alaraq buyurur: **“Allah yolunda öldürülən şəxslərin ölü olduğunu güman etməyin, əksinə onlar diridirlər və Pərvərdigarının yanında ruzilərdən bəhrələnirlər.”**[1]

“İndə Rəbbihim” (Rəbbləri yanında) cümləsi şəhidin yüksək məqamını bəyan edir. Ölümdən sonra insan ruhunun diri qalması şəhidlərə məxsus deyil, əksinə, bütün insanlar belədir. Lakin şəhidlərin imtiyazı budur ki, onlar Rəbblərinin yanında ən yüksək məqamlarda həyatlarını davam etdirir və həmin ali məqamlardakı mə’nəvi ruzilərdən bəhrələnirlər. Aydındır ki, bu məqama çatanların ruzisi sairlərin ruziləri ilə eyni səviyyədə deyildir.

Allah yolunda cihad etmək və şəhid olmaq ibadətlərin ən böyüyü və ən dəyərlisidir. Təkamül yolçusu bu seçilmiş yolda ən yüksək ali məqamlara nail olur. Bu böyük ibadəti sair ibadətlərdən fərqləndirən iki əsas cəhət var:

**1.Mücahidin yüksək hədəfi. M**ücahid insanın hədəfi özünün və yaxın adamlarının şəxsi mənafeyini tə’min etmək deyildir. O, dar görüşlü, özünü bəyənən, özünü istəyən deyil. Əksinə, o, Allahı istəyir. Mücahid insan islamın genişlənməsini, tövhid kəlməsinin yüksəlməsini, zülm, zorakılıq, haqqsızlıqla mübarizəni, məhrumları və zəifləri müdafiə etməyi, ictimai ədalətin bərqərar olunmasını istəyir. Ən yüksək hədəflərə malik olduğundan, ən yüksək məqamlara da nail olur.

**2.Fədakarlığın ən yüksək həddi. M**ücahid insan Allah dərgahına seyr etmək, hədəfinə çatmaq üçün ən dəyərli şeylərini və sərmayələrini əldən verir. İnsan sədəqə verəndə məqsədi bu olur ki, mal-dövlətinin bir miqdarını Allah yolunda sərf etsin, ibadət edərkən məqsədi bu olur ki, vaxtının və qüdrətinin bir qismini bu yolda sərf etsin. Amma mücahid insan hər bir şeyindən keçir. Bunların hamısından da üstün öz canından keçir, bütün varlığını ixlasla Allah-Təalaya təqdim edir. Mal, cah-cəlal, şan-şöhrət, arvad, övlad, qohum-əqrəbadan göz yummaqla öz canını Pərvərdigari-aləmə təslim edir. Ariflərin və dindar insanların bir ömür boyu yerinə yetirdikləri şeyin çoxunu mücahid insan qısa müddət ərzində yerinə yetirir. Maddi dünya mücahidin nurani və əzəmətli ruhu

---

[1] “Ali-İmran” surəsi, ayə 169

üçün dar gəlir. Buna görə də yaralı aslan kimi maddə qəfəslərini sındırır, bir göyərçin kimi Allahın razılığının nurani məqamlarına, geniş aləmlərə doğru pərvaz edib məqamların ən yüksəyində Allaha doğru seyr edir. Sair Allah övliyaları tədricən və uzun müddət ərzində məhəbbət, eşq, şühud məqamına çatırlarsa, şəhid mücahid bir gecədə yüz illik yolu ötüb keçir və Allahın görüşünə nail olur.

Allahın sair bəndələri zikr, qiyam vasitəsilə Allaha yaxınlaşırsa, Allah yolunda cihad edən mücahid yaralara, dərdlərə, əzablara, çətinliklərə, güllələrə və s. dözərək öz canını verib Allah dərgahına yaxınlaşır. Bunların arasındakı fərqlər olduqca çoxdur. Cihad və müharibə meydanı özünə məxsus səfa, mə'nəviyyət və nuraniyyətə malikdir. Eşq, hərəkət, fədakarlıq meydanıdır, Allah və məhbub yolunda fəda olmaq üçün müsabiqə (yarış) meydanıdır, əbədi həyatla dirilmək meydanıdır. Səngər həyatı keçirənlərin zümzüməsinin xüsusi səfası, nuraniyyəti və cazibədarlığı vardır ki, onun oxşarını hətta mə”bədlərdə və məscidlərdə də çox az tapmaq olar.

## *BEŞINCI VASITƏ*

## *INSANLARA YAXŞILIQ EDIB ONLARA ƏL TUTMAQ*

İslam nəzərindən ibadət və Allaha yaxınlıq namaz, oruc, həcc, ziyarət, zikr, dua ilə xülasələnmir, məscidlərdə, mə'bədlərdə, məzarlarda məhdudlaşmır. Əksinə ictimai məs'uliyyətləri yerinə yetirmək, Allah bəndələrinə xidmət, yaxşılıq etmək də qürbət qəsdi ilə olarsa, ən yaxşı ibadətlərdən hesab olunur ki, bu da insan ruhunun saflaşdırılmasında, kamala yetirilməsində və Allah dərgahına yaxınlaşmasında yaxşı bir vasitədir. İslam nəzərincə dini qaydalara itaət və seyri-süluk insanın guşənişin həyat tərzi keçirməsini gərəkli etmir, əksinə, ictimai məs'uliyyətləri qəbul etməklə eyni zamanda cəmiyyətdə qalmaq olar. Xeyir işlərdə iştirak etmək, yaxşılıqda qarşılıqlı həmkarlıq, mö'minlərin ehtiyaclarını tə'min etməkdə çalışmaq, onları sevindirmək, məhrumları və zəifləri müdafiə etmək, müsəlmanların işlərini qaydaya salmaq, onların çətinliklərini aradan qaldırıb həll etmək, Allah bəndələrinə kömək etmək və s. kimi bəyənilən işlər islam nəzərində böyük ibadətlərdən hesab olunur ki, onların savabı onlarla qəbul olunmuş həcc və ümrədən daha artıqdır. Bu barədə yüzlərlə rəvayət nəql olunmuşdur ki, onlardan nümunə olaraq aşağıdakıları qeyd edirik:

İmam Cə'fər Sadiqdən (ə) nəql olunur ki, Allah-Təala belə buyurur: **“Bəndələr Mənim əyalımdır. İnsanlar içərisində Mənə**

**ən sevimli olan o kəslərdir ki, camaata qarşı daha mehriban olsun, onların ehtiyaclarını aradan qaldırmaqda daha artıq çalışsın.”**[1]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“İnsanlar Allahın ailəsidir. Allah yanında ən sevimli kəs odur ki, onun faydası Allahın əyalına daha çox çatsın və bir ailənin qəlbini sevindirsin.”**[2]

İmam Məhəmməd Baqir (ə) buyurur: **“Mö’minin (öz din) qardaşının üzünə təbəssüm etməsi yaxşılıq sayılır. Onun çətinliklərini aradan qaldırmaq da yaxşılıqdır. Allaha, mö’mini sevindirməkdən daha sevimli bir işlə ibadət olunmayıbdır.”**[3]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Hər kəs bir mö’mini sevindirsə, məni sevindirmişdir, hər kəs məni sevindirsə, Peyğəmbəri sevindirmişdir, hər kəs Peyğəmbəri sevindirsə, Allahı sevindirmişdir və hər kəs Allahı sevindirsə, behiştə daxil olar.”**[4]

O Həzrət (ə) yenə buyurur: **“Mö’minin hacətini yerinə yetirmək (ehtiyacını aradan qaldırmaq) Allah yanında hər birində yüz min (dinar, dirhəm) infaq etdiyi iyirmi həccdən daha sevimlidir.”**[5]

Başqa bir hədisdə buyurur: **“Bir müsəlmanın ehtiyacını tə’min etmək üçün çalışmaq, Kə’bə evinin ətrafını yetmiş dəfə təvaf etməkdən daha yaxşıdır.”**[6]

Yenə buyurur: **“Allahın elə bəndələri vardır ki, camaat öz ehtiyaclarında onlara pənah aparırlar, qiyamətdə məhz onlar (Allahın əzabından) amanda olacaqlar.”**[7]

Gördüyünüz kimi, islam nəzərindən Allah bəndələrinə yaxşılıq və xidmət etmək, onların çətinliklərinin aradan qaldırılıb həll edilməsində çalışmaq böyük ibadətlərdən hesab olnur ki, əgər qürbət qəsdi ilə yerinə yetirilərsə, insan ruhunun təkmilləşdirilməsinə, pərvəriş olunmasına və Allah dərgahına doğru yüksəlməsinə səbəb olacaqdır.

---

[1] “Kafi”, 2-ci cild, səh.199
[2] “Kafi”, 2-ci cild, səh.164
[3] “Kafi”, 2-ci cild, səh.188
[4] “Biharul-ənvar”, 74-cü cild, səh.413
[5] “Kafi”, 2-ci cild, səh.193
[6] “Biharul-ənvar”, 74-cü cild, səh.311
[7] “Biharul-ənvar”, 74-cü cild, səh.318

Amma çox təəssüflə, camaatın əksəriyyəti islamı düzgün tanımadığına görə islami ibadətlərin bu böyük qismindən qafildirlər və ibadəti, seyri-süluku namaz, oruc, ziyarət, dua və zikrdən başqa bir şeydə bilmirlər.

## *ALTINCI VASITƏ*

## *DUA*

Dua ibadətlərin ən yaxşısı, insan nəfsinin kamala yetməsinə və Allaha yaxınlaşmasına səbəb olan bir vasitədir. Buna görə də Mütəal Allah bəndələrini dua etməyə də'vət edərək buyurur: **"Pərvərdigarınız buyurdu: «Məni çağırın ki, istəklərinizi yerinə yetirim. Mənə ibadət etməkdə təkəbbür edənlər tezliklə zillətlə cəhənnəmə daxil olacaqlar.»"**[1]

Yenə buyurur: **"Aşkarda və gizlində Pərvərdigarınızı çağırın. Həqiqətən, Allah təcavüzkarları sevmir."**[2]

Başqa bir ayədə isə belə buyurulur: **"Bəndələrim Mənim barəmdə səndən soruşanda (de) ki, Mən onlara yaxınam, əgər Məni çağırsalar dualarını qəbul edərəm."**[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Dua – ibadətin ruhu, məğzidir."**[4]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"Dua ibadətdir və Allah-Təala buyurur: Allahı çağırın və heç vaxt "daha işlər tamam olmuşdur" - deməyin."**[5]

O Həzrət (ə) yenə buyurur: **"Heç vaxt duanı tərk etməyin. Çünki, siz insanın Allah dərgahına yaxınlaşmasına dua qədər səbəb olacaq bir əməl tapa bilməzsiniz. Hətta kiçik işləri də Allahdan istəyin və onların kiçik olması bəhanəsi ilə duanı tərk etməyin. Çünki kiçik işlərin sahibi elə böyük işlərin də sahibidir."**[6]

Bəndə hər bir halda dua etməlidir. Çünki bütün vücud aləminin Allaha ehtiyacı vardır. Hətta, onların hamısı ehtiyacın özüdür. Əgər Allahın feyzi bir anlığa kəsilərsə, hər bir şey məhv olub aradan gedər.

---

[1] "Mu"min" surəsi, ayə:63
[2] "Ə"raf" surəsi, ayə55
[3] "Bəqərə" surəsi, ayə:183
[4] "Səhihi Termezi", 2-ci cild, səh.266
[5] "Kafi", 2-ci cild, səh.468
[6] "Kafi", 2-ci cild, səh.468

Bəndəyə çatanların hamısı Allah tərəfindəndir. Belə isə, bəndə bu təbii ehtiyacını dildə izhar etməli, özünün zati yoxsulluğunu, bəndəçiliyini və ehtiyaclarını əməldə isbat etməlidir. İbadətin də mə'nası bundan qeyri bir şey deyildir.

İnsan dua halında Allahı yad edir, Onunla raz-niyaz edir, ehtiyaclarını bəndəçiliyin əlaməti olan raz-niyaz ilə zatən qəni olan Allaha təqdim edir. Həqir və ehtiyac aləmindən ümidini kəsir və bütün xeyirlərin və kamalların mənbəyi ilə əlaqə yaradır. Fəqirlik aləmindən pərvaz edir, batini bəsirət gözü ilə Haqq-Təalanın camalını müşahidə edir. Dua və raz-niyaz halı bəndənin ən ləzzətli və ən gözəl halətlərindəndir ki, Allah övliyaları da onu heç bir qiymətə dəyişmirlər. "Səhifeyi-Səccadiyyə" və sair dua kitablarına baxın. Mə'sumların (ə) necə raz-niyaz etdiyini görün. Allahla birbaşa əlaqə bərqərar etmək və duanın qəbul olunmasına ümid bağlamaq qəlblərə aramlıq və dua edən şəxsə təskinlik verir. Əgər insan çətinliklərin həll olunmasında, xoşagəlməz hadisələrdə Allaha pənah aparmazsa, çətinliklərə necə sinə gərib dözə bilər və həyatını davam etdirəcəyinə necə ümid bağlayar?

Dua mö'minin silahıdır ki, onun vasitəsilə ümidsizliklə, mə'yusluqla mübarizə aparır, çətinliklərdə qeybi qüvvələrdən kömək diləyir. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) və imamlar (ə) da daim bu silahdan istifadə etmişlər. Duadan istifadə olunması bütün mö'minlərə tövsiyə olunur. İmam Riza (ə) öz səhabələrinə buyurur: "Peyğəmbərlərin silahına sarılın!" Soruşdular: "Peyğəmbərlərin silahı nədir?" Buyurdu: "Dua."[1]

İmam Məhəmməd Baqir (ə) buyurur: **"Allah mö'min bəndələri içərisində o kəsləri sevir ki, çox dua etsinlər. Sizə tövsiyə edirəm ki, sübh çağları gün çıxan vaxta qədər dua edəsiniz. Bu saatda asimanın qapıları açıqdır, insanların ruziləri bölünür və böyük hacətlər qəbul olunur."**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Dua mö'minin silahı, dinin sütunu və asimanların, yerin nurudur."**[3]

Dua bir ibadət, üstəlik ibadətlərin məğzidir, axirət savabıdır. O, mö'minin me"racı, qüds aləminə pərvaz səbəbidir. Dua ruhu kamala çatdırıb pərvəriş edir, sahibini Allahın dərgahına

---

[1] "Kafi", 2-ci cild, səh.468
[2] "Kafi", 2-ci cild, səh.478
[3] "Kafi", 2-ci cild, səh.468

yaxınlaşdırır. Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Dua səadətin açarıdır. Ən yaxşı dua o duadır ki, pak sinədən və təqvalı qəlbdən çıxmış olsun. Allahla münacat etmək nicata (qurtuluşa) səbəb olur, ixlas səbəbi ilə (pisliklərdən və həlakətdən) nicat hasil olur. Belə isə, çətinliklər şiddətlənəndə Allaha pənah aparmaq lazımdır."**[1]

Deməli, dua bir ibadətdir ki, əgər şərtlərinə malik olsa və düzgün yerinə yetirilsə insan ruhunun yüksəlişinə, bəndənin Allah dərgahına seyr etməsinə səbəb olacaqdır. Duanın bu tə'siri labüddür. Buna görə də bəndə heç vaxt, heç bir şəraitdə bu böyük ibadətdən qafil olmamalıdır. Çünki dua heç vaxt tə'sirsiz olmur. Baxmayaraq ki, bə'zən onun zahiri və tez nəticələri görünmür. Bə'zən dua edən şəxsin istəklərinin yerinə yetməməsi, tə'xirə düşməsi, yaxud dünyada ümumiyyətlə, baş verməməsi mümkündür. Lakin, bunun özü də məsləhətsiz deyil. Çünki bə'zən mö'minin dünyəvi istəklərinin yerinə yetirilməsi onun həqiqi məsləhəti olmur. Hikmətli Allah da bəndənin həqiqi məsləhətini onun özündən də yaxşı bilir. Buna görə də bəndə daim ehtiyac əllərini Allah dərgahına qaldırmalı, hacətlərini istəməlidir. Əgər məsləhətinə olarsa, elə bu dünyada yerinə yetirilər. Amma əgər Allah müəyyən məsləhət üzündən bəndəsinin hacətini tə'xirə salsa, bəndə Onunla daha çox münacat və raz-niyaz edərək yüksək məqamlara çatır. Bə'zən də Allah bəndənin məsləhətini bunda görür ki, onun hacətini bu dünyada tə'min etməsin ki, daim Allahı yad etsin və axirət dünyasında daha yaxşı mükafatlar alsın.

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Allah o bəndəyə rəhmət eləsin ki, hacətini Allahdan istəyir və duada israr edir. İstər hacəti yerinə yetirilsin, istərsə də yetirilməsin. (Sonra bu ayəni oxudu:) Vəəd'u Rəbbi əsa əlla əkunə bi duai Rəbbi şəqiyya – (Mən Rəbbimə dua edirəm. Ola bilsin ki, mən Rəbbimə ibadət etməklə bədbəxt olmayım)."**[2]

İmam Cə'fər Sadiq (ə) buyurur: **"(Bə'zən) Mö'min Allahdan bir hacət istəyir. Lakin, Allah mələklərinə göstəriş verir ki, bəndənin hacətini bir az tə'xirə salsınlar. Çünki onun səsini və duasını daha çox eşitmək istəyir. Qiyamətdə də ona deyər: "Ey Mənim bəndəm! Sən Məni çağırdın, lakin Mən sənin duanın qəbul olunmasını tə'xirə saldım. İndi onun əvəzində filan-filan**

---

[1] "Kafi", 2-ci cild, səh.468

[2] "Kafi", 2-ci cild, səh.475

**savabları sənə əta edirəm. Həmçinin filan dua və filan dualar da eyni ilə.” Bu zaman mö’min arzu edər ki, kaş dünyadakı arzularımdan, dualarımdan heç biri yerinə yetməyəydi. Bu sözü ona görə deyir ki, axirətin yaxşı savablarını görüb.”**[1]

O Həzrət yenə buyurur: “Duanın ədəblərini öyrən və diqqət yetir ki, kiminlə söhbət edirsən, onu necə çağırırsan və nə üçün çağırırsan. Allahın əzəmət və böyüklüyünü yad et. Öz qəlbinlə hiss et ki, qəlbində olanları Allah bilir. O, sənin qəlbindəki sirlərdən agahdır, qəlbində gizlənmiş haqq və ya batildən mə’lumatı vardır. Sonra özünün nicat və həlakət yollarını tanı. Məbada Allahdan elə bir şey istəyəsən ki, sənin həlakətin onda olsun. Halbuki, sən nicatının onda olduğunu təsəvvür edirsən. Allah-təala Qur’anda buyurur: “Bə’zən insan xeyir əvəzinə öz şərini istəyir və insan öz işlərində tələsəndir.”

“Belə isə, düzgün fikirləşib gör ki, Allahdan nə istəyirsən və nə üçün istəyirsən. Dua sənin tərəfindən bütün vücudla Allah qarşısında “qəbul olunmağı” istəmək, qəlbin Pərvərdigarı müşahidə etməklə əriyib aradan getməsi, bütün ixtiyarların tərk edilməsi və işlərin hamısını Allaha təslim edilməsi deməkdir. Belə isə, duanın şərtlərinə əməl etməsən, onun qəbul olunmasını gözləmə, çünki Allah sirlərə və onlardan da gizli olan şeylərə agahdır. Ola bilsin ki, sən Allahı bir şey üçün çağırasan, halbuki Allah sənin niyyətinin onun tam əksinə olduğunu bilir.”[2]

## *YEDDINCI VASITƏ*

## *ORUC*

İnsan nəfsinin saflaşdırılmasında, aludəliklərdən təmizlənməsində çox böyük rol ifa edən ibadətlərdən biri də oruc tutmaqdır. Orucun fəziləti barəsində çoxlu hədislər nəql olunmuşdur. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Oruc cəhənnəm odundan qorunmaq üçün bir sipərdir.”**[3]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Mütəal Allah buyurur: «Oruc Mənim üçündür və Mən özüm da oruc tutanın mükafatını verəcəyəm.»”**[4]

O Həzrət (ə) yenə buyurur: **“Oruc tutan şəxs behiştin**

---

[1] “Kafi”, 2-ci cild, səh.490
[2] “Həqaiq” (Feyz Kaşani), səh.244
[3] “Vəsailuş-şiə”, 7-ci cild, səh.289
[4] “Vəsailuş şiə”, 7-ci cild, səh.290

**bağlarında bəhrələnir, mələikə də iftar vaxtına qədər ona dua edir.”**[1]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Hər kəs savab üçün bir gün müstəhəb oruc tutsa, bağışlanmaq onun üçün vacib olur.”**[2]

İmam Cə’fər Sadiq (ə) buyurur: “**Oruc tutan şəxsin yuxusu ibadət, sükutu təsbihdir, əməli qəbul olunmuş, duası yerinə yetirilmişdir.”**[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: “Mütəal Allah belə buyurur: **“Bütün yaxşı bəndələrimin əməllərinin on qatdan tutmuş yetmiş qata qədər savabı vardır. Amma oruc tutan şəxsin savabı Mənim öhdəmdədir, Mən onun savabını Özüm verəcəyəm.” Deməli, oruc tutan şəxsin savabını (nə qədər olduğunu) yalnız Allah Özü bilir.”**[4]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) rəvayət edir ki, Peyğəmbəri-Əkrəm (s.ə.v.v) me’rac gecəsində dedi: **“Pərvərdigara! İbadətin əvvəli nədir?”** Buyurdu: **“İbadətin əvvəli oruc tutmaq və sükut etməkdir.”** Peyğəmbəri-Əkrəm (s.ə.v.v) dedi: **“Pərvərdigara! Orucun tə’siri nədir?”** Buyurdu: **“Orucun tə’siri hikmətdir və hikmət mə’rifətə səbəb olur, mə’rifət yəqin gətirir, insan yəqin mərhələsinə çatdıqda çətinlikdə, yoxsa asayişdə və rifahda olmasının onun üçün heç bir fərqi olmaz.”**[5]

Oruc iki yöndən – mənfi və müsbət yöndən təşkil olunan xüsusi bir ibadətdir. Birinci yön nəfsin yeməkdən, içməkdən, cinsi əlaqədə olmaqdan və sair qanuni ləzzətlərdən çəkinmək, Allaha və Peyğəmbərə (s.ə.v.v) yalan nisbəti verməmək, fiqhi kitablarda deyilən sair işlərdən çəkinməkdir. İkinci yön ixlas, niyyət və qürbət qəsdidir ki, bu da həqiqətdə ibadətin ruhu məsəli kimidir. Orucun həqiqəti qürbət qəsdi ilə nəfsin qarşısını almaq, maddi ləzzətlərdən çəkinməyə dair qərara gəlməkdir. Belə ki, cinsi əlaqədə olmaq, Allaha, Peyğəmbərə yalan nisbəti vermək, yemək-içmək kimi işlər onu batil edir.

---

[1] “Vəsailuş şiə”, 7-ci cild, səh.296
[2] “Vəsailuş şiə”, 7-ci cild, səh.293
[3] “Vəsailuş şiə”, 7-ci cild, səh.294
[4] “Vəsailuş şiə”, 7-ci cild, səh.295
[5] “Müstədrəkul-vəsail”, 1-ci cild, səh.590

Fiqhi kitablarda orucun barəsində deyilən tə’rif belədir: Əgər bir şəxs qürbət (Allahın əmrini yerinə yetirmək) qəsdi ilə qeyd olunan işlərdən, yə’ni yemək-içmək, cima etmək, istimna etmək, Allaha və Peyğəmbərə yalan nisbəti vermə, imalə etmək, başı suya batırmaq, sübh azanına qədər cənabət halında qalmaq kimi işlərdən çəkinərsə, ibadəti səhihdir və qəzası, kəffarəsi yoxdur. Bu, adi camaatın tutduğu orucdur.

Amma hədislərdə özünü saxlamaq daha geniş səviyyədə bəyan olunub, qeyd olunanlarla məhdudlanmır. Hədislərdə qeyd olunur ki, oruc tutmaq təkcə yemək-içməyi tərk etməklə deyildir. Həqiqi oruc tutan o kəsdir ki, bütün bədən üzvlərini günahdan saxlasın. Yə’ni gözünü, qulağını, dilini, əlini, ayağını və sair üzvlərini onlara aid olan günahlardan saxlasın. Bu, Allahın xüsusi bəndələrinin tutduğu orucdur.

Bundan da yüksəkdə daha xüsusi olan adamların orucudur. O da bundan ibarətdir ki, oruc tutan şəxs yemək, içmək kimi adi halda halal olan şeyləri və bütün günahları tərk etməkdən əlavə, öz qəlbini də Allahı yadından çıxaran işlərdən saxlasın, daim Allahı yad etsin və Onu özünə hazır və nəzarətçi görsün, özünü Allahın qonağı bilsin və Allahın görüşünə hazır etsin.

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Oruc tutmaq təkcə yemək-içməyi tərk etməklə hasil olmur. Oruc tutan zaman qulaq, göz, dil, qarın, övrətin də oruc olmalıdır. Oruc tutduğun zaman əlini və övrətini də günahdan saxla. Daim sakit ol. Yalnız xeyir və faydalı söz danış. Öz xidmətçilərin ilə xoş davran.”**[1]

O Həzrət (ə) yenə buyurur: **“Oruc tutan şəxsin vüqar və həyası hökmən səndə olsun. Bacardığın qədər sükuta riayət et. Yalnız Allahı zikr elə. Elə olmasın ki, oruc tutduğun gün elə oruc tutmadığın günlər kimi olsun.”**[2]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) bir xütbədə buyurdu: **“Hər kəs Ramazan ayını sükut halında oruc tutsa, qürbətən-iləllah məqsədi ilə qulağını, gözünü, əlini, övrətini və s. bədən üzvlərini yalandan, haramdan, qeybətdən qorusa, Allah-təala onu Özünün müqərrəb bəndələrindən edər və o, İbrahim Xəlilur-Rəhmanın həmsöhbəti olar.”**[3]

---

[1] “Vəsailuş şiə”, 7-ci cild, səh.118
[2] “Vəsailuş şiə”, 7-ci cild, səh.117
[3] “Vəsailuş şiə”, 7-ci cild, səh.117

İmam Cə’fər Sadiq (ə) buyurur: “Oruc tutmaq təkcə yemək-içməkdən çəkinmək deyil. Əksinə, onun xüsusi şərtləri vardır və onlara riayət etmək lazımdır ki, oruc tamam-kamal olsun. O da daxili sükut etməkdən ibarətdir. İmranın qızı Həzrəti Məryəmin sözünü eşitməmisən ki, camaatın cavabında deyir: “Mən Allah xatirinə oruc nəzir etmişəm. Bu gün heç kəslə danışmayacağam.” Yə’ni, oruc tutduğum üçün sakit olmalıyammı?! Deməli, oruc tutduğun zaman dilinizi yalandan saxlayın, qəzəblənməyin, (nalayiq sözlər deməyin və) söyüş söyməyin, acı dilli olmayın, yersiz mübahisə etməyin, zülm etməkdən, cəhalətdən, pis əxlaqlıqdan, bir-birini rədd etməkdən çəkinin, Allahın zikrindən və namazdan qafil olmayın. Sükuta, dərindən təfəkkür etməyə, səbr və düzlüyə, şər əhlindən uzaq olmağa sə’y edin. Batil, yalan və böhtan sözlərdən, düşmənçilikdən, bədgümanlıqdan, qeybətdən, söz gəzdirməkdən uzaq olun. Axirətə nəzər yetirin. Allahın və’dələri gerçəkləşəcəyi günlərin gəlib çatmasını gözləyin. Allahla görüş üçün azuqə hazırlayın.

**Öz sahibindən qorxan bir qul kimi aramlığa, vüqara, xüşuya, xüzuya riayət edin. Qorxu ilə ümid arasında olun. (Əgər) qəlbini eyiblərdən, batini çirkinliklərdən pak etsən, Allahdan başqa hər bir şeydən uzaq gəzsən, vilayətini oruc tutmaqla və zahirlə batinini Allahın çəkindirdiyi şeylərdən paklandırmaqla Onun vilayətini qəbul etsən (onda bil ki,) Allah dərgahında qəbul olunmusan, Allahdan qorxmaq haqqını zahirdə də, batində də yerinə yetirmisən. Oruc tutduğun günlərdə öz nəfsini Allaha bağışlamış, qəlbini Onun üçün hazırlamısan və Allah-Təalanın əmrlərinə əməl etmək barədə qəlbinə mə’muriyyət vermisən. Əgər qeyd olunan surətdə oruc tutsan – sən doğrudan da oruc tutanlardansan və öz vəzifənə əməl etmisən. Nə qədər naqis (natamam) qoymusansa, həmin miqdarda orucundan azalacaqdır. Çünki oruc tutmaq təkcə yeyib-içməkdən çəkinmək deyil. Allah-təala orucu batil edən sair davranış və sözlərdə də orucu hicab qərar vermişdir. Nə azdır oruc tutanlar! Nə qədər də çoxdur ac qalanlar!”**[1]

### *ORUCUN RUHUN SAFLAŞDIRILMASINDAKI ROL*

Oruc çox dəyərli və mühüm bir ibadətdir. Onun şərtlərinə və ədəblərinə riayət edilsə, müqəddəs islam şəriətində buyurulan tərzdə

[1] “Vəsailuş şiə”, 7-ci cild, səh.119

yerinə yetirilsə, insanın ruhunun çirkinliklərdən təmizlənməsində, yüksək mərhələlərə çatmasında çox böyük tə’sir qoyar. Oruc nəfsin günahlardan, çirkin və rəzil əxlaqlardan təmizlənməsində, ruhun təkamülü, insani keyfiyyətlərlə zinətləndirilməsində və ilahi nuraniyyəti qəbul etməsi üçün hazırlanmasına əsaslı tə’sir göstərir. Oruc tutan şəxs günahları tərk etməklə nəfsi-əmmarəni cilovlayıb nəzarət altına alır və öz ixtiyarına keçirir. Oruc tutulan günlər günahın tərk edilməsi və nəfsə riyazət verilməsi, nəfslə cihad edilməsi üçün bir məşqdir. Bu dövrdə insan öz nəfsini günahlardan və çirkinliklərdən paklamaqdan əlavə, bir sıra qanuni ləzzətlərə, o cümlədən yemək-içmək və s. kimi şeylərə də göz yumur. Bununla da öz nəfsinə səfa və nuraniyyət verir. Çünki aclıq batinin səfalı olmasına, insanın Allaha diqqət yetirməsinə səbəb olur. İnsan ac olduğu əksər hallarda çox yaxşı vəziyyətdə olur ki, mə’dənin dolu olduğu vaxtlarda həmin hala malik olmur.

Bir sözlə, oruc təqva əldə etmək üçün çox böyük rol oynayır. Buna görə də Qur’ani-Kərim orucun şəriət qanunu şəklinə salınmasını təqva əldə olunmasından ötrü əsas amil hesab etmişdir. Belə ki, buyurulur: **“Ey iman gətirənlər, sizdən əvvəlkilərə vacib olduğu kimi, oruc sizə də vacib edildi. Ola bilsin ki, bu vasitə ilə təqvalı olasınız.”**[1]

Mübarək Ramazan ayında oruc tutan, oruc olduğu üçün bir ay ərzində günahdan və çirkin əxlaqdan uzaq olan bir şəxs nəfsini öz ixtiyarına keçirir. O, bu mübarək aydan sonra da həmin günahı tərk etmək halını davam etdirə bilər.

İndiyə qədər qeyd olunanlar orucun batinin saflaşdırılmasında və onun günahlardan, nəfsani çirkinliklərindən təmizlənməsində ifa etdiyi rol haqqında idi. Onun onun müsbət yönləri də nəfsin təkamülə çatmasında, onun insani keyfiyyətlərlə zinətləndirilməsində və Allah dərgahına yaxınlaşmaqda çox mühüm tə’siri vardır. Bu cəhətlərə qısa şəkildə işarə edirik:

1.Oruc insanın gün ərzində orucu batil edən xüsusi şeylərdən çəkinməsindən ibarət olan bir ibadətdir. Bu sair ibadətlər kimi, ixlas və qürbət qəsdi ilə yerinə yetirildikdə nəfsin kamala yetməsinə, ruhun saflaşmasına və insanın Allah dərgahına yaxınlaşmasına səbəb olur.

2.Qanuni və şəriətdə icazə verilən halal ləzzətləri, eləcə də günahları tərk etməklə oruc tutanın qəlbi Allahdan qeyrisinin fikrindən

---

[1] “Bəqərə” surəsi, ayə: 183

paklaşır. Beləliklə də Allah tərəfindən əta olunan nuraniyyətin qəbuluna və Onunla mə'nəvi görüşdən ötrü ləyaqət əldə edir. Belə bir halda ona Allahın xüsusi inayətləri şamil olur. İlahi cazibələrlə Haqq dərgahına yaxınlaşmağa nail olur. Ona görə də hədislərdə qeyd olunur ki, oruc tutanın hətta nəfəs çəkməsi və yuxusu belə ibadətdir.

3.Oruc tutulan günlər ibadət etmək, namaz qılmaq, dua etmək, Qur'an oxumaq, zikr, xeyir və yaxşı işlər üçün ən yaxşı fürsətdir. Çünki nəfs hüzuri-qəlb, ixlas və Allaha diqqət yetirmək üçün sair vaxtlardan daha hazırlıqlıdır. Mübarək Ramazan ayı ən yaxşı vaxt, ibadət etməyin və Allaha diqqət yetirməyin baharıdır. Buna görə də hədislərdə Ramazan ayının özünün və onda edilən ibadətlərin fəzilətinə çox tə'kid olunmuşdur.

Mübarək Ramazan ayı gəlib çatanda İmam Cə'fər Sadiq (ə) övladlarına çoxlu tövsiyə edərək buyururdu: **"İbadət etməyə çox sə'y (himmət) edin, çünki bu ayda camaatın ruziləri bölüşdürülür, əcəlləri müəyyən olunur. Allah dərgahına gedəcək şəxslər bu ayda tə'yin olunur. Ramazan ayında bir gecə vardır ki, o gecədəki əməl min aylıq ibadətdən fəzilətlidir."**[1]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Ramazan ayında çoxlu dua oxuyun, istiğfar edin, çünki dua vasitəsilə bəla sizdən dəf olunur, istiğfar vasitəsilə günahlarınız məhv olur (əməl dəftərindən silinir)"**[2]

Yenə o Həzrət (ə) rəvayət edir ki, bir gün Peyğəmbəri-Əkrəm (s.ə.v.v) bizim üçün xütbə oxudu və buyurdu:

**Ey camaat! Həqiqətən Allah ayı özünün xeyir-bərəkət, rəhmət və məğfirətilə sizə üz gətirib. Bu ay Allah yanında ayların ən yaxşısı, onun günləri günlərin ən yaxşısı, saatları saatların ən yaxşısıdır. Bu elə bir aydır ki, siz onda Allahın qonaqlığına də'vət olunmusunuz. Bu ayda siz Allahın kəramət əhlindənsiniz. Bu ayda (çəkdiyiniz) nəfəslər zikr savabına malikdir. Yuxularınıza ibadət savabı yazılır. Bu aydakı (xeyir) əməlləriniz qəbul, dualarınız müstəcabdır. Belə isə Allahı düzgün (saf) niyyətlə, günah və rəzil sifətlərdən pak olan qəlblərlə çağırıb bu ayın orucunu tutmağı, bu ayda Qur'an oxumağı sizə nəsib etməsini Ondan istəyin. Həqiqətən, bədbəxt**

---

[1] "Vəsailuş şiə", 7-ci cild, səh.221
[2] "Vəsailuş şiə", 7-ci cild, səh.223

**o kəsdir ki, bu əzəmətli ayda (günahlarının) bağışlanmağından məhrum olsun. Öz aclıq və susuzluğunuz ilə qiyamət günündəki aclıq və susuzluğu yad edin. Öz aranızda olan fəqirlərə və miskinlərə sədəqə verin, qocalarınıza tə'zim edin, uşaqlarınıza nəvaziş göstərin, qohumlarınıza qarşı rəhimdil olun. Dillərinizi lazımsız sözlərdən saxlayın. Gözlərinizi halal olmayan şeylərdən yumun. Qulaqlarınızı haram şeylər eşitməkdən qoruyun. Camaatın yetimlərinə qarşı mehribanlıq edin ki, camaat da sizin vəfatınızdan sonra yetim övladlarınıza mehribanlıq etsinlər. Öz günahlarınızdan tövbə edib Allaha tərəf qayıdın. Namaz vaxtları dua etmək üçün əllərinizi qaldırıb dua edin, çünki, namaz vaxtları ən yaxşı anlardır, bu vaxtarda Haqq taala Öz bəndələrinə rəhmət nəzəri salır, onunla münacat (raz-niyaz) etdikləri vaxt onlara (müsbət) cavab verir, Onu çağırdıqları vaxt «ləbbeyk» deyib (dualarını) müstəcab edir.**

**Ey insanlar! Həqiqətən, sizin canlarınız əməllərinizin girovundadır. (Onu) Allahdan bağışlanmaq istəməklə girovdan azad edin. Sizin kürəklərinizə günah yükü ağırlıq edir, səcdələri uzatmaqla həmin yükü yüngülləşdirin və bilin ki, Haqq taala Öz izzət və cəlalına and içib ki, bu ayda namaz qılıb səcdə edənlərə əzab verməsin, onları qiyamət günü cəhənnəm odu ilə qorxutmasın.**

**Ey camaat, sizlərdən hər kəs bu ayda oruc tutan bir mö'minə iftar versə onun savabı Allah yanında bir qul azad etmək və keçmiş günahlarının bağışlanması qədər olar.**

Səhabələrdən bə'ziləri dedilər: «Ey Rəsuləllah, axı bizim hamımızın iftar verməyə imkanımız yoxdur!»

Həzrət (s.ə.v.v) buyurdu: **Oruc tutanlara hətta yarım dənə xurma, yaxud bir içim su qədərində olsa belə, iftar verməklə özünüzü cəhənnəm odundan uzaqlaşdırın. Həqiqətən, Allah həmin savabı bu işi görən adama bundan artığına imkanı olmasa da verər.**

**Ey camaat, hər kəs bu ayda əxlaqını gözəlləşdirsə, qədəmlərin əsdiyi bir gündə (Qiyamətdə) Sirat körpüsündən asanlıqla keçər. Hər kəs bu ayda xidmətçilərinin işini yüngülləşdirsə, Allah qiyamətdə onun hesabını yüngül edər. Hər kəs bu ayda camaata şər yetirməyinin qarşısını alsa, Allah**

**da qiyamətdə Öz qəzəbini ondan dəf edər. Hər kəs bu ayda atasız bir yetimi əzizləyib ona qarşı nəvazişlə davransa, Allah da onu qiyamətdə əzizləyər. Hər kəs bu ayda öz qohum-əqrəbasına sileyi-rəhm və yaxşılıq etsə, Allah da qiyamətdə onu Öz rəhmətinə qovuşdurar. Hər kəs bu ayda qohum-əqrəbasından öz yaxşılığını kəssə, Allah da qiyamətdə Öz rəhmətini ondan kəsər. Hər kəs bu ayda müstəhəb namaz qılsa, Allah onu Cəhənnəm odundan uzaq edər. Hər kəs bu ayda vacib namazları qılsa, Allah ona sair aylarda qılınan yetmiş namazın savabını əta edər. Hər kəs bu ayda mənə çoxlu salavat göndərsə, Allah əməl tərəzilərinin yüngül olduğu bir gündə onun əməl tərəzisini ağırlaşdırar. Hər kəs bu ayda bir ayə Qur'an oxusa, sair aylarda bütöv bir Qur'an oxuyanın savabını qazanar.**

**Ey camaat! Həqiqətən bu ayda behiştin qapıları açıqdır. Öz Pərvərdigarınızdan istəyin ki, onu sizin üzünüzə bağlamasın və bu ayda Cəhənnəmin qapıları bağlıdır. Öz Rəbbinizdən istəyin ki, onu sizin üzünüzə açmasın. Şeytanları bu ayda zəncirləyiblər, Allahdan istəyin ki, onları sizə hakim etməsin.**

Əmirəl-mö'minin (ə) soruşdu: «**Ya Rəsuləllah, bu ayın ən gözəl əməli nədir?**»

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurdu: «**Ey Əbəl Həsən, bu ayın ən yaxşı və fəzilətli əməli Allahın günah, haram buyurduğu işlərdən çəkinməkdir.**»[1]

Hədislərdən mə'lum olduğu kimi, mübarək Ramazan ayı çox bərəkətli, fəzilətli bir aydır. O, ibadət edərək, ruhu saflaşdırmaq, dua etmək, gecələr oyaq qalmaq, nəfsi təkmilləşdirmək ayıdır. Bu ayda edilən ibadət sair aylardakı ibadətlərdən bir neçə qat artıq savaba malikdir. Hətta mö'minin yuxusu və nəfəs çəkməyi belə, ibadət savabına malikdir. Bu ayda behişt qapıları mö'minlərin üzünə açılır, cəhənnəm qapıları isə bağlanır. Allahın mələkləri camaatı daim Allaha ibadətə çağırır. Xüsusilə, səhər çağları və "Qədr" gecələri. Belə ki, o gecəni oyaq qalıb ibadət etmək min aylıq ibadətdən fəzilətlidir.

Allah-təala bu ayda bütün mö'minləri (mə'nəvi) qonaqlığa də'vət etmişdir. Bu də'vətin xəbərini peyğəmbərlər gətirmişdir. Qonaq sahibi mütləq yaxşılıq sahibi Allah, qonağa xidmət edənlər Onun müqərrəb mələkləridir. Qonaqlar isə mö'minlərdir. İlahi ne'mət süfrəsi

---

[1] "Vəsailuş şiə", 7-ci cild, səh.227

açılmışdır. Onda gözün görmədiyi, qulağın eşitmədiyi, heç bir bəşərin ağlına belə gəlmədiyi müxtəlif ne'mətlər, hədiyyələr və kəramətlər vardır. Allah tərəfindən olan müvəffəqiyyət hər bir cəhətdən hazırdır ki, öz himmət və ləyaqətimiz qədərində ondan istifadə edək. Əgər qəflət etsək, peşmançılıq və həsrətin heç bir faydası olmayan qiyamət günündə peşman olacağıq.

Mübarək Ramazan ayının əməlləri və dualarını "Məfatihul-cinan" və s. dua kitablarından ixlas, diqqət və hüzuri-qəlblə oxuyaraq Allah dərgahına yaxınlaşa bilərsiniz.

Sonda qeyd etməliyik ki, sair ibadətlərin, o cümlədən namaz, oruc, zikr, dua və s.in nəfsin təkmilləşdirilməsində, rəzil xüsusiyyətlərdən paklanmasında tə'siri ola bilər. Lakin ixtisarı nəzərə alaraq onlar barəsində əlavə izah vermək fikrindən daşınırıq.

## *RUHANI QARDAŞLARA BIR NEÇƏ TÖVSIYƏ*

"Ruhani" dedikdə məqsədim din elmləri üzrə təhsil alan və ruhaniyə məxsus olan işlərlə məşğul olan, tələbə olub dini təhsil alan, ədəbiyyat, sərf, nəhv, məntiq, məani-bəyan (bunlar ərəb dili qramatikası elmləridir) kimi elmləri tədris etməklə məşğul olan, fiqh-üsul elmlərini tədris edən, haşiyə və risalə yazmaqla məşğul olan, mərcəyi-təqlid məqamına çatmış, dini vergiləri yığıb, aylıq təqaüdləri tələbələr arasında bölüşdürən, dini məsələlərə cavab verməklə, yaxud elmi hövzələri idarə etməklə məşğul olan, məntiq, fəlsəfə, irfan tədris edən, əxlaq dərsi deyən, moizə, xütbə, dini çıxışlar və rovzəxanlıq edən, hardasa imam-cümə olan, yaxud camaata pişnamazlıq edən və yaxud da kitab və məqalə yazmaqla məşğul olan kəslərdir. Bə'zi tələbələr də ömrünün axırına kimi heç bir ictimai məşğuliyyəti qəbul etmədən daim hövzə dərslərində iştirak edir, dərsə qulaq asır, beləliklə də həyatlarını davam etdirirlər. İmamın (ə) mübarək səhmindən ruzi kimi istifadə edirlər. Bu kimi şəxslər ruhani, elm əhli, xidmətçi, din mübəlliğləri hesab olunur, dolanacaqlarını əksər hallarda həmin yollardan və İmamın (ə) mübarək səhmindən tə'min edirlər. Onlar dini işlərlə məşğul olduqlarından xüsusi imtiyaz və ehtirama malikdirlər, camaat da onlara məhəbbət göstərir, onlar üçün nəzir-niyaz edir, iltimasi-dua edir, onlardan şəfaət gözləyir, onlara təbərrük və təvəssül edirlər.

Çox təəssüflə, camaatın nikbin olması, məhəbbət göstərməsi, eləcə də elm və alimlərin fəzilətindən nəql olunan hədislər bizim (ruhani təbəqəsinin) qəflətə düşüb qürur hissi keçirməyimizə səbəb olur. Özümüzü seçilmiş bir təbəqədən hesab edirik. Nəfsimizin

saflaşdırılmasından, ruhumuzun təkamülə doğru aparılmasından qafil oluruq. Sanki, əlimizdə cəhənnəmdən azad olma bəraəti və behişt açarları bizim əlimizdədir və heç bir əmələ ehtiyacımız yoxdur. Qur'anla məşğul olduğumuzdan, hədis deyib dini elmləri yaydığımızdan hamımız özümüzü bu mərhələyə çatmış hesab edirik. Əlbəttə, islam nəzərindən elmin xüsusi dəyəri vardır və çoxlu hədislərdə elmin, alimlərin fəziləti bəyan edilir. Elmin özü də nəfsin təkamülə çatıb Allaha doğru seyr etməsində kömək ola bilər. Lakin bu şərtlə ki, əvvəla, qürbət qəsdi ilə olsun. İkincisi, əməllə yanaşı olsun. Alimlərin və elmin fəziləti barəsində hədislər olduğu kimi, fasiq və ya elminə əməl etməyən alimin də məzəmmət olunmasına dair çoxlu hədislər vardır.

İmam Cə'fər Sadiq (ə) Həfsə buyurdu: **"Ey Həfs! Alimin bir günahı bağışlanınca, cahilin yetmiş günahı bağışlanacaqdır."**[1]

O Həzrət (ə) başqa bir hədisdə isə belə buyurur: «**İsa ibni Məryəm (ə) buyurmuşdur: "Vay olsun pis alimlərə, (cəhənnəm) odu onlara necə də zəbanə çəkər!"**»[2]

İmam Məhəmməd Baqir (ə) **"Fəkubkibu fiha hum vəl-ğavun" (onlar və yolunu azanlar üzü üstə cəhənnəmə atılarlar)** ayəsi ilə əlaqədar buyurur: **"Onlar o kəslərdir ki, dildə ədalətdən dəm vururlar, amma (əməldə) onunla müxalifət etdilər."**[3]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) Peyğəmbəri-Əkrəmdən (s.ə.v.v) belə nəql edir: **"Alimlər iki qismdir: Birincisi, öz elminə əməl edən alimdir. Belə alim nicat tapar. İkincisi isə elmini (ona əməl etməyi) tərk edənlərdir. Bunlar isə həlak olandır. Həqiqətən, cəhənnəm əhli elminə əməl etməyən alimin (üfunətli) iyindən əziyyət çəkərlər. Cəhənnəmdə ən çox həsrət və peşmançılıq hissi keçirən o kəsdir ki, birisini Allaha tərəf də'vət edər, həmin şəxs də onun sözünə qulaq asıb (nəsihətlərini) qəbul edər. Bunun nəticəsində də Allaha itaət edər. Allah da onu cənnətə daxil edər. Onu düz yola hidayət edəni isə, öz elminə əməl etmədiyi, həvayi-nəfsinə tabe olduğu və uzun-uzadı arzular etdiyi üçün cəhənnəmə daxil edər. (Çünki) həvayi-nəfsə itaət etmək insanı haqdan saxlayar, uzun-**

[1] "Kafi", 1-ci cild, səh.47
[2] "Kafi", 1-ci cild, səh.47
[3] "Kafi", 1-ci cild, səh.47

**uzadı arzular isə axirəti yaddan çıxarar.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) minbərdə xütbə oxuyarkən belə buyurdu: **“Ey insanlar! (Bir şeyi) öyrəndiyiniz zaman ona əməl edin, bəlkə hidayət olunasınız. Öz elminə əməl etməyən alim öz cəhalətindən kənara çıxa (ayıla) bilməyən sərgərdan və qafil cahil kimidir. Üstəlik mən bilmişəm ki, (elmi vasitəsilə) onun əleyhinə olan dəlil, öz cəhalətində itib batan və sərgərdan qalan həqiqi cahil əleyhinə olan dəlildən daha əsaslı və daha böyük, onun peşmançılığı cahilin peşmançılığından daha çox davamlıdır. Heç birinin də insanlıq dəyər-qiyməti yoxdur. Şəkk etməyin! Öz nəfsinə ən çox nəsihət edən şəxs Rəbbinə ən çox itaət edəndir. Özünü ən çox aldadan Rəbbinə ən çox qarşı çıxandır. Hər kəs Allaha itaət etsə, əmin-amanlıqda olar və müjdələnər. Hər kəs də Allaha qarşı çıxıb ona itaətsizlik etsə, xəsarətə düşüb peşman olar.”**[2]

İmam Cə’fər Sadiq (ə) Qur’andakı **“Allahdan, yalnız Onun alim bəndələri qorxar”** ayəsinin izahında buyurur: **“Alim o kəsdir ki, əməli sözünü təsdiqləsin. Hər kəsin əməli sözlərini təsdiq etməsə alim deyildir.”**[3]

O Həzrət (ə) yenə buyurur: **“Bizim dostlarımıza bizim tərəfimizdən salam çatdır və onlara xəbər ver ki, biz Allah hüzurunda dayanan zaman onları heç nədən ehtiyacsız edə bilməyəcəyik. Bu işdə yalnız əməlin faydası vardır. Onlar bizim vilayətimizə əməl və təqvadan başqa bir şeylə nail ola bilməzlər. Qiyamət günü ən çox həsrət çəkən o kəslərdir ki, dildə ədalətdən dəm vurub əməldə onunla müxalifətçilik etsinlər.”**[4]

İmam Cə’fər Sadiq (ə) yenə buyurur: **“İnsanlar arasında ən şiddətli əzaba düçar olanlar öz elmindən heç bir fayda aparmayan alimlərdir.”**[5]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Xeyiri bilən, amma ona əməl etməyən şəxs çıraq kimidir. Camaat üçün işıq saçar, amma özü özünü yandırar.”**[6]

---

[1] “Kafi”, 1-ci cild, səh.44
[2] “Kafi”, 1-ci cild, səh.45
[3] “Kafi”, 1-ci cild, səh.36
[4] “Biharul-ənvar”, 2-ci cild, səh.28
[5] “Biharul-ənvar”, 2-ci cild, səh.37
[6] “Biharul-ənvar”, 2-ci cild, səh.38

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Elm öyrənin. Elminizə əməl etməyincə, Alah elmin vasitəsi ilə sizə fayda yetirməz. Çünki alimlərin himmət və sə’yi rəiyyət (onları hidayət etmək), səfehlərin himməti isə (elmi) nəql etməkdir.”**[1]

O Həzrət (ə) yenə buyurur: **“Bir alimin dünyaya məhəbbət bəslədiyini görsəniz, öz dininizdə onu müttəhim edin. Çünki hər bir kəsin fikri-zikri sevdiyi şey barəsində olar.»** Peyğəmbəri-Əkrəm (s.ə.v.v) belə buyurmuşdur: **«Allah-təala Həzrət Davuda belə vəhy etdi: Mənimlə öz aranda (yə’ni səni Mənə tərəf hidayət edəcək) dünyaya məftun olan bir alimi qərar vermə! (Çünki o,) səni Mənim məhəbbətimə aparan yoldan çıxarar. Bu kimilər Mənim mürid bəndələrimin yolunu kəsənlərdir. Mənim onlarla edəcəyim ən kiçik şey (cəza) budur ki, Mənimlə münacat etməyin şirinliyini onların qəlbindən çıxararam.»**[2]

Başqa bir hədisdə isə belə buyurur: **“Hər kəs alimlər arasında öyünmək, səfehlərə tə’nə etmək, yaxud camaatın nəzər-diqqətini özünə yönəltmək məqsədilə elm öyrənsə, Cəhənnəmdə öz yerini hazırlamış olur. Təkəbbür öz əhlindən (ona layiq olanlardan) başqasına aid deyil.”**[3]

Yenə buyurur: **“Hər kəs dünya mənəfəəti (qazanmaq) məqsədilə hədis öyrənsə, axirətdə onun heç bir payı olmaz. Hər kəs onunla (hədislə) axirət xeyri istəsə, Allah ona həm dünya xeyri, həm də axirət xeyri əta edər.”**[4]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Elm öyrənmək istəyənlər üç dəstədir. Agah olun sizi onların əlamət və xüsusiyyətləri ilə tanış edim. Onlardan bir dəstəsi cəhl və höcət aparmaq üçün elm öyrənirlər. Bir dəstəsi də elmi hiylə və məkrli işlər üçün öyrənirlər. Bir dəstəsi isə fiqh və əql üçün öyrənirlər.**”[5]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Hər kəs Allah xatirinə bir elmi məsələ öyrənsə, camaat arasında təvazökarlığı, Allah qarşısında xofu, dində ciddiyyəti artar. Elmindən faydalanan belə şəxs gərək elm öyrənsin. Hər kəs elmi dünya (məqamı, şan-**

---

[1] “Biharul-ənvar”, 2-ci cild, səh.37
[2] “Kafi”, 1-ci cild, səh.46
[3] “Kafi”, 1-ci cild, səh.47
[4] “Kafi”, 1-ci cild, səh.46
[5] “Biəharul-ənvar”, 2-ci cild, səh.46

**şöhrəti və s.) əldə etmək, camaat yanında hörmət qazanmaq və sultanın yanına get-gəl etmək üçün öyrənsə, elmdən hər bir məsələ öyrəndikcə camaat arasında təkəbbürü, Allah qarşısında qüruru və dində zülm və cəfası artar. Öz elmindən (düzgün istiqamətdə) faydalana bilməyən belə şəxs gərək (elm öyrənməkdən) dayansın. Qiyamət günü öz əleyhinə olacaq dəlildən, peşmançılıq və xarlıqdan özünü saxlasın.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Hər kəs özünü camaata imam (rəhbər) bilsə, gərək başqalarını öyrətməkdən öncə öz nəfsini öyrətsin. Onun özünü ədəbləndirməsi başqalarını ədəbləndirməsindən qabaq olmalıdır. Nəfsinin müəllimi (elm öyrədəni) və ədəbləndirəni başqalarına müəllimlik edib ədəbləndirməkdən daha artıq təqdirəlayiqdir.”**[2]

Allah-təala buyurur: **“Ey iman gətirənlər! Nə üçün (əməl) etməyəcəyiniz şeyləri deyirsiniz?! Etməyəcəyiniz şeyləri demək Allah yanında böyük günahdır.”**[3]

Yenə buyurur: **“Camaatı yaxşılığa əmr (də’vət) edir, özünüzü isə yaddan çıxarırsınız?! Halbuki, siz Kitab oxuyursunuz. Əqlinizi işə salmırsınızmı?!”**[4]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Alimlərdən bə’zisi vardır ki, elmi (yalnız) yığıb toplamaq istəyir, amma onun yayılmasını istəmir. Bunlar cəhənnəmin birinci təbəqəsindədirlər. Bə’ziləri də moizə edərkən ciddiyyət göstərirlər, amma başqaları ona moizə etmək istəyəndə qəzəblənirlər. Bunlar cəhənnəmin ikinci təbəqəsindədirlər. Onlardan bə’ziləri də elmini sərvətlilərin, ə’yan-əşrafın ixtiyarına vermək istəyir və onu miskinlərə vermək istəmirlər. Bunlar da cəhənnəmin üçüncü təbəqəsindədirlər. Bə’zi alimlər də öz elmində zalımların, sultanların yolunu getmək istəyirlər. Əgər onun sözünə cavab qaytarılsa, yaxud əmrindən bir şeydə təqsirə yol verilsə qəzəblənərlər. Bunlar cəhənnəmin dördüncü təbəqəsindədirlər. Bə’zi alimlər isə yəhudi və məsihi hədislərini öyrənirlər ki, öz**

---

[1] “Biharul-ənvar”, 2-ci cild, səh.34
[2] “Biharul-ənvar”, 2-ci cild, səh.56
[3] “Səff” surəsi, ayə:2
[4] “Bəqərə” surəsi, ayə: 44

**elmlərini və hədislərini çoxaltsınlar. Bunlar cəhənnəmin beşinci təbəqəsindədirlər. Bə’zi alimlər də “məndən soruşun!” deyirlər. Bəlkə də dediyi sözlərindən bir kəlmə belə düz çıxmır. Allaha and olsun ki, onlar mükəlləfləri sevmirlər. Bunlar da cəhənnəmin altıncı təbəqəsindədirlər. Alimlərdən bə’ziləri də elmini mürüvvət və əql üçün yığırlar. Bunlar da cəhənnəmin yeddinci təbəqəsindədirlər.”**[1]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: “**Mənim belimi iki nəfər sındırmışdır: 1.Fasiq alim. 2.Cahil abid. Birincisi dili ilə öz günahlarının üstünü örtür, ikincisi isə öz ibadəti ilə cahilliyini ört-basdır edir. Fasiq alimlərdən və cahil abidlərdən uzaq olun! Çünki hər bir fitnənin səbəbkarı bunlardır. Mən Peyğəmbəri-Əkrəmin (s.ə.v.v) belə buyurduğunu eşitdim: “Ya Əli! Ümmətimin həlak olması münafiq, əməlsiz və dildə alim olan şəxsin əliilədir.”**[2]

O Həzrət (ə) yenə buyurur: **“Cəhənnəmdə bir dəyirman daşı vardır. Bilirsinizmi o nəyi üyüdür?”** Dedilər: “Ey Əmirəl-mö’minin, nəyi?” Buyurdu: **“Facir (günah və fisq-fücur əhli olan) alimlər, fasiq qarilər, zalım hakimlər, xain vəzirlər, yalançı ariflər. Cəhənnəmdə bir şəhər vardır ki, ona “Həsinə” deyilir. Soruşmursunuzmu ki, orada kimlər vardır?”** Dedilər: “Kimlər vardır, ey Əmirəl-mö’minin?” **Buyurdu: “Əhd-peyman pozanlar!”**[3]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Agah olun! Şər adamların ən şəri şər alimlərdir, xeyirlilərin də (yaxşı insanların da) ən xeyirlisi yaxşı alimlərdir.”**[4]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Alimin qəlbində səfehlik və qürur olmaz!”**[5]

Gördüyünüz kimi, bu hədislərdə bir neçə mühüm mətləbə işarə olunmuşdur. O cümlədən:

1.Hər kəs öz elminə uyğun əməl etməsə İmamların (ə) dilincə, ümumiyyətlə alim sayılmır və alimlər cərgəsində yaşasa da, camaat da

---

[1] “Biharul-ənvar”, 2-ci cild, səh.108
[2] “Biharul-ənvar”, 2-ci cild, səh.107
[3] “Biharul-ənvar”, 2-ci cild, səh.107
[4] “Biharul-ənvar”, 2-ci cild, səh.110
[5] “Kafi”, 1-ci cild, səh.36

onu alim hesab etsə də Qur’anda və hədislərdə tə’riflənən alimlər cərgəsində olmur.

2.Öz elminə əməl etməyən hər bir alim cəhənnəmdə ilahi əzaba düçar olacaq.

3.Elminə uyğun əməl etməyən alim eynilə cahil kimidir, hətta alim olduğu halda elminə əməl etmədiyindən daha artıq məs’uliyyət daşıyır və qiyamətdə ondan ən şiddətli şəkildə hesab alınacaqdır.

4.Fasiq və elminə əməl etməyən alimin əzabı cəhənnəmdə olan sair şəxslərdən daha artıqdır, hətta cəhənnəm əhli onun üfunətli iyindən əzabda, narahatlıqda olarlar.

5.Hər kəs dini elmləri dünyəvi məqsədlər xatirinə öyrənsə, qiyamətdə bu elmdən heç bir bəhrəsi olmayacaq.

6.Hər kəs bu məqsədlə elm öyrənsə ki, başqa alimlərə özünün elm və biliyi ilə öyünsün, yaxud səfehlərlə mübahisə etsin, yaxud elm vasitəsilə camaatı özünə doğru cəlb etsin, onun yeri cəhənnəm olacaq.

7.Hər kəs din alimi olmaq, dini mənsəblərdən birini qəbul etmək və camaatın rəhbəri olmaq istəyirsə, əvvəlcə özünü islah edib nəfsini, ruhunu rəzil xislətlərdən saflaşdırmalı, özünün əxlaq, rəftar və danışığını islama uyğun etməli, əməl vasitəsilə camaatı dinə də’vət etməlidir.

8.Sair dünya əhli kimi dünyaya, dünya malına vurğun olan alimlər haqq yolunu kəsənlərdir ki, özlərinin batil əməlləri, yaramaz əxlaq və danışıqları ilə camaatı Allah məhəbbətindən uzaqlaşdırırlar. Onlar dünyanın puç və ötəri gözəlliklərinə ürək bağlamışlar. İnsanlar özlərini alimə oxşadan bu cür şəxslərə aldanmamalıdır.

9.Əməlsiz elmin nəinki qiyamətdə insan üçün heç bir faydası yoxdur, üstəlik insanın həsrət və peşmançılığına da səbəb olur.

10.Alimlərin günahı cahillərin günahından çox gec bağışlanacaqdır. Alimdən bir günah bağışlanana qədər cahilin yetmiş günahı bağışlanacaqdır.

11.Elmini özündə saxlayıb başqalarının ixtiyarına qoymayan alim cəhənnəm əzabına düçar olacaqdır.

12.Camaata çox ciddi şəkildə moizə edən, lakin başqaları ona moizə etdikdə narahat olub kobudluq göstərən alim cəhənnəmə gedəcək.

13.Öz elmini ə’yan-əşrafların, sərvətlilərin ixtiyarında qoyan, lakin miskinlərin, kasıbların hidayət olunmasına heç bir nəzər yetirməyən alim cəhənnəmdə əzaba düçar olacaq.

14.Camaatla zalımlar və sultanlar kimi rəftar edən, onların sözündən çıxdıqda, yaxud səhlənkarlıq etdikdə əsəbləşən, onlarla qəzəblə rəftar edən alim cəhənnəmə daxil olacaq.

15.Elmi qüdrəti olmadığı halda fətva verməkdən ötrü özünün səlahiyyəti olduğunu hesab edən, elmindən artıq iddialar edən, camaatın cavabını zorla verən alim cəhənnəmdə əzaba düçar olacaq.

16.Fasiq alimlərin zərər və təhlükələri o qədər çoxdur ki, Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Fasiq alim mənim belimi sındırmışdır, çünki dili ilə özünü alim kimi göstərir, batini fasiqliyini gizlədir və camaatı aldadır, haqqı nahaq, nahaqı isə haqq kimi cilvələndirir."**

17.Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Mənim ümmətim, fasiq alimlərin vasitəsilə həlak olar."**

Bu hədisləri qeyd etməkdə bunu çatdırmaq istəyirik ki, izlədiyimiz məsələdə elm əhlinin sair insanlarla fərqi yoxdur. Əksinə, onların daha artıq məs'uliyyətləri vardır. Əgər camaatdan nəfsin aludəliklərdən paklanması, saleh əməl görülməsi istənilibsə, elə bizdən də həmişə istənilmişdir. Əgər günahkarlıq, çirkin əməllər həlakətə, axirətdə bədbəxtçiliyə səbəb olursa, bu məsələdə alimlə qeyri-alim arasında heç bir fərq yoxdur. "İman və saleh əməl səadət, kamal və Allah dərgahına yaxınlaşmağın yeganə vasitəsidir" - deyilirsə, bu müddəa alimlər barəsində də zəruridir. Belə ki, camaatın bə'ziləri behiştə, bə'ziləri də cəhənnəmə getdiyi kimi, alimlərin də bə'ziləri cəhənnəmdə əzaba düçar olacaqlar. Deməli, əgər təzkiyə etmədən, nəfsi aludəliklərdən təmizləmədən, özümüzdə əxlaqi keyfiyyətləri icad etmədən, saleh əməl görmədən Allah dərgahına yaxınlaşmaq, behiştin yüksək dərəcələrində olmaq istəyiriksə, bu böyük bir səhvdir və bununla məğrur oluruq. Elm təklikdə bizi cəhənnəm əzabından qurtarıb, Allah dərgahına yaxınlaşdıra bilməz. Hökmən əməl də etmək lazımdır.

## *BIZIM ƏN BÖYÜK ÇƏTINLIYIMIZ*

Bizim ən böyük çətinliyimiz budur ki, təkcə elmi əsas kimi qəbul edir, onu öyrənməyi də əməl hesab edirik. Din alimi olduğumuzdan, işimiz dini işlərlə məşğuliyyətdən ibarət olduğundan hər bir müsbət şeyin özümüzdə təcəssüm etdiyini təsəvvür edirik. Nəfsin paklaşdırılmasından, aludəliklərdən təmizlənməsindən, yaxşı və pis əxlaqdan danışıb şərh etdiyimiz, əxlaq dərsi oxuduğumuz, yaxud dediyimiz, yaxud əxlaqi kitab yazdığımız üçün özümüzü hər bir

şeydən uzaq, pak və bütün gözəl əxlaqlara malik olan şəxs təsəvvür edirik. Yalan, qeybət, söz gəzdirmək, kobudluq, həsəd, bədəxasiyyət, zülm, və'dəyə xilaf çıxmaq, təkəbbür, özünü istəmək, həvayi-nəfsə pərəstiş etmək və sair kimi çirkin sifətləri məzəmmət etdiyimizdən özümüzü onlardan pak-pakizə hesab edirik. İrfan dərsi oxuduğumuzdan və ya dediyimizdən, nəfsani seyri-süluk məqamlarını şərh etdiyimizdən, «riza», «təvəkkül», «zikr», «üns», «kəşf», «şühud», «fəna» məqamlarından danışdığımızdan, «cəbərut», «mələkut», «nasut» və s. kimi sözləri dilimizə gətirdiyimizdən, ariflərin tərcümeyi-halını xatırlatdığımızdan özümüzü ariflərdən, təkamül yolçularından bilir, özümüzü irfani məfhumlarla məşğul edir və bu məşğuliyyəti də özümüz üçün "irfani əməl" hesab edirik. Minbərlərdə, xütbələrdə, çıxışlarda camaata öyüd-nəsihət verir, onları gözəl əxlaqa, saleh əmələ də'vət edirik, günaha mürtəkib olmaqdan, çirkin əxlaqdan çəkindirik və fikirləşirik ki, öyüd-nəsihət vermək, çıxış etməklə özümüzü salehlərin cərgəsində, təqvalılarla bir yerdə qərar vermişik.

Fiqh və üsul oxumaqla, ilahi hökmləri çıxartmaqla, müqəllidlərin vəzifəsini müəyyən etməklə, risalələrə haşiyə yazmaqla, insanların mal-dövlətinin xumsunu alıb onları tələbələrin və şagirdlərin arasında bölüşdürməklə məşğuluq, amma özümüzü, nəfsimizi aludəliklərdən təmizləməyin, insani keyfiyyətlərə sahib olmağın, nəfsimizi təkmilləşdirməyin, şəxsi vəzifə və təklifləri yerinə yetirməyimizin zərurətindən ümumiyyətlə qafil ola bilərik. Biz müqəllidlərin vəzifəsini müəyyən edirik, lakin həvayi-nəfsin, məqam sevməyin əlində o qədər əsirik ki, gecə-gündüz məşğuliyyətlərimizdə özümüzü Allah dərgahına doğru seyri-sulukda ən yaxşı adam hesab edirik, şəxsi vəzifəni tanımaq, ona əməl etmək heç vaxt bizim beynimizdən keçmir.

Bu halda başqalarının bizə məhəbbət göstərməsi, əlimizi öpməsi, təbərrük etməsi, iltimasi-dua deməsi, şəfaət intizarında olması, nəzir-niyazları və s. bizi çox vaxt ruhumuzun, nəfsimizin təkmilləşdirilməsindən, aludəliklərdən paklanmasından qafil saxlaya bilər.

Bir daha təkrar edirəm: Bizim əsas çətinliyimiz budur ki, elmi əməl yerinə qəbul edirik. Halbuki, elm əməldən tamamilə fərqli bir şeydir. Elm təklikdə bizi qurtuluşa çatdıra bilməz. Bunun üçün əməl də lazımdır. Əməlsiz alimin məsəli bir xəstəyə oxşayır ki, həkimin elmindən tamamilə agah olsun, xəstəlikləri yaxşı tanısın, dərmanların xasiyyətlərini, xəstəliyin qarşısını alınması və müalicəsi yollarını bilsin, tibb elmini tələbələr üçün tədris etsin, kitab yazsın, xəstələrlə görüşsün, nüsxə yazsın, lakin öz xəstəliyindən tamamilə qafil olsun və

onu müalicə etmək fikrinə düşməsin. Aydındır ki, belə bir həkimin taleyi öz xəstəliyinin şiddətlənməsindən, nəhayətdə ölümlə nəticələnməsindən başqa bir şey olmayacaqdır.

Hətta on minlərlə xəstəni müalicə etsə, yüzlərlə tələbə yetirsə, onlarla kitab yazsa belə, bunların heç biri onun xəstəliyinin şiddətlənməsinin, əcəlinin tez çatmasının qarşısını ala bilməz.

Bizim kimi elm əhlinin vəziyyəti də eynilə bu cürdür; əgər yüzlərlə, minlərlə dini çıxış etsək, əxlaq dərsi desək, yüzlərlə tələbə bizim fiqh, üsul, fəlsəfə, irfan, təfsir, əxlaq dərslərimizdən faydalansa, minlərlə nəfər bizim risaləmizdən istifadə etsə, amma əməl əhli olmasaq və nəfsimizin təzkiyə olunmasına fikir verməsək, axirətdə heç vaxt əbədi səadətə nail olmayacağıq.

Əlbəttə, elm əhli əməl də edərsə, elm öyrənməsi və elm öyrətməsi qürbət qəsdi ilə olarsa, çox yüksək məqama, mövqeyə malik olar və Allah yanında yüksək dəyərləndirilər.

Deməli, əgər dediyimizə imanımız olsa, doğrudan da səadət və kamal axtarmış olsaq, gərək öz nəfsimizə müraciət edək, əmanətdar bir mütəxəssis, insaflı bir qazi kimi nəfsani sifətlərimizi, əməl və danışıqlarımızı araşdırıb təhlil edək. Əgər şəriət göstərişlərinə tam mə’nada uyğun olarsa, bu böyük ilahi lütfün qədrini bilək, öz yolumuzu davam etdirək. Amma əgər nəfsani sifətlərimiz, əməl və rəftarlarımız islam me’yarlarına uyğun olmazsa, onu islah etmək qərarına gələk, malik olduğumuz elmdən istifadə etməklə öz nəfsimizi aludəliklərdən təmizləyərək, onu kamala doğru aparaq. Əvvəlcə özümüzü islah etməli, sonra camaatı hidayət etməklə məşğul olmalıyıq. Oxumağımız, danışığımız, yazmağımız, təfəkkürümüz, mütaliələrimizin hamısını cah-cəlal, məqam və s. kimi dünya işlərinə çatmaq üçün deyil, yalnız əməl üçün bir müqəddimə kimi nəfsin kamala yetməsi yolunda qərar verməliyik.

İndi həm öz nəfsimə, həm də elm qardaşlarımın nəfsinə xitab edərək soruşuram:

İndiyə qədər nəfsimizi aludəliklərdən təmizləmək fikrində olmuşuqmu? Bəhsimiz, dərsimiz, danışığımız, yazımız və s. dini işlərimizi xalis şəkildə Allah üçün yerinə yetiririkmi? Öz nəfsimizə hakim kəsilmişikmi, yoxsa o bizə hakimdir? Nəfsimizi rəzil əxlaqlardan təmizləmişikmi? Nəfsimizi yalan demək, fəsad törətmək, təkəbbür, qəzəb, kobudluq, paxıllıq, özünü böyük görmək, xudbinlik, dünyaya, mal-dövlətə məhəbbət, qürur, hiylə, məkr, riya, nifaq, kin-küdurət və s. kimi çirkin əxlaqlardan

təmizləmişikmi? İslami ədalətə və ayrı-ayrı fərdlərin hüquqlarına kamil surətdə riayət edirikmi? Beytül-malın və İmamın (ə) səhminin sərf olunmasında islami ədaləti və bərabərliyi nəzərə alırıqmı? Əgər bir mənsəb və məqama çatdıqsa, o məqamdan özümüzün, qohum-əqrəbamızın və dostlarımızın xeyrinə sui-istifadə etmirikmi? İslami ədalət barədə Peyğəmbəri-Əkrəmin (s.ə.v.v), İmamların (ə), Əmirəl-mö'minin Əliyyibni Əbitalibin (ə) sadə həyatından danışdığımız halda bizim həyatımız onların həyatına oxşayırmı? İndiyə qədər namazımızı hüzuri-qəlblə qılmaq fikrinə düşmüşükmü? Gecə oyaq qalıb gecə namazını və nafilələri vaxtlı-vaxtında yerinə yetirirkmi? Zikr və duaya məhəbbət bəsləyirikmi? Zikr, dua və namaz halında Allaha diqqət yetiririkmi? Ailə, qohum-əqrəba və qonşularla islami normalar əsasında rəftar edirikmi? Yaxşılıq və ədalətə riayət edirikmi? Miskinlərin, yoxsulların, biçarələrin həyatına lazımınca diqqət yetiririkmi? Öz həyatımızda mövcud olan şeylərdən bir qismini azaldıb onlara kömək etməyə hazırıqmı, yoxsa camaatı təkcə dildə ehsana, yaxşılığa də'vət edirik? Əgər bir kəs bizə öyüd-nəsihət versə incimədən onun xəbərdarlıqlarına qulaq asmağa razıyıqmı? Düzgün olduğu təqdirdə qəbul edərikmi, yoxsa narahat olur və çox kobudluqla özümüzü müdafiə etmək məqamına gəlirik? Hətta özümüzün və qohum-əqrəbamızın əleyhinə tamam olsa belə haqqı qəbul edirikmi?! Ümumiyyətlə, görəsən oxuduqlarımıza, bildiklərimizə, dediklərimizə və yazdıqlarımıza əməl edirikmi? Əgər cavab müsbət olsa, ayə və hədislərdə bu qədər tə'riflənən rəbbani alimlərdənsiniz. Onlar peyğəmbərlərin əmanətdarları, vərəsələridir. Allah-təala onların barəsində buyurur: **"Allah, sizlərdən iman gətirən və elm əta olunanların dərəcələrini yüksəldər."**[1]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **"Bir fəqih İblisə qarşı min abiddən də kəskindir (güclüdür)."**[2]

Yenə buyurur: **"Allah bir kəsə xeyir (vermək) istəsə, onu dində fəqih edər."**[3]

Əmirəl-mö'minin Əliyyibni Əbitalib (ə) buyurur: **"Elk**

---

[1] "Mücadilə" surəsi, ayə: 11
[2] "Biharul-ənvar", 1-ci cild, səh.177
[3] "Biharul-ənvar", 1-ci cild, səh.177

**öyrənmək məqamında olan kimsə Allah yolunda cihad edən şəxs kimidir.”**[1]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Hər kəs Allahın cəhənnəm odundan azad etdiyi şəxslərə baxmaq istəyirsə, onda elm öyrənənlərə baxsın. Canım əlində olan Allaha and olsun ki, (elm öyrənmək üçün) alimin qapısına gedən elə bir şagird yoxdur ki, Allah taala onun atdığı hər bir qədəminə bir illik ibadət yazmasın, atdığı hər qədəm müqabilində cənnətdə onun üçün bir şəhər tikməsin. O, yer üzərində gedəndə yer onun üçün bağışlanmaq (istiğfar) tələb edir, günahları bağışlanmış halda gecə-gündüzə çıxır (yaşayır), Allahın mələkləri şəhadət verirlər ki, onlar Allahın cəhənnəm odundan azad etdikləridir.”**[2]

Yenə buyurur: **“Hər kəsin əcəli, islamı dirçəltmək üçün elm axtaran halda gəlib çatsa, cənnətdə onunla peyğəmbərlərin arasında (yalnız) bir dərəcə fasilə olar.”**[3]

O Həzrət (s.ə.v.v.) başqa bir hədisdə buyurur: **“Üç dəstə adam var ki, qiyamətdə Allah dərgahında şəfaət edərlər, şəfaətləri də qəbul olunar: Peyğəmbərlər, onlardan sonra alimlər, onlardan sonra da şəhidlər.”**[4]

İmam Cə’fər Sadiq (ə) buyurur: **“Qiyamət günü olanda Allah taala bütün insanları bir dərəcədə qərar verər. Mizanlar bərqərar edilər və şəhidlərin qanı alimlərin qələmi ilə ölçülər, alimlərin qələmi şəhidlərin qanından ağır gələr.”**[5]

Əmirəl-mö’minin Əliyyibni Əbitalib (ə) buyurur: **“Mö’min alim əcr və savab baxımından Allah yolunda cihad edib gecələr ibadət üçün oyaq qalan, gündüzlər isə ibadət edən şəxsdən daha əzəmətlidir. (Alim) öləndə, islama elə bir xəsarət dəyər ki, qiyamət gününə qədər onu bərpa edəcək bir şey olmaz.”**[6]

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) buyurur: **“Allah mənim xəlifələrimə rəhmət eləsin!”** Soruşdular: “Ey Rəsuləllah, sənin xəlifələrin kimlərdir?” Buyurdu: **“O kəslərdir ki, mənim sünnəmi**

[1] “Biharul-ənvar”, 1-ci cild, səh.179
[2] “Biharul-ənvar”, 1-ci cild, səh.184
[3] “Biharul-ənvar”, 1-ci cild, səh.184
[4] “Biharul-ənvar”, 1-ci cild, səh.15
[5] “Biharul-ənvar”, 1-ci cild, səh.14
[6] “Biharul-ənvar”, 1-ci cild, səh.17

**dirildər və onu Allah bəndələrinə öyrədər.”**[1]

Amma əgər cavab mənfidirsə, öz nəfsimizi islah etmək məqamına gəlməliyik. Bu həqiqətin ayırd edilməsi də çox çətindir, çünki nəfsi-əmmarə yüzlərlə hiylə və məkrlə bizi aldadır, həqiqəti dərk etməyin qarşısını alır. O, bizi dərsə, bəhsə, çıxışlara, kitab yazmağa, camaata yaxşı işləri tövsiyə etməyə o qədər məşğul edə bilər ki, əsas məsələdən – nəfsimizi tərbiyə etməkdən tamamilə qafil ola bilərik. Nəfs elmi bizim üçün əməlin əvəzi kimi qələmə verərək bizə belə təlqin edə bilər: “Sən alimsən və dinə xidmət edirsən, artıq sənin bütün günahların bağışlanıb, saleh əmələ çox da ehtiyacın yoxdur!”

Bə’zən də belə təlqin edə bilər: “Siz hüccətül-islamsınız, güclü xətib və möhtərəm vaizsiniz, əziz ustadsınız, möhtərəm imam-cüməsiniz, dərin elmə malik olan alimsiniz, fəqih və müctəhidsiniz. Sizin islama və müsəlmanlara etdiyiniz xidmətlərin sayı-hesabı yoxdur. Sizin yol göstərməniz sayəsində insanlar behiştə gedirlər, cəhənnəm odundan xilas olurlar, camaatın sizə həddindən artıq hörməti, şəfaətinizə ümidləri vardır. Siz Əhli-beytin (ə) məddahı, mərsiyəxanısınız, belə isə, əgər günahkar da olsanız, bağışlanacaqsınız, sizin yeriniz behiştin ən yüksək dərəcələrindədir! Məgər imam Hüseyn (ə) razı olarmı ki, onun mərsiyə oxuyanı cəhənnəmə getsin?!”

Nəfsi-əmmarə və şeytan bu kimi təşviqlərlə bizi aldadır, nəfsimizi paklamaqdan, saleh və yaxşı işlər görməkdən saxlayır. Lakin ayıq olmaq lazımdır ki, nəfsin bu yalançı və’dələri ilə qəti şəkildə mübarizə aparaq. Bunun üçün:

**Əvvəla,** öz niyyətimizi dəqiq şəkildə araşdırıb təhlil etməliyik, dini xidmətləri və elmi işləri Allahın razılığına görə etməyimizi, yoxsa şan-şöhrət qazanmaq, camaatın diqqətini və rəğbətini qazanmaq, öz məişət və dolanacağımızı tə’min etmək üçün etdiyimizi bilək. Əgər dünyəvi məqsədlərə çatmaq məqsədi daşıyırsa, axirətimiz üçün heç bir faydası olmayacaqdır. Əbəs yerə onunla öyünməməli, qürur hissi keçirməməliyik. Amma əgər ixlas qəsdimiz olsa, bunların özü ən yaxşı ibadətlərdən olmasına və bizi təkamül və əbədi səadət yolunda qərar verə bilməsinə baxmayaraq, sair ibadətlərin yerini verməz və nəfsin saflaşdırılımasının zərurətini aradan aparmaz.

**İkincisi,** buna diqqət yetirək ki, camaatın bizə məhəbbət

---

[1] “Biharul-ənvar”, 1-ci cild, səh.25

göstərməsi, bizim barəmizdə nikbin olması, “hörmətli alim”, “höccətül-islam” və s. kimi ləqəblərlə çağırmaları bizim axirətdəki səadətimizdə, kamala çatmağımızda heç bir rol oynamır. Təkcə elmi məqamda olmağımız kifayət etmir, həm də əxlaq və əməllərimizlə bu məqamları kəsb etməliyik.

**Üçüncüsü,** bu məsələyə diqqət yetirməliyik ki, dərslərin, çıxışların, yazıların, minbərlərin, məddahlıqların, mərsiyə oxumaqların və s. nəticəsində yüz minlərlə adamın düz yola hidayət olunması, kamal və səadətə çatması mümkündür. Amma onların kamala yetib səadətə çatıb xoşbəxt olması bizim nicat və qurtuluşumuzu zəruri etmir. Biz onlara demişik, onlar da əməl edərək kamala çatmışlar. Əgər özümüz əməl əhli olmasaq, onların hidayət olunub kamala çatmaları bizim üçün heç bir fayda gətirməyəcəkdir. Qiyamət səhnəsində camaatın bizim sözlərimizdən istifadə edərək ona əməl etmək sayəsində yüksək mə’nəvi məqamlara çatdıqlarını, özümüzün isə belə məqamlardan məhrum olduğumuzu görsək, həsrət, peşmançılıq və xəcalətdə olarıq.

Əlbəttə, bunu da inkar etmirik ki, elmi xidmətlər və məşğuliyyətlər, camaatı düzgün yola hidayət edib onlara yol göstərmək ən yaxşı ibadətlərdən hesab olunur; qürbət qəsdi ilə yerinə yetirilərsə, ilahi dərgaha doğru yaxınlıq və mə’nəvi təkamülə səbəb ola bilər. Lakin nə günahlara və əxlaqi rəzilliklərə bir dərman, nə də ki, ilahi təklif və vəzifələrin götürülməsinə səbəb olacaqdır.

Deməli, elm əhli də başqaları kimi, həlakətdən xilas olmaq, əbədi səadətə və kamala çatmaq üçün təqvaya, nəfsin saflaşdırılmasına, ibadətdə ciddiyyətə, saleh əmələ ehtiyacı vardır. Lakin bizim ən böyük qürurumuz elmi qürur və bəhanə gətirmək qüdrətinə sahib olmağımızdır. İnsanın qəflət yuxusundan ayılmasına, Allah dərgahında xof və xəşyətə səbəb olmasına, insanın daha ciddiyyətlə əməl etməsinə səbəb olacaq elm çox təəssüflə, bə’zən qürura, cəhalətə səbəb olur, üzr və bəhanə gətirmək üçün bir vasitəyə çevrilir. Hər an bizi aldamaq üçün pusquda dayanan şeytan daha hiyləgər və məkrlidir. O, bizi aldatmaq üçün hətta dini və elmi mövqeyimizdən də istifadə edir. Behiştə doğru hidayət etmək üçün nəzərdə tutulan işlərdən istifadə edərək bizi cəhənnəmə göndərir.

Biz günahları və rəzil xüsusiyyətləri çox gözəl tanıyırıq, onların cəzasından, ağır-aqibətlərindən tamamilə agahıq. Lakin düzgün olmayan bəhanə gətirmək nəticəsində məğrur oluruq. Bizim də yalan danışmağımız, qeybət etməyimiz, töhmət vurmağımız, kiminsə abır-heysiyyətini aparmağımız, və’dəyə xilaf çıxmağımız, başqalarının hüquqlarını tapdalamağımız, ailə üzvlərimizə əzab-əziyyət verməyimiz, öz mövqeyimizi qorumaq üçün beytül-maldan ürəyimiz istəyən kimi istifadə etməyimiz, təkəbbürlü olmağımız, fərdi və ictimai vəzifələrimizi yerinə yetirməməyimiz, heç bir məs’uliyyət qəbul etmədən, islama xidmət göstərmədən ömrümüzün axırına qədər İmamın (ə) mübarək səhmindən istifadə etməyimiz və s. kimi işlər görməyimiz mümkündür. Bütün bunların hamısına elmi qüdrətdən bəhrələnməklə bəraət qazandıra və nəticədə özümüz üçün bu işləri caiz hesab edə bilərik ki, nəticədə öz vicdanımızı müvəqqəti olaraq qane edə bilərik. Amma bilməliyik ki, bu kimi üzr və bəhanələr, şeytanın və nəfsi-əmmarənin hiylə və məkrlərindəndir. Qiyamətdə öz çirkin əməllərimizin qarşısında cavab verməli olacağıq. Bu kimi bəhanələrlə vicdanımızı qane edə bilsək də, görəsən Qiyamətdə Allah-təalanın cavabını necə verə bilərik?!

İlahi, Pərvərdigara! Bizim hamımıza şeytanın və nəfsi-əmmarənin vəsvəsələrindən nicat ver! Təkamülün düzgün yolunu ötüb keçməkdə və ilahi dərgaha yaxınlaşmaqda bizə kömək ol!

Amin, Rəbbəl-aləmin!

Mündəricat

**BİR MÜHÜM MƏSƏLƏNİN XATIRLADILMASI** ........ 3
**PEYĞƏMBƏRLƏRİN ƏSAS HƏDƏFİ NƏFSİN SAFLAŞDIRILMASIDIR** ........ 4
**ÖZÜNÜTANIMA VƏ NƏFSİ SAFLAŞDIRMA** ........ 6
**İNSANİ RUH VƏ HEYVANİ NƏFS** ........ 8
**İNSANİ DƏYƏRLƏR** ........ 11
**BATİNİ HƏYAT** ........ 16
**ÖZÜMÜZDƏN NƏ DÜZƏLDİRİK?** ........ 21
**QUR'ANDA QƏLB** ........ 25
**QƏLBİN SAĞLAMLIĞI VƏ XƏSTƏLİYİ** ........ 28
**HƏDİSLƏRDƏ QƏLB** ........ 32
**QƏLBİN QƏSAVƏTİ (BƏRKİMƏSİ)** ........ 35
**QƏLB TƏBİBLƏRİ** ........ 37
**NƏFSİN SAFLAŞDIRILMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ** ........ 40
**BİRİNCİ BÖLMƏ** ........ 42
**NƏFSİN BOŞALDILMASI YAXUD SAFLAŞDIRILMASI** ........ 42
**NƏFSİN SAFLAŞDIRILMASI** ........ 42
**XƏSTƏLİKDƏN QAFİLLİK** ........ 43
**NƏFSİN XƏSTƏLİKLƏRİNİN AYIRD EDİLMƏSİ YOLLARI** ........ 44
**MÜALİCƏ ETMƏYƏ DAİR QƏRAR** ........ 54
**NƏFSİN NƏZARƏT ALTINDA SAXLANMASI VƏ QƏLƏBƏ** ........ 56
**NƏFS İLƏ CİHAD** ........ 59
**ƏN BÖYÜK CİHAD** ........ 60
**CİHAD VƏ ALLAHIN KÖMƏYİ** ........ 63

İNSAN ÖZÜNÜN TƏBİBİDİR........................ 65
NƏFSİN SAFLAŞDIRILMASININ MƏRHƏLƏLƏRİ ............................................... 66
NƏFSİN PAKLANMASINA KÖMƏK EDƏN İŞLƏR ............................................................. 73
ÖZÜNÜ İSTƏMƏK BÜTÜN FƏSADLARIN MƏNŞƏYİDİR ...................................................... 80
DÜNYAYA MƏFTUN OLMAQ BÜTÜN GÜNAHLARIN MƏNŞƏYİDİR....................... 83
DÜNYA NƏDİR?............................................... 84
DÜNYANIN HƏQİQƏT VƏ MAHİYYƏTİ.. 87
AXİRƏT ƏHLİ ........................................................ 89
DÜNYA ƏHLİ........................................................ 91
DÜNYA ƏHLİ VƏ AXİRƏT ƏHLİ ................. 93
TƏQVA – TƏZKİYƏNİN MÜHÜM AMİLİDİR ........................................................... 94
TƏQVA ŞƏRİƏT HÖKMLƏRİNİN QOYULMASINDA HƏDƏFDİR...................... 96
TƏQVANIN TƏ’RİFİ......................................... 98
TƏQVA VƏ GUŞƏNİŞİNLİK ....................... 100
TƏQVA VƏ BƏSİRƏT ................................... 100
TƏQVA VƏ ÇƏTİNLİKLƏRƏ QƏLƏBƏ ... 103
TƏQVA VƏ AZADLIQ ................................... 105
TƏQVA VƏ RUHİ XƏSTƏLİKLƏRİN MÜALİCƏSİ ........................................................ 106
MÜTTƏQİLƏRİN (TƏQVA SAHİBLƏRİ) XÜSUSİYYƏTLƏRİ.......................................... 107
NƏFSİN SAFLAŞDIRILMASI VƏ NƏZARƏT ALTINA ALINMASINDA MÜRAQİBƏT MÜHÜM AMİLDİR ......................................... 111

**ƏMƏLLƏRİN QEYDƏ ALINMASI............. 111**
**QİYAMƏTDƏ HESAB.................................... 112**
**QİYAMƏT GƏLMƏMİŞ HESABLARIMIZA YETİŞƏK!.......................................................... 114**
**HESABIMIZI NECƏ ÇƏKƏK? ...................... 117**
**TÖVBƏ, YAXUD NƏFSİN PAKLAŞDIRILMASI ....................................... 125**
**TÖVBƏNİN VACİBLİYİ ................................ 126**
**TÖVBƏNİN QƏBUL OLUNMASI ............... 128**
**TÖVBƏ NƏDİR?............................................ 130**
**NƏDƏN TÖVBƏ ETMƏLİYİK?.................... 131**
**İKİNCİ HİSSƏ ................................................ 134**
**TƏHLİYƏ, YAXUD NƏFSİN PƏRVƏRİŞ OLUNMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ134**
**TƏHLİYƏ, YAXUD NƏFSİN PƏRVƏRİŞ VERİLİB TƏKMİLLƏŞDİRİLMƏSİ ............ 134**
**ALLAH DƏRGAHINA YAXINLIQ ............. 134**
**ALLAH DƏRGAHINA YAXIN OLMAĞIN MƏ’NASI ...................................................... 136**
**İMAN NƏFSANİ KAMALLARIN ƏSASIDIR ..................................................................... 138**
**ALLAH DƏRGAHINA YAXINLAŞMAĞIN VƏ TƏKAMÜLÜN SƏBƏBLƏRİ .................. 140**
**BİRİNCİ - ALLAHI YAD ETMƏK ................ 140**
**ZİKR DEDİKDƏ MƏQSƏD NƏDİR? ......... 143**
**ZİKRİN MƏRTƏBƏLƏRİ .............................. 146**
**ZİKRİN VƏ MƏ’NƏVİ GÖRÜŞÜN ƏLAMƏTLƏRİ ................................................ 152**
**ALLAHA YAXINLAŞMAĞA NAİL OLMAĞIN YOLLARI ..................................... 158**

ƏMƏLİ GÖSTƏRİŞLƏR .................................. 163
ƏMİRƏL-MÖ’MİNİN ƏLİYYİBNİ ƏBİTALİBİN (Ə) GÖSTƏRİŞİ ........................ 166
İMAM CƏ’FƏR SADİQİN (Ə) GÖSTƏRİŞİ ........................................................................ 168
MƏRHUM ƏLLAMƏ MƏCLİSİNİN GÖSTƏRİŞİ ........................................................ 171
AXUND MOLLA HÜSEYNQULU HƏMƏDANİNİN MƏKTUBU ...................... 172
MİRZƏ CAVAD AĞA TƏBRİZİNİN GÖSTƏRİŞİ ........................................................ 174
ŞEYX NƏCMƏDDİNİN GÖSTƏRİŞLƏRİ . 175
YOLUN MANEƏLƏRİ ..................................... 178
BİRİNCİ MANEƏ ............................................ 178
QABİLİYYƏTİN OLMAMASI ........................ 178
İKİNCİ MANEƏ ............................................... 179
DÜNYƏVİ BAĞLILIQLAR ............................. 179
ÜÇÜNCÜ MANEƏ ........................................... 181
HƏVAYİ-NƏFSƏ TABE OLMAQ .................. 181
DÖRDÜNCÜ MANEƏ ..................................... 182
ÇOX YEMƏK ................................................... 182
BEŞİNCİ MANEƏ ............................................ 183
ZƏRURİ OLMAYAN SÖZLƏR DANIŞMAQ ........................................................................ 183
ALTINCI MANEƏ ............................................ 185
ÖZÜNÜ SEVMƏK ............................................ 185
YEDDİNCİ MANEƏ ......................................... 185
İRADƏNİN ZƏİFLİYİ ..................................... 185
İKİNCİ VASİTƏ ................................................ 186

ƏXLAQİ KEYFİYYƏTLƏRİN VƏ İNSANİ SƏCİYYƏLƏRİN ÇİÇƏKLƏNDİRİLMƏSİ 186
ÜÇÜNCÜ VASİTƏ .......................................... 188
SALEH ƏMƏL .................................................. 188
İXLAS............................................................... 190
SALEH ƏMƏLLƏRDƏN BƏ'ZİLƏRİ .......... 194
1. VACİB NAMAZLAR.................................... 195
NAMAZDA HÜZURİ-QƏLB ......................... 196
HÜZURİ-QƏLBİN MƏRHƏLƏLƏRİ........... 199
HÜZURİ-QƏLBİN ƏMƏLƏ GƏLMƏSİNDƏ MÜHÜM TƏ'SİREDİCİ AMİLLƏR.............. 200
2. NAFİLƏ NAMAZLARI................................ 205
3. GECƏ NAMAZI ........................................... 207
GECƏ NAMAZININ QILINMA QAYDASI209
DÖRDÜNCÜ VASİTƏ .................................... 209
CİHAD VƏ ŞƏHADƏT................................... 209
BEŞİNCİ VASİTƏ............................................ 212
İNSANLARA YAXŞILIQ EDİB ONLARA ƏL TUTMAQ........................................................ 212
ALTINCI VASİTƏ ........................................... 214
DUA ................................................................. 214
YEDDİNCİ VASİTƏ ........................................ 217
ORUC............................................................... 217
ORUCUN RUHUN SAFLAŞDIRILMASINDAKI ROL ................ 220
RUHANİ QARDAŞLARA BİR NEÇƏ TÖVSİYƏ......................................................... 225
BİZİM ƏN BÖYÜK ÇƏTİNLİYİMİZ........... 232